ISBN 995221049-1
9 789952 210491

**Səid Nəfisi**



# BABƏK

Bərpanəşr

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası

Səid Nəfisi

# BABƏK

АЗӘРБАЈҸАН ССР ЕЛМЛӘР АКАДЕМИЈАСЫ
ТАРИХ ИНСТИТУТУ

СӘИД НӘФИСИ

# АЗӘРБАЈҸАН ГӘҺРӘМАНЫ БАБӘК ХҮРРӘМДИН

АЗӘРБАЈҸАН ССР ЕЛМЛӘР АКАДЕМИЈАСЫ НӘШРИЈЈАТЫ
Бакы - 1960

Bərpa nəşr

*Buraxılışa məsul:* *V. Bəhmənli*
*Redaktor:* *Ə. Əsədzadə*
*Dizayn:* *N. Mahmudov*
*Kompüter səhifələyicisi:* *A. Allahverdiyev*
*Korrektor:* *S. Səmədova*

**Səid Nəfisi**

# Babək

**ISBN 995221050-7**

**Azərbaycan Respublikası**
Mədəniyyət və Turizm Nazirliyi

**M. F. Axundov adına**
**Azərbaycan Milli Kitabxanası**

"Xatun Plyus"
Bakı
2010

**Əsər çapa hazırlanarkən ilk nəşrin kitab göstəriciləri saxlanılmışdır**

## İNSTİTUTDAN

Azərbaycan xalqı əsrlər boyunca yadelli istilaçılara və yerli feodallara qarşı qəhrəmancasına mübarizə aparmış, öz azadlıq və istiqlaliyyəti uğrundakı döyüşlərdə misilsiz rəşadət göstərmiş və çoxlu qurbanlar vermişdir. Xalq və vətən azadlığı uğrunda gedən mübarizənin ən parlaq səhifələrindən birini VIII-IX əsrlərdə Azərbaycan xalqının ərəb işğalçılarına qarşı azadlıq hərəkatı təşkil edir.

VII əsrin ikinci yarısında ərəb istilaçıları Azərbaycanı işğal etdilər. Ərəblərin və yerli iri feodalların ikiqat zülmü istər kənd, istərsə də şəhər yoxsulları arasında getdikcə qüvvətlənməkdə olan narazılıq əhval-ruhiyyəsini daha da gücləndirirdi. Hələ VIII əsrin ortalarında və 90-cı illərində Azərbaycanın ayrı-ayrı yerlərində işğalçılar əleyhinə qalxan üsyanlar, nəhayət, böyük bir xalq hərəkatına çevrilərək öz miqyası və vüsəti ilə bütün xilafəti lərzəyə salmışdı.

Xalqı əsarətdə saxlayan istilaçıları və yerli feodalların zülmünü məhv etməyə doğru yönəldilən bu qüdrətli azadlıq hərəkatına rəhbərlik edən Azərbaycan xalqının ən cəngavər oğullarından biri, bütün çoşqun həyatını zəhmətkeş kütlələrin səadəti uğrunda mübarizəyə sərf edən və bu yolda qurban verən xalq sərkərdəsi Babək olmuşdu. Babəkin başçılıq etdiyi hərəkat sözün əsil mənasında kəndli azadlıq müharibəsi olub, Azərbaycan tarixinin ən şərəfli səhifələrindən birini təşkil edir.

Babəkin rəhbərliyi altında 816-837-ci illərdə Azərbaycanda alovlanan azadlıq hərəkatı hələ müasirlərinin, habelə orta əsrlərin bir sıra tarixçilərinin nəzər-diqqətini cəlb etmiş, onlardan bir çoxu bu şöhrətli xalq sərkərdəsi haqqında maraqlı xatirələr və təsvirlər, VIII əsrin sonları-IX əsrin əvvəllərində Azərbaycanda xürrəmilər adı ilə genişlənmiş olan xalq azadlıq hərəkatının tarixinə dair qiymətli məlumatlar vermişlər. Sonrakı dövrlərdə də Avropa, rus və Şərq müəllifləri Babək hərəkatı ilə maraqlanmış, Babək və onun rəhbərlik etdiyi hərəkat haqqında yazmışlar.

Əsarət altına alınmış xalqların ərəb xilafətinə qarşı azadlıq hərəkatı, o cümlədən Babək üsyanı sovet tarix elminin xüsusi tədqiqat obyekti olmuş, sovet alimlərindən A. Yakubovski, S. Tolstov, B. Zaxoder, Z. İbrahimov, Z Yampolski və başqaları müxtəlif həcmli əsərlərində ilk dəfə bu hərəkatın düzgün təhlilini vermişlər. Sovet tarix elmi marksist dünyagörüşünə əsaslanaraq, xürrəmilər hərəkatı və Babək üsyanını əsil xalq mübarizəsi, geniş xalq kütlələrinin əhval-ruhiyyəsini əks etdirən bir hərəkat kimi qiymətləndirmişdir.



Babək üsyanı və ümumiyyətlə xürrəmilər hərəkatı hələ də sovet və dünya tarix elmini məşğul edən məsələlərdəndir. Bir neçə il bundan əvvəl məşhur şərqşünas alim prof. Səid Nəfisi tərəfindən İranda çap edilən və Azərbaycan dilində tərcüməsi oxucularımıza təqdim edilən bu əsərin meydana gəlməsini də məhz xürrəmilər hərəkatının Şərq xalqları tarixində tutduğu görkəmli mövqe və bununla əlaqədar olaraq ona olan maraqla izah etmək lazımdır. Biz bu qısa müqəddimədə həmin əsərin təhlilini vermək fikrində deyilik. İnstitut hesab edir ki, əsərdəki bir sıra qüsur və nöqsanlara baxmayaraq, rəngarəng Şərq mənbələri üzərində xeyli tədqiqat aparan müəllif, bu mənbələrdən Babək hərəkatına aid məlumatları böyük həvəslə seçmiş, onları özünə məxsus şərhlərlə əsərə daxil etmişdir.

Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutu əmindir ki, İran alimi Səid Nəfisinin həmin əsərinin Azərbaycan dilində nəşri sosialist Vətənimizin xalqları ilə qonşu ölkələrin xalqları arasındakı mədəni əlaqələrin möhkəmləndirilməsi yolunda yeni bir vasitə olacaq, tənqidi nəzərlə istifadə olunması məsləhət görülən bu əsər isə Babək hərəkatı tarixinin öyrənilməsində faydalı bir vəsait rolunu oynayacaqdır.

**BABƏK XÜRRƏMİ**

Böyük şəxsiyyətlərin ata-analarının kim olduğunu və dudmanlarının mənşəyini bilməyə bir o qədər də ehtiyac yoxdur. Bizim vəzifəmiz xalqı yalnız onların öz fəaliyyətlərilə tanış etməkdən ibarət olmalıdır. Məhz buna görə də xürrəmdin Babəkin əsl-nəsəbi haqqında düzgün məlumatın gəlib bizə çatmaması onun şəxsiyyətinin əzəmətinə heç də xələl gətirmir.

Təbərinin dediyinə görə Babək, Nuşirəvan dövründə zühur etmiş məzdəki icmasından idi.

İbn-əl-Nədim «Kitab-əl-Fehrist» adlı əsərində yazır: «Babək haqqında məlumat toplamış olan Vaqid ibn-Əmr Təmimi yazır ki, onun (Babəkin) atası mədainli, yağ satan bir şəxs idi. O, Azərbaycana gedib, Miməd nahiyəsinin Bilalabad kəndində yaşamağa başladı. Tuluğa yağ dolduraraq dalına atar və Miməd nahiyəsinin kəndlərində gəzərdi. Bu vaxtlarda o, taygöz bir qadına vuruldu.

Bu qadın Babəkin anası idi. O, bu qadınla bir müddət kəbinsiz yaşadı. Bir gün o, bu qadınla kəndin ətrafına çıxmışdı. Onlar təkcə oturub şərab içirdilər. Kənd qadınlarının bir dəstəsi su gətirmək üçün «nəbəti» ahəngində mahnı oxuya-oxuya kənddən çıxıb bulaq başına çatdılar və onları bir yerdə görərək, üzərlərinə atıldılar. Abdullah (Babəkin atası) qaçdı, anasının isə saçlarından tutub, darta-darta kəndə gətirib rüsvay etdilər.

Vaqid deyir ki, həmin yağsatan kişi o qadının atasının yanına getdi. Atası qızı ona ərə verdi. Ondan Babək dünyaya gəldi. Savalan dağına etdiyi səfərlərin birində bir nəfər ona (Babəkin atasına) arxadan hücum edərək yaraladı. O da onu yaraladı, lakin özü də öldü. Onu yaralayan adam da bir neçə müddətdən sonra öldü.

(Babəkin atası) öləndən sonra anası, Babək on yaşına çatana qədər, xalqın uşaqlarına süd verərək muzd alardı. Belə rəvayət edirlər ki, bir gün Babəkin anası kənddən çıxıb oğlunun dalınca getdi. Babək o zaman camaatın mal-qarasını otarırdı. Anası onu bir ağacın altında, çılpaq halda yatmış gördü. Onun sinə və baş tüklərinin dibindən qan axırdı. Babək yuxudan ayılıb, ayağa qalxdıqda isə qandan bir əsər də görmədi. O, başa düşdü ki, oğlu bu yaxınlarda böyüyüb yüksələcək.



Vaqid öz məlumatına davam edərək yazır ki, Babək dağ başında yerləşən bir kənddə Şabl ibn-Mənqi Əzdi adlı bir şəxsə qulluq edərək, heyvanlarına baxdığı zaman onun nökərlərindən tənbur çalmağı öyrəndi. Sonra oradan Azərbaycan nahiyələrindən biri odan Təbrizə getdi və iki il Məhəmməd ibn-Rəvvad Əzdinin yanında qaldı. Sonra anasının yanına qayıdaraq onun yanında yaşadı. Bu zaman (Babək) 19 yaşında idi. Yenə Vaqid ibn-Əmr deyir: Bəzz dağlarında və ona yaxın dağlıq yerlərdə iki nəfər varlı və quldur kafir yaşayırdı. Onlar Bəzz dağlarında yaşayan xürrəmilər dəstəsinə rəhbərlik etmək üstündə biri-birilə tez-tez vuruşurdular; birisinin adı Şəhrək oğlu Cavidan, o birisi isə yalnız Əbu İmran künyəsi ilə məşhur idi. Bu iki şəxs yayda bir-birilə döyüşür, qış çatanda isə qar yağıb, yollar kəsildiyinə görə davadan əl çəkərdilər. Babəkin ustadı olan Cavidan iki min qoyunla öz şəhərindən çıxıb Qəzvin hüdudunda olan Zəncan şəhərinə tərəf yola düşdü. O, şəhərə gəlib, qoyunları satdı. Bəzz dağına qayıdarkən yolda Miməd nahiyəsində qar və qaranlığa düşdüyündən Bilalabad kəndinə getdi. O kəndin böyüyü onu evinə qonaq çağırdı, lakin ona qarşı hörmətsizlik göstərdiyi üçün Cavidan Babəkin anasının evinə getdi. Babəkin anası ağır vəziyyətdə yaşamasına və yoxsul olduğuna baxmayaraq, onu qəbul etdi. Babəkin anası ayağa durdu ki, od yandırsın, çünki bundan başqa heç bir şeyə gücü çatmırdı. Babək isə qonağın nökərlərinə və heyvanlarına qulluq etməyə başladı, su gətirdi. Cavidan Babəki yeməli-içməli şeylər və yem almağa göndərdi. Babək qayıtdıqdan sonra Cavidan onunla söhbət etməyə başladı və (söhbət əsnasında) hiss etdi ki, Babək pis gün çəkməsinə baxmayaraq, çox fərasətli gəncdir. O gördü ki, Babək dili tutula-tutula danışmağına baxmayaraq, İran dilini yaxşı bilir və zirək, qanacaqlı bir adamdır. O, Babəkin anasına dedi: «Mən Bəzz dağında yaşayıram, orada çoxlu mal-dövlətim vardır. Mən istəyirəm ki, sən bu oğlanı mənə verəsən. Onu aparıb öz mal, mülkümə gözətçi qoyaram və zəhmət haqqı hesabını hər ay sənə əlli dirhəm göndərərəm».

Babəkin anası dedi: «Sən yaxşı adama bənzəyirsən, sənin üzündən alicənablıq yağır. Mən sənin sözlərinə inanıram». Cavidan yola düşəndə anası Babəki də ona qoşdu.

Sonra Əbu İmran yaşadığı dağdan Cavidana hücum edərək, onunla dava etdi və məğlub oldu. Cavidan Əbu İmranı öldürərək, öz dağına qayıtdı. Lakin döyüşdə nizə ilə yaralandığından, üç gün evində qaldıqdan sonra öldü.

Cavidanın arvadı Babəkə vurulmuşdu; onlar bir-birilə görüşürdülər. Cavidan öləndən sonra qadın Babəkə dedi: «Sən böyük və igid bir insansan. Bu kişi indi öldü, mən ərimin ölümü barədə səs-küy salmayacağam və onun adamlarını çağırmayacağam. Sən hazır ol, sabah onları buraya toplayıb deyəcyəm ki, Cavidan dünən gecə dedi: «Mən bu gecə öləcəyəm, mənim ruhum bədənimdən çıxıb, Babəkin ruhuna qovuşacq» Yenə mən onlara deyəcəyəm ki, çox çəkməz ki, Babək sizi indiyədək kimsənin nail ola bilmədiyi və ola bilməyəcəyi dərəcəyə çatdıracaq. Babək isə yer üzünün sahibi olacaq, ona tabe olmayanları yıxacaq, Məzdəkin dinini yenidən diriildəcəkdir. Babəkin əli ilə ən alçağınız əzizlənib, aciziniz yüksələcəkdir».

Bu sözlər Babəki tamaha saldı. Bu sözləri bir xeyir xəbər kimi qəbul edərək işə hazırlaşdı. Səhər açıldıqda Cavidanın qoşunu toplaşıb soruşdu: «Nə üçün (Cavidan) bizi yanına çağırıb vəsiyyət etmədi».

Qadın dedi: «Cavidanı bu işdən saxlayan yeganə səbəb o idi ki, siz kəndlərdə, öz evlərinizdə dağınıq bir halda idiniz. Cavidan qorxdu ki, sizin dalınızca adam göndərib çağırarsa, ərəblər bu işdən xəbərdar olar və sizə zərər yetirərlər. Buna görə də Cavidan sizə söylədiyi sözləri mənə demişdir. O, ümid edirdi ki, siz onun dediklərini qəbul edərək həyata keçirəcəksiniz».

Onlar dedilər: «Söylə görək, Cavidan sənə nə vəsiyyət etmişdir. O, sağ ikən biz onun heç bir əmrindən boyun qaçırmadıq, onun ölümündən sonra da ona sadiq qalmalıyıq. Qadın dedi: «Cavidan mənə dedi ki, bu gecə mən öləcəyəm, canım bədənimdən çıxıb bu cavanın bədəninə daxil olacaq. Mənim iradəm budur ki, onu öz adamlarıma başçı təyin edim. Mən öləndən sonra bu sözləri onlara dönə-dönə təkrar et. Bir kəs etiraz edib mənim vəsiyyətimə əməl etməsə, o, dinsizdi».

Cavidanın adamları belə cavab verdilər: «Biz onun bu cavan haqqında dediklərini qəbul edirik». Sonra o qadın bir öküz gətirtdi, əmr elədi, öküzün başını kəsdilər, dərisini soydular və yerə sərdilər. Şərabla dolu bir təşti onun üstünə qoydular, sonra çörəyi doğrayıb öküz dərisinin dövrəsinə düzdülər. Sonra camaatı bir-bir çağırıb dedi: «Dərini ayaq altında tapdalayın, bu çörəkdən bir tikə gətirib, şəraba batırıb yeyin və deyin: ey Babəkin ruhu, sənə inanıram, necə ki, Cavidanın ruhuna inanırdım. Sonra Babəkin əlindən tutub öpün».

Camaat da o deyən kimi etdi. Elə ki, yemək hazır oldu, onları yeyib-içməyə dəvət etdi.

Sonra qadın öz yatağında oturub, Babəki öz yanında oturtdu, arxasını caamata çevirdi. Hərə üç qədəh badə içəndən sonra qadın bir dəstə reyhan götürüb Babəkə sarı atdı. Babək reyhan dəstəsini tutdu. Onların evlənmə mərasimi belə idi. Camaat ayağa qalxıb onlara əl verdi. Onlar Babəkin o qadınla evlənməsinə çox sevindilər.

Məhəmməd Üvfi «Cəvame-əl-hekayət və ləvame-ər-rəvayət» adlı əsərində (birinci hissəsinin 5-ci fəslində) yuxarıdakı məlumatı azacıq dəyişikliklə belə qeyd edir:

«Mötəsim dövründə baş verən ən böyük hadisələrdən biri Babək hərəkatı idi. O zəndiq idi, əziz və böyük allahı danırdı, halal-harama inanmazdı. Əmr və nəhyi tanımaq istəməzdi. Deyirlər ki, onun atasının kim olduğu məlum deyildi; anası isə Azərbaycan kəndlərinin birində yaşayan təkgöz bir qadın idi, Belə deyirlər ki, İraq ətrafında olan bir nəfər nəbətli bu qadınla kəbinsiz yaşamış və ondan Babək olmuşdur. Anası Babəki dilənçilik ilə böyütmüşdür.

O, həddi-buluğa çatdıqda kənd əhalisindən birisi onu muzdurluğa götürdü. Babək o şəxsin yük heyvanlarını otarardı. Deyirlər ki, günlərin birində anası ona yemək aparmışdı. Onu bir ağacın altında yatmış gördü. Bədəninin tükləri biz-biz olmuş və tüklərin dibindən qan axırdı.

O dağlıq yerdə xürrəmilərdən və zəndiqələrdən ibarət bir tayfa yaşayırdı. Onların iki başçıları var idi. Bu başçılar bir-birilə düşmənçilik edirdilər. Bunlardan birisinin adı Cavidan, digərinin isə İmran idi.

Günlərin birində Cavidan Babəkin yaşadığı kəndə gəldi və Babəki gördü; onun igidliyi, cəsarəti, xasiyyəti Cavidanın diqqətini özünə cəlb etdi. Onu anasından istədi və özü ilə götürüb apardı.

Babək Cavidanın qadını ilə eşqbazlığa başladı. Qadın Babəkə vuruldu. Qadın öz ərinin bütün sirrlərini açıb ona dedi, var-yoxunu, xəzinələrini ona göstərdi. Beləliklə, Babəkin işi tutdu. Bir müddətdən sonra Cavidanla o camaat arasında müharibə oldu və Cavidan o müharibədə öldü. Cavidanın arvadı camaata dedi: «Cavidan Babəki özünə canişin etmişdi. O ölərkən vəsiyyət etmişdir ki, bu yerlərin əhalisi ona tabe olsun. Cavidanın ruhu Babəkə keçmişdir. Babəkin rəhbərliyilə bütün düşmənlərə qələbə çalacağınıza söz verin».

Camaat Babəkə tabe olmağa razılıq verdi. Babək sayı-hesabı olmayan dostlarını toplayıb, onların hamısını silahlandırdı və dedi: hazırlaşın, gecənin üçdən biri keçdikdə bayıra tökülüb nərə çəkin və bizim dində olmayanları, istər qadın, kişi və istərsə uşaq, hamısını qılıncdan keçirin.

Onların hamısı qərarlaşıb, evlərinə qayıtdılar. Gecə qalxışıb kənddə yaşayan bütün müsəlmanları öldürdülər. Kimsə bilmədi ki, onlara bu əmri kim vermişdir. Camaat qorxuya düşdü. (Babək) yubanmadan onları uzaq yerlərə göndərdi. Onlar da tapdıqlarını öldürdülər. Bu adamlar döyüş və müharibənin nə olduğunu bilməyən kəndlilər idi, amma bu iki müharibədə hərbə artıq alışdılar, cürətləndilər. Oğru, dinsiz, əxlaqca pozğun adamlar onun başına yığıldılar. Beləliklə, Babəkin başına iyirmi min atlı toplandı. Bunlar harada piyada və müsəlman görürdülər, burun-qulağını, əl-qolunu kəsir və sonra odda yandırırdılar. O, elə cinayətlərə yol verdi ki, nə ondan qabaq və nə ondan sonra gələnlərin heç biri buna bənzər iş görməmişdi. O, neçə dəfə sultanın qoşununu məğlub etdi. Onun fitnəsi iyirmi il davam etdi».



«Mücmələttəvarix və-l-qisəs»in müəllifi Babək haqqında belə yazır: «Xürrəmdin Babək Azərbaycandan baş qaldırdı və hərəkatı son dərəcədə böyüdü. Onun əsl-nəsəbi Qubad dövründən, daha doğrusu, möbidlərin möcidi[1] Məzdək ibn-Bamdadandan başlayır. Yuxarıda qeyd etdiyimiz kimi, Nuşirəvan onları məğlub etdi, sonra Məzdəkin Xürrəmə adlı bir arvadı var idi ki, Fadənin qızı idi O, Rey kəndinə gedərək, xalqı Məzdəkin dininə çağırdı.

Bundan sonra onlara xürrəmdin dedilər. Onlar Məzdəkin təriqətini tərk etdilər. Bu arada Babək onların başçısı oldu. Bir çoxunu öldürdülər. Harun-ər-Rəşidin zamanında qüvvətləndilər. Babəkin hərəkatı uzun müddət davam etdi...»

Əbu Hənifə Dinəvari özünün «Əxbar-ət-tival» adlı əsərində yazır: «Bir çoxları Babəkin əsl-nəsəbi və məsləki haqqında müxtəlif fikirlər irəli sürür. Mənə məlum olan budur ki, o, Əbu-Müslümün qızı Fatimənin oğlu Mütərrin övladından biridir və xürrəmiyədən olan Fatimiyyə qəbiləsi də ona mənsubdur».

Səmani «Kitab-əl-ənsab» adlı əsərində «Babəki» sözü haqqında belə yazır: «İki «b» arasındakı «əlif» və sonundakı «ki»-babəkilər deməkdir. Onlar Mərdəsin oğlu Babəkin adamlarından bir dəstə idi. Babək Məmun dövründə Azərbaycan şəhərlərində qiyam etdi. Mötəsim zamanı onların hərəkatı genişləndi. Onlar dəfələrlə müsəlmanların qoşununu məğlub etdilər, nəhayət, allah onların bəlasını aradan qaldırdı. Mötəsimin qoşun başçısı olan Əfşin ona qalib gələrək, Samirəyə apardı. Mötəsimin əmri ilə onu diri-diri dara çəkdilər... Samirənin alimləri onu nifrin etdilər. Bu günə qədər də babəkilərdən bir dəstə Bəzzeyn adlı dağlıq bir yerdə yaşamaqdadır ki, bunlar da Azərbaycan əmirlərinin əlaltıları hesab olunurlar. Bunlar haman xürrəmilərdir. İldə bir dəfə kişili-qadınlı bir yerə toplaşır və işığı söndürürlər. Hər kişi əlinə keçdiyi qadını tutub o gecəni onunla keçirir. Bu qədər bədbin olduqları halda islamdan qabaq yaşamış hökmdarlardan Şərvin adlı birisini özləri üçün peyğəmbər sayır və elə güman edirlər ki, bu şəxs Məhəmməddən, allah ondan razı qalsın

[1] Zərduştlərin ruhani rəisi

və ona rəhmət etsin, habelə indiyə kimi gələn başqa peyğəmbərlərin hamısından daha yüksək imiş. Yığıncaqlarında onu yada salıb ağlar və nəğmə oxuyarlar. Həmədan dağlarında olan Şərvin adlı şəhər ona mənsubdur».

«Xürrəmi» ilə əlaqədar olaraq başqa bir yerdə deyir: «xürrəmdinlilər» də deyilir. Onların dini, istəkləri və arzularından ibarətdir. Bu adı onun üçün vermişlər ki, onlar haram nə olduğunu bilməz, şərabı, naməhrəm qadınla yaşamağı və hər bir ləzzət və mənfəət aldıqları şeyi halal bilirlər və bu işdə Qubad dövründə zühur etmiş məcus məzdəkiləri kimidirlər. (Məzdəkilər) bütün qadınları, eləcə də başqa haram şeyləri özləri üçün halal bilirdilər. Buna görə də Qubadın öğlu Ənuşirəvan onları qırdı. Bu mənada onlara «məzdəkiyə» deyildiyi kimi, bunlara da «xürrəmdiniyyə» demişlər.

İbn-əl-Əsir, Səmaninin kitabının xülasəsi hesab olunan «Əl-lübab fi təhzib-ənsab» adlı əsərində Babəkin atası Mərdəsin adını atmışdır. Necə olursa-olsun, Səmaninin bu izahı göstərir ki, 506-cı (1112/1113) ildən 562-ci (1166/1167) ilə qədər, yəni onun yaşadığı dövrdə. daha doğrusu, hicri 6-cı əsrin ortalarına qədər, xürrəmdinlər Azərbaycanda, həmin Bəzz dağlığında yaşamaqda idilər. Aydındır ki, İbn-əl-Əsirin buna bənzər yazdığı sözlərdən məqsədi, başqa ərəb yazıçıları kimi, bu xalqa böhtan atmaq idi.

Ərəb və fars kitablarında Babəkin adının «Babək xürrəmi», ya «Xürrəmdin Babək» şəklində yazılmasının səbəbi ondan ibarətdir ki, Babək, «Xürrəmdin» və ya «Xürrəmilər», yaxud da «Xürrəmdinlər» məzhəbini yaymağa çalışmış ən böyük simalardan biridir. Bu dinin tarixi haqqında kafi dərəcədə məlumat bizə gəlib çatmamışdır. Kitablarda onların məsləki haqqında yazılanlar da qərəz və böhtan xarakteri daşıyır.

Yalnız bir şey aydındır ki, «xürrəmi» dini «məzdəki» budaqlarından biri imiş. Bu mənada xürrəmilər yeni məzdəkilər və ya islamdan sonrakı məzdəkilər kimi tanınmalıdırlar. Kitablarda məzdəkilər haqqında yazılmış böhtanlar bunların haqqında da deyilmişdir.





İbn-əl-İbri «Müxtəsər-əd-düvəl» adlı əsərində yazır: «Babəkin adamları, piyada dəstələrindən başqa, iyirmi min nəfər idi. Bu adamlar müsəlman olan hər bir kişi, qadın, cavan və uşaqları harada görürdülərsə, parça-parça doğrayıb öldürürdülər. Onların əlilə öldürülənlərin sayı əlli beş min beş yüzə çatır».

Üvfi «Cəvame-əl-hekayət» kitabında deyir: «Müqəddəsi öz «Tarix» kitabında göstərmişdir ki, onun (Babəkin) əlilə öldürülənlərin sayını hesab etmişlər. O, min kərrə min (bir milyon) müsəlman öldürmüşdür».

Əbu Mənsur Bağdadi «Əl-fərq beyn-əl-firəq» adlı kitabında yazır: «Babəkin azərbaycanlı və deyləmilərdən ibarət olan adamlarının sayı üç yüz min nəfərə çatırdı».

Nizam-əl-Mülk Tusi «Siyasətnamə» adlı kitabında yazır: «Onun cəlladlarından biri tutulmuşdu. Ondan soruşdular: sən neçə nəfər öldürmüşsən?

Dedi: onun çox cəlladı var idi, mənim öldürdüyüm müsəlmanların sayı, başqa cəlladların öldürdüklərini və müharibədə ölənləri hesaba almamaq şərtilə, otuz altı min nəfərdir».

Həmdullah Mustovfi «Tarixi-qozide»də və Qazi Əhməd Ğəffari «Nigaristan»da yazmışlar: «Həmin cəllad göstərdi ki, biz on nəfər idik. Təkcə mən iyirmi min nəfər öldürmüşəm».

«Rövzət-əs-səfa» kitabının müəllifi də bu rəvayəti təkrar edərək yazır: «Bəzi rəvayətə görə, vəbali deyənin boynuna, Babək tərəfindən müharibə meydanlarında və başqa yerlərdə öldürülən adamların sayı min minə (bir milyona) çatdı».

«Nigaristan» və «Mücməli-fəsihi»nin müəllifləri bu cəlladın adını Novzər,-deyə qeyd etmişlər.

«Zinət-əl-məcalis»in müəllifi cəlladların sayını on və onlardan birisinin əlilə öldürülənlərin sayını isə iyirmi min qeyd etmişdir. Füzuni Astarabadi «Kitabi-Büheyrə» adlı əsərində cəlladların sayını iyirmi göstərərək yazır: «O, (onlardan biri) dedi: «Biz iyirmi cəllad idik, lakin mənə onlardan daha az iş tapşırırdı. Mənim əlimlə öldürülənlərin sayı gərək ki, iyirmi min nəfərdən artıq olsun; başqalarından xəbərim yoxdur».

Etimad-əs-Səltənə «Müntəzəmi-Nasiri» adlı əsərdə deyir: «İyirmi il ərzində Babəkin adamlarının əlilə öldürülənlərin sayı iki yüz əlli min beş yüz nəfər idi». İbn Xəldun yazır: «Babəkin iyirmi ildə öldürdüyü adamların sayı yüz əlli beş min idi. Babəkin məğlub edilməsi nəticəsində təkcə yeddi min altı yüz qadın və uşaq onun pəncəsindən xilas oldu». Məsudi «Əttənbih və-l-işraf» adlı kitabında yazır: «Babəkin iyirmi il ərzində Məmun və Mötəsimin qoşunlarından əsirlər, qoşun başçıları və başqa təbəqələrin nümayəndələrindən öldürtdüyü adamların sayı, ən azı, beş yüz min nəfərdir. Bundan daha çox öldürüldüyünü qeyd edənlər də olmuşdur ki, hər halda bunu hesablamaq mümkün deyildir».

Təbəri və İbn-əl-Əsir Babəkin qiyamı müddətində öldürülmüş adamların miqdarını iki yüz əlli beş min beş yüz göstərmişlər. Fəsihin Xəvafi 139-cu ilin hadisələrilə əlaqədar olaraq, Əbu Müslüm Xorasani haqqında yazır: «İslam dövründə dörd adam olmuşdur ki, bunların hər birinin əlilə min min (bir milyon) və daha da çox insan öldürülmüşdür. Bu dörd adamdan birincisi Əbu Müslüm, ikincisi Həccac ibn-Yusif, üçüncüsü Babəki-xürrəmi, dördüncüsü isə Bürqəi (burada məruf Sahib-əl-Zənc nəzərdə tutulur) idi».

## XÜRRƏMİLƏR HƏRƏKATININ BAŞLANĞICI

Xürrəmilər dininin zühura gəlməsinin tarixi məlum deyildir. Bu dinin Babək tərəfindən yayıldığı və ya Babəkdən qabaq da olub, Babəkin ona qoşulması barədə müxtəlif fikirlər söyləyirlər. Lakin təqribən doğru nəzərə gələn budur ki, Babəkdən qabaq da bu din olmuşdur və Babək yalnız onu xalq arasında yaymağa çalışmış və onu son inkişaf dərəcəsinə yüksəltmişdir.

Tarixdə ilk dəfə olaraq xürrəmilərdən hicri 162-ci (778/ 779) ildə bəhs olunmuşdur. Nizam-əl-Mülk «Siyasətnamə»də göstərir ki, «Xəlifə Mehdi zamanında «Qızıl bayraqlılar» deyilən Qorqan batiniləri xürrəmilərlə birləşdilər və dedilər: Əbu Müslüm diridir... Gəliniz məmləkəti tutaq. Onlar Əbu Müslümün oğlu Əbul-Əzzi özlərinə rəhbər seçdilər və Reyə qədər gəldilər, halalı harama qatdılar, naməhrəm qadınları məhrəm etlilər. Mehdi hər



yana, Təbəristan valisi Əmr ibn-Əlaya məktub yazdı ki: «Əl-ələ verib birləşin, onların döyüşünə gediniz, onlar getdilər və o camaatı dağıtdılar». İkinci dəfə Harun-ər-Rəşid Xorasanda olanda (yəni 192-193-cü (807-808-809) illərdə) xürrəmilər yenə İsfahan, Tərmədeyn, Kapulə, Fayek və başqa kəndlərdə üsyan etdilər. Rey, Həmədan, Dəstə və Girədəndə çoxlu adam gəlib onlara qoşuldu. Onların sayı yüz mindən artıq idi. Harun Xorasandan Abdullah ibn-Mübarəki iyirmi min atlı ilə onların müharibəsinə göndərdi. Onlar qorxdular və hər dəstə öz yerinə qayıtdı. Abdullah Mübarək aşağıdakı məzmunda bir məktub yazdı: «Budüləfsiz bizim işimiz keçməz. O da, büsbütün doğrudur,- deyə cavab verdi. Onlar birləşdilər. Xürrəmilərlə batinilərin sayı çoxaldı, yenidən çalıb-çapmağa başladılar. Budüləf İcli və Abdullah Mübarək qəflətən hücum etdilər, onlardan bir çoxunu öldürdülər və uşaqlarını Bağdada aparıb satdılar.

Bu hadisədən 9 il sonra, Məmun zamanında, Babək Azərbaycandan baş qaldırdı. «Mücməli fəsih»də 162-ci (778-779) ilin hadisələrindən bəhs edilərkən yuxarıdakı əhvalat barəsində belə deyilir: «İlk dəfə xürrəmilər İsfahanda qiyam etdilər, batinilər də onlarla birləşdilər və bu tarixdən 300-cü (912- 913) ilə qədər çox adam öldürdülər». Buradan aydın olur ki, 300-cü (912-913) ilə qədər də bəzi hadisələr baş vermişdir.

Nizam-əl-Mülk də «Siyasətiamə»də 162-ci (778-779) ilin hadisəsini qeyd etdikdən sonra yazır: «Bu hadisədən 9 il keçəndən sonra Babək Azərbaycanda qiyam etdi. Bu adamlar istədilər ona qoşulsunlar, ancaq eşitdilər ki, qoşun onların yolunu kəsmişdir, (odur ki) qorxub qaçdılar. Xürrəmdinlər hicri 212-ci (827-828) ildə, Məmun dövründə, qiyam etdikdə İsfahan nahiyəsinin batinilərindən bir dəstə onlara qoşuldu. Məmun Məhəmməd ibn-Həmid-ət-Taini xürrəmdinlərlə müharibə etmək üçün Babəkin meydanına göndərdi və buyurdu ki, Zəriq ibn-Əli Sədəqə ilə müharibəyə girişsin. Çünki o, Məmuna qarşı üsyan edərək, İran dağlarında gəzişir, qarət və karvan soymaqla məşğul olurdu. Məhəmməd ibn-Həmid tələsik yola düşdü; o, Məmunun xəzinəsindən heç bir şey almayıb, qoşunun xərcini öz xəzinəsindən

verdi . Zəriq ilə müharibə etdi. Zəriqi əsir etdi, qoşununu isə qırdı. Bunun müqabilində Məmun Qəzvin, Marağa və Azərbaycanın mühüm hissəsini ona verdi. Sonra o, Babəklə müharibə etmək üçün yola düşdü. Onunla Babək arasında altı dəfə böyük vuruşma oldu, nəticədə Məhəmməd ibn-Həmid öldürüldü. Babəkin işi yüksəldi. Xürrəmdinlər də İsfahana qayıtdılar. Məmun Məhəmmədin ölməsindən çox qəmgin oldu. O, dərhal Xorasan valisi Abdullah Tahiri Babəkin döyüşünə təyin edərək, bütün dağlıq vilayətini, Azərbaycanı və fəth olunan yerləri ona verdi. Abdullah Azərbaycana getdi. Babək Abdullahın qarşısında müqavimət göstərə bilmədi və möhkəm bir qalaya qaçdı. Onun qoşunu və bütün xürrəmilər dağıldı. 218-ci (833) il çatdıqda, yenidən xürrəmilər İsfahanda, Farsda, Azərbaycanda və bütün dağlıq yerlərdə qiyam etdilər. O zaman Məmun Ruma getmişdi. Hamı yığılıb, üsyan üçün bir gecəni vədələşdilər. Bütün şəhər və vilayətlərdə hazırlıq görmüşdülər. Gecə ikən qalxıb şəhəri qarət etdilər, Farsda isə çoxlu müsəlman qırdılar, arvad-uşaqları da əsir apardılar. İsfahanda Əli Məzdək adlı bir şəxs onlara başçılıq edirdi. O, şəhər qapısından iyirmi min nəfərlik qoşun götürüb, qardaşı ilə birlikdə dağa sarı yürüş etdi. Buduləf orada yox idi. Onun qardaşı Məqil isə dağda idi. O, beş yüz atlı ilə müqavimət göstərə bilmədiyindən, qaçıb Bağdada getdi. Əli Məzdək dağı aldı və qarət etdi. Harada müsəlman gördü, öldürdü. Əcəlilərin arvad-uşaqlarını da əsir etdi və Babəklə birləşmək üçün Azərbaycana qayıtdı.

Xürrəmilər ətraf vilayətlərdən Babəkin başına toplandılar. Əvvəllər on min nəfər idilər, iyirmi beş min oldular. Dağlar içində Şəhristan adlı kiçik bir şəhər var, ora toplaşdılar. Babək də onlara qovuşdu».

Buradan aydın olur ki, xürrəmilər 162-ci (778-779) ildəki qiyamlarından 9 il sonra, yəni 171-ci (787-788) ildə yenə də qiyam etmişlər. Bundan sonra bir neçə dəfə: 200-ci (815-816), 212-ci (827-828) və 218-ci (833) illərdə də bir sıra qiyamlar etmişlər. Nəhayət, 223-cü (837-838) ilə qədər böyük və uzun sürən bir qiyama iqdam etmişlər. Onların bu son qiyamı iyirmi il davam etmişdir.



**XÜRRƏMİLƏR HƏRƏKATININ SONU**

Xürrəmilər hərəkatının sonu düzgün surətdə məlum deyildir. Söz yox ki, Babək öləndən və Azərbaycanda onun təşkilatı pozulduqdan sonra onlar büsbütün yox olmamışlar. Bəlkə sonralar belə hərdənbir qiyamlar etmişlər. Belə ki, Vasiq Billah (227-232=841/42-846/47) zamanında bir dəfə çıxış etmişlər. Nizam-əl-Mülk bu xüsusda «Siyasətnamə»də yazır: «Vasiq zamanında cəmi bir dəfə üsyan etdilər. Xürrəmilər İsfahan nahiyəsində pis işlər gördülər. 300-cü (912-913) ilədək üsyan edərək, İsfahan dağlarında yaşayırdılar, kəndləri talayıb, qoca, cavan, qadın və uşaqları öldürürdülər. Beləliklə, onların fitnəsi 30 ildən artıq davam etdi. Heç bir ordu onların öhdəsindən gələ bilmirdi, çünki möhkəm yerlərdə yaşayırdılar. Axırda məğlub oldular, başları İsfahanda dara çəkildi. Belə bir qələbədən sonra bütün islam şəhərlərinə məktub yazdılar. Hamısını göstərsək, uzun çəkər. Batinilərin nələr etdiyini bilmək istəyənlər «Tarixi Təbəri» və «Tarixi İsfahan»a müraciət etsinlər».

Buradan aydın olur ki, Babəkin öldürülməsindən 70 ildən artıq bir müddət keçdikdən sonra belə, yəni 300-cü (912-913) illərədək İranda bu böyük xalq hərəkatı davam etmiş və xürrəmilər, yuxarıda qeyd olunduğu kimi, VI əsrin ortalarına qədər Azərbaycanda olmuşlar. Onların bu arada etdikləri ikinci mühüm qiyam VI əsrin əvvəllərində olmuşdur. Çünki Məhəmməd Üvfi «Cəvame-əl-hekayət» adlı əsərində Müstərşid-billahın zamanında (512-529) = (1118/19-1134/35) baş verən xürrəmdinlər üsyanına işarə edərək yazır: «Müstərşidin zamanında xürrəmilərdən bir dəstə Azərbaycanda yaşayaraq fitnəkarlıq edirdi. Müstərşid bunlara qarşı müqəddəs müharibə aparmaq və fitnələrinin kökünü kəsmək məqsədilə müntəzəm ordu götürüb, Azərbaycana hərəkət etdi. Kafirlərdən bir dəstə ona hücum etdilər, onu tutub bıçaqladılar və öldürdülər. 529-cu (1134-1135) il zilqədə ayının 17-də, cümə axşamı onun həyatının bayrağı yıxıldı və buna görə bütün dövlət adamları qan ağladılar. O, 17 il 6 ay 20 gün xəlifəlik etdi. O, 436-cı (1044-1045) ildə şəvval ayının 17-də, bazar ertəsi xəlifəlik taxtına çıxmışdı».

Bu hadisədən bəhs edərkən Məhəmməd Üvfinin buraxdığı yeganə səhv ondan ibarətdir ki, o, Üvfinin dediyi kimi, 436-cı (1044-1045) ildə, şəvval ayının 17-də, bazar ertəsi günü yox, 512-ci (1118-1119) ildə rəbiüssani ayının 16-da taxta çıxmışdır.

Bundan əlavə, əgər o, 436-cı (1044-1045) ildə taxta çıxıb və 529-cu (1134-1135) ildə öldürülsəydi, o halda 73 il xəlifəlik etmiş olurdu. Halbuki Üvfi özü yazır: «17 il 6 ay 20 gün xəlifəlik etmişdir. Bu hesabla, o, 512-ci (1118-1119) ildə taxta çıxmış olmalıdır. O, bütün etibarlı mənbələrin göstərdiyi kimi, 512-ci (1118-1119) ildə rəbiüssani ayının 16-da taxta çıxmış və 529-cu (1134-135) ildə zilqədə ayının 17-də ölmüşdür. Beləliklə, o, düz 17 il 7 ay və 1 gün xəlifəlik etmişdir»

## XÜRRƏMİLƏR

Bir sıra tarixçilər «xürrəmi», «xürrəmdini» və «xürrəmdinlər» sözlərini yanlış başa düşmüş və bu sözləri işlədərkən yalnız Babəkin izi ilə gedənləri nəzərdə tutmuşlar. Halbuki anlaşıldığına görə, «xürrəmi» ya «xürrəmdin» adı İranda II əsrdə meydana gəlmiş olan yeni dinin tərəfdarlarına verilmiş ümumi bir addır. Ola bilsin ki, sasanilər zamanından bəri İranın ucqar nahiyələrində, İranın mərkəzi, qərbi və şimal-qərbi dağlarında gizli yaşayan və yalnız bu zamanda öz dinlərini aşkar çıxara bilən Sasani dövrü məzdəkilərinin xələflərini islam dövründə bu adla çağırırmışlar. Həm də ola bilər ki, onlar Məzdək dinində bəzi dəyişikliklər əmələ gətirdiklərindən özləri üçün yeni ad seçmiş və bu yeni məzhəbə «xürrəmdin» adı qoymuşlar, həmçinin nəzərə belə gəlir ki, «xürrəmdin» tərkibi Zərdüşt dini haqqında deyilən «behdin» tərkibindən təqlid edilmişdir.

Bəzilərinin fikrincə, «xürrəmdin» istilahının meydana gəlməsinin səbəbi budur ki, onlar guya bütün ləzzətləri halal bilirmişlər. Lakin bu da müxaliflərin onlara atdıqları bir çox böhtan və iftiralardan biridir.

Bəzi sənədlərdə ismaililər batinilər (tayfasından) hesab olunduğu kimi, xürrəmdinlərə də batinilər və ya batiniyyə adı verilmişdir.



«Batini» sözü, mənasından anlaşıldığı kimi, öz nəzəriyyəsini gizli olaraq pərdə altında saxlayan və onu düşmənin qorxusundan açıq surətdə təbliğ edə bilməyən hər bir firqəyə verilən ümumi istilahdır. Qeyd etmək lazımdır ki, bu istilahı o firqələrin müxalifləri işlətmişlər.

Müəlliflərdən bəzisi «xürrəmiləri» «ibahiyyə» qəbilindən hesab etmişlər, bu da yenə haman müxaliflərin işlətdikləri böhtanlı sözlərdən biridir. Çünki onlar belə güman edirdilər ki, xürrəmilər hər şeyi özlərinə halal bilirlər və buna görə də onlara «ibahiyyə» və farsca «ibahətiyyan» adını vermişdilər.

Xürrəmilər iki dəstəyə bölünürdülər: birincisi, «cavidanilər» və ya «cavidaniyyə»dir ki, ona mənsub olanlar Babəkin sələfi hesab olunan Şəhrəkin oğlu Cavidanın tərəfdarları idilər, ikincisi isə Babəkin tərəfdarları olan babəkilər və ya babəkiyyələr idi. Qətiyyətlə demək olar ki, xürrəmilər məsləki və onun təfərrüatı barədə bizə düzgün məlumat gəlib çatmamışdır, əgər dini kitabları varmışsa, məhv olub getmişdir. Onların haqqında bildiyimiz şey yalnız tarixçilərin və xalqların kitab və əsərlərində qərəz və böhtanla dolu olan qısa məlumatlardan ibarətdir. Hətta bu yazıların özündə belə, dolaşıqlıq vardır. Belə ki, bəziləri onları məzdəkilərdən, bəzisi isə ismaili və batinilərdən hesab etmiş, bir qismi də Əbu-Müslüm Xorasaninin tərəfdarları sayılan Müslümiyyə və Əbu müslümiyyə təriqətinin bir şöbəsi kimi qeyd etmişlər. Hətta bir paraları onları ibahiyyə sufiləri adlandırıb göstərmişlər ki, onlar tənasüx (metempsixoz) nəzəriyyəsi tərəfdarıdır, islam dinində qadağa olunmuş işləri, hətta məhrəmlərlə evlənməyi halal bilirlər. Bəziləri də onların ğullat ya ğaliyə (ifratçılar) sırasına daxil etmişlər.

Amma bu deyilən sözlərin içərisində həqiqətə bənzər bir şey varsa, o da bundan ibarətdir ki, onlar tənəsüxə və ya ruhların qayıtması nəzəriyyəsivə inanırdılar. Məzdəkilər kimi bir para şeylərin ümumiləşdirilməsini lazım və halal bilirdilər. Eyni zamanda din və məsləklərini yaymaq üçün adam öldürməkdən, qan tökməkdən çəkinməzdilər. Öz düşmənlərinə və müxaliflərinə rəhm etməzdilər. Xüsusilə ərəblərin və ərəb dininin qatı düşmə-

ni idilər. Buna görə də onlar Qorqan və Təbəristandakı mühəmmirə və ya «qızıl bayraqlılar», Məvəraünnəhrdəki mübəyyizə, yaxud «ağpaltaplılar» və müqneilər, yəni qənaətkarlarla həməqidə və həmrəy olmuşlar. Ola bilsin ki, onların arasında, xüsusilə Azərbaycandakı xürrəmdinlərin başçısı Babək ilə Təbəristan qızılbayraqlılarının başçısı Qarunun oğlu Mazyar arasında ittifaq və birlik varmış.

Bütün şüubiyyə, xüsusilə ismailiyyənin amansız düşməni olan xürrəmdinlərin əqidələri haqqında Nizam-əl-Mülk «Siyasətnamə»də yazır: «Onların dini qaydaları isə belədir: onlar cana əziyyət verməyi bir yana tullayıb, şəriəti, yəni namazı, orucu, həcci və zəkatı rədd edirlər. Şərabı, başqalarının malını və qadınını özləri üçün halal bilirlər. Dini vəzifələrə yaxın durmazlar. Məclis qurub yığıncaq çağırdıqda, hər şeydən əvvəl, Əbu Müslümün öldürülməsi münasibətilə təəssüf edərək, onu öldürənə lənət yağdırırlar. Mehdi Firuzə və Əbu Müslümün qız nəvəsi Fatimənin oğlu Haruna dua oxuyurlar. Ona bilikli uşaq və ərəbcə «əl-fəti-əl-alim» (gənc alim) deyirlər. Buradan məlum olur ki, istər Məzdəkin, istərsə xürrəmdinlərin və batinilərin dini və məsləki birdir və onların yeganə arzuları islamı məhv etməkdən ibarətdir. Xalqı öz tərəflərinə cəlb etmək üçün əvvəlcə, özlərini doğru, pəhrizkar və peyğəmbərin övladını sevən adamlar kimi göstərirlər. Elə ki, gücləndilər, Məhəmməd ümmətini məhv etməyə və dininə zərər verməyə çalışırlar. Kafirlər bu tayfaya nisbətən müsəlmanlara daha rəhmlidirlər. Biz onların hal və hərəkətinə aid olan bu qədər sözü yalnız ibrət üçün yazdıq. Onlar saman altından su jeridəndirlər. Hər kəs onların dəvətini qəbul etsə, onu özləri kimi tərbiyə (kömək) edirlər. Bütün dünya xüdavəndi-aləmindir. Bu kafirlər xalqı mal-dövlət yığmağa təhrik edirlər. Köməyə müstəhəqq olanların var-yoxunu alırlar və elə göstərirlər ki, guya bu onlar üçün artıq imiş. Ətəkdən kəsib qola tikməklə köynək olmaz. Bunların məzhəbindən bu qədər danışmaqdan məqsədimiz hamıya məlum etməkdir ki, o camaat nə haramzadə itlərmiş və nə işin sahibi imişlər. Böyük və uca allah



bütün müsəlmanları onların bəla və şərrindən saxlasın və hamını onların yaramaz söhbətindən qorusun!»

Əbülfərəc Covzi «Nəqd-əl-elm və-l-üləma ov təlbisin iblisin» adlı əsərində bu adamlar haqqında belə deyir: «xürrəmiyan» və «xürrəm» yabançı sözdür. O, insanı cəzb edən ləzzətli və maraqlı şeylər haqqında işlədilir. Bu sözün mənası insanın hər növ ləzzətə uyması və şəhvət düşkünü olması, habelə cəmiyyətdə əxlaq qaydaları, dini qanunları ortadan qaldırmaq deməkdir. Bu ad bir ləqəb olaraq məzdəkilərə verilmişdi. Məzdəkilər isə Qubad dövründə meydana gəlmiş məcuslar idi ki, məhrəm qadınları və hər bir haram işi özləri üçün halal bilərdilər. Xürrəmilərin işi ilə bu məzhəbin məramı arasında, bir sıra məsələlərdən başqa, uyğunluq olduğuna görə onlara bu adı vermişlər».

Əşərilərin məşhur rəhbəri olan İmam Əbülhəsən Əşəri «Məqalat-əl-islamiyyin və ixtilaf-əl-müsəllin» adlı kitabında yazır: «Bəziləri deyirlər ki, baş imamlar möcüzələrdən xəbərdardırlar; onların yanına (guya) göydən mələklər enib gəlir. Bu isə rafizi təriqətinə mənsub bir dəstənin sözüdür. Hətta onlardan bəzisi bu xüsusda işi bir yerə çatdırmışlar ki, deyirlər şəriət qanunlarını pozub ləğv etmək mümkündür. Bu dəstəyə mənsub olan xürrəmdinlər o yerə gəlib çatdılar ki, dedilər Məhəmməd peyğəmbərdən (allahın ona salamı olsun) sonra yenə də peyğəmbərlər gələcək və onların ardı kəsilməyəcəkdir». Əbül-Müzəffəri İsfərayini «Ət-təbsir fi-d-din və təmyiz-əl-firqət-əl-naçiyyəti ən əl-firəq-il-hali kin» adlı kitabının bir yerində deyir: «Xürrəmilər iki dəstəyə bölünürlər: onlardan biri islam dövlətindən qabaq yaşamış məzdəkilərdir ki, haram işləri halal bilirdilər və deyirdilər ki, qadınlara və mal-dövlətə hamı şərikdir. Ənuşirəvan öz padşahlığı dövründə onları öldürdü. İkinci dəstə islam dövründə meydana gəlmiş xürrəmilərdir ki, bunlara da babəkilər və mazyarlılar kimi mühəmmirə adı verdilər. Lakin babəkilər Babək xürrəminin tərəfdarları idilər. O, Azərbaycanda meydana gəlmişdi və tərəfdarları olduqca çox idi. O, haram edilmiş bütün işləri halal bilirdi. O, iyirmi il ərzində Bəni Abbasın qoşunundan çoxlu adam qırdı və nəhayət, qardaşı ilə birlikdə tutulub Mötəsim

zamanı Sürrə-mənrəada (Samirədə) dara çəkildi. Mazyarilər isə Mazyarın tərəfdarları idi. Mazyar da xalqı mühəmmərə dininə çağırırdı. Təbəristanın dağlıq yerlərində bir çoxları ona tərəfdar çıxdılar. Qorqandakı Mühəmmirə körpüsü də onlardan qalmışdı. Mazyar da Mötəsimin zamanında tutuldu və Samirədə Babək xürrəmi ilə üzbəüz dara çəkildi. Bu dağlarda yaşayan babəkilər müəyyən bir gecədə bir yerə toplaşaraq, şərab içir, mahnı oxuyur və bu kimi eyş-işrətlə məşğul olurlar. Sonra, kişilərdən və qadınlardan ibarət olan bu yığıncaqlarda işığı söndürür və əllərinə keçən qadınlarla oturur və yaxınlıq edirlər. Bu xürrəmilər iddia edirlər ki, qədim zamanlarda onların Şərvin adlı bir şahları varmış. Onlar Şərvini peyğəmbərlərdən də üstün tuturlar. Bunlar bəzən ölülərinə ağladıqları zaman onu yad edər və ağlarlar».

Başqa bir yerdə deyir: «Tarixçilər göstərir ki, batinilər Məmun zamanında təbliğata başladılar və onların məramı Mötəsim zamanında çox yayıldı. Mötəsimin adamlarından Əfşin adlı bir nəfər onların dəvətini qəbul etdi və buna görə də o, Babək xürrəmi ilə yaxşı rəftar edirdi. Bunun nəticəsində islam qoşununun bir hissəsi məğlub oldu. Nəhayət, Budüləf İcli ilə Abdullah ibn-Tahirin sərkərdələri birləşərək Babək xürrəmini məğlub etdilər; onu tutub 223-cü (837-838) ildə Sürrə-mənrəa şəhərində dara çəkdilər».

İmam Fəxri Razi «Etiqadatu firəq-il-müslimin və-l-müşrikin» adlı kitabında yazır: «Babəkilər Babəkin tərəfdarları idilər. Babəkin özü isə azərbaycanlı idi. Onun qüdrəti uzun müddət artmaqda idi. O, küfrün yolunu açdı. Bir çox adam onun başına toplandı. Bu iş isə Mötəsimin zamanında oldu. Bir çox şiddətli vuruşmalardan sonra onu tutdular və beləliklə də onun bəlası aradan qaldırıldı».

Seyid Mürtəza ibn-Dan Həsən Razi «Təbsirət-əl-əvam fi mərifəti məqalat-əl-ənam» adlı kitabında Əbu Müslümiyyə firqələri haqqında belə yazır: «Onların ikinci bir firqəsinin adı Rizamiyyə idi. Onlar deyirdilər ki, Məhəmməd ibn-Əli öz oğlu İbrahimə vəsiyyət etdi ki, Əbu Müslüm qiyam etdikdə onunla olsun. Əbu Müslüm isə çalışırdı ki, ona qoşulsun. Onlar deyirdilər ki,



Əbu Müslüm dəlillər və möcüzələr sahibidir Bu tayfaya xürrəmiyə də deyirlər. Onlar ölkənin hər yerinə yayılmışdır. Onların sələfi və başçıları Rizam adlı bir şəxs idi. Buna görə də onları rizamiyyə adlandırırlar. Əl-Müqənnə də bunlardan idi. O, iddia edirdi ki, Əbu Müslümün ruhu onun bədəninə keçmişdir, o, allahdır. O öz iddiasına Mavəraünnəhrdə, Kəş şəhərində başlamışdır».

Başqa bir yerdə (həmin müəllif) deyir: «Bil ki, bu xalqı hər yerdə bir adla çağırırlar. Onlara İsfahan və onun nahiyələrində xürrəmiyə, Qəzvin və Reydə məzdəki və sümbadi, Maheyndə mühəmmirə, Azərbaycanda qovliyyə, Orta Asiyada isə muğlar deyirlər».

Maheyn dedikdə xəlifələr zamanındakı (qədim) İranın qərbində yerləşən iki nahiyə nəzərdə tutulur. Bu nahiyələrdən birinə Mahkufə deyərdilər. Onun iki iqamətgahı (mərkəzi şəhəri) var idi-Kirmanşah və Dinəvar. Nahiyələrdən ikincisinin adı Mahbəsrə idi. Onun isə hakimnişin şəhərləri Nəhavənd və Brucird idi. Burada təsniə-ikilik şəklində işlədilmiş «mah» sözü «mad» sözünün yeni variantıdır. «Mad» isə vətənimizin ilk dövrlərində yaşamış olan iki böyük iranlı qəbilələrindən birinin adidir.

Bundan sonra müəllif deyir: «İsmaililərə batiniyyə, qəramitə, xürrəmiyyə, səbiyyə, babəkiyyə və mühəmmirə də deyirlər. Batiniyyə adlanmalarının səbəbi budur ki, onların fikrincə, quranın və Məhəmmədə aid hədislərin zahiri və batini mənaları vardır. Zahir qabıq, batin isə onun məğzi deməkdir, badamın qabığı və içi kimi. Bu fikri irəli sürənlər aşağıdakı ayəni əldə əsas tuturlar:

له‌باب باطنه فيه اترحمة و ظاهره من قبله العذاب،

Yəni «Onun bir qapısı var ki, batinində (içərisində) mərhəmət var, amma zahiri əzaba (əziyyətə) tərəf açılır». Onların dediklərinə görə, allah nə vardır, nə yox, nə diridir, nə də ölü, nə qadirdir, nə aciz, nə alimdir, nə cahil, nə dillidir nə dilsiz, nə gözü vardır, nə də kordur, nə eşidir və nə də kardır. Onlar allahın bütün xüsusiyyətlərini bu nöqteyi-nəzərdən izah edirlər.

Deyirlər ki, allahı ancaq həqiqi bir müəllimin sözü ilə tanımaq olar. Yenə deyirlər ki, İsa nəccar Yusifin oğlu idi: hərçənd

quranda deyilir ki, «İsanın atası yox idi ki, ondan təlim ala bilsin, əslində isə İsa elmi həqiqi müəllimdən deyil, nəqiblərdən (başçılardan) öyrənmişdi. İsanın ölüləri diriltmək məsələsinin mənası budur ki, o, xalqın könlünü elmin vasitəsilə dirildir, onları ruhlandırır, doğru yola dəvət edirdi. Beləliklə, onlar belə sözlərlə bütün dini qanunları şəriəti ləğv etmək istəyirdilər. Onların fikrincə, zahiri vəzifələri yerinə yetirmək xalq üçün heç də vacib deyildir; mövlana (başçı) adlanan adama itaət etmək, namaz qılmaq deməkdir; sənin və ehtiyacından artıq qalan hər şeyi ona (mövlaya) vermək–zəkat vermək deməkdir, xalqı başçılara itaət etməyə çağırmaq–ucadan namaz qılmaq deməkdir. Mövlananın gördüyü işlər qarşısında susmaq, onun eybini tutmamaq–oruc tutmaq deməkdir. O, nalayiq işlər görsə də, onu düzgün bilməli və heç vaxt etiraz etməməlisən. Bir sözlə, ona o dərəcədə itaət etməlisən ki, əgər o «öl» desə, dərhal tərəddüd etmədən özünü öldürməlisən. Onların dediklərinə görə, həccə getmək–imamın yanına getmək deməkdir. İmkanı olan hər bir şəxs mütləq onun xidmətinə getməli və onu görməlidir. Onlar bütün haram sayılan şeyləri halal bilirlər və deyirlər ki, haram elə bir tayfadır ki, ona qarşı gərək düşmənçilik edəsən, ona nifrət bəsləyib lənət oxuyasan. Onların dediklərinə görə, dini fərizələr (vəzifələr) ondan ibarətdir ki, dost bildiyin bir xalq ilə yaxşı rəftar edəsən.

Deyirlər: allahın اذقال الشيطان للانسان كفر (şeytan insanın ən qəddar düşmənidir) ayəsindəki şeytan–Ömər, insan isə Əbubəkrdir. Onlar deyirlər ki, quranın hər hansı bir ayəsində Firon və Hamanın adı çəkilirsə, orada Firondan məqsəd Ömər, Hamandan isə Əbubəkrdir.

Beləliklə, onlar bütün quranı və peyğəmbər haqqında olan hədislərin hamısını bu tərzdə təfsir edirlər. Hurrəmidiniyyə də bu tayfaya mənsubdur. Bu xalq Azərbaycan ölkəsinin Bəzz adlanan dağlıq nahiyəsində yaşayır. Onlar deyirlər ki, islamdan əvvəl Şərvin adlı bir hökmdar özünü peyğəmbər elan etdi. O, Məhəmməddən və bütün başqa peyğəmbərlərdən fəzilətli və üstün idi.



Onların dediyinə görə, vüzu[1] təsis etdikləri dinin əsasıdır; namaz fəsahətli natiq deməkdir; dan[2] gözəl və uca boylu olmalıdır ki, xalqı onların dininə çağıra bilsin (Allahın dediyi ان الصلوة تنهى عن الفحشا ؤ المنكر (salavat asi və (allahı) inkar edənlərə qadağandır) ayə üçün elə bir natiq lazımdır ki, salavatı xalqa qadağan edə bilsin, çünki salavat əməlin zahiridir və əməli qadağan etmək təsəvvürə gələn şey deyil, bəlkə bu əməli tutan adama nəhy tələb etmək olar».

Bu sözlərdən sonra başqa bir yerdə yazır: «Babəkiyyə-Babəkin tərəfdarları deməkdir. Bu məlun azərbaycanlı idi. Bir çoxları onun başına toplaşaraq, dinə böyük xələl yetirdilər. Saysız-hesabsız tərəfdarı olan bu adam üsyan etdi. Mötəsim zamanında, bir neçə döyüşdən sonra onu tutub öldürdülər».

Söz yox ki, babəkilər və ya xürrəmilər Babəkin təkcə Azərbaycandakı tərəfdarlarından ibarət olmayıb, İranın başqa nahiyələrində, xüsusilə mərkəzdə, İsfahan ətrafında, Azərbaycanın, Təbəristanın, Xorasanın, Baqdadın, Farsın, Kirmanın və Xuzistanın bütün dağlıq hissələrində və eləcə də Nəhavənd, Həmədan, Rey, İsfahan, Kaşan, Qum, Semnan, Damğan və Qəzvinə baxan dağlıqlarda xürrəmilər olmuşlar. Onların mühum mərkəzlərindən biri Həmədan idi. Onlar ən çox kəndlərdə və dağlıq yerdərdə yaşayırdılar və fürsət tapdıqca üsyan edərək öz müxaliflərini istər gizlində və istərsə döyuş meydanlarında öldurərdilər. Bu cəhətdən həm də onların fəaliyyət göstərdikləri yerlər V və VI əsrlərədək batinilər və üsmaililərin yaşadığı yerlər olduğuna görə, onları batinilər və üsmaililərdən hesab etmişlər.

Bəzi əlamətlərə əsasən ehtimal etmək olar ki, xürrəmdin məzhəbi iki əsas unsürdən ibarət imiş: birincisi, islamdan əvvəl İranın ariya unsürü. Ola bilsin ki, məzdəkilərin bəzi əqidələri bu məzhəbə daxil imiş. İkincisi, islamdan sonrakı dövrlərdə iranlılara məxsus irticaçı və milli ünsür. Bu ünsür İranda ərəblərin qüdrətini sarsıtmaq və ərəb xəlifələrinin zülm və ədalətsizliyinin qarşısını

[1] *Vüzu* - dəstəmaz.

[2] *Dan* – dua edən, xütbə oxuyan.

almaq məqsədilə vətənpərəst iranlıların qıraq-bucaqda yaratdıqları bir sıra azadlıq hərəkatının bir növüdür. Cavidan və Babəkin yaratdıqları bu hərəkat da Əbu Müslüm, Beha-Fərid, Müqənnə, Sunbad, Estazsis, Azərək oğlu Həmzə, Rəvənd oğlu Abdullah, Mazyar, Sahibzənc hərəkatı, habelə qərmətilər, giramilər, İran xəzaricinin (dindən xaric olanların) başqa şöbələri və İranın şüubiyyə hərəkatı, o cümlədən qızılbayraqlılar, ağköynəklilər və əsb-novəbti səhabələrinin cərəyanı kimi bir hərəkat olmuşdur. Sonralar ismaililər də bunların işini davam etdirmişlər. Məhz buna görə də xürrəmilər haqqında yazan tarixçilər və başqa yazıçılar məsələnin kökünü düzgün təyin edə bilmədiklərindən bütün bu müxtəlif dəstə və təriqətləri bir-birinə qarışdırmışlar.

Əbu Mənsur Bağdadi «Əl-fərq beyn əl-firəq» adlı əsərində məzdəkilər haqqında belə yazır: «İbahə[1] tayfasının ilk dəstəsi məzdəkilər, ikincisi isə islam dövləti zamanında meydana gələn xürrəmdinlər idi. Onlar da iki dəstəyə – babəkilərə və mazyarlara bölunür; hər ikisi «mühəmmirə» adı ilə məşhurdur.

Babəkilər Babək xürrəminin tərəfdarları idi, Babək Azərbaycanın Bəzzeyn adlı dağlıq bir nahiyəsində meydana çıxaraq, başına çoxlu tərəfdar topladı. O, haram işləri halal bilirdi; «coxlu müsəlman qırdı. Bəni Abbas xəlifələri Əfşin Haçib, Məhəmməd ibn Yusif Səğəri, Əbudüləf İcli və başqalarının sərkərdəliyi altında çoxlu qoşun göndərdilər. Həmin qoşun hissələri onlarla iyirmi il döyüşdükdən sonra Babəki, qardaşı İshaq ibn-İbrahim ilə birlikdə əsir etdilər və Mötəsim zamanında Samirədə dara çəkdilər».

Həmin müəllif başqa bir yerdə batinilər haqqında deyir: «Batinilər öz təriqətlərini ilk dəfə Məmun zamanında təbliğ etməyə başladılar. Mötəsim zamanında isə bu təriqət daha geniş surətdə yayıldı. Deyirlər ki, Mötəsim qoşununun başçısı olan Əfşin Babəkə uymuş və onun dəvətini qəbul etmişdi. Həmin xürrəmi Bəzzeyn adlı yerdə meydana gəlmişdi. O dağlıq yerin əhalisi Məzdək dinində olan xürrəmilər idi. Xürrəmilərlə batanilər əlbir idilər. Xəlifə o zamana qədər müsəlmanların dostu kimi tanınmış

[1] *İbahə*-hər şeyi mübah, yəni halal bilənlər



olan Əfşini onun müharibəsinə göndərdi. Halbuki o, qəlbində Babəklə dost idi. Camaatı qırmaqda və qadınların namusuna təcavüz etməkdə onunla əlbir idi. Sonra Əfşinə kömək göndərildi. Məhəmməd ibn-Yusif Səğəri və Əbudüləf Qasim ibn-İsa İcli də ona qoşuldular. Abdullah ibn-Tahirin döyüşçüləri də onlara kömək etdilər. Babəkilərin və qərmətilərin qüvvəsi müsəlmanların qüvvəsinə üstün gəldi. Onlar babəkilərin qorxusundan özləri üçün Bərzənd adlı məşhur bir şəhər saldılar. Beləliklə, müharibə bir neçə il davam etdi. Nəhayət, allah müsəlmanlara kömək etdi. Babək əsir düşdü və 223-cü ildə Samirədə dara çəkildi. Babəkin qardaşı İshaq da tutuldu; onu da Qorqan və Təbəristan qızılbayraqlılarının başçısı Mazyar ilə bir yerdə Bağdadda dara çəkdilər».

Bu kitabın yazılışında və birinci çapında gedən səhvlərdən, habelə əsl mətndə bir çox ərəb sözlərinin təhrif olunduğundan başqa, bu sözləri yazan müəllif iki böyük səhv buraxmışdır. Birincisi odur ki, Babəkin qardaşının adını İshaq ibn-İbrahim deyə göstərmiş, halbuki aşağıda göstərəcəyimiz kimi, bütün başqa mənbələr «Abdullah» yazmışlar. Lakin İbn-ən-Nədim «Əl-Fehrist» kitabında Babəkin atasının adını Abdullah deyə qeyd etmişdir.

Bu hadisələrdə adı çəkilən İshaq ibn-İbrahim Tahiri-Tahir zül-Yəmineynin (Tahir ibn-Hüseyn ibn-Məsəbin) əmisi oğludur. İranın məşhur sərkərdəsi Tahiri xanəndanın adlı-sanlı adamlarından olan bu şəxs Bağdadın əmiri idi. Babəkin qardaşı Abdullahı Samirədən onun yanına göndərmişdilər, o da Bağdadda onu dara çəkmişdi.

Həmin müəllifin başqa bir səhvi ondan ibarətdir ki, o deyir: «Babəkin qardaşını Bağdadda Mazyar ilə birlikdə dara cəkmişlər. Babəkin qardaşı Abdullahı 223-cü (837-838) ildə Bağdadda dara çəkdidər, Mazyarı isə 225-ci (839-840) ildə, yəni Babəkdən iki il sonra Samirənin xaricində, haqqında sonralar bəhs edəcəyimiz «Keniseyi-Babək» deyilən məşhur bir təpənin üstündə, vaxtilə Babəkin və Əmuriyyə patriarxı rumlu Yatisin dara çəkildiyi iki dar ağacının yanında, başqa bir dar ağacından asdılar».

Yuxarıda dediklərimizdən başqa Nizam-əl-Mülk «Siyasətnamə»nin ayrı bir yerində yazır: «Xürrəmdinlər üsyan etdikləri

zaman batinilər onlarla əlbir olaraq onlara qüvvət vermişlər. Hər iki məzhəbin əsli birdir».

Yaqut Həməvi «Möcəm-əl-büldan» adlı əsərində «Bəzz» sözünü izah edərək yazır: «Orada Xürrəmiyyə adı ilə məşhur olan Mühəmmirə (təriqəti) meydana çıxdı. Babək də o yerdən idi. Onlar (imam) Mehdinin zühurunu gözləyirdilər».

İbn-əl-Əsir 201-ci (816-817) ilin hadisələrindən bəhs edərkən yazır: «Bu ildə Babək xürrəmi cavidaniyyə məzhəbi adından çıxış etdi. Cavidanilər isə Bəzz (adlı yerin) sahibi Cavidan ibn-Səhlin tərəfdarları idi. O (Babək), iddia edirdi ki, Cavidanın ruhu ona köçmüşdür. Onlar məcus tayfasının bir dəstəsidirlər. Kişiləri öz ana, bacı və qızları ilə ər-arvad kimi yaşayırlar və buna görə də onlara xürrəmi adı verilmişdir. Onlar tənasüx (metempsixoz) məzhəbinə inanıb, deyirdilər ki, ruh bir canlının bədənindən başqasına keçir».

Etimad-əs-Səltənə «Müntəzəmi-nasiri» adlı əsərində bu xüsusda belə yazır: «Əvvəlcə Babəki xürrəmi tənasüx nəzəriyyəsinə inanan cavidaniyyə təriqəti tərəfdarları arasında meydana gəlmişdir, onlar deyirdilər ki, ruhlar bədənlərə köçür».

Məhəmməd-ibn-Əbdül Kərim Şəhristani «Kitab-əl-miləl və nihəl» adlı əsərində haşimiyyə haqqında belə deyir: «İbn Haşim ibn-Hənəfinin müridləri və imam Abdullah ibn-Müaviyyə ibn-Abdullah ibn-Cəfər ibn-Əbu Talibin tərəfdarları, habelə İraqdakı xurrəmilər və məzdəkilər də onlardandırlar». Yenə başqa bir yerdə də qullat haqqında danışarkən yazır: «Ğaliyənin müxtəlif ləğəbi vardır. Bulara İsfahanda xürrəmiyyə və kudəkiyyə, Reydə məzdəkiyyə və sünbadiyyə, Azərbaycanda züquliyyə, başqa yerdə mühəmmirə və Orta Asiyada mubəyyizə deyirlər».

Yuxarıda qeyd edildiyi kimi, Səmaninin «Kitab-əl-ənsab» adlı əsərində irəli sürdüyü mülahizələrindən görünür ki, xurrəmdinlər Səmaninin yaşadığı VI əsrin yarısınadək haqqında sonralar bəhs edəcəyimiz Babəkin vətənində yaşamışlar. Çünki Səmani Mərv şəhərində 506-cı (1112-1113) ildə şəban ayının 21-də düşənbə günü anadan olmuş və 562-ci (1166-1167) il rəbiəl-əvvəl ayının birinci gecəsi həmin şəhərdə vəfat etmişdir.



**ŞƏHRƏKİN OĞLU CAVİDAN**

Babəkin müəllim və rəhbəri olan Cavidan Babəkdən qabaqkı xürrəmdinlərin rəhbəri idi. Yanlış olaraq onun atasının adını bəzən Səhl, bəzən Şəhrək və ya Səhrək yazmışlar. Bizcə, onun atasının adı Şəhrək imiş. «Səhl» və «Səhrək» isə farsca «Şəhrək» sözünün təhrif olunmuş şəklidir ki, bu da katiblərin xətası üzündən əmələ gəlmişdir.

İbn-Vazeh Yəqubi «Kitab-əl-büldan» adlı əsərində yazır: «Azərbaycan şəhərlərinin əhalisi Babəkin vətəni olan Bəzz şəhərində yaşayan azərilər və cavidanilərdən mürəkkəb bir xalqdır».

Təbəri 201-ci ilin hadisələrindən danışarkən yazır: «Həmin il cavidanilər təriqətində olan Babək xürrəmi meydana gəldi. Onlar da Bəzzin sahibi Cavidan ibn-Səhlin tərəfdarları idilər.

Babək iddia edirdi ki, Cavidanın ruhu onun bədəninə köçmüşdür. O, fitnəkarlığa başladı».

**XÜRRƏMİLƏRİN VƏTƏNİ**

Demək olar ki, başdan-başa bütün İran xürrəmilərin və iranlılara məxsus olan bu məzhəbin tərəfdarlarının vətəni olmuşdur. Onların vətəni bir tərəfdən Təbəristana çatırdı. Məsələn, Mazyar haqqında belə yazmışlar: «Mazyar Mötəsimə qarşı üsyan etdikdə bütün müsəlmanları işdən çıxarıb, onların yerinə zərdüştiləri və xürrəmiləri təyin etdi. Onları müsəlmanlara hakim edərək tapşırdı ki, məscidləri dağıdıb, islamdan bir əsər belə qoymasınlar».

O biri tərəfdən Bəlxə qovuşurdu, necə ki, İbn-əl-Nədim «Kitab-əl-Fehrist» adlı əsərində deyir: «Bu müslümiyyə tərəfdarlarının bir parasını xürrəmdiniyyə adlandırırlar və deyirlər ki, onların bir hissəsi Bəlxdə yaşayır».

Bir tərəfdən də xürrəmilər Azərbaycanda və İsfahan torpağında, habelə Kərəc, Luristan, Xuzistan, Həmədan, Bəsrə, Qum, Kaşan, Rey və Xorasanda da yaşamışlar. Necə ki, Məsudi «Kitab-ət-tənbih və l-əşraf» adlı əsərirdə yazır: «Babəkin müəllimi Cavidan ibn-Şəhrəkin tərəfdarları hesab olunan cavidanilər barəsində «Fil-məqalət fi-l-üsul-əd-dəyanət» və «Sirr-əl-həyat» adlı

kitablarında qeyd etdiyi kimi, xürrəmiyyə, kudəkiyyə, kudəkşahiyyə təriqətləri və onun şöbələri İsfahanda, Bücdə, Kərəcdə, Əbudüləfdə, Zəzeyində, yəni Zəzi-məqil və Zəzi-Əbudüləfdə, Mehrcan-Qəzəq[1] nahiyəsinin Seymərə kəndlərindən olan Vərsəncan, Qəsəm və Kuzəştdə, Masobzan nahiyəsinin şəhərlərindən olan Sirvan, Ayruçan qəsəbələrində, Həmədan, Mah-Kufə, Mah-Bəsrə, Azərbaycan, Qum, Kaşan, Rey, Xorasan və habelə İranın başqa nahiyələrində də olmuşlar».

Bürc İsfahanın qəsəbələrindəndir. Kərəc (farsca isə Kərəh) Həmədandan İsfahana gedən yolun ortasında, İsfahanın qərbində, Brucirdin 10 ağaclıqında, Bürcün 12 ağaclığında və Novböncanın 10 ağaclığında yerləşən bir şəhərdir ki, oradan da İsfahana 30 aqacdır. Kərəcdən Həmədana da 30 ağaclıq yol var.

Əbudüləf Qasim ibn-İsa ibn-İdris ibn-Məqil İcli Bəni Abbas sarayının görkəmli xadimlərindən olub, 226-cı ildə ölmüşdür. 0, Kərəc şəhərində anadan olduğuna görə, Kərəci başqa şəhərlərdən fərqləndirmək üçün ona Kərəci-Əbudüləf deyirdilər.

Bürc və Kərəc iki ayrı-ayrı müstəqil nahiyələrdir. Bu nahiyələrin adına ikilik bildirən «eyn» şəkilçisi əlavə etməklə İqareyn və ya İqaran da deyirdilər, İqar isə o, zamanın istilahına görə, elə bir nahiyəyə deyilirdi ki, onun vergiləri müqatiə şəklində müəyyən bir şəxsə verilsin. Bu söz, demək olar ki, «iqta» və ya monqol dilindəki «incu», habelə türk dilindəki «tiyul» sözlərinin qarşılığıdır.

Bu iki nahiyədən alınacaq vergi və xərac həmin Əbudüləfin oğulları İsa və Məqilə müqatiəyə verildiyinə görə, onlara bu adı qoymuşdular.

Kərəcin qədim adı olan Kərəh indiki Kərəhrudun üstündə qalmışdır. İkilik bildirən «eyn» şəkilçisi ilə işlədilən «Zəzeyn»də biri İsfahan ilə Luristanın dağlıq hissəsi arasında olan Lalistanda, digəri isə Həmədan nahiyəsində yerləşən və bir-birinə bitişik iki kəndin adıdır. Bu kəndlərin də vergisi müqatiə şəklində Məqilə

[1] Təqribən bütün fars və ərəb dilində olan kitablarda bu günkü Xürrəmabadın yaxınlığında olan bu rayonun adını yanlış olaraq «Mehrcan Qəzəf» yazmışlar. Söz yox ki, «Mehrcan Qəzəq» yazılmalıdır. Çünki bu «Mehrcankəndə» sözünün ərəbləşmiş şəklidir.



və onun atası Əbudüləfə verildiyindən birinə Zəzi-Məqil, digərinə isə Zəzi-Əbudüləf deyirdilər.

Kitablarda Vərsincan, Qəsəm və Güzəşt adlı yaşayış məntəqələri haqqında heç bir şey yazılmamışdır. Lakin anlaşıldığına görə bu üç yaşayış məntəqəsi İsfahan ilə Seymərə arasında yerləşmişdir. Müəllifin özü də Xürrəmabadı «Seymərə» torpağı deyə izah etmişdir. Tehran nahiyəsində Kuhdəşt adında bir qəsəbə vardır. Ola bilsin ki, elə bu həmin qədim Güzəştdir.

Seymərə dağlıq hissə ilə Xuzistan arasında bu günkü Luristanın Mehrcan Qəzəq ərazisində yerləşən bir şəhər imiş. İndi bu şəhərin yerində kiçik bir kənd vardır. Bu şəhər ilə bu günkü Tehran arasında bir körpü çəkilmişdir ki, onun da qalıqları indi durur və keçmişdə ona böyük əhəmiyyət verirmişlər.

Sirvan dağlıq hissədə yerləşən bir şəhər imiş. Masobzan ölkəsinin hakimi orada oturardı. Ərivcan da, mətndən anlaşıldığı kimi, həmin nahiyədə imiş. Masobzan Mehrcan Qəzəq, Sirvan və Seymərə ilə qonşu bir nahiyə imiş, Ərivcan da onun şəhərlərindən biri idi. Ərivcan Hülvandan Həmədana gedən yolun üstündə, düzənlikdə yerləşmişdi. Mah-Kufə İranın qərb nahiyələrindən biri idi. Mah-Kufənin iki hakimnişin şəhəri var idi: biri Dinəvər şəhəri, digərisə indiki Kirmanşah imiş ki, onun adını Qərəmsin, Qərmasin və bəzən də Qərmisin şəklində yazmışlar.

Mah-Bəsrə onun cənubunda yerləşən bir nahiyə imiş. Nəhavənd və Brucird şəhərləri bu nahiyənin iki ayrı-ayrı hakimnişin şəhəri hesab olunurdu.

Mah-Küfə və Mah-Bəsrə sözlərindəki «mah» sözü və hətta «Masobzan» sözündəki «ma» sözü göstərir ki, bunlar «mad» sözünün islam dövründə işlədilən şəklidir, «Mad» sözü isə vaxtilə bu nahiyələrdə yaşayan madlardan (midiyalılardan) yadigar qalmışdır.

## BABƏK VƏ ONUN VƏTƏNİ

İranda məzhəb sahibləri içərisində xürrəmdin Babəkdən başqa bir Babək də olmuşdur. Bəzi müəlliflər bu iki Babəki bir-birilə qarışdırmışlar. İbn-əl-Nədim «Əl-Fehrist» kitabında ikinci Babək haqqında yazır: «Xulaniyyə-Məlihi-Xulaninin tərəfdarları

deməkdir. 0, Bəhramın oğlu Babəkin şagirdi idi. Babək isə Şilinin şagirdi idi. O, Şili ilə yoldaş idi: yəhudi dininə sitayiş edərdi».

Xürrəmdin Babəkin hökmranlıq etdiyi və öz məzhəbini yaydığı yer bu günkü İranın şimal-qərbində yerləşən geniş bir ölkədir. Bu ərazinin bir hissəsi hazırda İran Azərbaycanı ərazisi, digər hissəsi isə Azərbaycan Respublikasıdır ki, qədim zamanlarda oraya daha çox Arran deyərdilər. Çox qədim zamanlarda ariya irqindən ibarət bir qəbilə bu ərazidə yaşayarmış. İranlılar bunlara «alan» və «alani» deyirdilər. Bu sözü qədim Avropa dillərində, xüsusilə yunan dilində «alban», ölkələrini isə «Albaniya» şəklində qeyd etmişlər. Nisbətən yaxın dövrlərdə «alan» sözü İran dillərində «arran» şəklində yazılmışdır. Ərəblər oraya getdikdə, əvvəlcə bu yerin adını «Əlran» qeyd etmişlər, sonralar isə «r» hərfini şəddələyib «arran» kimi tələffüz etmişlər. Müasir dövrdə avropalılar Adriatik dənizinin cənub-qərb sahillərində yaşayan arnaudların ölkəsinə «Albaniya» demişlər. Əvvəllər Arran ərazisini şimal-şərqdən Dərbəndə, qərbdən isə Tiflisə, cənub və cənub-qərbdən Kür çayına qovuşan bir nahiyə kimi tanıyardılar. Bu yerin hüdudu Babək dövründə də belə idi. Sonrakı dövrlərdə Arranı Şirvan və İran Azərbaycanı, yəni Kür ilə Araz çayları arasında yerləşən bir nahiyə kimi tanıyırdılar. Bu nahiyənin paytaxtı islamdan əvvəl qabaqca Kəvalək olmuş, ərəblər isə ona Qəbələ adı vermişlər. Bu yer Qafqazın ən böyük şəhəri sayılırdı. Sonralar Arranın hakimnişinliyi Piruzabad şəhərinə köçdü. Ərəblər bu şəhəri «Bərdə» və «Bərdəə» adlandırırdılar. Bu şəhər ərəblərin «ثرثور» şəklində yazdıqları Tərtər çayının Kür çayına töküldüyü nöqtəyə yaxın bir yerdə salınmışdı.

Hicri IV əsrə qədər Bərdə ətrafında Arran ya Alan dilində danışardılar. Bu ərazidə həm də xristian dini davam edirdi. Eləcə də Quba şəhərinin təqribən 25 kilometr cənub-şərqində indi də qalıqları duran Şabran və bu gün Nuxa adlanan Şəki şəhərləri əhalisinin çoxu xristian idilər.






Azərbaycanda Babəkə tabe olan yerlər.

Ərəblər Arran ərazisinə Osman ibn-Əffanın xilafəti (23-35= 643/44-655/56) dövründə gəlməyə başladılar. Səlman ibn-Rəbiə Bahili bu ölkəni fəth etməyə təyin edildi. Lakin Arranın qonşuluğunda olan Xəzər türkləri bir neçə dəfə buraya hücum edərək, xilafətin qoşunlarını darmadağın etdilər. Arranda ərəblər tərəfindən vurdurulan ilk sikkənin tarixi hicri 90-cı ili göstərir.

Xilafət zamanı ərəblər Arran torpağını Qafqazda fəth etdikləri başqa nahiyələrlə birləşdirərək, ona «Ərminiyyə», yəni Ermənistan adı verdilər.[1] O vilayətin mərkəzi çox vaxt bu nahiyə-

[1] Beləliklə, aydın olur ki, məhz ərəblər bu torpaqları Ermənistan adlandırmışdır. Əslində isə tarixi Ermənistan Aralıq dənzinin sahillərində (Kilikiya) yerləşir. Arran ərazisinin isə tarixi Ermənistana heç bir dəxli yoxdur. Erməni tarixçiləri məhz buradan çıxış edərək tariximizi saxtalaşdırırlar. Müasir tarixçilərin başlıca vəzifəsi bundan ibarətdir ki, onlar ilk növbədə ərəb mənbələrində rast gəldikləri «erməni» adı altında kimlərin olduğunu aydınlaşdırmalı, bu ad altında hansı etnik mənsubiyyətin olduğunu aşkara çıxarmalıdırlar. Əgər bu fikri müasir dövrlə əlaqələndirsək, görərik ki, «amerikalı» termini irlandiyalı, alman, ispan, hindu, rus və bütün dünya millətlərinin nümayəndələrini əhatə edir.—nəşriyyatın qeydi.

nin böyük şəhəri hesab edilən Bərdə olmuşdur. İslamdan əvvəl, Alanların bir xanədanı bu ərazidə padşahlıq etmiş, sonralar isə aradan getmişdir.

Miladi VI əsrin axırlarında bu ölkənin hökmdarlığını ələ alan İran hökmdarlarından Mehrəqan xanədanı xristian dinini qəbul etdi. Deyildiyinə görə, bu xanədan guya bu ölkənin yalnız bir hissəsində hökmranlıq etmişdir. Onların xələflərinə islam dövründə İranşah deyirdilər. Qonşuları olan Şirvan padşahlarının ləqəbi isə Şirvanşah idi, Şirvan nahiyəsi Kür çayı ilə Xəzər dənizinin arasında idi. İranşahlar xristian dinində tutmuş olduqları mövqelərinə görə onlara «Arran petriki» də deyirdilər. Mehrəqan xanədanının Varaz-Tirdat adlı sonuncu padşahı qohumlarından biri tərəfindən guya 206-cı (821-822) ildə öldürülmüş və beləliklə də bu xanədan aradan getmişdir.

Babəkin vətəni cənub tərəfdən Ərdəbil ilə Mərəndə, şərq tərəfdən Xəzər dənizinə, Şamaxı və Şirvana, şimaldan Muğan düzü ilə Muğana və Araz çayı sahilinə, qərbdən isə Culfa, Naxçıvan və Mərənd nahiyələrinə qovuşurdu. Başqa sözlə desək, indiki Ərdəbil, Muğan və Araz düzənliklərini, Ordubad, Culfa, Naxçıvan və Mərənd nahiyələrini əhatə edirdi.

Babəkin yaşadığı yer Savalan dağının şimal hissəsində idi. Yollarının çətinliyi, havasının soyuqluğu və dağlarının ucalığına görə uzun müddət kimsə onlara (Babəkə) əl tapa bilməmişdi. Otuz ildən artıq bir müddət ərzində xürrəmilərin davasına göndərilən qoşun hissələri heç bir iş görə bilmədi. Nəhayət, xəyanət vasitəsilə ona (Babəkə) əl tapdılar.

O zamanın tarixçiləri Babəkin yaşadığı yerin Bəzz dağı olduğunu qeyd etmişlər. Bəziləri bu sözü ikilik bildirən «eyn» şəkilçisi ilə Bəzzeyn şəklində də yazmışlar. Buradan aydın olur ki, bu anda bir-birinə yaxın iki yaşayış məntəqəsi varmış. Ola bilər ki, Bəzz Bəzzeyn dağlığı Muğan düzənliyinin (indiki Muğanın) cənubunda olan həmin dağlıq nahiyə imiş. İbn-Xordadbeh «Kitab-əl-məmalk və l-məsalik» adlı əsərində Ərdəbil ilə Babəkin qərargahı olan Bəzz şəhəri arasındakı yaşayış məntəqələrinin məsafəsini belə göstərmişdir: Ərdəbildən Xoşa səkkiz ağac, oradan da Bərzəndə altı ağacdır (deməli, Ərdəbildən Bərzəndə on dörd ağac imiş). Bərzənd xaraba qalmışdı. Əfşin onu abad etdi. Bərzənddən Sadrəsbə, Əfşinin birinci səngərinədək iki ağacdır (o halda Ərdəbildən Sadrəsbə qədər on altı ağac olmalıdır), oradan Zəhrkoşə, yəni Əfşinin ikinci səngərinədək iki ağacdır (beləliklə, Ərdəbildən buraya qədər on səkkiz ağac imiş). Oradan Dəvalruda, yəni Əfşinin üçüncü səngərinə qədər iki ağacdır (belə olduğu halda Ərdəbildən Dəvalrudadək iyirmi ağac imiş). Oradan da Babəkin şəhəri olan Bəzzə qədər bir ağacdır. Beləliklə, Ərdəbildən Babəkin qərargahı olan Bəzz şəhərinə qədər iyirmi bir ağac yol varmış.

Xordadbehin göstərdiyi bu yaşayış məntəqələrindən bu gün yalnız iki məntəqə qalmışdır. Birincisi, Xoşdur ki, indi İran Azərbaycanında «Koşa» adı ilə məşhurdur, ikincisi isə Bərzənddir ki, onun haqqında İranın coğrafi ensiklopediyasında (IV c, səh. 87) belə yazmışlar: «Bərzənd Ərdəbil vilayətində havası isti olan beş dehistandan[1] biridir. İsti iqimi olan bu dehistan dağlıq hissənin qərbində 34 böyük və kiçik kənd və yaşayış məntəqəsindən ibarətdir; əhalisi 3820 nəfərdir. Dehistanın mərkəzi Bərzənd qalasıdır. Əhəmiyyətli kəndləri bunlardır: Şahmar, Bəylk, Məralüy, Çəfərquluxan, İsmailkəndi, Şorfə, Qasımkəndi və Damda-baca. Əsas məhsulları taxıl və dənli bitkilərdir. Koşa və Bərzənd Ərdəbilin şimal-qərbində, Muğana gedən yolun üstündədir.

Deyildiyinə görə, hazırda istər Bəzz şəhəri, istərsə Bəzz və Bəzzeyn dağlıq nahiyəsindən bir əsər belə qalmamışdır. Bəzz nahiyəsi Muğanın haman cənubi nahiyəsidir ki, Araz çayı onun içindən axır. Neçə ki, Məsudi demişdir: «Araz çayı Azərbaycanda Babək xürrəminin vətəni olan Bəzzeyn şəhərlərinin içindən axır». Yalnız iş burasındadır ki, ərəb tarixçiləri «Ərəsi» (Araz) çox yerdə «Ər-rəs» yazmışlar.

Yaqut «Möcəm-əl-büldan» əsərində «Bəzz» sözü haqqında belə yazır: «Bəzz Azərbaycanla Arran arasında bir nahiyədir. Babək xürrəmi də Mötəsim zamanı oradan baş qaldırmışdı».

[1] *Dehistan*—kəndistan

Şair Misər demişdir ki, Bəzz təqribən üç cərib[1] məsafədə olan bir yerdir. Deyirlər, ora elə bir şəxsin qərargahıdır ki, hər kəs allaha dua edərsə, o şəxs onun duasını qəbul edib xahişini yerinə yetirər. Ondan bir az aşağıda böyük bir çay axır; ağır qızdırması olanlar bu çayda çimsələr sağalarlar. Onun yanından Araz çayı keçir. Dünyada misli görünməyən yaxşı narı olur. Yaxşı ənciri və elə bir üzümü var ki, onu təndirdə qurutmaq lazımdır. Çünki bu ölkəni həmişə bulud bürüyür və günəşin işığı oraya düşmür. Oranın əhalisi suyun içindən qırmızı qızıl qırıntıları tapırlar. Qadınlar onu içib pəhriz saxlasalar, kökələrlər.

Yaqut «Möcəm-əl-büldan»ın başqa bir yerində «Əbrəştəvim» sözü haqqında belə yazır: «Azərbaycanda Muğana baxan Bəzz bir dağdır ki, Babək xürrəmi orada olmuşdur».

İstəxri «Suvar-əl-əqalim» adlı əsərində Bərzəndi Azərbaycan şəhərləri sırasına salmış və başqa bir yerdə Bərzənd ilə Ərdəbil arasıldakı məsafəni on beş ağac göstərmişdir. O, başqa bir yerdə deyir: «Arranın hüdudu Dərbənddən Tiflisə qədərdir».

Sonra o yenə deyir: «Ərdəbil məni (batmanı) Şiraz məni kimi min qırx dirhəmdi. Fərqi yalnız budur ki, Şirazda mən Ərdəbildə isə rətl deyirlər. Dəbildə və onun ətrafında olan əhali ermənicə, Bərdə nahiyəsində isə Arran dilində danışırlar. Azərbaycan, Arranda yalnız qızıl və gümuş pul işlədilir».

İbn-Bazeh Yəqubi «Kitab-əl-büldan» adlı əsərində yazır ki, Azərbaycanın şəhər və nahiyələrində yaşayan xalq Babəkin olduğu Bəzz şəhəri əhalisindən olan qədim Azəri və cavidanilərdən mürəkkəbdir. Sonra ərəblər oraya axıb gəldilər və 22-ci ildə oranı fəth etdilər. Əffan oğlu Osmanın xilafəti dövründə Müğirə ibn-Şobə Səğəfi oranı fəth etdi. O yerin xəraci dörd minmin dirhəm idi. Bu pulu bir il artırır, o biri il isə əskildirlər.

Başqa yerdə Azərbaycanın sahəsi haqqında deyir: «Ərdəbildən Azərbaycanın nahiyələrindən biri olan Bərzəndədək üç günlük yoldur; Bərzənddən Azərbaycanın Vərsan şəhərinə, Vərsandan Beyləqana, Beyləqandan da Azərbaycanın ən yüksək şəhərlərindən olan Marağaya gedirlər».

[1] *Cərib*—144 yard (sahə ölçüsü).



Buradan aydın olur ki, Bərzənd Marağadan Ərdəbilə gedən yolun üstündə imiş.

İbi-əl-Fəqih «Kitab-əl-büldan» adlı əsərində Mötəsimin fütuhatından danışarkən yazır: «O, üç böyük qələbə əldə etmişdir... Bunlardai biri Babək üzərində çalınan qələbə idi... O, həmən Babəkdir ki, qoşunları məğlub etdi, sərkərdələri öldürdü, şəhərləri xaraba qoydu, xalqın ürəyinə vəlvələ saldı. Onu (Babəki) əsir etdilər, öldürdülər və Mazyarın yanında dara çəkdilər».

Həmin müəllif başqa bir yerdə Azərbaycan haqqında yazır: «Bərzənd bir kənd idi. Əfşin Babək ilə müharibə edərkən oranı ordusu üçün düşərgə etdi, orada qala və tikintilər yaratdı. Rəşidin xilafəti zamanından Xuzeymə ibn-Xazim Ərməniyyə və Azərbaycanın hakimi oldu, orada qalalar tikdi, hasarlar çəkdi, şəhərlər saldı; ora çoxlu qoşun topladı. Babək Ərməniyyəyə gələndə əhali oraya qaçıb, qalalara pənah apardı».

Başqa bir yerdə Təbəristan haqqında deyir: «Təbəristan Deyləmə, Qəzvinə, Dərbəndə və Babəkin şəhərlərinə bitişir. Oranın əhalisi müstəminədir[1]. Müsəlmanları qüvvətli gördükdə müsəlmanlarla, düşməni qüvvətli gördükdə düşmənlə dost olurlar. Bundan başqa orada bir dağ vardır ki, o, Qəzvinə və Babəkin şəhərlərinə qovuşur, oraya iyirmi ağac yol var».

Müəllif başqa bir yerdə Babəkin Samirədə asıldığı yeri belə təsvir edir: «Bir qamışlığın kənarında məclisi-şürtə qarşısındadır». Məclisi-şürtə bizim istilahla qalabəyi və şəhər rəisi idarəsi deməkdir. Həmin müəllif başqa bir yerdə Bərzəndi və Bəzzi Azərbaycanın şəhərlərindən hesab edir.

İbn-Hövqəl «Surət-əl-ərz» adlı əsərində deyir: «Ərran (Arran) ərazisinin sərhəddi Araz çayının aşağı tərəflərindən başlayır ki, onun kənarında Vərsan şəhəri yerləşmişdir. Vərsanın sağ tərəfində, çayın yaxınlığında Bərzənd şəhəri durur. Bərdədən Bərzəndə gedən yol ondan sonra Ərdəbilə, Miyanəyə, Xunca və Zəncana gedir.

Müəllif başqa bir yerdə Azərbaycanın yolları haqqında deyir:

[1] *Müstəminə*—tez təslim olub aman istəyən

«Vərsandan Bəlxaba qədər səkkiz ağacdır. Bəlxab çox əhalisi olan bir kənddir, müsafirlərə məxsus karvansaraları, evləri vardır. Bəlxabdan Beyləqanın yaxınlığında olan Bərzənd şəhərinə qədər yeddi ağacdır. Bərzənddən Ərdəbilə isə on beş ağac yol var. Bu yolun sağında və solunda bir-birinə yaxın kəndlər, evlər gözə çarpır».

Müqəddəsi «Əhsən-əl-təqasim» adlı əsərində Bərzəndi Azərbaycan şəhərlərindən hesab edərək, Vərsanın, Muğanın və Bərzəndin adını bir yerdə çəkir. Həmin müəllif başqa bir yerdə deyir: «Bərzənd kiçik bir şəhərdir, ermənilər buraya bazarlığa gəlirdilər və bu nahiyənin limanıdır. Ab-havası gözəldir»

«Hüdud-əl-aləm» adlı əsərin müəllifi bu nahiyələr haqqında yazır: «Bərzənd səfalı və abad bir şəhərdir. Axar suları və bollu əkini vardır, burada qətfəlik parça toxuyurlar. Muğan bir şəhərdir. Bu şəhərin bir nahiyəsi dəniz kənarında yerləşmişdir. Muğan nahiyəsində iki başqa şəhər də vardır ki, bunlara da Muğan deyilir. Bu yerlərdə rudinə çox əmələ gəlir. Çoxlu çuval, palaz toxunur. Vərsan olduqca bərəkətli bir şəhərdir ki, burada gəbə və namaz xalçaları toxunur. Göstərdiyimiz bütün bu şəhərlər Azərbaycandadır».

Həmdullah Mustovfi «Nüzhət-əl-qülub» adlı əsərinin «Tumani-Ərdəbil» fəslində yazır: «Babək xürrəmdinə qarşı olan Şeydak qalası Ərdəbil dağının Cilana doğru gedən tərəfindədir».

Babəkə tabe olan yerlər haqqında qədim coğrafiya kitablarında verilən məlumatlardan aydın olur ki, Bərzənddən Ərdəbilə qədər 14-15 ağac yol varmış və bu məsafəni üç günə gedərmişlər.

Beləliklə, Bəzz nahiyəsi Bəzz şəhəri, Bəzz dağı və ya Bəzzeyn indiki Talış nahiyəsinin yaxınlığında olan Muğan çölünün şərqində və Xəzər dənizinin qərb sahillərində olmuşdur.

Lakin əvvəllərdə də qeyd etdiyimiz kimi, Babək bir tərəfdən Ərdəbil və Mərəndə, digər tərəfdən Şamaxı və Şirvana, başqa bir tərəfdən isə Ordubad və Culfaya qədər gedib çıxan geniş bir ərazini əlində saxlayaraq, bugünkü Qərbi və Mərkəzi Azərbaycanın bir hissəsini və qədim Arranın cənub-qərb tərəfini əhatə edən bir ölkədə hökmraılıq etmiş və öz məzhəbini bu yerlərdə yaymışdır.



## BABƏKİN HÖKMRANLIĞI

Tarixçilərin yazdığına görə, Babək bu ölkədə, ümumiyyətlə, iyirmi il hökmranlıq etmişdir. Təbəri isə otuz il qeyd edir.

Xürrəmilərin apardıqları müharibə dövrü dəqiq hesaba görə altmış bir il olmuşdur. Çünki xürrəmilər 162-ci (778-779) ildə baş qaldırmışdır. Babək isə 223-cü (837-838) ildə əsir düşərək öldürülmüşdür. Məmun və Mötəsim xürrəmiləri məhv etmək üçün çox çalışmış və otuz doqquz il ərzində dəfələrlə xürrəmilərin meydanına çoxlu qoşun göndərmişlər. Bu müddətdə Bağdad sarayının adlı-sanlı qoşun başçıları, sərkərdələri, hərə öz növbəsində, xürrəmilərlə müharibə etmiş, nəticədə isə heç bir müvəffəqiyyət əldə etmədən geri qayıtmışlar. Bəziləri də döyüş meydanında həlak olmuşlar.

Bütün bu qoşun başçılarının Babək müharibəsində məruz qaldıqları müvəffəqiyyətsizliyin zahiri səbəbi Savalan dağlarının və eləcə də Azərbaycanın şərqindəki yolların dar və çətin olması, habelə o yerlərin şiddətli soyuğu ilə izah edilir. Lakin işin iç üzünü təhlil etsək, məlum olacaqdır ki, bunun əsil sabəbini, yəni Babəkin müvəffəqiyyətinin və onun düşmənlərinin müvəffəqiyyətsizliyinin səbəbini Azərbaycan xalqının birliyində, ərəb istilaçılarına və onların hakimiyyətinə qatlaşmamaqda axtarmaq lazımdır. Babəkin hökmranlığına və onun əldə etdiyi müvəffəqiyyətə azərbaycanlıların ərəblərə qarşı apardıqları milli azadlıq mübarizəsi kimi baxılmalıdır.

Əbu-Əli Bələmi «Tarixi-Təbəri»nin tərcüməsində Babək hərəkatının səbəbi haqqında belə yazır: «Bu Babək elə bir adamdır ki, xürrəmdini onun zamanında aralığa çıxdı. Onun məzhəbi zəndiqə məzhəbi idi. Onun məqsədi islam dininin qarşısını almaqdan, xurma arağını, zinanı və istədiyi şeyləri halal etməkdən başqa bir şey deyildi. O, islam dinində haram olan bütün işləri halal etdi. O, allahı və peyğəmbəri dandı. Xalq arasında əmr və nəhyi ləğv etdi. Bir çox erməni və azərbayanlını qırdı. O, xalqı kafir olmağa dəvət edirdi, müsəlmanları və sultanın qoşunlarını qırırdı. Beləliklə, Babək otuz il öz məzhəbində qaldı və bu müddət ərzində çox adam qırdı. Babəkin uzun müddət yaşamasının

səbəbi bu idi ki, elmdən məhrum gənclər, kəndlilər, varlılar islam dininin namaz qılmaq, oruc tutmaq, həccə getmək, qüsl etmək və qurban kəsmək kimi irəli sürdüyü bir sıra vəzifələri ağır və dözülməz hesab edir və əksinə, şərab içməyi, zina etməyi və başqa bu kimi şəriət tərəfindən qadağan olunmuş əməlləri bəyənirdilər. Babək də məhz bu yolla iş apardı. Onlar belə işlərin Babək məzhəbində halal olduğunu gördükdə, onu qəbul etdilər və Babəkin təbəəsi çoxaldı, Babəkin uzun müddət sağ qalmasının digər səbəbi də bu idi ki, sultanın qoşunu dəfələrlə onun əlində məğlub olmuşdu. Onun sığındığı yer Azərbaycanın dağları idi. Bu dağların yolları çox çətin və keçilməz idi. Yüz nəfər piyada yol üstə dursaydı, yüz min atlı oradan keçə bilməzdi. Dağları, keçidləri çox çətin idi. O, dağların arasında hasar çəkdirmişdi ki, ona Bəzz deyirdilər. Orada arxayın oturardı. Qoşun gəldikdə dağların ətrafında düşərdi, lakin ona əl tapa bilməzdi. O isə həmişə orada idi. Bir müddət keçərdi, qoşun arxayın olardı. Babəkin qoşunu qəflətən basqın edərdi. Bir çox adam qırılıb, islam qoşunu basılardı. Sultan min zəhmətlə yenidən qoşun toplayaraq müharibəyə göndərərdi. Bu qərarla 20 il keçdi. Bu müddətdə dağlarda yaşayan adamlar–kəndlilər və başqaları Babəkə tabe idilər. Bunların bir qismi ürəkdən, bir qismi də qorxudan itaət edirdi».

Ümumiyyətlə, islam dövrlərində əsər yazan fars və ya ərəb tarixçiləri İran xalqının ictimai və siyasi rəhbərlərindən kim olursa olsun, ərəblərə qarşı üsyan qaldırdıqda onun əsas məqsədini və hərəkatının mahiyyətini düşünə bilməmişlər. Buna görə də o hərəkata başçılıq edənləri bədməzhəb, dinsiz, kafir, zəndiq adlandırmış və onların möhtərəm adını və əziz xatirəsini çirkin töhmət və iftiralara bulamış, məqsədlərini yalan sözlərlə təhrif etmişlər.

Belə bir iş xürrəmdin Babək haqqında da görülmüşdür. Lakin biz hazırda, yəni xilafatə kor-koranə sitayiş etməkdən və yadelli işğalçılara dözməkdən xilas olduğumuz bir dövrdə öz ölkəmizin tarixinə diqqət və həqiqət gözü ilə baxdıqda görürük ki, İranın bu böyük şəxsiyyətlərinin ölkəni yadellilərin pəncəsindən xilas etməkdən başqa məqsədləri olmamışdır. Babalarımızın tarixində gördüyümüz bu ardı-arası kəsilməz inqilabların, xüsusilə ərəblərin İranı istila etdikləri ilk üç yüz il ərzində baş verən azadlıq hərəkatının başlama məqsədi İranı bu əsarət zəncirindən qurtarmaq olmuşdur. Söz yox ki, bu qəhrəmanlar islam dövründəki İranın gavələri, rüstəmləri idilər.

Xürrəmilərin qiyam etdiyi 162-ci (778-779) ildən Babəkin öldürüldüyü 223-cü (837-838) ilədək Azərbaycanın bu igid oğulları Bağdadın dövlət başçıları ilə daima vuruşmuşlar. Onlar 217-ci (832) ildən Məmunun göndərdiyi əsgərlərlə, 223-cü ilə qədər isə Mötəsimin qoşunları ilə müharibə etmişlər.

«Mücməli-fəsih»in müəllifi xürrəmilərin ilk dəfə 162-ci (778-779) ildə üsyan etdiklərini qeyd edərək deyir: «Xürrəmilər ilk dəfə İsfahanda üsyan etdilər. Batinilər də onlara qoşuldular. Onlar bu tarixdən 300-cü (912-913) ilədək çoxlu adam qırdılar».

Belə məlum olur ki, İranda xürrəmilər ilk dəfə 162-ci ildə İsfahan ətrafında qiyam etmişlər. Ondan 30 il sonra, yəni 192-ci (807-808) ildə isə Azərbaycan xürrəmiləri üsyan etmişlər. 9 il keçdikdən sonra, yəni 201-ci (816-817) ildə Babək onların başçısı sifətilə ortalığa çıxmışdır. Beləliklə, guya ilk doqquz il, yəni 192-ci-201-ci illər, yuxarıda adını çəkdiyimiz Şəhrək oğlu Cavidanın başçılıq dövrü olmuşdur. Ondan sonra, 223-cü (837-838) ilə qədər Babək onlara iyirmi iki il başçılıq etmişdir.

Təbəri onların bütün hökmranlığını otuz il qeyd etdikdə, bu hərəkatı Cavidanın qiyam etdiyi ildən hesablayır. Başqa tarixçilər isə «xürrəmilər 20 il hökmranlıq etmişlər» dedikdə, bu hərəkata Babəkin başçılıq etdiyi dövrü nəzərdə tutmuşlar.

Beləliklə, təqribən aydın olur ki, xürrəmilər əvvəlcə İsfahan nahiyələrində araya çıxmış və sonralar isə xəlifələrin təzyiqi nəticəsində ya bütünlüklə İsfahan ərazisindən qaçıb Azərbaycanın bu yerlərinə, Savalan dağlarına pənah gətirmiş, ya da onlardan bir neçəsi o nahiyəyə gedib oranın xalqını öz məzhəblərinə cəlb etmişlər.

Məlum olduğu kimi, Bəni Abbas xəlifələri içərisində Məmun nisbətən mülayim və iranlıları yola verən bir adam idi. Onun anası iranlı qızı idi. Sarayının böyük adamları iranlı idilər.

Buna görə onları o qədər də sıxışdırmırdılar. Şübhə yoxdur ki, Məmunun başqa, Bəni Abbas xəlifələrindən üstünlüyü nəfsinin təmizliyində, mehribanlığında, əlaltıları ilə yaxşı rəftar etməsində idi. Nahaq yerə qan tökməkdə və rəhmsizlikdə rüsvay olmuş bu xanədanın başqa üzvlərinin əksinə olaraq, o, belə işlərdən çəkinərdi. Anası Xorasanın Badğeys tayfasından, Məracil adlı bir iranlı qadını idi. O, iranlıların şücaəti və səyi nəticəsində qardaşı Əminə qalib gəlib, xilafəti öz əlinə aldı. Onun sarayında Səhlin oğlanları Fəzl və Həsən, Əhməd ibn-Əbi-Xalid Əhval və Hüseyn ibn Müsəbin ailəsi, yəni Tahir və onun qardaşları oğlanları kimi dövlət işlərini idarə edən şəxsiyyətlər də əqilli, vətəndaşlarının halına qalan, ata-baba yurdlarını sevən iranlılar idi. Onlar Məmunu da bu xasiyyətdə tərbiyə etmişdilər.

Əksinə, Mötəsim iş başına keçər-keçməz siyasət büsbütün dəyişildi. Əşnas, İtah və Böyük Buğa kimi Xəzər türklərinin başçıları saraya yol tapdılar. Bərməki xanədanının Bağdad dərbarında olan iranlılar arasında qurduğu birlik və səmimiyyət çox keçmədən aradan getdi və ziddiyyətə çevrildi; Əfşin ilə tahirilər arasında şiddətli rəqabət başlandı.

Əfşin Xidr ibn-Kavus iranlı bir şahzadə idi. Onu Mavəraünnəhrdə olan İsrövşənə şəhərində əsir tutub Bağdada aparmışdılar. Əfşin iranlı olmaq etibarilə ata-baba məzhəbində möhkəm idi. Hətta bir rəvayətə görə, o, mani dininə etiqad edirdi. O, Bağdadda yaşadığı müddətdə həmişə öz vətəninin fikrini çəkirdi. Ana yurdundan uzaq düşdüyünə görə çox darıxırdı. O, Xorasana və Mavəraünnəhrə çatmaq və babalarının torpağını ələ keçirmək istəyirdi. Lakin Xorasanın hakimi Abdullax ibn-Tahir Əfşinin bu fikrinə mane olurdu. Digər tərəfdən onun atasının əmisi oğlu, Bağdad əmiri və Mötəsim sarayının ən nüfuzlu şəxsiyyətlərindən sayılan İshaq ibn-İbrahim ibn-Müsəb də Əfşinin qüvvətli rəqiblərindən biri sayılırdı.

Əfşin tahirilərlə əlbir olmayan başqa iranlı ünsürləri öz tərəfinə cəlb etmək fikrinə düşdü. Bu məqsədlə o bir tərəfdən xürrəmdin Babəklə, digər tərəfdən Təbəristan valisi Qarunun oğlu Mazyar ilə birləşərək, onları tahirilər əleyhinə təhrik etdi. Məhəmməd ibn-Həmid Tusi, Yəhyə ibn-Məaz, İsa ibn–Məhəmməd ibn-Əbi Xəlid, Əli ibn-Sədəqə və Əli ibn-Hişam kimi Baqdadda yaşayan başqa nüfuzlu iranlılar bəzən tahirilərə, bəzən də Əfşinə qarşı hüsn-rəğbət bəsləyirdilər. Buna görə də Bağdad sarayında iranlılar arasında olan birlik və dostluq dəyişib ikitirəliyə çevrildi. Beləliklə, bir tərəfdən tahirilər, digər tərəfdən Əfşin, o biri tərəfdən də saray türkləri bir-birilə çəkişirdilər. Bu işdən iranlılara çoxlu zərər dəydi. İranlılar arasında düşmənçilik törətdiyindən ərəblər onlara qalib gəldi; xəlifə də bu ikitirəlikdən istifadə edirdi.



### BABƏKİN DÖYÜŞLƏRİ

İbn-Vazeh Yəqubi öz tarix xitabında Mötəsim dövründə baş verən hadisələrdən bəhs edərkən yazır: «Babəkin işi irəlilədi. Məhəmməd ibn-Bəis də onunla yoldaş idi. Mərəndin valisi İsmətəl-Kürdi də onun yolunu tutmuşdu. Mötəsim o yerin amiri (hakimi) olan İshaq ibn-İbrahimin qardaşı Tahir ibn-İbrahimi onların müharibəsinə göndərdi. Tahir oraya çatdıqda ibn-Bəis Mötəsimə yazıb xəbər verdi ki, onun əmrini yerinə yetirməyə hazır olmaqla bərabər, Babək və onun adamlarını ortadan qaldırmaq üçün tədbirlər görməkdədir. Sonra Mərəndin valisi İsmət-əl-Kürdiyə qarşı da hiylə işlədərək, onun qızını alıb Mərəndə getdi. Sonra onu öz sarayına dəvət etdi. Onu yoldaşları ilə birlikdə içirdib kefləndirdi. Gecə ikən onları «Şahı» adlanan öz qalalarından birinə apardı. Sonra onları Mötəsimin yanına göndərdi. Mötəsim də onun günahından keçib hətta xələt də verdi. Bütün bunlar ona görə idi ki, o, Tahir ibn-İbrahimi əhvalatdan xəbərdar etmişdi, onları göndərmək üçün ona minik və silah vermək istəyirdi. Tahir də bu işi gördü. Onları Mötəsimin yanına göndərib, əhvalatı olduğu kimi ona yazdı. Mötəsim İshaqa acıqlanıb dedi: «Sənin qardaşın heç bir iş körə bilmir. İbn-Bəisdən başqa iş görən yoxdur». Sonra o, isrövşənəli Əfşin Xidr ibn-Kavusa çoxlu silah, pul verib oraya göndərdi və onu bütün o yerlərin hakimi təyin etdi. Əfşin dağlara çatdıqda oranın qoşun və sərkərdələrini özü ilə apardı. Onunla Babək arasında bir neçə dəfə vuruşma oldu. Onun ordusu Bərzənd adlı bir yerdə

idi. O, bu yerdən Sadrəsb adlı bir yerə getdi, orada da qış gəlincəyə qədər vuruşdu. Çoxlu qar yağdı, Sadrəsbi bir nəfərə tapşırıb Bərzəndə qayıtdı. Bir müddət o ölkədə dolaşdıqdan sonra Druzalruda (başqaları bu yeri adını Dəvalrud qeyd etmişlər) gedərək, orada xəndək qazdırdı, hasarlar çəkdirib pusquda oturdu. 222-ci (836-837) il ramazan ayının qurtarmasına doqquz gün qalmış, cümə axşamı Bəzzə getdi. Bu arada Babək onun yanına adam göndərərək, onunla danışmaq istədiyini bildirdi. O da qəbul etdi. Onların arasında bir çay var idi. Əfşin onun amanda olacağına söz verdi. O, bir gün möhlət istədi. Əfşin dedi: «İstəyirsənsə, öz şəhərinə pənah apar və orada aman istə». O, dərədən keçib getdi, şiddətli vuruşma oldu. Müsəlmanlar Bəzz şəhərinə girdilər. Babək isə altı nəfər yoldaşı ilə qaçdı. Bəzz də, əsir düşmuş müsəlmanlar da azad edildi. Onların sayı yeddi min altı yuz nəfər idi. Babək yun paltar geyərək ata mindi. Əfşin Ermənistanın və Azərbaycanın petriklərinə yazıb Babəki onlardan istədi. Babəki tutub gətirənə min-min dirhəm verib, onun ölkəsindən çıxıb gedəcəyinə söz verdi.

Babək Səhl ibn-Sunbat adlı bir nəfər ermənin yanına getdi. O da onu tutub saxladı və Əfşinə yazıb xəbər verdi. O da adam göndərib, Babəki tutdurdu. Yazdığı fəthnamədə işlətdiyi tədbirləri göstərdi və əldə edilmiş bu müvəffəqiyyəti haqqında hər yerə xəbər verdi. Beləliklə, o ölkənin məsələsi həll edildi. Əfşin dayısı oğlu fərqanəli Mengəcürü öz yerinə təyin edərək, Samirədə olan Mötəsimin yanına getdi. Qoşun sərkərdələri və əhali Əfşini qarşılamaq üçün neçə mənzil qabağına çıxdılar. 223-cü (837-838) il səfər ayının qurtarmasına 2 güncə qalmış Əfşin şəhərə girdi. Babək də filə mindirildiyi halda onun yanında idi. Onu Mötəsimin hüzuruna gətirdilər. Mötəsimin əmrinə görə Babəkin əl-ayağını kəsdilər, sonra isə öldürüb, Samirədə dara çəkdilər. Mötəsim Babəkin qardaşı Abdullahı Bağdada göndərdi, İshaq ibn-İbrahim də onu orada öldürərək, Bağdadın şərqindəki körpünün üstündə dara çəkdirdi».

İmad-əd-din ibn-Kəsir «Əl-bidayə-vən-nihayət» adlı əsərində əvvəlcə 221-ci ildə baş vermiş hadisələr haqqında yazır: «Bu il Buğa ilə Babək arasında şiddətli vuruşma baş verdi. Babək məğlub edilib, yoldaşlarının bir hissəsi qırıldı. Sonra Əfşin və



Babək bir-birilə vuruşdular, Əfşin onu məğlub etdi. Onun yoldaşlarının bir hissəsi uzun sürən döyüşlərdən sonra qırıldı».

Sonra həmin müəllif 222-ci ildə baş verən hadisələr haqqında yazır: «…həmin il Mötəsim Babək ilə vuruşmaq üçün Əfşini çoxlu qoşunla təmin etdi və qoşuna sərf etmək üçün ona otuz min-min dirhəm göndərdi. Böyuk bir müharibə oldu. Əfşin Babəkin yurdu olan Bəzz şəhərini aldı. Bu şəhərin bütün şeylərini talan etdi. Bu hadisə cümə günü, ramazanın qurtarmasına 10 gün qalmış üz verdi. Bu iş ağır müharibələr, çoxlu qırğınlar və böyük zəhmətlərdən sonra əmələ gəldi.

Müsəlmanlar Babəkin qərargahı və hakimiyyətinin mərkəzi olan Bəzz şəhərini mühasirə etcək, o öz adamlarını, oğlu, anası və arvadını götürüb qaçdı. Adamı az idi. Yolda onların azuqəsi qurtardı. Onlar bir tarlaya çatdılar. Babək nökərinə pul verib oraya göndərdi və dedi: (əkinçinin) nə qədər çörəyi varsa, qızıl verib al.

Əkinçinin şəriki uzaqdan nökərin çörək aldığını görüb, elə güman etdi ki, çörəyi zorla alır, buna görə də orada xəlifənin nayibi Səhl ibn-Sunbatın yaşadığı qalaya gedərək yardım istədi. O (Səhl), ata minib gedir və nökəri tapıb soruşur: nə xəbər var? Nökər deyir: heç, bir neçə dinar verib bu adamdan çörək almışam. Soruşur: haralısan? Nökər həqiqəti gizləmək istəyir, lakin o, israr edir. Onda nökər deyir: Babəkin nökərlərindənəm. Soruşur: bəs Babək haradadır? Deyir: oturub məni gözləyir. Səhl ibn-Sunbat onun yanına gedir və onu görcək əlini öpüb deyir: mənim ağam, haraya getmək fikrindəsən? Deyir: Rum ölkəsinə getmək istəyirəm. Deyir: oraya nə üçün gedirsən, mənim qalama pənah gətir, orada qal, mən sənin qulun və nökərin olum.

Bir qədərdən sonra onun hiyləsi baş tutur. Onu özü ilə qalaya aparır. Öz otağında yerləşdirib ona layiqincə hörmət edir, töhfələr verir. Eyni zamanda, o, Əfşinə yazıb onu bu əhvalatdan xəbərdar edir. Əfşin onu tutmaq üçün iki nəfər sərkərdə göndərir. Sərkərdələr qalaya yaxınlanşıb ibn-Sunbata məktub yazırlar. O, cavabında deyir: Oradaca dayanıb mənim göstərişimi gözləyin. Sonra Babəkə deyir: Sən bu qalada qalıb darıxmısan. Bu gün şikara çıxmaq fikrindəyəm. Mənim əl quşum da var, itim də.

Meylin varsa, gəl, çölə çıxaq, ürəyin qəm-qüssədən azad olsun. Deyir: düz deyirsən.

Onlar çölə çıxdılar. Sunbat həmin iki sərkərdənin yanına adam göndərdi və dedi: filan gün, filan yerdə hazır olun.

O yerə yetişdikdə o iki sərkərdə yanlarındakı əskərlərlə yaxınlaşıb Babəki mühasirəyə aldılar. Sunbat isə qaçdı. Onlar Babəki görcək dedilər: atdan düş! Soruşdu: siz kimsiniz və haradansınız? Dedilər: Əfşinin yanından gəlmişik.

Babək atdan düşdü. Onun əynində ağ köynək, ayağında gödək çəkmə, əlində isə bir əl quşu var idi. O, Sunbat gedən tərəfə baxıb dedi: Allah üzünü qara eləsin. Məndən nə istəsəydin verərdim.

Sonra onu ata mindirib özlərilə Əfşinin yanına gətirdilər. Əfşinin olduğu yerə çatanda, o (Əfşin) bayıra çıxıb onları qarşıladı. O, qoşuna əmr etdi ki, iki sıraya düzülsünlər. Babəkə isə əmr etdi ki, minikdən düşərək xalqın qarşısında yol getsin. O da bu işi gördü. O gün tarixi bir gün idi. Bu iş haman ilin şəvval ayında oldu. Sonra onun üzərinə gözətçilər qoyub zindana saldırdı. Daha sonra əhvalatı Mötəsimə yazıb bildirdi. O zaman Babəkin qardaşı Abdullahı da tutmuşdular. Mötəsim əmr verdi ki, onu qardaşı ilə birlikdə onun hüzuruna gətirsin. Əfşin onları həmin ilin axırında Bağdada apardı, lakin o il Bağdada çatmadı». Həmin müəllif 223-cü ilin hadisələrindən bəhs edərək yazır: «Həmin il səfər ayının 3-də cümə axşamı Əfşin Samirəyə Mötəsimin yanına gəldi. Babəklə qardaşı Əfşinin yanında idilər, hər yeri bəzəmişdilər. Mötəsim oğlu Harun-əl-Vasiqi Əfşini qarşılamağa göndərdi. Babəkin məsələsilə olduqca maraqlandığından hər gün Əfşinin xəbərini ona yetirirdilər. Mötəsim o vaxta qədər Babəki görməmişdi. Odur ki, Babəkin gəlməsinə iki gün qalmış atlanıb getdi və yolda ona baxıb qayıtdı. Babək Samirəyə çatan gün Mötəsim özünü hazırladı. Camaat iki sıraya düzüldü. Xalq Babəki görüb tanısın deyə, onu filə oturtdu. Babəkin əynində ipək paltar, başında xəz haşiyəli şiş papaq var idi. Babəkin mindiyi fili ipək parça və qiymətli şeylərlə bəzəmişdilər. Babək Mötəsimin yanına çatar-çatmaz o əmr verdi ki, onun iki əl-ayağını kəsib, başını qırxsınlar və qarnını yırtsınlar, sonra əmr etdi ki, başını (kəsib) Xorasana aparsınlar, bədənini isə Samirədə dar ağacından assınlar. Babək öldürüldüyü günün axşamı, yəni həmin il rəbi-əl-axir ayının 17-də, cümə axşamı gecəsi şərab içmişdi. İbn-Céririn dediyinə görə, bu məlun iyirmi illik üsyanı müddətində iki yüz əlli beş min beş yüz adam qırmış, əsir etdiyi adamların isə sayı-hesabı yox idi. Onun on yeddi oğlu və özü ilə oğullarının arvadlarından iyirmi üç nəfər qadın ələ keçmişdi. Babəkin anası rüsvay olmuş bir kəniz idi. Axırda o, cəzasına çatdı. Xalq da onun şərrindən xilas oldu. Bir çoxları, xususilə avam camaat, onun felinə uymuşdu. Mötəsim Babəki öldurdükdən sonra Əfşinin başına tac qoydu. Ona cəvahirdən düzəlmiş iki boyunbağı və iyirmi min-min dirhəm bağışladı. Sind vilayətini ona verdi. Eyni zamanda, Mötəsim şairlərə əmr etdi ki, islam dininə göstərdiyi bu qədər yaxşılığın əvəzində, habelə Babəkin indi viranə qalmış vətəni Bəzz şəhərini dağıtdığı üçün Əfşini mədh edib təriflısinlər».

«Mücməl-ət-təvarix və l-qisəs» adlı əsərin müəllifi Mötəsimin xilafətindən bəhs edərkən yazır: «Xürrəmdin Babək Həmədani və onun bütün nahiyələrini tutmuşdu. Mötəsim Bağdadın əmiri İshaq ibn-İbrahimi onun döyüşünə göndərdi. Onlar Şəhristanə kəndində vuruşub məğlub oldular. Onların döyüşləri və əhvalatı uzundur. Babəkin müharibələri həddən keçmişdi. Mötəsim Əfşini Babəklə müharibə etməyə göndərdi. Əfşin İsrövşənə padşahlarının ləqəbidir; onun adı Xidr ibn-Kavus idi. Əsli Mavəraünnəhrdən idi. Əfşin Ərməniyyəyə gəldi. Babək o ətrafda olan çıxılmaz, hündür dağlarda yaşayaraq, qala tikdirmişdi. Bir çox illər keçdi, bir çox hadisələr üz verdi. Nəhayət, Babək Səhl ibn-Sunbatın hiyləsi ilə əsir düşdü. Babək öz qalasından qaçdıqdan sonra Səhl ibn-Sunbat onu öz yanına aparıb xəyanət etməyəcəyinə söz vermişdi. İbn-Səhl bir mülkədar idi. Əfşin Babəki tutmaq üçün adam göndərib onu ova çıxartdı, qoşun əhli isə onu aralığa alıb tutdular. Bu qələbədən bir müddət sonra onu Samirəyə Mötəsimin hüzuruna gətirdilər. O, əmr etdi, onun əlini kəsdilər, qarnını yırtdılar, sonra başını kəsib, bədənini Samirədə dar ağacından asdılar. Başını isə islam şəhərlərində gəzdirdilər. Babək islam aləmi üçün böyük bir bəla idi...».

## BABƏKİN İLK DÖYÜŞLƏRİ

Tarixçilər Babəkin Bağdad xəlifələri qoşunları ilə etdiyi müharibələrin bəzi təfərrüatını qeyd etmişlər. Hacı Xəlifə «Təqvim-ət-təvarix» adlı əsərində xürrəmilərin 192-ci (807-808) ildə Azərbaycan dağlarında fəaliyyətə başladıqlarını qeyd edərək deyir: «Onlar Hazimin əlində həlak oldular». Belə məlum olur ki, bu il həmin Cavidan ibn-Şəhrəkin üsyan etdiyi ildir.

Babək 201-ci (816-817) ildə fəaliyyətə başlamışdır. «Təqvim-ət-təvarix»də qeyd olunduğu kimi, Fəsihi də «Mücməl»də 201-ci ilin hadisələrindən bəhs edərkən göstərir: Babək xürrəmi Cavidaniyyədə üsyan etdi. «Cavidaniyyə» sözü Bəzz şəhərinin sahibi Cavidan ibn-Səhlin adı ilə əlaqədardır. Babək isə Cavidanın ruhunun onda təcəssüm etməsini iddia edərək ölkənin ətrafında pozğunçuluğa başladı.

Gərdizi «Zeyn-əl-əxbar» adlı əsərdə Mötəsimin xilafəti haqqında belə yazır: «İsfahan, Həmədan və Masobzanın əhalisi xürrəmi dinini, xürrəmdin Babəkin məsləkini qəbul etdilər. Babəkin başına çoxlu qoşun toplandı. Mötəsim Bağdad əmiri İshaq ibn-İbrahimi onların müharibəsinə göndərdi. O gedib xürrəmilərlə müharibə etdi. Onlardan altmış min adam qırdı, qalan hissəsi isə qaçıb, Azərbaycan torpaqlarını tutdu. İslam qoşunu xürrəmilərin üzərinə töküldüyündən Babək xürrəmdin zəiflədi. O, Rum (Vizantiya) hökmdarından kömək istədi. Rum hökmdarı Babəkin köməyinə gəldi. Zibətrə şəhərini dağıdıb qayıtdı. Bu xəbər Mötəsimə çatdıqda kədərləndi, çünki bütün əskərləri Babəkə qarşı müharibə etməklə məşğul idi. O heç bir söz demədi. Əfşin Babəkin müharibəsindən qayıdandan sonra soruşdu: Rum şəhərlərindən hansı zəngindir? Dedilər: Rumun paytaxtı olan Əmuriyyədir. Mötəsimin əmrinə görə Rum müharibəsinin tədarükü görüldü. Babək xurrəmdin ölkədə olduqca pis işlər gördü, çoxlarını yoldan çıxartdı. O kecilməz sıldırım, qaranlıq və soyuq dağlarda yaşayırdı. Oraya göndərilən qoşun yerin çətinliyi və havanın soyuqluğuna görə, Babəkin qarşısında müqavimət göstərə bilmirdi. Babəkin fitnəsi iyirmi iki il çəkdi. Sonra xəlifə Məhəmməd ibn-Həmid Tusini göndərdi. O məğlub oldu. Abullah ibn-Tahir də getdi. Bu arada Xorasan hadisəsi baş verdiyi üçün, o, Xorasana getməyi Babək ilə vuruşmaqdan vacib bildi. (Mötəsim) İbrahim ibn-Leysi göndərdi, o da məğlub oldu. Nəhayət, böyuk sərkərdələrdən hesab olunan isrövşənəli Əfşini göndərdi.

Əfşinin adı Xidr ibn-Kavus idi. Mavəraünnəhr vilayətində və İsrövşənədə padşaha «Əfşin» deyirlər. O, qardaşı Fəzl və qohum-əqrəbalarından Divdad ibn-Zərdüşt və başqa yoldaşları ilə getdi. Babək də İsmət ibn-Əbi Səidi üç min nəfərlə Əfşinin qabağına göndərdi, Məhəmməd ibn-Bəis on nəfər sərhəng (zabit) ilə öz qalasına qonaq aparıb, hamısını öldürdü, İsməti isə qala divarının üstünə çıxardıb ona dedi: başqa sərhəngləri səslə, yoxsa səni öldürərəm. O, sərhənglərdən və başqa qoşun başçılarından yüz nəfəri çağırdı. Onlar da qalaya yaxın gəldilər, bir-bir içəri girdikcə öldürüldülər. Beləliklə, hamısını qırdılar. Sonra yüz nəfərin kəsilmiş başını İsmətlə birlikdə Əfşinin yanına göndərdi. Əfşin də onları Mötəsimin yanına göndərdi. Əfşin özü dərənin başında yeddi ay oturub qaldı. Çünki o bu dar yerlərdən keçə bilmirdi, digər tərəfdən də hava soyuq oldu. Əfşin darıxdı. Sonra Əfşin hiylə ilə iş aparmağa başladı. Əvvəlcə, məktub yazıb Mötəsimdən pul istədi. Mötəsim də Buğa vasitəsilə yüz xalvar dirhəm göndərdi. Əfşin Babəkin yanına adam göndərərək, onun üç mənzil qabağa gəlməsini buyurdu, özü isə dərənin başından çıxıb gedərək buyurdu ki, göndərilən pulu-malı gündüzlər bir mənzilliyə gətirsinlər, gecələr isə qaytarıb aparsınlar. Sonra özü miniklərlə dərənin başına gəldi. Babək malın gətirilməsi və Əfşinin getməsindən xəbər tutmuşdu. O, beş min nəfərlə dərənin ağzına gəlib, Buğa ilə vuruşdu. Bu zamam Əfşin özünü çatdırdı. O çox çalışdı. Babək qacdı. Min nəfər də tələf oldu. Əfşin on beş min nəfərlə dar dərələrə girib, ehtiyatla yol gedirdi. O, Buğa və Məhəmməd ibn-Bəisi beş min nəfərlə qabağa göndərdi. O özü də beş min nəfərlə irəliləyirdi. Başqa beş min nəfəri dəstələrə bölüb dağlara göndərdilər. Babək xəbər tutub, gecə vaxtı iki min nəfərlə basqın etdi. Özünü qoşuna vurub onları qaçırtdı. Əfşin də Ərdəbilə getdi. Buğa ilə Əfşinin qardaşı bir qədər orada qaldıqdan sonra, Ərdəbilə tərəf yola düşdüdər. Qışı

orada qaldılar. Yaz yetişcək Mötəsim çoxlu pul və mal göndərdi. Onlar Babəkə qarşı hücum edərək dərəyə girdilər. Babək olduğu qalanın ətəyinə qoşun tökdülər. Otuz min nəfərdən ibarət silahlı qoşun daim Babək ilə vuruşurdu. Nəhayət, Babəkin adamları məğlub edildi, onlardan bir çoxu qırıldı; sağ qalanları isə qaçdılar. Babək bir neçə yaxın yoldaşı ilə orada qaldı. Qala büsbütün boşaldıqda, o da öz qardaşı və yaxın adamları ilə oranı tərk edib qaçdı. Babək dar dərələrin, dağların arasında gizlənirdi. Onlar Babəki yaxalamaq üçün bütün yollara gözətçi qoydular. Babək isə bir müddət meşələrdə, dağlarda yaşadıqdan sonra cana gəlib aciz qaldı. Qaçmağa fürsət axtarırdı. Bir gün günorta vaxtı gözətçilər yatdıqları zaman dağdan çıxıb, onların yanından keçdi və bir qalaya tərəf getdi...».

Təbəri yazır: «Həmin 201-ci (816-817) ildə Babək xürrəmi cavidaniyyə məzhəbi içində meydana çıxdı. Cavidanilər Bəzz şəhərinin sahibi Cavidan ibn-Səhlin tərəfdarları idilər. Babək iddia edirdi ki, Cavidanın ruhu onun bədəninə köçmüşdür. O, fitnəkarlığa başladı».

İbn-əl-Əsir, habelə «Nigaristan» və «Müntəzəmi-Nasiri» əsərlərinin müəllifləri də bu fikri təsdiq edərək, Babəkin çıxışının 201-ci ildə olduğunu qeyd etmişlər.

İbn-Quteybə «Kitab-əl-məarif» əsərində Babək üsyanının səbəbi haqqında belə yazmışdır: Hərsəmə (ibn-Əyən)nin ölüm xəbəri onun oğlu Hatəm ibn-Hərsəməyə çatdıqda atasının başına nələr gəldiyini anladı. O, həmin ölkənin əyanlarına və padşahlarına məktub yazıb onları Məmunun əleyhinə çalışmağa dəvət etdi. Amma bu arada Hatəm öldü. Deyirlər ki, Babək üsyanının səbəbi də elə bu olmuşdur. Babək iyirmi ildən artıq qaldı.

İbn-İbri də Babəkin cavidanilər məsləki uğrunda təbliğat aparmasının və eləcə də xəlifə ilə müharibəyə girişməsinin başlanğıcının 201-ci (816-817) ilə aid olduğunu qeyd etmişdir.

İbn-Xəldun isə Babək hərəkatının başlanğıcını 202-ci (817-818) il hadisələri içində qeyd edərək yazır: «Babək 202-ci ildə Cavidan ibn-Səhl uğrunda təbliğat aparmağa başladı. O, Bəzz şəhərini tutmuşdu. Bu şəhər hündür bir yerdə idi. Məmun onunla müharibəyə başlayaraq qoşun göndərdi. Onlar Babək qoşununun bir hissəsini qırıb, Ərdəbil ilə Zəncan arasında olan qalaları viran etdilər».



### 204-211-ci (819/20-826/27) İLLƏRİN MÜHARİBƏLƏRİ

201-202-ci illərdəki müharibələrdən sonra Məmunun əsgərləri ilə Babək qoşunları arasında bir müharibə də 204-cü ildə olmuşdur. Təbəri bu xüsusda yazır: «Həmin ildə Yəhya ibn-Məaz Babək ilə müharibə etdi, heç biri müvəffəqiyyət əldə edə bilmədi. İbn-əl-Əsir də bu cəhəti qeyd etmişdir. İbn-Quteybə «Kitab-əl-məarif» adlı əsərində deyir: «204-cü ildə Məmun Bağdada çatdı, Yəhyə ibn-Məazi Babəkin müharibəsinə göndərdi, Yəhyə məğlub oldu».

205-ci (820-821) ildə də başqa bir müharibə başlandı. Bu barədə İbn-əl-Əsir yazır: «Məmun Ərməniyyə və Azərbaycan hökmranlığını İsa ibn-Məhəmməd ibn-Əbi Xalidə verib, onu Babəkin müharibəsinə göndərdi». «Müntəzəmi-Nasiri»nin müəllifi isə belə yazır: «Məmunun Cəzirə vilayətini Yəhyə ibn-Məazə, Azərbaycan və Ərməniyyə vilayətlərini isə İsa ibn-Məhəmməd ibn-Əbi Xalidə verməsi və onu Babək xürrəmi müharibəsinə təyin etməsi, bundan məlum olur ki, həmin ildə Yəhyə ibn-Məaz Ərməniyyə və Azərbaycan hökmranlığından götürulüb Cəzirəyə hakim göndərilmiş, onun yerinə isə İsa ibn-Məhəmməd Azərbaycan və Ərməniyyəyə təyin edilmişdir». Fəsihi, İbn-əl-Əsirin dediyini təsdiq edir.

206-cı (821-822) ildə həmin İsa ibn-Məhəmməd ibn-Əbi Xalid bir daha Babəkə qarşı müharibəyə göndərilmiş və Babəki məğlub etmişdir.

208-ci (823-824) ildə Zəriq adı ilə məruf olan Əli ibn-Sədəqə Məmun tərəfindən Ərməniyyə və Azərbaycana hakim təyin olunaraq, Babəklə müharibə etmək işi ona tapşırılırdı.

209-cu (824-825) ildə Əhməd ibn-Cüneyd İskafi Babəkin müharibəsinə getdi. Babək onu əsir etdi. Sonra Azərbaycanın hökmranlığı İbrahim ibn-Leys ibn-Fəzlə verildi.

211-ci (826-827) ildə Mosul hakimi Məhəmməd ibn-Seyid ibn-Ənəs Mosulu Əli Zəriq ibn-Sədəqə Əzdinin nökərləri tərə-

findən öldürüldü. Məmun bu hadisədən acıqlanaraq, Məhəmməd ibn-Həmid Tusini Zəriqin və Babək xürrəminin davasına göndərdi və Mosulun hakimliyini ona verdi.

«Şahidi-sadeq» əsərinin müəllifi Babəkin həmin ildə Təbriz tərəfində üsyan etdiyini qeyd edir.

Mirxond «Həbib əs-siyər»də yazır: «210-cu (825-826) ildə Babək xürrəmi adı ilə məruf olan Babək xürrəmdin üsyan etdi. Bu Babək kafir bir adam idi, Məzdək dinində idi. Onun əqidəsinə görə, məhrəmlərlə yaşamaq kimi bir çox haram işlər halal sayılırdı. O, Azərbaycan və Beyləqanda üsyan etdi. O, hər yerdə müsəlman görürdü, öldürürdü. Bir çoxları o fitnəkara tabe olub, möhkəm yerlərə, qalalara pənah apardılar. Məmun onun müharibəsinə nə qədər qoşun göndərdisə, hamısı məğlub olub geri qayıtdı».

## 212-ci (827-828) İLİN MÜHARİBƏLƏRİ

Mirxond «Rövzət-əs-səfa» əsərində yazır: «Belə rəvayət edirlər ki, Məmunun xilafəti zamanında Babək xürrəmdin Azərbaycan və Beyləqan nahiyələrində üsyan etmiş və bir çoxları ona qoşulmuşlar. Onlar möhkəm yerlərdə sığnaq etmişdilər. Babək kafir bir adam idi, Məzdək dininə sitayiş edirdi. Onun əqidəsinə görə, məhrəmlərlə yaşamaq kimi bir çox haram olan işlər halal sayılmalı idi. Üsyanının ilk günlərində möhkəm qalalar tikdirmişdi. Onun davasına gedən qoşunlar darmadağın edilərək geri dönürdülər. Məmun 212-ci (827-828) ildə Məhəmməd ibn-Həmid Tusini onunla müharibə etməyə göndərdi. O, bir ildən çox Babəkin qoşunu ilə müharibə etdikdən sonra şəhid oldu. Babəkin işi isə daha da qüvvətləndi. Məhəmməd ibn-Həmidin ölüm xəbərini eşidən Məmun Misir valisi Abdullah ibn-Tahir ibn-Hüseyn Zül-Yəmineynə təklif etdi ki, o, iki şeydən birini: ya Xorasanla qərb torpaqlarının əmirliyini, ya da Azərbaycan və Ərməniyyə əmirliyi ilə Babək müharibəsini seçsin. O, Xorasan əmirliyini qəbul edib, o nahiyəyə getdi. Çünki qardaşı Xorasanda vəfat etdiyindən orada qarışıqlıq törənmişdi. Abdullah Tahir gedəndən sonra Babəkin işi daha da gücləndi».

İbn-Vazeh Yəqubi 212-ci (827-828) ildə Azərbaycanda baş



verən hadisələrdən bəhs edərkən yazır: «Məmun Ərməniyyə və Azərbaycanın hakimliyini Tahir ibn-Məhəmməd Səğaniyə tapşırmışdı. Belə rəvayət edirlər ki, o, İraqa getmək istəyən Hərsəm ibn-Əyəni Həmədandan (oraya) göndərdi. O da, Azərbaycanın vilayətlərindən biri olan Vərsana çataraq, yerli əyanlara məktub yazdı. Onlar da Məmuna beyət etdilər. İshaq ibn-Süleyman orada düşürülmüş (Əmin) tərəfindən hakim idi. Əmr-əl-Həzun, Arranın hakimi Əbdürrəhman və daha başqaları da onunla bir yerdə idilər. Bərdənin qasidi gəlib çatdı ki, oranın əhalisini, onun oğlunu oradan qovmağa vadar etsin. Məmunun kargüzarı Tahis Zəhir ibn-Sinan Təmimini çoxlu qoşunla göndərdi. Onlar qarşı-qarşıya gəlib müharibə etdilər. İshaq ibn-Süleyman yoldaşları ilə bu müharibədə məğlub oldular. Oğlu Cəfər ibn-İshaq ibn-Süleymanı əsir tutub başqa əsirlərlə birlikdə Məmunun hüzuruna göndərdilər. Tahir Səğani isə təkbaşına orada bir neçə gün qaldı. Bu arada vəzifəsindən kənar edilmiş Əbdül-Məlik ibn-Cəhhaf Səlmi ona qarşı üsyan qaldıraraq Beyləqana hücum etdi və Tahiri Bərdə şəhərində mühasirəyə aldı. O, bir neçə ay mühasirədə qaldı. Məmun bu xəbəri eşitcək - Süleyman ibn-Əhməd ibn-Süleyman Tahir hələ də mühasirədə idi - onu azad edib yola saldı, Əbdül-Məlikə isə aman verdi. Beləliklə, o ölkənin işləri düzəldi. Sonra Ərməniyyənin hakimliyini Hatəm ibi-Hərsəmə ibn-Əyənə verdilər. O, şəhərə qayıtdıqda mötəzilə ilə əhali arasında vuruşma başlandı. Hər iki tərəfdən çoxlu adam qırıldı. Nəhayət, bir-birini qırıb qurtarmağa bir şey qalmamışdı ki, aralarında barışıq oldu və Hatəm ibn-Hərsəmə az müddət orada tək qaldı. Bu zaman o, atası Hərsəmənin ölüm xəbərini eşitdi. Orada öldüyünə görə Bərdədən çıxıb Kəsala gəldi. Orada bir hasar çəkdirdi, vəzifədən götürülən günə qədər işləri idarə etməklə məşğul idi. O, yerli əyanlara və qoşun başçılarına, Babəkə və xürrəmilərə məktub yazıb müsəlmanları onların gözünün qabağında böyütdü. Babək və xürrəmilər üsyan etdilər. Babək Azərbaycana əl tapdı. Məmun bu xəbəri eşitcək Ərməniyyənin hakimiyyətini Yəhyə ibn-Məazə verdi... Yəhyə ibn-Məaz bir neçə dəfə müharibə etdi, lakin heç bir müvəffəqiyyət qazana bilmədi. Məmun qoşunun

sərkərdəliyini İbn-Məhəmməd ibn-Əbi Xalidə verdi. Yəhyənin əlindən bir iş gəlmədiyindən Azərbaycan və Ərməniyyənin hakimliyini də İsaya verib tapşırdı ki, qoşun əhlini hazırlasın və onların məvacibini öz malından versin.

İsa ibn-Məhəmməd onların xərcini öz hesabına təmin etdi. Bu adamlar Mədəniət-əl-İslamın (Bağdad) əhli idi. Bunlar Bağdaddan çıxıb getdikdən sonra orada Bağdad fitnəsində iştirak edən əskərlərdən bir nəfər belə qalmadı. (İsa) oraya çatanda Məhəmməd ibn-Rəvvad Əzdi və o ölkənin bütün qoşun başçıları onun yanına gəldilər. O, Babəkə qarşı müharibəyə hazırlaşdı. Babək dar bir dərədə onunla üz-üzə gəldi və onu məğlub etdi. İsa oradan getdi və heç yerdə durmadı. Sərkərdələrdən biri onu saxlayıb dedi: Ey Musanın atası, haraya gedirsən? Dedi: Bu müharibədə biz bir iş görə bilmərik, baxtımız gətirmədi. Biz müsəlmanlarla vuruşmaqdan qorxuruq.

O, Azərbaycandan Ərməniyyəyə getdi. Burada da Səvadə ibn-Əbdül-Həmid Cəhhafi baş qaldırdı. İsa ona müharibə etməmək şərtilə oranın hakimliyini təklif etdi. Lakin o, müharibə etdi və İsa bir qədər çalışdıqdan sonra ona qalib gəldi. Beləliklə, İsanın işi düzəldi.

Bəzzdə Babəkin işi irəliləyirdi. Məmun Zəriq ibn-Sədəqə Əzdini hakim təyin etdi, lakin o da bir iş görə bilmədi. Sonra hakimliyi İbn-Həmid Tusiyə verdi. Zəriq də vəzifəsindən götürüldüyünü eşitcək baş qaldırdı və Məhəmməd ibn-Həmid ora çatdıqda onunla müharibə etdi. Məhəmməd onun adamlarını öldürdü. Zəriq ondan aman istədi. O da aman verib, onu Məmunun yanına göndərdi. Məhəmməd ibn-Həmid orada qaldı və o ölkəni qorxulu adamlardan təmizlədi. Sonra özünü Babəklə müharibə etməyə qadir gördükdə onun meydanına qoşdu. Onların arasında şiddətli müharibə oldu. O bütün müharibələrdə qalib gəldi. Sonra o, çala-çuxurlu bir dar dərəyə girdi. Başında olan dəstəsilə atdan düşdü. Bu arada Babəkin adamları özlərini onlara yetirdilər. Məhəmməd sərkərdələrinin bir hissəsilə həlak oldu. Qoşun məğlub oldu. Qoşunun sərkərdəliyini İbn-Həmidin qohumlarından biri Mehdi ibn-Əsrəm öz əlinə aldı. Bu hadisə 214-



cü (829-830) ilin əvvəllərində üz verdi. Məhəmməd ibn-Həmid öldürüldükdən sonra Məmun Abdullah ibn-Tahiri hakim təyin edərək, Cibal, Ərməniyyə və Azərbaycanı ona verdi; qazilərə və xərac məmurlarına yazdı ki, onun fərmanını icra etsinlər.

Abdullah oradan çıxıb Dinəvərdə qaldı. O, Məhəmməd ibn-Həmidlə gəlmiş Mehdi ibn-Əsrəm, Məhəmməd ibn-Yusif və Əbdürrəhman ibn-Həbibə adlı sərkərdələrə yazdı ki, öz yerlərində qalsınlar.

Təlhə ibn-Tahir Xorasanda öldü. Məmun onun vəzifəsini Abdullaha tapşırdı. Onun fərmanını və bayrağını İshaq ibn-İbrahim və baş qazi Yəhyə ibn-Əksəm vasitəsilə göndərdi. Abdulla o il Xorasana getdi. Məmun Azərbaycanın hakimiyyətini və Babəkin müharibəsini Əli ibn-Hişama tapşırdı. Ərməniyyəyə hökmranlığı isə Əbdül-Əla ibn-Əhməd ibn-Yəzid ibn-Əsid Səlmiyə verdi. O da o ölkəyə gəldi. Məhəmməd ibn-İtab Cürzana (Gürcustana) əl atdı. Sənarilər[1] də ona qoşuldular. İbn-İtab onunla vuruşdu və onu məğlub etdi. Onun müharibə işində hünəri, biliyi yox idi. Sonra Məmun hakimliyi Xalid ibn-Yəzid ibn-Məzidə verdi və onun İraqda məhbus olan qohumlarını azad edərək cəzirəyə göndərdi. Rəbiə adamlarının böyük bir dəstəsini də ona qoşdu. Xalid o ölkəyə getdi. Xəlatə çatdıqda Səvadə ibn-Əbdül Həmid Cəhhafi onun hüzuruna gəldi, o da ona aman verdi. Sonra o, Nəşəviyə (Naxçıvana) getdi. Yəzid ibn-Hisn Mövla bəni Müharib oranı işğal etmişdi. Yəzid ibn-Hisn oradan qaçıb Kəsala getdi və orada qaldı. Sonra Məhəmməd ibn-İtabın yanına adam göndərib, ondan aman və kömək istədi və ona tabe olmağa söz verdi. Xalid onun xahişini qəbul edib dedi: Sənarilər sənə itaət edirlərmi? Məhəmməd ibn-İtab dedi: onlar itaət etmirlər. Xalid onlara tərəf getdi və Cürzanda onlarla vuruşub qələbə əldə etdi; onların miniklərini aldı. Sonra onları barışığa dəvət etdi və üç min toxumluq madyan və iyirmi min qoyun almaq şərtilə onlarla sülh bağladı. Xalid bir müddət orada qaldı...[2] (Bu arada) qeysiyyəlilər onlara hücüm etdilər və Xalidi bərk sıxışdırdılar.

[1] Kiçik Asiya yunaniləri

[2]. Əslində buraxılmışdır

Ermənilərdən Əli ibn-Yəhyə o dəstənin içində idi. Xalid onu bir neçə nəfərlə birlikdə əsir edərək Məmunun yanına göndərdi. Məmun da onları Əbu İshaq Mötəsimə verdi ki, ona qulluq etsinlər. Sonra Məmun Xalidin vəzifəsini Abdullah ibn-Məsad Əsədiyə verdi və Xalidi öz yanına çağırdı. Xalid qorxdu ki, ona pislik etsin. Lakin onun yanına yetişcək Məmun onu öz qardaşı Mötəsimin ixtiyarına verdi. Abdullah ibn-Məsad Əsədi o ölkəyə gedərək, ölən gününə qədər orada qaldı. Oğlu onun yerində oturdu. O ölkənin işi pozuldu. Məmun, Məmuni ləqəbi ilə məruf olan Həsən ibn-Əli Badqeysiyə hakimlik verdi. Həsən işləri hələ də pozğun olan o ölkəyə getdi və Leqaneyn qalasının əhalisilə müharibə edərək oranı aldı. Sonra Dəbilə gedərək orada qaldı. O, tiflisli İshaq ibn-İsmail ibn-Şüeybə yazıb, xəracın göndərilməsini tələb etdi. İshaq isə göndərdiyi adamları geri qaytardı. (Həsən) Tiflisə getdi. Oraya yaxınlaşdıqda (İshaq) onun yanına gəldi və xərac verdi. O da İshaqın təqsirindən keçdi».

Xəlifə qoşunları ilə Babək arasında gedən müharibələr 212-ci (827-828) ildən sonra daha da şiddətləndi. İbn-əl-Əsirin yazdığına görə, Məmun həmin ildə Məhəmməd ibn-Həmid Tusini Babəkin davasına göndərərək buyurdu ki, Mosul yolu ilə gedib o ölkənin işini düzəltsin və Zəriq ibn-Sədəqə ilə müharibə etsin. Məhəmməd ibn-Həmid qoşununu götürüb Mosula getdi. Sonra Həmən və Rəbiə camaatından başqa bir qoşun toplayaraq Zəriqin müharibəsinə qoşdu. Məhəmməd ibn-Seyib ibn-Ənəs Əzdi də onun yanında idi. Zəriq bu xəbəri eşitcək onlara tərəf hərəkət etdi. İki qoşun Zabda bir-birilə üz-üzə gəldi. Məhəmməd ibn-Həmid (adam) göndərərək Zəriqi tabe olmağa çağırdı. O isə bu təklifi rədd etdi. Onların arasında şiddətli müharibə başlandı. Zəriqlə qoşunu məğlub oldu. O, Məhəmməddən aman istədi. Məhəmməd də ona aman verdiyindən onun yanına gəldi. Məhəmməd onu Məmunun hüzuruna göndərdi. Məmun Zəriqin bütün əmlakının alınması və kəndlərin zəbt edilməsi haqqında Məhəmmədə fərman verdi. Məhəmməd Zəriqin qardaşlarını və oğullarını çağırıb onları fərmanın məzmunu ilə tanış etdi. Onlar da xəlifənin fərmanını qəbul etdilər. Sonra Məhəmməd ibn-Həmid Azərbaycana getdi, Məhəmməd ibn-Seyidi isə öz tərəfindən Mosula (hakim) təyin etdi. Məhəmməd ibn-Həmid Azərbaycana çatdıqda müxaliflərlə döyüşdü, Leyli ibn-Mərrəni və başqa müxalifət göstərən adamları tutub Məmunun yanına göndərdi, özü isə Babək ilə müharibə etməyə getdi.



İbn-Quteybə «Kitab-əl-məarif» adlı əsərində Məhəmməd ibn-Həmid ilə Babək arasında gedən müharibənin 210-cu (825-826) ildə olduğunu qeyd edir.

Nizam-əl-Mülk «Siyasətnamə» adlı əsərində Məhəmməd ibn-Həmidin müharibələri haqqında belə rəvayət edir: «Hicri 212-ci (827-828) i1də Məmun zamanında xurrəmdinlər üsyan etdilər. İsfahan nahiyəsinin batinilərindən bir tayfa onlara qoşularaq fitnəkarlığa başladı. Onlar Azərbaycana gedərək Babəklə birləşdilər. Məmun Məhəmməd ibn-Tayini Babəkin müharibəsinə göndərdi. O, xürrəmilərlə vuruşdu. Məmun göstəriş vermişdi ki, Zəriq ibn-Əli ibn-Sədəqə ilə müharibə etsin, çünki o, üsyan etmişdi. İran dağlarında gəzərək qarət edir və karvan çapırdı. Məhəmməd ibn-Həmid tələsik yola düşdü. O, Məmunun xəzinəsindən heç bir şey almadı, qoşunun xərcini özü ödəyirdi. O, Zəriq ilə müharibə etdi, onu tutdu və qoşununu qırdı. Məmun Qəzvini, Marağanı və Azərbaycanın çox hissəsini ona verdi. Sonra o, Babəkin müharibəsinə getdi. Onunla Babək arasında altı dəfə şiddətli müharibə oldu. Axırda Məhəmməd ibn-Həmid həlak oldu, Babəkin işi isə yüksəldi».

«Mücməli-Fəsihi» kitabının müəllifi Məhəmməd ibn-Həmidin 213-cü (828-829) ildə Babəklə müharibə etməyə təyin olunduğunu qeyd etmişdir.

## 214-cü (829-830) İLİN MÜHARİBƏLƏRİ

214-cü ildə Məhəmməd ibn-Həmid ilə Babək arasında yenə müharibə oldu. Məhəmməd ibn-Həmid bu müharibədə öldürüldü. Bunun səbəbi isə belə idi: Məhəmməd ibn-Həmid yolları qorumaqda olan adamları məğlub edə-edə Babəkə tərəf hərəkət etdi. Qoşun və ərzaq topladı, bir çox könüllü qoşun dəstələrini də şəhərlərdən yığdı. Dərələrdən, yollardan keçdi. Hər bir dağ

keçidindən ötdükdə öz adamlarından bir neçəsini orada gözətçi qoyurdu. O, Həştadsər adlı yerdə düşüb xəndək qazdırdı. Babəkin ölkəsinə girmək haqqında öz adamları ilə məsləhətləşdi. Onlar o ölkəyə getməyi məsləhət gördülər, hətta oranın giriş yolunu belə təyin etdilər. Məhəmməd onların fikrini, məsləhətini bəyəndi və qoşununu hazırladı... O, Əbu Səid adı ilə məruf olan Məhəmməd ibn-Yusif ibn-Əbdürrəhman Taini qoşunun mərkəzində qoydu. Sədi ibn-Əsrəmiyə sağ cinahı, Abbas ibn-Əbdülcavab Yəqtiniyə isə sol cinahı tapşırdı. Məhəmməd ibn-Həmid özü bir dəstə ilə qoşunun arxasında dayanaraq onların hərəkətini nəzarət altına aldı. Məhəmməd onlara deyirdi: «Sıralarınızda boşluq əmələ gələrsə, dərhal yerini doldurun». Babək isə dağda olduğundan onlardan üstün idi, O, adamlarını pusquda qoyub, hər qayanın altında bir dəstə gizlətmişdi. (Belə bir vəziyyətdə) Məhəmməd ibn-Həmidin qoşunu irəliləməyə başladı. Onlar üç ağaca qədər dağa qalxdılar. Bu arada pusquda oturanlar bayıra sıçradılar. Babək də öz qoşunu ilə hücuma keçib düşməni məğlub etdi. Məhəmməd ibn-Həmid ilə Əbu Səid qoşuna müqavimət göstərməyi əmr etdilərsə də fayda vermədi. Qoşun qaçmağa başladı. Məhəmməd ibn-Həmid isə öz yerində dayanmış, lakin qoşunu baş götürüb dayanmadan qaçırdı. Xürrəmilər onu görcək üst-başından və rəftarından qoşun başçısı olduğunu bildilər. Ona hücum edib atına bir gürz vurdular və onu yerə yıxıb öldürdülər. Məhəmməd ibn-Həmid xoşxasiyyət və səxavətli bir şəxs idi. Bir çox şairlər onun ölümünə mərsiyə dedilər. Məmun bu xəbəri eşitcək qorxuya düşdü. O, Abdullah ibn-Tahiri Babəkin müharibəsinə göndərdi. O da Dinəvərdə qalaraq qoşununu döyüşə hazırladı.

Nizam-əl-Mülk «Siyasətnamə»də bu hadisə haqqında yazır:

«Xürrəmilər İsfahana gəldilər. Məmun Məhəmmədin həlak olmasından çox kədərləndi. Dərhal Xorasan valisi Abdullah ibn-Tahiri Babəkin müharibəsinə göndərdi. Bütün dağlıq vilayətləri, Azərbaycanı və fəth olunan başqa yerləri ona verdi.

Abdullah qalxıb Azərbaycana getdi. Babək ona müqavimət göstərə bilmədi. O, möhkəm bir qalaya qaçdı, qoşunu, habelə xürrəmilərin bir çoxu dağıldı».



İbn-Quteybə bu xüsusda «Kitab-əl-məarif»də belə yazır: «Məhəmməd ibn-Həmid 214-cü (829-830) ildə öldüruldükdən sonra Məmun Dinəvərdə olan Abdullah ibn-Tahiri Cibala hakim təyin etdi ki, Xorasana gedərək Əli ibn-Hişamı Babəkin davasına göndərsin».

İbn-Teyfur «Kitabi-Bağdad» adlı əsərində həmin ilin hadisələri haqqında yazır: «Məmun Xorasan valiliyini Abdullah ibn-Tahirə verdi və onu Babəkin müharibəsinə təyin etdi. O, Dinəvərdə qaldı və qoşun göndərdi. Sonra Məmun, Əli ibn-Hişamı Babəkin müharibəsinə göndərdi».

«Müntəzəmi-Nasiri»nin müəllifi də Əli ibn-Hişamın Cibal, İsfahan və Azərbaycana həmən ildə vali təyin edildiyini qeyd etmişdir.

Əbu Hənifə Dinəvari «Əxbari-ət-tival» adlı əsərində Abdullah ibn-Tahirə tapşırılan bu vəzifə haqqında belə yazır: «Babəkin işi irəlilədi, əhalinin vəziyyəti isə xarablaşdı, fitnə və fəsad hər yanı bürudü. Babək işə başlayanda Bəzz ətrafında olanları qırırdı, şəhərləri, kəndləri dağıdırdı. Beləliklə, onun işi irəlilədi. Cəlalı artdı. Ona əl tapmaq çətin idi. Bu xəbər Məmuna çatanda Abdullah ibn-Tahir ibn-Hüseyni çoxlu qoşunla onun müharibəsinə göndərdi. Abdullah getdi və indi Dinəvərdə «Abdulla ibn-Tahir qəsri» adı ilə məruf olan yerdə mənzil etdi. Sonra oradan hərəkət edərək Bəzzin yaxınlığına yetişdi. Babəkin işi çətinləşdi. Camaat ondan qorxdu, onunla müharibə etdilər, lakin ona qalib gələ bilmədilər. Sərkərdələrin bir hissəsi, o cümlədən Məhəmməd ibn-Həmid Tusi həlak oldu Əbu Tamam onun mərsiyəsində bir qəsidə demişdir».

## 217-218-ci (832-833) İLLƏRİN MÜHARİBƏLƏRİ

İbn-Teyfurun dediyinə görə, Məmun 217-ci ildə Cibalın hakimliyini və xürrəmilərlə müharibə etməyi Tahir ibn-İbrahimə tapşırmışdı. Tahir isə həmin il şəban ayının axırına beş gün qalmış Bağdaddan çıxdı.

Həmin 217-ci ildə Məmun Əli ibn-Hişamı öldürdü. Bunun səbəbi isə belə idi. Məmun onu Azərbayana və ona baxan yerlə-

rə hakim təyin etmişdi. Lakin sonra bildi ki, xalqın malını əlindən alır, camaatı qırır. Buna görə Məmun onun qarşısını almaq üçün Üceyf ibn-Ənbəsəni oraya göndərdi. Üceyf bildi ki, Əli ibn-Hişam onu öldürmək və Babəkə qoşulmaq fikrindədir. Ona görə fürsət tapıb onu tutdu və Məmunun yanına apardı, Məmun onu və onun qardaşı Həbibi öldürdü. Həmin ilin cəmadi-əl-əvvəl ayında Əlinin başını kəsib İraq, Xorasan, Misir və Şam ölkələrində gəzdirdilər

İbn-əl-Əsirin dediyinə görə, Cibal, Həmədan, İsfahan, Masobzan və ətraf yerlərin əhalisinin bir çoxu xürrəmi dinini qəbul etdi. Onlar birləşərək Həmədanda qoşun düşərgəsi saldılar. Mötəsim onların üstünə qoşun göndərdi. İshaq ibn-İbrahim ibn-Müsəb də bu qoşun ilə getmişdi. (Məmun) onu həmin ilin şəvval ayında Cibala təyin etdi. İshaq Həmədan kəndlərində onlarla üzüzə gəldi. Onlardan altmış min nəfər öldürdü. Sağ qalanları isə Ruma qaçdılar.

Nizam-əl-Mülk «Siyasətnamə»də həmin ildə baş verən hadisələrdən bəhs edərkən yazır: «218-ci il çatdıqda xürrəmilər yenidən İsfahan, Fars, Azərbaycanda üsyan qaldırdılar. O zaman Məmun Ruma getmişdi. Odur ki, xürrəmilər sözləşərək bütün vilayət və şəhərlərdə hazırlıq gördülər və vədə qoyduqları bir gecədə üsyan qaldırdılar. Şəhərləri taladılar, Fars vilayətində çoxlu müsəlman qırdılar, onların arvad-uşağını əsir etdilər. İsfahanda bunların başçısı Əli Məzdək adlı bir şəxs idi. O, şəhər qapısında iyirmi min nəfərlik qoşunu gözdən keçirib qardaşı ilə dağlara çəkildi. Budüləf orada yox idi, qardaşı Məqil isə dağda idi. O, beş yüz atlı ilə müqavimət göstərə bilməyərək, qaçıb Bağdada getdi. Əli Məzdək dağı işğal edib, taladı; harada müsəlman gördü, öldürdü, əcəlilərin uşaqlarını əsir etdi. O, Babəklə birləşmək üçün Azərbaycana qayıtdı. Xürrəmilər hər tərəfdən Babəkin başına toplaşdılar. Əvvəl on min nəfər idilər, sonra iyirmi beş min nəfər oldular. Dağların arasında Şəhristanə adlı bir şəhər var, hamı oraya toplandı, Babək də onlara qoşuldu. Sonra Mötəsim İshaqı qırx min nəfərlə onların müharibəsinə göndərdi. İshaq qəflətən onlara hücum etdi. Vuruşma başlandı, hamısını



qırdı. İlk müharibədə xürrəmilərdən yüz min adam qırıldı. Onların bir hissəsi İsfahana getdi. Əli Məzdəkin qardaşı on min nəfərlə İsfahanın evlərini, kəndlərini taladı, arvad-uşaqları əsir tutub apardı. İsfahanın əmiri Əli ibn-İsa orada yox oldu. (Şəhərin) qazisi və əyanı döyüşdülər. Hər tərəfdən onları mühasirə edib qalib gəldilər və xeyli adam qırıb arvad-uşaqlarını əsir apardılar».

Xürrəmilərin bu üsyanı Məmunun zamanında, daha doğrusu, onun ömrünün axırlarında başlandı. O, üsyanın qabağını almağa çalışdı. Lakin bu arada öldü. Məmundan sonra Mötəsim onları dəf etməyə başladı. Bu barədə Həmdullah Mustovfi «Tarixi-qozidə»də yazır: «Dinin düşməni olan Babək-allah ona lənət eləsin!-Azərbaycanda Məzdək dinini açıq surətdə təbliğ etməyə başladı. Məmun Məhəmməd ibn-Tusini onun müharibəsinə göndərdi. Babək onu öldürdü və onun işi qüvvətləndi.

Məmun heç bir tədbir görə bilmədən 218-ci (833) il rəcəb ayının 7-də öldü».

## 219-cu (834) İLİN MÜHARİBƏLƏRİ

İshaq ibn-İbrahim 219-cu ilin cəmadi-əl-əvvəl ayında Bağdada girdi. Xürrəmilərdən alınmış xeyli əsir də onunla idi. Deyildiyinə görə, arvad-uşaqdan başqa, onlardan yüz min adam öldürdü.

Həmədanda gedən müharibədən baş götürüb qaçan xürrəmilərin bir dəstəsi həmin 219-cu ildə Rum vilayətinə gedərək, Qüstəntəniyyə imperatoru Teofilə pənah apardı. Bir müddətdən sonra Bağdad qoşunu Babəki mühasirəyə alıb sıxışdırdıqları zaman o, həmin imperatora məktub yazıb ondan kömək istədi. O da kömək etməyə söz verib, qoşun hazırlığına başladı. Bu zaman Mazyar da Təbəristanda Bağdad sarayına qarşı müxalifətə başladı. Əfşin də gizlində onlar ilə əlbir idi. Bu barədə aşağıda deyiləcəkdir. (Beləliklə) dörd tərəfdən, dörd adam, yəni Teofil, Babək, Mazyar və Əfşin birləşərək, Bağdad xilafətini yıxmağa çalışırdılar. Məsələn, Teofil Babəkə verdiyi vədə əsasən 223-cü (837-838) ildə onun köməyinə gələrək xilafət torpaqlarına qoşun çəkdi, xeyli müsəlman qırdı və bir çoxunu, o cümlədən min nəfərdən artıq qadını əsir apardı.

Mötəsim bu fitnəni yatırmaq üçün əvvəlcə Babəklə müharibəyə başladı. Aşağıda müfəssəl surətdə izah olunacağı kimi o, gizlində Babək və Mazyarla əlbir olub, onlarla məktublaşan Əfşini Babəkin müharibəsinə göndərdi.

Mazyarın Babəklə dostluğu barədə İbn-İsfəndiyar «Tarixi-Təbəristan» adlı əsərində belə yazır: «Mazyar Babəki-məzdəkiyə və başqa mənfur atəşpərəstlərə göstəriş verdi ki, müsəlmanları qırıb məscidləri xarab etsinlər və islamdan bir nişanə belə qoymasınlar».

Sonra başqa bir yerdə Mazyarın Abdullah ibn-Tahirə söylədiyi sözlər haqqında belə yazır:

«Mən, Əfşin Xidr ibn-Kavus və Babək, üçümüz çoxdan bəri bir-birimizə söz verib bu qərara gəlmişik ki, hakimiyyəti ərəblərin əlindən geri alıb, ölkəni və şahlığı kəsrəvilər xanədanına verək. Srağa gün Əfşinin qasidi filan yerdə mənim yanıma gəlib qulağıma bir söz dedi. Mən sevindim. Abdullah Tahir soruşdu: Qasid nə xəbər gördərdi. Mazyar dedi: «Deyə bilmərəm». O, çox israr etdi. Nəhayət, Mazyar dedi: «And iç». Abdullah and içdi. Mazyar əhvalatı açıb belə söylədi: Əfşin mənə xəbər göndərib ki, biz filan gündə, filan saatda Mötəsimi və onun oğlanları Harun-əl-Vasiqi və Cəfər-əl-Mütəvəkkili öldürəcəyik...».

Axırda Əfşin Mötəsimin ürəyini ələ gətirmək üçün Babəki aldadıb əsir etdi. Sonra Mötəsim Teofili büsbütün məğlub etdi və beləliklə də məşhur «Əmuriyyə» zəfəri əldə edildi.

Teofil Bizans imperatorlarından Friji sülaləsinin ikinci hökmdarı, ikinci Mixail ləqəbi ilə məşhur olan Mixail ibn-Georginin oğlu idi. Mixail hicri 193-cü (808-809) ildə imperator olub, iki il sonra-195-ci (810-811) ildə taxtdan salınmış və ikinci dəfə 200-cü (815-816) ildə yenidən öz taxtına qayıtmış və nəhayət 213-cü (828-829) ildə vəfat etmişdir. Ondan sonra oğlu Teofil hökmdar oldu və 235-ci (849-850) ilədək imperatorluq etdi. Teofilin iranlı xürrəmdinlərə pənah verməsi və Babəkə tərəfdar çıxması onunla Mötəsim arasında əmələ gələn və uzun illər davam edən müharibələrə səbəb oldu. Nəticədə bu müharibələr Əmuriyyə şəhərinin fəthi ilə bitdi. Əlli beş gün mühasirədən sonra Bağdad qoşunları şəhəri alıb, otuz min nəfər əhalisini qırdılar və şəhəri elə viran etdilər ki, axır zamanlara qədər hətta onun yeri belə məlum deyildir. Bu zəfər əsnasında Əmurriyyə şəhərinin əyanı Yatis də əsir düşdü. Onu Samirəyə gətirib zindana saldılar. O, zindanda öldükdən sonra meyitini Babəkin meyitinin yanında dar ağacından asdılar.



### 220-ci (835) İLİN MÜHARİBƏLƏRİ

Bir il sonra, yəni 220-ci ildə Mötəsim Babək müharibəsini Əfşinə tapşırdı. Əfşinin adı Kavus oğlu خيدر (Xidr) və ya خنيدر (Xnidr) idi. Bəzi müəlliflər Əfşinin adını yanlış olaraq حيدر (Heydər) yazmışlar.

«Əfşin» sözü qədim zamanlarda Məvəraünnəhrin ən ucqar nahiyələrindən biri olan İsrövşənə adlı yerin əmirlərinə verilən şahlıq ləqəbi idi. Onlar Sasanilər dövründən başlayaraq ölkədə nəsilbənəsil hökmranlıq etmişlər. Hazırda çox yerdə «İströvşənə» şəklində yazılan «İsrövşnə» və ya «Sirövşənə» Özbəkistan Sovet Sosialist Respublikasının ikinci dərəcəli yaşayış məntəqələrindən biridir. 207-ci ( (822-823) ildə Məmun Xorasanın hakimliyini Tahir Zül-Yəmineynin oğlu Təlhəyə verdi və Əhməd ibn-Xalidi isə ona köməkçi təyin edib Xorasana göndərdi. Əhməd Orta Asiyaya getdi və o ölkənin əfşini Sarxorə oğlu Kavus, yəni Əfşin Xidrin atası ilə müharibə etdi və onu iki oğlu-Fəzl və Xidr ilə birlikdə əsir tutub Bağdada göndərdi. Təlhə bu qələbədən o dərəcədə sevindi ki, Əhməd ibn-Xalidə üç min min (üç milyon) dirhəm bağışladı. Sarxorənin oğlu Kavus Bağdadda qaldı və orada da öldü. Onun iki oğlu isə Məmunun yanında qalıb tərbiyə aldılar və get-gedə artıb xilafət sarayının yaxın şəxslərindən oldular. Beləliklə də Əfşin Mötəsim sarayının ən böyük əmiri oldu.

Əfşinin hörməti artmaqda olan zaman onunla bir tərəfdən sarayda böyük nüfuza malik olan tahirilər xanədanı, xüsusilə sarayın ən böyük əmirlərindən olan Abdullah ibn-Tahir, habelə onun atasının əmisi oğlu, Bağdad əmiri İshaq ibn-İbrahim ibn-Müsəb, digər tərəfdən isə sarayın mötəbər xidmətçilərindən biri olan türk Əşnas arasında kəskin rəqabət başlandı. Əfşin tahiriləri zəiflətmək

və yıxmaq üçün xilafətin düşmənləri ilə əlaqəyə girdi. O cümlədən qohumu isrövşənəli Mengəcüri onun təhriki ilə 217-ci (832) ildə Azərbaycanda üsyan etdi və həmin ildə tutulub öldürüldü.

Mazyar da Əfşin ilə əlbir idi, yuxarıda qeyd edildiyi kimi, onun özu tutulduğu zaman belə etiraf etmişdi: mən, Əfşin Xidr ibn-Kavus və Babək çoxdan əhd etmişdik ki, ölkəni ərəblərin əlindən xilas edərək, sasanilər sülaləsinə qaytaraq.

Babək öldürülüb, Bizans imperatoru Teofil isə 223-cü (837--838) ildə məğlub edilib və Mazyar 225-ci ildə edam olunduqdan sonra Əfşinin düşmənləri ona üstün gəldilər və Mötəsim onu da 225-ci (839-840) ildə öldürdü.

Əfşin Babəkin müharibəsinə ilk dəfə 220-ci (835) ildə təyin olundu. O, 223-cü ilə qədər Azərbaycanda Babək ilə vuruşurdu. Nəhayət, onu hiylə ilə tutdu. Əfşinin Babəkdən üz çevirməsinin və onun tutulmasına razı olmasının səbəbini belə izah etmək olar: Əfşin bir müddət Babək ilə müharibə etdi, lakin onu büsbutün məhv etmək istəmirdi. Mötəsimə elə gəlirdi ki, Əfşin təkbaşına Babəkin öhdəsindən gələ bilməyir. Buna görə də tahiriləri də bu işə cəlb etmək və onlardan kömək istəmək fikrinə düşmüşdü. Əfşin gördu ki, tahirilər Babəkə qalib gəlsələr, onların nüfuzu xəlifənin sarayında daha da artacaqdır. Odur ki, Əfşin bu nüfuzun rəqibi olan tahirilərə qismət olmasına yol verməmək və özü bu işdən faydalanmaq məqsədilə, istər-istəməz Babəki öz əzəmətinin yüksəlişi və düşmənlərin zəifləməsi xatirinə qurban verdi.

### MÖTƏSİM DÖVRÜNÜN MÜHARİBƏLƏRİ

Yaqut «Möcəm-əl-büldan» adlı əsərində «Ərşəq» sözünü izah edərkən yazır: «Ərşəq» Azərbaycan nahiyələrindən biri olan Muğanda Babək xürrəminin Bəzz adlı şəhərinin yaxınlığında bir dağdır».

Başqa bir yerdə «xürrəmi» sözünü izah edərkən, o deyir: farsca bu sözün mənası şadlıq deməkdir. Bu ad altında Ərdəbildə bir kənd də vardır. Nəsr deyir: zənnimcə, Babəkin mənsub olduğu xürrəmilər o yerdəndirlər. Deyirlər ki, «xürrəmiyyə» fars sözüdür. Şəhvətə uyan və onu halal bilən adamlara xürrəmi deyilir.



Başqa bir yerdə «Druz» sözünü izah edərkən yazır: «Əbu Təmmamın Əbu Səid Səqəriyə ithaf etdiyi bir şeirdən anlaşılır ki, Druz Azərbaycan hüdudunda olan bir yerin adıdır».

و بالهضب من ابرشتويم و دروذ
علت بک اطراف القنا فاعل وازدد

(Əbrəştəveym və Druz arasındakı dağlar sənin ətrafında ucalırlar, sən də uca və böyük ol). Əbrəştəveym şəhəri də oradadır. Bu qəsidədə şair Babək xürrəmi ilə Əbu Səid Səqərinin müharibələrini təsvir edir. O, Mötəsimə ithaf etmiş olduğu başqa bir qəsidəsində deyir:

وبهضبتى ابر شتويم و دروذ    لحقت لقاح النصر بعدحيال
فليشكر واجخ الظلام و دروذا    فهم لدروذو الظلام موالى

(Əbrəştəveym və Druz təpələrində
Sən hiylə vasitəsilə qələbə toxumunu əkdin.
Qoy sənə Zilam və Druzun ətrafındakılar,
- Druz və Zilamın ağaları təşəkkür etsinlər).

Başqa bir yerdə «Sindbaya» sözü haqqında yazır: «Azərbaycanda Babəkə məxsus olan Bəzz nahiyəsində bir yerdir». Şair əbu Təmmam Əbu Səid Məhəmməd ibn-Yusifə ithaf etdiyi bir mədhiyyədə belə demişdir:

رمى الله منه بابكا و ولاته    بقاصمة الاصلاب فى كل مشهد
فتى يوم بذالخرمية لم يكن    بهياتة نكس ولابمعرد
قفا سند بايا والرماح مشيحة    تهدى الى الروح الخفى فتهتدى

(O, allahın köməyi ilə Babəkə və onun sərkərdələrinə ən şiddətli döyüşlərdə qələbə çaldı. Bu qəhrəmanın sifətində xürrəmilər ilə Bəzz ətrafındakı vuruşmalarda, bir qorxu əsəri görünmədi. O, geri dönmədi. Sindbayanın ətrafında nizələri qaldırıb məxfi ruhlara (canlara) yönəltdi).

Başqa yerdə «Sureyn» sözünü izah edərkən yazır: «Nişaburun yarım ağaclığında yerləşmiş bir kənddir» «Deməşq tarixi» adlı əsərdə qeyd edilir ki, İbrahim ibn-Nəsr ibn-Mənsur Sureyni, Əbu-İshaq, yaxud Surani-fəqih Şama səfər etdi. Sureyn Nişaburun yuxarısında bir məhəllədir. Məhəmməd ibn-əl-Həkəmin ibn-Nəsr Sureynini Dinəvərdə Babəklə döyüşərkən, Məhəmməd

ibn-Həmid Tusinin qoşunları içərisində görmüş və 210-cu (825-826) ildə meyitinə rast gəlmişdir.

Başqa yerdə «Təbəristan» sözünü izah edərək, Qarun oğlu Mazyar, haqqında yazır: «Onu 225-ci (839-840) ildə Samirəyə apardılar və Mötəsimin hüzurunda qılınc ilə vurub öldürdülər. Meyiti Samirədə Məclisi-şürtənin qabağında olan bir təpədə, Babək xürrəmi ilə birlikdə dara çəkildi».

Başqa bir yerdə «Qoran» sözünü izah edərkən yazır:

«Qoran Azərbaycanda Babək xürrəminin qərargahı olan Bəzzeynin bir qəsəbəsidir».

Başqa yerdə «Kəzəc» sözü haqqında yazır: «Kəzəc Azərbaycanda Babəkə tabe olan yer və qalalardan birinin adıdır». Bu söz ərəbləşmiş yadelli kəlmələrindəndir, mənası isə yer deməkdir. Şair Əbu Təmmam şeirlərinin birində bu sözu cəm şəklində işlətmişdir:

وابر شتويم والكذاج و ملتقى    سنابكها والخيل تردى و تمزع

Aydındır ki, bu söz farsın «gədə» və ya «kəzə» kəlməsinin ərəbləşmiş formasıdır

Başqa bir yerdə «kəlanrud» sözu haqqında yazır: «Bu kəlmənin mənası «böyük çay»dır. Bu yer Azərbaycanda Babəkin qərargahı olan Bəzz şəhərinin yaxınlığındadır. Əfşin Babəklə müharibə etdiyi zaman bu yerdə düşmüşdur. Ehtimal etmək olar ki, bəzi məxəzlərdə göstərilən «Bəlalrud» və ya «Dəvalrud» yer adları həmin «kəlanrud» sözünün təhrif olunmuş şəkilləridir».

Başqa bir yerdə «Mərağə» sözü haqqında yazır: «Mərağə» Azərbaycanın ən böyuk və məşhur şəhərlərindəndir... Xəzimət ibn-Xəzim Rəşidin xilafəti dövründə Ərməniyyə və Azərbaycanın hakimi oldu. Orada hasarlar, qalalar saldırdı və oranı abadlaşdırdı. Orada çoxlu qoşun qoydu. Sonralar, Babək xürrəmi meydana çıxanda xalq oraya pənah aparıb, düşdülər, yurd saldılar və sığındılar...».

Başqa bir yerdə «Vərsan» sözu haqqında yazır: «Sələfinin «Vərəsan» şəklində qeyd etdiyi «Versan» Azərbaycan sərhəddinin qurtaracağında yerləşən bir şəhərin adıdır. Oradan əl-Rəs dərəsinə qədər iki ağacdır. Varsan ilə Beyləqanın arası 7 ağacdır.



«Kitab əl-fütuh»da qeyd olunur ki, «Vərsan» Azərbaycandadır, bu yer Babək zamanında Ərşəq adı idə məhşur olub».

Müxtəlif kitablarda Babək dövründə baş verən hadisələr münasibətilə adı çəkilən bu yaşayış məntəqələri və nahiyələrdən başqa, hazırda Azərbaycanda «Babəkan» adlı bir kənd vardır. «Əsamiye-dehate-keşvər» adlı kitabda (səh. 15) bu kəndi Xoy ilə Şahpur şəhərləri arasındakı Qotur kəndistanına tabe olan yerlər sırasında göstərmişlər. Çox ehtimal ki, bu kənd Babək zamanındakı yaşayış məntəqələrindən biri olmuş və Babək xatirinə ona «Babəkan» adı verilmişdir.

Mütəhhər ibn-Tahir Müqəddəsi 355-ci (965-966) ildə yazmış olduğu «Kitabül-əl-bəd və-t-tarix» adlı əsərində (Paris çapı, c.3, səh. 9) Babək haqqında belə yazır: «Sənəvilər İbn-Deysan, İbn-Şakir, İbn-Əbi Ovca, Babək xürrəmi və başqalarının peyğəmbərliyinə inanırlar. Onların fikrincə, yer üzü heç vaxt peyğəmbərsiz olmayacaqdır».

Başqa bir yerdə (c. 6, səh. 112) Məmunun dövründə baş verən hadisələr haqqında yazır: «Onun zamanında xürrəmilər üsyan etdilər. Babək iddia edirdi ki, Cavidanın ruhu onun bədəninə keçmüşdür, Məmun Məhəmməd ibn-Həmidi onun müharibəsinə göndərdi, lakin Məhəmməd ibn-Həmid bir çox yoldaşları ilə həlak oldu».

Sonra yenə başqa bir yerdə (c. 6, səh. 114-117) «Babək xürrəminin dastanı» başlığı altında deyir: O hələ həddi-büluğa çatmamışdı. Onun anası Azərbaycan kəndlilərindən olub, taygöz yoxsul bir qadın idi. Savad nəbtilərindən Əbdullah adlı bir şəxs ona vuruldu. Qadın ondan hamilə oldu. Onu öldürdülər. Bu zaman Babək anasının qarnında idi. Babək anadan oldu, anası onun güzəranını təmin etmək üçün işləyirdi. O, çox çalışırdı, nəhayət, Babək böyüyüb ehtiyatkar bir gənc oldu. Kəndin əhalisi naxırçılığı ona tapşırdı. Qarnının çörəyini, üstünün geyimini verirdilər. Deyirlər ki, günlərin birində (anası) ona yemək apardı. Gördü ki, o, bir divarın kölgəsində yatmış və bədəninin tükləri biz-biz olaraq hər tükün dibindən qan damcıları axmaqdadır. O dedi: «Mənim bu oğlum gələcəkdə böyük bir məqamə çatacaqdır».

Həmin bu dağlıq yerdə xürrəmilərdən bir dəstə yaşayırdı. Onların bir-birilə çəkişən iki başçısı var idi. Birisinin adı Cavidan, digərinin isə İmran idi. Bir gün Cavidan bir iş üçün Babəkin kəndinə getdi və onu görüb zirək olduğunu duydu. Onu bir muzdur kimi anasından alıb öz yerlərinə gətirdi. Deyirlər, Cavidanın arvadı ona vurulmuşdu və ərinin bütün sirlərini açıb ona dedi, yığdığı pulunu, xəzinələrini göstərdi. Çox keçmədi ki, Cavidanla İmran arasında müharibə başladı. Cavidan yaralanıb öldü. Cavidanın arvadı hamıya dedi ki, Cavidan Babəki öz yerində qoymuş və onun ruhu Babəkin bədəninə köçmüşdür. Cavidanın vəd etdiyi qələbə və zəfər Babəkin əlilə sizə çatacaqdır. Səbəbi isə bu idi ki, xürrəmilər gecə-gündüz üsyan ümidi ilə yaşayırdılar. Bu işdən sonra xalq o qadının sözlərinə inanıb, Babəkin ətrafına toplandı. Babək öz tərəfdarlarını nahiyələrə, kəndlərə göndərdi. Onlar olduqca yoxsul idilər. Babək onlara qılınc və xəncər verərək dedi: öz evlərinizə, kəndlərinizə qayıdın və filan gecənin üçüncü yarısını gözləyin, vaxt çatdıqda xalqın üstünə tökülün, uzaqda, yaxında gördüyünüz hər bir kəsi istər kişi ya qadın, istərsə cavan ya uşaq, parçalayıb öldürün. O camaat da Babəkin dediyi kimi etdi. Səhərə qədər o kəndlərin əhalisi xürrəmilərin əlilə qırıldı. (Lakin) belə bir əmrin kimin tərəfindən və nə üçün verildiyini bilən olmadı. Camaatı şiddətli qorxu bürüdü. Babək dayanmadan onları daha uzaq yerlərə göndərdi; onlar da böyük-kiçik, beləliklə, müsəlman ya qeyri-müsəlman, hər kimi gördülər, öldürdülər. Beləliklə də adam öldürməyə alışdılar. Quldurlar, avaralar, fitnəkarlar, pis yola gedənlər onun ətrafına toplandılar. Onun qoşununun sayı çoxalıb piyadadan başqa, atlılarının sayı iyirmi min nəfərə çatdı. O, şəhərləri, kəndləri fəth etdi. Camaatın gözünün odunu alıb, qorxuya saldı, hər yerə od vurub yandırdı, kimsəyə azacıq belə rəhm etmədi. Sarayın bir çox qoşununu məğlub edib, bir neçə sərkərdəni öldürdü. Bəzi kitablarda göstərilir ki, o, təxminən min min (bir milyon) nəfərə qədər kişi, arvad və uşaq öldürmuşdür. Tarixdə deyilirdi ki, Babək tərəfindən öldürulənlərin sayı iki yüz əlli beş min yüz nəfər imiş. Allah hamıdan yaxşı bilər. Nəhayət, Mötəsim Əfşini Babəklə



üzləşməyə göndərdi və bütün dağlıq nahiyələrin hakimliyini ona verdi. Mötəsim Əfşinə çatası cirə, maaş, kömək və Cibal hakimliyi haqqından başqa, ona ata mindiyi (vuruşduğu) gün üçün on min dirhəm, ata minmədiyi (vuruşmadığı) gün uçün isə beş min dirhəm verəcəyini öhdəsinə götürdü. (Bundan başqa) yola düşdüyü gün ona min min dirhəm baqışladı. Əfşin Babəklə bir il tamam vuruşdu və neçə dəfə məğlub oldu. O yenə də müharibəyə gəldi. Babək möhkəm bir şəhər olan Bəzzə pənah apardı. Ölümü yaxınlaşdığından vəziyyəti ağırlaşdı. O, Ərməniyyəyə getmək üçün ailəsi və uşaqlarını götürüb, tacir paltarında şəhərdən çıxdı. Yolda erməni əyanlarından biri olan xaçpərəst Səhl ibn-Sunbat onu tanıdı. Bu əhvalatdan bir müddət əvvəl o, Babəkin əsiri olmuşdu, canını qurtarmaq üçün ona çoxlu mal-dövlət təklif etmişdi. Lakin Babək qəbul etməyib, onun gözünün qabağında anası, bacısı və arvadı ilə yatmışdı. (Səhl) onu tutub Əfşinin yanına göndərdi. Mötəsim Babəki diri tutub yanına gətirən adama iki min min dirhəm, başını kəsib gətirənə isə[1]... verəcəyini vəd etmişdi. Buna görə Səhl ibn-Sunbata iki min min dirhəm göndərib, öz vətəninin hakimlərini seçmək ixtiyarını ona verdi. Əfşin Babəki Samirəyə, Mötəsimin yanına apardı. Mötəsim əmr etdi, onun əllərini və ayaqlarını kəsdilər. Onu 223-cü ildə dara çəkdilər. Bəziləri belə rəvayət edirlər ki, məlun Babəkin əlini kəsdikdən sonra o, əlinin kəsilməsindən ağrı hiss etmədiyini və ruhu belə incimədiyini göstərmək üçün qanını üzünə sürtüb güldü. Bu (hadisə) islam aləmində əldə edilən böyük qələbələrdən biri idi. Babəkin tutulduğu gün müsəlmanlar üçün bayram idi. Bu (hadisə) 223-cü ildə cümə günü, ramazandan 14 gün keçmiş üz vermişdir. Bundan sonra Mötəsim Əfşinin rütbəsini ucaltdı, ona tac bağışladı, mirvari və cəvahirlə bəzənmiş iki boyunbağı, iki qolbaq və iyirmi min min dirhəm pul verdi. O, şairlərə əmr verdi ki, Əfşini mədh edib ondan mükafat alsınlar...».

Qeyd etmək lazımdır ki, Mütəhhər ibn-Tahirin bu hissənin sonunda Babəkin tutulmasını 223-cü (837-838) il ramazan ayının

[1] Əslində buraxılmışdır . Red.

14-nə aid etməsi doğru deyildir. Yuxarıda deyildiyi və gələcəkdə qeyd olunacağı kimi, etibarlı mənbələrin dediyinə görə, Babək 222-ci ildə ramazan ayının 10-da tutulmuşdur. Daha doğrusu, o gün Bəzz şəhəri alınmışdır. Əgər Babək də eyni gündə tutulmuşsa, onda bu hadisə ramazan ayında baş vermiş olmalıdır. Göründüyü kimi, mətndə hadisənin ayı və günü düzgün yazılmamış və əslində də 222-ci (836-837) il ramazanın 14-ü imiş. Yanlışlıq ilin tarixindədir. Beləliklə, Babək Bəzz şəhəri işğal olunduqdan 4 gün sonra, yəni 222-ci il ramazanın 14-də tutulmuşdur.

Məsudi «Müruc əz-zəhəb» adlı kitabında əvvəlcə, Babəkin idarə etdiyi yerlər haqqında izahat verir. Bu izahatın başlanğıcında məşhur Dərbənd hasarından danışaraq deyir: «Bu işdə əgər əziz və uca allah lətif hikməti və böyük qüdrəti ilə öz bəndələrinə rəhmi gəlməyib Dərbənd şəhərini saldırmaq, habelə haqqında danışdığımız hasarı quruda və dənizdə, dağda qalalar tikdirmək işində İran şahlarına kömək etməsəydi, orada yaşayan xalqlara padşahlar göndərməsəydi, o halda başqa xalqların şahları Azərbaycanın və onun digər şəhərləri olan Bərdə, Arran, Beyləqan, Zəncan, Əbhər, Qəzvin, Həmədan, Dinəvər, Nəhavəd və habelə İraqa gedən Kufə ilə Bəsrə yolu üstündə olan adları çəkilmiş başqa yerləri işğal edərdilər. Allah onların yolunu kəsməsəydi, islam dini zəifləyib ortadan qalxmış olacaq, rumilər müsəlmanlara ağalıq edəcək, həcc işləri pozulacaq, cihad məsələsi aradan gedəcək, yollar kəsiləcək, mülk-ət-təvayif (dərəbəylik) zamanında, yəni İsgəndərin ölümündən sonra və Ərdəşir ibn-Babək ibn-Sasanın isə padşahlığa çatana qədər olduğu kimi, hər başını qaldıran sərkərdə olduğu ölkədə ağalıq edəcək idi. Lakin Ərdəşir ibn-Babək ibn-Sasam xalqı həmrəy edərək, onları birləşdirdi. Xalqa kömək edib ölkəni abadlaşdırdı. Nəhayət, Allah Məhəmməd peyğəmbəri, Allah ondan razı qalsın və ona rəhmət etsin, göndərdi, O isə küfrün bayrağını yatırdı, xalqlar arasındakı bir sıra məslləkləri ləğv etdi. İslam dini daha da qüvvətləndi. Lakin bu gün, yəni 332-ci (943-944) ildə əmir-əl-möminin Əbu İshaq İbrahim Müttəqqi-billahın xilafəti dövründə onun sütunları əyilmiş, əsası isə sarsılmışdır. Allah bizi mətləbimizə çatdırsın. Dərbənd haqqında çox yazılmışdır. Oranın gözəl imarətlərini kəsra Ənuşirəvanın atası kəsra ibn-Qubad ibn-Firuz Məsqət adlı yerdə daşdan tikdirmişdir. Şirvandakı Surəttin (palçıq hasar) adlı məşhur divarları, daşdan hörülmüş məşhur «Bərmək» barısını, habelə Bərdəyə bitişik (imarətləri) də o tikdirmişdir. Başqa kitablarımızda bu barədə izahat verdiyimizə görə, burada onlardan bəhs etməyə lüzum görmədik.

Kür çayına gəldikdə, o, Xəzər adlı yerdən başlanır. Abxazdan keçərək, Tiflisə çatdıqda iki hissəyə ayrılır Siyavərdilər ölkəsinin içindən axır. Yuxarıda qeyd etiyimiz kimi, Siyavərdilər ermənidirlər. Syabihə və başqa İran qoşunlarının işlətdikləri Siyavərdə adlı təbərzin də onların adı ilə əlaqədardır. Kür adı ilə məruf olan bu çay gəlib Bərdənin 3 milliyinə çatır və Bərdə şəhərindən bəri olan Bərdacdan keçir. Sənarənin yaxınlığında Araz çayı ona qovuşur. Araz çayı Trabzondan başlayıb Kürə qovuşur və onunla birlikdə gəlib Xəzər dənizinə tökülür. Araz çayı Azərbaycanda Babək xürrəminin vətəni olan Bəzzeyndən və Arranda Əbu Musa adı ilə məruf olan bir dağın ətəyindən keçir. Bu çay Vərsandan da keçərək, yuxarıda adını çəkdiyimiz Sənarə qovşağına çatır».

«Müruc əz-zəhəb»də Ənuşirəvanın atasının adı «Kəsra ibn-Qubad ibn-Firuz» yazılmışdır. Bu, yanlışdır. Bu təhrif katib tərəfindən edildiyinə daha çox oxşayır. Əslində «Kəsra Qubad ibn-Firuz»dur. Çünki Nuşirəvanın atasının adı Xosrov (Kəsra) deyil, Qubad idi. «Kəsra» isə ərəb dilində Xosrov Ənuşirəvana və onun Sasani sülaləsinin sonuna qədər davam edən xələflərinə verilən bir ləqəbdir. Görünür ki, Məsudi bu ləqəbi Ənuşirəvanın atası, yəni Qubad haqqında da işlətmişdir.

Məsudi həmin kitabın başqa bir yerində Əbu Müslüm Xorasaninin 136-cı (753-754) ilin şəban ayında öldürülməsindən danışarkən yazır:

«Əbu Müslümün öldürülməsi xəbəri Xorasana və Cibalın başqa yerlərinə çatdıqda xürrəmilər kədərləndilər. Xürrəmilərə «müslümiyyə» də deyilir. Onlar Əbu-Müslümü özlərinə imam bilib onun yolu ilə gedirlər. O öləndən sonra bir-birilə deyişmə-

yə başladılar. Bəziləri elə güman etdilər ki, o ölməmişdir. Onların zənninə görə o bütün dünyada ədaləti bərpa etməyincə ölə bilməzdi. Bəziləri də onun öldüyünə inanıb, qızı Fatiməni özləri üçün imam qəbul etdilər. Onlara «fatimiyyə» deyilir. Xürrəmilərin çox hissəsini hazırda, yəni 332-ci (943-944) ildə kudəkilər və nurşahilər[1] təşkil edir. Bunlar xürrəmilərin ən böyük tayfası hesab olunur. Arran və Azərbaycan ölkəsindəki Bəzzeyndə Məmun və Mötəsimə qarşı üsyan edən Babək xürrəmi də onlardan idi. Mötəsim haqqında verilən xəbərlər içərisində onun əhvalatı və öldürülməsinin təfərrüatı qeyd ediləcək və allah qoysa, həmin bu kitabda da göstəriləcəkdir. Xürrəmilər ən çox Xorasan, Rey, İsfahan, Azərbaycan, Kərəc, Əbudüləf və Bürc nahiyələri, habelə Seymərə, Sirvan, Ərivcan, Masobzan və başqa kənd və şəhərlərdən qıraq yerlərdə yaşayırlar. Bunlar gələcəkdə qalib gəlib tərəqqi edəcəkləri ümidindədirlər. Xorasan və başqa yerlərdə batini adı ilə mərufdurlar. Biz «Kitabi-məqalat fi üsul-əd-diyanat» adlı əsərimizdə onların məslənləri və firqələri haqqında danışmışıq. Bu barədə bizdən qabakı müəlliflər də danışmışlar. Əbu Müslümün Xorasanda öldürülməsi xəbəri xürrəmilərə çatdıqda onların içərisindən Sunfad[2] adlı bir nəfər nişaburlu Əbu Müslümün qanını almaq məqsədilə baş qaldırdı. Çoxlu qoşunla Xorasandan Reyə getdi və oranı, habelə Kumş (Qums) və onun ətrafını aldı. Əbu Müslümün Reydə olan bütün xəzinələrini zəbt etdi. Sunfadın ətrafına toplaşmış Cibal və təbəristanlıların sayı daha da artdı. Bunların üsyan etməsi xəbəri Mənsurə çatdıqda Cəhur ibn-Mərar İclini on min nəfərlə onu məğlub etməyə göndərdi. Özü də qoşunu göndərib onun ardınca getdi. Onlar Həmədanla Rey arasında, bir çölün kənarında qarşı-qarşıya gəlib bərk vuruşdular. Hər iki tərəfin vəziyyəti ağır idi. Sunfad həlak oldu. Tərəfdarları qaçdı. Onlardan altmış min nəfər öldürüldü, bir çoxu isə əsir düşdü. Əsir düşənlərin içərisində çoxlu arvad-uşaq da var idi. Sunfad üsyanı başlanğıcından öldürülən günə

---

[1] Əslində əl-Krakyə və əl-Lud şahiyə yazılmışdır

[2] Sunbad olmalıdır–*Müəllif*



qədər yetmiş gecə keçdi, Bu hadisə 136-cı (753-754) ildə, Əbu Müslümün ölümündən bir neçə ay sonra baş verdi».

Yenə Məsudi «Müruc-əz-zəhəb» adlı əsərinin başqa yerində Mötəsim dövründə baş verən hadisələrdən bəhs edərkən yazır: «Arran və Beyləqan ölkələrində Babək xürrəminin qüvvəsi artaraq hərəkatı genişləndikdə onun qoşunları həmin şəhərlərə hücum etdilər. Qoşun hissələri darmadağın edildi, sərkərdələri qırıldı. Xalq məhv oldu. (Belə bir vəziyyətdə) Mötəsim Əfşini qoşunla onun müharibəsinə göndərdi. Onlar bir neçə dəfə müharibə etdilər. Babəkə yaxınlaşaraq, onu olduqca sıxışdırdılar. Nəhayət, onun qoşunu dağılıb, adamları qırıldı. Babək isə Arran ölkəsində oturacağı olan Bəzzeyn dağına pənah apardı. Bu yer indiyə qədər, yəni 332-ci (943-944) ildən onun adı ilə tanınır. Babək başına nələr gəldiyi və gizləndiyi yerin qorxulu olduğunu düşünərək oradan çıxdı, qardaşı, ailəsi, uşaqları, habelə yaxın qulluqçuları ilə birlikdə sövdəgər və müsafir paltarında karvan ilə yola çıxdı və gəlib Ərməniyyədə erməni əyanı olan Səhl ibn-Sunbatın malikanəsi yaxınlığındakı bir su kənarında düşdü. Yaxınlığında olan bir çobandan bir qoyun satın aldılar. Başqa yeyinti də almaq istədilər. Lakin o razı olmadı. O, qacıb erməni Səhl ibn-Sunbata xəbər verib dedi ki, bu adam, şubhəsiz, Babəkdir.

Babək məkanından qaçıb dağları tərk etdikdən sonra, Əfşin onun bir qalaya, hündür dağa pənah aparıb, yerli əhalinin bir parasını özünə yoldaş edib qoşun toplamasından və bir daha qüvvətlənməsindən qorxurdu. Buna görə də Əfşin yolları bağladı. Azərbaycanın Arran və Beyləqan torpaqlarında olan qala və oturaqların əyanlarına məktub yazıb, onları mükafat vədilə öz tərəflərinə cəlb etdi. Səhl çobandan Babəkin əhvalatını eşitcək yanında olan bir neçə yoldaşla və qoşun əhli ilə atlanıb Babəkin olduğu yerə gəldi. Atdan düşub ona yaxınlaşdı və şahlara məxsus bir ehtiramla salam verib dedi: «Şahım, qalx, özünə məxsus olan sarayda əyləş, sənin qulluqçuların oradadır. Orada allah səni düşmənlərindən qoruyub öz pənahında saxlayacaqdır». Babək onunla gedib qalaya çatdı. Səhl onu öz taxtında oturtdu. Olduqca hörmət etdi, evini onun və onunla gələn adamların ixtiyarına

verdi. Onun üçün yemək gətirdi. Səhl özü də onunla oturub yeməyə başladı. Başına nələr gəldiyini və nələr gələcəyini bilməyən Babək qürur və təkəbbürlə Səhlə dedi: Sənin kimilər mənimlə bir yerdə oturub çörək yeyə bilərdimi? Səhl süfrənin başından qalxaraq dedi: «Şahım! Mən səhv etdim, sənə yaraşar ki, öz qulunu əfv edəsən, mən hara, sən hara, mənim şahlarla bir yerdə oturub çörək yeməyə ləyaqətim yoxdur». Sonra o, bir dəmirçi gətirtdi və Babəkə dedi «Şahım, ayaqlarını uzat». Onun ayağını ağır dəmirlə buxovlatdı. Babək dedi: «Ey Səhl! Mənə hiylə gəldin». Səhl dedi: «Ey əxlaqsız qadının balası. Sən malqara otarmalısan. Sən hara, ölkəni idarə etmək, siyasi və hərbi işlərə qarışmaq hara». Səhl onun adamlarını da tutub zindana saldı və Əfşinin yanına adam göndərərək onu əhvalatdan xəbərdar etdi. Əfşin bu xəbəri eşitcək öz adamlarından dörd min nəfər Bumadə adlı bir qasid ilə göndərdi. Babəki adamları ilə birlikdə Əfşinin yanına apardılar. Səhl ibn-Sunbat da onunla idi. Əfşin Səhlin rütbəsini qaldırdı, ona xələt verib hörmət etdi, öz əlilə ola tac və at bağışladı və ondan alınacaq xəracı ləğv etdi. Sonra Mötəsimin yanına göyərçinlər göndərib ona zəfərnamə yazdı. Bu xəbər ona çatdıqda caamat dua oxuyub, şənlik etdi. Ölkələrə zəfərnamə göndərdilər. Çünki Babək sarayın qoşunlarını qırmışdı. Əfşin Babəki götürüb bütün əskərləri ilə yola düşdü. Onlar Samirəyə yetişdilər. Bu hadisə 223-cü (837- 838) ildə baş verdi. Əfşin Harun ibn-Mötəsim və xilafət xanədanı, habelə sarayın görkəmli adamları ilə görüşdü. O, Samirənin beş ağaclığında «Qatul» deyilən bir yerə düşmüşdü. Ona kül rəngində bir fil göndərmişdilər. Bu fili hind şahlarından biri Məmuna hədiyyə göndərmişdi. Fil çox iri idi. Üstünə yaşıl və qırmızı ipəkdən çul salıb, hər tərəfini əlvan ipək parçalarla bəzəmişdilər. Bu filin yanında iri cüssəli bir dişi dəvə də var idi. Bu dəvəni də yuxarıda dediyimiz kimi bəzəmişdilər. Əfşin üçün üstü qızıl tellərlə işlənmiş, sinəsinə isə rəngbərəng yaqut və cəvahirlər taxılmış qırmızı ipəkdən bir geyim göndərmişdilər. Bundan başqa, nisbətən ucuz olan daha bir paltar, mirvari və incilərlə bəzənmiş olduqca böyük bir şiş papaq da göndərmişdilər. Ən yaxşı geyimi Babəkə,



ikincisini isə onun qardaşına geydirdilər. Papağı Babəkin başına, ona oxşar başqa bir papağı da qardaşının başına qoydular. Fili Babəkin, dəvəni isə qardaşının qabağına çəkdilər. Babək fili görcək, təəccüblə dedi: «Bu iri heyvan nədir?» O, geyimi bəyənib dedi: «Bu böyük bir hökmdar tərəfindən taleyi zəbun, bəxti çönmüş, aciz bir qula verilmiş qiymətli hədiyyədir». O, bu şadlığından sonra kədərləndi. Atlı və piyada döyüşçülər əllərindəki silah, dəmir gürz və bayraqlarla iki sıraya düzülüb Qatuldan Samirəyə qədər səf çəkmişdilər. Babək filin, qardaşı isə onun ardınca dişi dəvənin üstündə oturmuşdular. Fil sıraların arasından keçirdi. Babək sağına, soluna dönərək camaatı və qoşunları gördükdə onların qanını tökmək imkanından məhrum olduğuna təəssüf edib kədərlənirdi. Lakin izdihamın çoxluğundan heç də təəccüblənmirdi. Bu hadisə 223-cü (837-838) ildə cümə axşamı, səfər ayından iki gecə keçmiş baş vermişdi. Camaat o vaxta qədər belə bir günü və təntənəni görməmişdi. Əfşin Mötəsimin hüzuruna gəldi. Mötəsim ona yuxarı başda yer verdi, onun məqamını artırdı. (Bu zaman) Babəki gətirdilər və onun üzünü Mötəsimə tərəf çevirdilər. Mötəsim: - Babək sənmisən? - deyə ondan soruşdu. Babək cavab vermədi. Mötəsim sualını bir neçə dəfə təkrar etdi. Lakin Babək susub durmuşdu. Əfşin ona sarı əyilib dedi: «Vay halına, əmir əl-möminin səndən söz soruşur, sən isə susursan». (Onda) Babək dedi: «Mən Babəkəm». Bu zamanda Mötəsim səcdə edib, onun əllərinin və ayaqlarının kəsilməsinə əmr verdi.

Məsudi deyir: «Oxuduğum «Bağdad xəbərləri» adlı kitabda belə yazılmışdır: «Babək Mötəsimin yanına gəldikdə bir müddət danışmadı. Sonra Mötəsim: «Babək sənmisən?»- deyə ondan soruşdu. Dedi: «Bəli, mən sənin nökərin və qulunam!». Babəkin adı Həsən[1], qardaşının adı isə Abdullah idi.

Mötəsimin əmrinə görə onu soyundurdular. Qulluqçular onun əynindəkini bəzəkləri dartıb çıxartdılar. Sonra sağ əlini kəsdilər. O, kəsilmiş qolunu üzünə vurdu və sol əlilə də bu işi gördü.

[1] Bu ada başqa yerdə rast gəlməmişik.

Üçüncü dəfə onun ayaqlarını kəsdilər. O, xalı üzərinə tökülmüş qanın içində çabalayırdı. O, kəsilmiş biləklərini üzünə vururdu. Mötəsim Babəkə əzab vermək məqsədilə cəllada qılıncı onun ürəyindən aşağıdakı iki qabırğasının ortasına soxmağı əmr etdi. O da bu işi gördü. Sonra onun əmri üzrə başını bədənindən ayırdı. Onun əl-ayağını bədəninə bitişdirib dar ağacından asdılar. Sonra başını Bağdada aparıb körpü üstündə bir ağaca taxdılar. Sonra Xorasana aparıb şəhər və kəndlərdə gəzdirdilər. Çünki onun məramının müvəffəqiyyəti, özünün əzəməti, qoşununun çoxluğu, padşahlığı devirmək işindəki qalibiyyəti, xalqı dəyişib döndərməsi camaatın ürəyində olduqca yer etmişdi. Babəkin qardaşı Abdullahı isə Mədinəti-islama (Bağdada) apardılar. Bağdadın əmiri İshaq ibn-İbrahim Samirədə Babəkin haqqında edilən işi bunun haqqında da etdi. Babəkin bədənini Samirənin kənarında hündür bir ağacın üstündə dara çəkdilər. O yer indi də Babəkdarı «Xüşbətün Babək» adı ilə məşhurdur. Hazırda Samirə boş qalmış, yerli əhali oradan köçüb getmişdir. Yalnız bir neçə yerində adam yaşayır.

Bundan əvvəl qeyd etdiyimiz kimi, Babək və onun qardaşı öldürülüb işləri bitdikdən sonra xətiblər Mötəsimin məclisində ayaqa qalxıb xoşa gələn sözlər dedilər. Şairlər də bu barədə şeirlər yazdılar. Həmin gün İbrahim ibn-Mehdi qalxıb xütbə əvəzinə bu şeiri oxudu:

يا امير المومنين الحمد لله كثيرا
هكذا النصر فلازال لک الله نصيرا
و على الاعداء اعطيت من الله ظهيرا
و هنيا هنا الله لک الفتح الخطيرا
و هوفتح لم يرالناس لهفتحا نظيرا
و جزى الافشين عبد الله خيرا و حبورا

فلقد لاقى به بابک يوما قمطريرا
ذاک مولاک الذى الفيته جلدا صبورا
لک حتى ضرج السيک له خدانضيرا
ضربة ابقت على الد هرنى الوجه نورا



Ey əmir əl-möminin, allaha xoş şükürlər olsun.
Budur qələbə, allah həmişə səni zəfərli etsin
Düşmənlərinə qarşı allah sənə kömək etsin.
Allah səni bu parlaq qələbə münasibətilə alqışlayır.
Bu, tarixdə misli görünməmiş bir qələbədir.
Allahın bəndəsi Əfşin göstərdiyi xidmətə görə
xoşbəxt oldu,
Babək onunla yaman gündə qarşı-qarşıya gəldi.
Bu həmişə qüvvə və səbrini yoxlamış olduğu qulundur.
Onun qılıncı parlaq bir şəklə düşdü.
Vurduğu yara dünya durduqca qaldı, onun üzünü ağartdı.

Əfşinə cəvahir ilə işlənmiş bir qızıl tac, qırmızı yaqut və yaşıl zümrüdlə naxışlanmış, xalis cəvahirdən düzəlmiş bir qızıl əklil və iki boyunbağı bağışladılar. Mötəsim Əşnasın qızı Ütrücəni Əfşinin oğlu Həsənə verdi və toy elədi. Onun üçün misli görünməmiş toy məclisi qurdu. Toy gecəsi seçilmiş adamlar, hətta avam camaatın bir çoxu şadlıq etdi. Hər ikisinin gözəlliyi və evlənməsi münasibətilə Mötəsim belə bir şeir dedi:

رقت عروس الى عروس — بنت رئيس الى رئيس
ايهما كان ليست شعرى — اجل من الصور والنفوس
اصاحب المرهف المحلى — ام ذوالوشاحين و الشموس

Gəlini damadın yanına, ağa qızını ağanın yanına
apardılar.
Ey, kaş biləydim bunların hansı biri nəciblik
və böyüklükdə o birindən üstündür?
Cəvahirli qılınc sahibi, ya
Günəş kimi parlayan iki boyunbağısı olan üstündür?

İstəxri «Kitab-əl-məsalik və-l-məmalik» adlı əsərdə Cibal ölkəsi haqqında belə yazır: «Bu nahiyələrdə dediklərimizdən başqa göstərilə biləcək elə bir hündür dağ yoxdur. Əlbəttə, Savalan dağı Dəmavənd dağından böyükdür. Dəbildəki böyük Ağrı dağı bunların hər ikisindən də böyükdür. Xürrəmilərin yaşadıqları dağlıq hissədə isə çox çətin, keçilməz dağlar vardır, Babək oralı idi. Kəndlərində məscid var, onlar quran oxuyurlar. Lakin

dediklərinə görə, batində «ibahiyyə»dən başqa dinləri yoxdur.

VII əsrin tarixçisi Cəmal-ən-din Əbulqasim Abdullah Kaşani «Zübdət-ət-təvarix» adlı əsərində xurrəmilər və Babək haqqında bir sıra dəqiq məlumatlar vermişdir. O, «192-ci (807--808) ildə baş verən hadisələrin qeydi» başlığı altında belə yazır: «Həmin il xürrəmilər Azərbaycan hüdudunda üsyan etdilər. Fitnə-fəsad üz verdi. Rəşid Abdullah ibn-Maliki on min nəfər işgüzar adamla onları dəf etməyə göndərdi. O da hücum edərək, hamısını dağıtdı və çoxlu qənimətlə geri qayıtdı.

«201-ci (816-817) ildə baş verən hadisələr haqqında». …Həmin ildə Babək xürrəmi Azərbaycanda baş qaldırdı və bir çox adamı öz tərəfinə cəlb etdi…

«204-cü (819-820) ildə baş verən hadisələr haqqında». …Həmin ildə Yəhya ibn-Məaz Azərbaycanda Babək xürrəmi ilə vuruşdu, lakin bir iş görə bilmədi...»

«212-ci (827-828) ildə baş verən hadisələr haqqında». …Bu ildə Məmun, Məhəmməd ibn-Həmid Tusini Babək xürrəmi ilə müharibə etmək üçün Ərdəbilə göndərdi, O isə Mosul yolu ilə Azərbaycana getdi və Babəklə xeyli müharibə etdi. Lakin heç bir iş görə bilmədi...»,

«214-cü (829-830) ildə baş verən hadisələr haqqında». … Bu ildə Babək xürrəmi Məhəmməd ibn-Həmid Tusini öldürdü. O, tərifəlayıq, səxavətli bir adam idi. Məhəmmədin ölüm xəbəri Məmuna çatdıqda Abdullah ibn-Tahiri onun yerinə göndərdi... Bu ildə xəlifə Məmun İraq-əcəmi, Qohistanı, Azərbaycanı, Mərənd (şəhərinə) qədər olan yerləri Əli ibn-Hişama tapşırdı. Vəssalam.

«220-ci (835) ildə baş verən hadisələr haqqında». ...Bu ildə İraq-əcəmdə bir çox adam xürrəmi dinini qəbul etdi. Həmədan qapısında çoxlu qoşun toplanıb, müsəlmanlarla müharibə etmək üçün birləşdilər. Mötəsim onları məhv etmək məqsədilə Əmir İshaq ibn-İbrahimin başçılığı altında çoxlu qoşun göndərdi və bütün İraq-əcəmi ona bağışladı. Əmir İshaq gedib onlarla xeyli müharibə etdi. Həmədan qapısında altmış min nəfərə qədər xürrəmi öldürdü. Qalanları başqa şəhərlərə dağıldılar.



«220-ci (835) ildə baş verən hadisələr haqqında». ...«Bu ildə Üceyf ibn-Ənbəsə Zənganı aldı. Yenə həmin ildə Mötəsim xürrəmiləri dəf etmək üçün Əfşini Azərbaycana göndərdi. Xürrəmilərin üsyanı 221-ci (835-836) ildə başlanmışdı. O, çox adam qırdı. Nəhayət, İmam Mötəsim Ərdəbili qorumaq və abadlaşdırmaq məqsədilə Məhəmməd ibn-Yusifi oraya göndərdi, Məhəmməd xürrəmilər tərəfindən viran edilmiş imarətləri təmir edib abadlaşdırdı. Məhəmməd ibn-Yusif ilə Babək arasında iki-üç dəfə müharibə olduqdan sonra Əfşin gəlib çatdı və onunla vuruşub, Babəkin bir çox adamını qırdı və əsir tutduğu adamları Mötəsimin yanına göndərərək, ondan kömək istədi. Mötəsim də Böyük Buğanı çoxlu qoşun və təchizatla onun köməyinə göndərdi. Lakin yenə də Babək qalib gəlirdi...».

«221-ci ildə baş verən hadisələr haqqında». ...Bu ildə Böyük Buğa Babəklə döyuşdü. Bir çox müsəlman qırıldı və Əfşin Marağa hüdudunda Ərbənkin üsulu ilə (?) sülh bağladı».

«222-ci (836-837) ildə baş verən hadisələr haqqında». ...Bu ildə Babəki müharibədə tutub Mötəsimin yanına göndərdilər. O da onun əllərini, ayaqlarını kəsdirib asdırdı. Onu qardaşı və bir neçə yoldaşı ilə birlikdə yandırdılar».

Əbu Əmr Minhac-əd-din Osman ibn-Sirac-əd-din Məhəmməd ibn-Minhac-əd-din Osman Quzqani «Təbaqati-Nasiri» adlı kitabında Mötəsim dövründə baş verən hadisələr haqqında belə yazır: «Babək xürrəmi Məmun dövründə üsyan etdi. Azərbaycan şəhərlərinin əksəriyyəti onun dinini qəbul etmişdi. Onu tutub Bağdada göndərdilər. Onu asdılar. Bu iş 223-cü (837-838) ildə üz verdi. Babək xürrəmi iyirmi il ərzində iki yüz əlli min müsəlman qırmışdı».

Məsudi «Kitab-ət-tənbih və-l-işraf» adlı əsərdə Mötəsim haqqında deyir: «Mötəsim Əfşini və başqa sərkərdə və əmirləri Babək ilə müharibə etmək üçün Azərbaycana göndərdi. Babək 220-ci (835) ilin ramazan ayında məğlub edilib əsir düşdü. Başqa rəvayətə görə bu iş 222-ci (836-837) ilin şəvval ayında olmuşdu. Onu Samirəyə apardılar və orada 223-cü ilin səfər ayında öldürdülər. Babəkin iyirmi iki il ərzində Məmun və Mötəsim qoşunla-

rından, sərkərdə və əmirlərindən, habelə camaatın başqa təbəqələrindən öldürdüyü adamların sayı ən azı beş yüz min nəfərdir. Hələ bundan daha artıq saysız-hesabsız adam qırdığını da qeyd edirlər. O, 200-cü (815-816) ildə, Məmunun xilafəti dövründə üsyana başlamışdır. (Başqa) rəvayətə görə (üsyan) 201-ci (816-817) ildə Azərbaycandakı Bəzzeyn dağlığında başlanmışdır. Babəkin rəhbəri Cavidan idi. Şəhrək xürrəminin tərəfdarları onun dəstəsində idilər.

İbn-Quteybə Dinəvari «Kitab-əl-məarif»də Hərsəmənin özü və onun Məmun zamanında Mərv zindanında ölməsi barədə belə yazır: «Bu xəbər Azərbaycanda Hatəm ibn-Hərsəməyə çatdı. O, atasının başına nələr gətirdiklərini bildikdən sonra o yerin azadları və şahlarına (məktub) yazıb, onları üsyana dəvət etdi. Bu arada onun özü də öldü. Deyildiyinə görə, Babəkin üsyan etməsinin səbəbi də elə bu idi. Babək iyirmi neçə il sağ qaldı».

Başqa bir yerdə yenə Məmun dövründə baş verən hadisələrdən bəhs edərkən yazır: «Məmun Məhəmməd ibn-Həmidi Babəkin müharibəsinə göndərdi. Onlar üz-üzə gəldilər. Məhəmməd ibn-Həmid 214-cü (829-830) ildə həlak oldu. (Məmun) Cibal ölkəsinin Dinəvər şəhərində olan Abdullah ibn-Tahirə bayraq verib Xorasana göndərdi. Əli ibn-Hişamı isə Babəkin müharibəsinə təyin etdi.

İbn-Xəldun da «Kitab-əl-ibər və divan-əl-mübtəda və-l-xəbər fi əyyam-əl-ərəb və-l-əcəm və və-l-bərbər və min asirihim min zü-s-sultan-əl-əkbər» adlı əsərində Babək və xürrəmilər haqqında bir sıra məsələlərə toxunmuşdur. Ancaq söz burasındadır ki, bu kitabın hicri 1284-cü ildəki Bulaq nəşrində bir çox şəxsi və yer adları təhrif olunmuşdur. O təhrifləri bir də təkrar etməyi zəruri bilmədik.

O, 192-ci (807-808) ilin hadisələri haqqında yazır: «Bu ildə xürrəmilər Azərbaycan torpağında hərəkətə gəldilər. Abdullah ibn-Maliki on min nəfər qoşunla onların müharibəsinə göndərdilər. O da onların bir hissəsini öldürdü, bir hissəsini də qul və əsir edib Kirmanşaha göndərdi. Əsirlərin öldürülməsinə, qulların isə satılmasına əmr verildi».



199-cu (814-815) ilin hadisələri bəhsində İbn-Təbatəba Ələvinin meydana gəlməsindən danışarkən deyir: Əbu Səra ya Əs-Səra ibn-Mənsur bəni Şeyban tayfasından və hani ibn- Qəbisənin xələflərindən idi. Bir rəvayətə görə də o, bəni Təmim tayfasından idi. Ərməniyyədə otuz (min) atlı ilə Yəzid ibn-Məzidə qovuşub, sərkərdə oldu və xürrəmilərlə müharibəyə girişərək, onların bir parasını qul etdi».

199-cu ilin hadisələri haqqında belə yazır: «Bu ildə Zəriq ləqəbi ilə məruf olan Sədəqə ibn-Əli Ərməniyyə və Azərbaycana hakim təyin edildi, ona Babək ilə müharibə etmək əmri verildi. O da bu işi Əhməd ibn-Cüneyd İskafiyə tapşırdı. Babək isə onu əsir etdi. Sonra İbrahim ibn-Leys İbn-əl-Fəzl Azərbaycanın hakimi oldu. 211-ci ( 826-827) ildə Zəriq ibn-Əli ibn-Sədəqə Əzdi Mosulun sahibi Seyid ibn-Ənəsi öldürdü. Zəriq Azərbaycan ilə Mosul arasında olan dağlıq nahiyələri əlinə keçirmişdi. Məmun da oranın hökmranlığını ona verdi. O isə qoşun toplayıb Seyidlə müharibə etmək məqsədilə Mosula hərəkət etdi. O da dörd min nəfərlik qoşunla onun qarşısına çıxdı. Onların arasında şiddətli vuruşma oldu. Seyid müharibədə həlak oldu. Məmun Seyidin öldürülməsindən acıqlandı və Mosulun hakimliyini Məhəmməd ibn-Tusiyə verib, Zəriq və Babəklə müharibə etməyi ona əmr etdi. O, Mosula gedib, 212-ci (827-828) ildə oranı aldı.... Məhəmməd ibn-Həmid Tusi 214-cü (829-830) ildə öldürüldü. Onu Babək öldürdü.

Təfsilatı isə belədir: O, Mosul qəsbkarlarının işini bitirdikdən sonra müntəzəm qoşunla Babəkin müharibəsinə getdi. Dərələrdən keçib gözətçilər qoydu. Dağlara çataraq yuxarı qalxmağa başladı. Babək öz döyüşçülərini meşələrdə pusquya qoymuşdu. Üç ağac irəlilədikdən sonra (Babəkin adamları) pusqudan çıxıb, onu məğlub etdilər. Məhəmməd o qədər müqavimət göstərdi ki, yanında bir nəfərdən artıq adam qalmadı. Qaçmağa yol axtarırdı. O, yoldaşlarını bir dəstə xürrəmi ilə vuruşduğu yerə çatdı, (xürrəmilər) ona hücum edərək öldürdülər. Bu iş Məmuna çox ağır gəldi. Məmun Xorasanın hakimliyini Abdullah ibn-Tahirə verdi. Çünki onun qardaşı Təlhə ibn-Tahirin öldüyünü eşitmişdi. Ab-

dullah Dinəvərdə qaldı. Babəkin müharibəsinə getmək üçün qoşun topladı. Məhəmməd ibn-Həmidi Nişabura hakim təyin etdi. Xariçilər Xorasanda olduqca özbaşınalıq etdiklərindən Məmun ona oraya getməyi əmr etdi. O da gedib Nişaburda düşdü...

216-cı (831-832) ildə Məmunun Əli ibn-Hişama acığı tutdu. Əhməd ibn-Hişamı məhv etmək, var-yoxunu, silahını almaq üçün Əcifi göndərdi. Çünki onun zülm və ədalətsizliyindən xəbər tutmuşdu. O isə Əcifi öldürmək və Babəkə qoşulmaq fikrində idi. (Lakin) Əcif ona qalib gəldi və onu özü ilə Məmunun yanına apardı. Onu Məmunun əmrinə görə öldürdülər, başını Şam, İraq, Xorasan və Misirdə gəzdirdilər...».

Başqa bir yerdə 201-ci (816-817) ilin hadisələrindən danışarkən yazır: «Bu ildə Babək xürrəmi cavidanilər, yəni Cavidan Səhl tərəfdarları arasında meydana çıxdı. Cavidan sözü «daimi», xürrəm isə «sevinc» deməkdir. Onlar atəşpərəst idilər...».

Sonra 220-ci (835) ilin hadisələrindən bəhs edərkən yazır: «Bir az əvvəl Babək xürrəminin dastanı və onun 202-ci ildə meydana gəldiyini göstərərək dedik ki, o, xalqı Cavidan ibn-Səhlin məsləkinə dəvət edirdi. O, Bəzz şəhərini tutub yolları bağladı. Məmun Babəkin mübarizəsinə çoxlu qoşun göndərdi, (lakin) onun qoşunları məğlub olub, sərkərdələrinin bir çoxu qırıldı. Ərdəbil və Zəncan arasında olan qalalar viran edildi. Mötəsim iş başına keçdikdən sonra Əbu Səid Məhəmməd ibn-Yusifi göndərdi. O, dağılmış qalaları bərpa edib, oralarda adam və ərzaq qoydu, ərzağın çatdırılması üçün yollara gözətçilər təyin etdi. Özü isə bu müddət ərzində Babəkin o yerlərdə olan qoşunlarının bir hissəsini məğlub edərək, onları təqib etməyə başladı. Ondan aldıqları qənimətləri geri qaytardı, onların bir çoxunu qırdı və qul etdi: kəsdirdiyi başları qullarla birlikdə Mötəsimin yanına göndərdi. İbn-əl-Bəis də Azərbaycanda ibn-ər-Rəvvadın əlindən aldığı möhkəm bir qalada yerləşmişdi. O, Babəklə sazişə girmişdi. Oradan keçən Babəkin qoşunlarını qonaq edərdi. Bu arada onun İsmət adlı bir sərkərdəsi oradan keçirdi, ibn-əl-Bəis onu əvvəllərdə olduğu kimi qonaq saxladı. Sonra onu tutub, adamlarını öldürdü, özünü isə Mötəsimin yanına göndərdi. O, Babəkin pusqu



yelərini ondan soruşdu. O da bələdçilik etdi. Sonra onu həbsə aldılar. Əfşin Heydər ibn-Kavusu qoşun sərkərdəsi təyin etdilər. Cibal (vilayətinin) bayramını ona tapşıraraq, Babəkin döyüşünə göndərdilər. Əfşin oraya gedib çöldə düşərgə saldı və Ərdəbilə gedən yolları bağladı. Ərzağın Ərdəbildən qərargaha daşınmasını təmin etmək üçün qoşun hissələrini sərkərdələri ilə birlikdə oradan Ərdəbilə qədər gedən yollara təyin etdi Babəkin casuslarından birini əlinə keçirdikdə Babəkin ona etdiyi yaxşılıqları soruşar və neçə qat artıq yaxşılıq edib buraxırdı. Sonra Mötəsim Böyük Buğanı lazımi təchizatla Əfşinin köməyinə göndərdi. Babək bunu eşitcək, daha ciddi hazırlıq gördü. Əfşin də bu işdən bəzi casuslarını xəbərdar etdi. O, Buğaya yazdı ki, Rudqıla qalasından gəlib Ərdəbilə qayıtsın. O da bu işi yerinə yetirdi. Babəkə xəbər çatdı. Əfşin Buğa ilə qərarlaşdığı gün atlanıb, sürətlə getdi. Babək qoşununun bir dəstəsi bayıra çıxdı. Onlar yolda Ruddan gələn karvana rast gəldilər, lakin Buğanı görmədilər. Nə qədər qoşun əhli var idisə öldürüb, mallarını apardılar. Yolda Əfşinin sərkərdələrindən Hisəm adlı birisinə rast gəlib, onu da məğlub etdilər. O qaçıb öz qalasına pənah apardı. Babək də (dağdan) düşub onu mühasirəyə aldı, lakin Əfşin o yerə çatdıqda onlara rast gəldi, qoşunlarının bir çoxu qırıldı. Babək Muğana qaçdı. Çayın o tərəfində olan ordu qərargahına adam göndərdi, onlar da gəlib onunla birləşdilər, (Babək) onlarla birlikdə Muğandan çölə çıxdı. Əfşin öz ordu qərargahına qayıtdıqdan sonra Babəki mühasirəyə aldı, başqa yerlərdən gələn ərzaq yollarını bağladı. Marağanın sahibi onun üçün ərzaq göndərdi. Babək qoşunlarının bir dəstəsi ona rast gəlib onu (ərzağı) ələ keçirdilər. Bundan sonra Buğa nəyi vardısa, onun yanına göndərdi, o da döyüşçülər arasında bölüşdürdü. Əfşin öz sərkərdələrinə əmr verdi ki, irəli gedib Babəkin olduğu Bəzz qalasını daha yaxından mühasirəyə alsınlar. Özü qalanın altı milliyində düşdü. Böyük Buğa gəlib Bəzz şəhərini mühasirəyə aldı. Onlarla vuruşub bir neçə adam qırdı. Sərkərdələrdən Məhəmməd ibn-Həmidi xəndəyə gözətçi təyin etdi. Sonra Əfşinin yanına adam göndərib kömək istədi. O, qardaşı Fəzli, Əhməd ibn-Xəlil ibn-Hişamı, Əbaxusi və Şürtənin sahibi Həsən ibn-Səhli

onun yanına göndərərək əmr etdi ki, təyin edəcəyi günə qədər müharibədə müqavimət göstərsinlər. Sonra onlar həmin gün atlanıb Bəzzə doğru hərəkət etdilər. Onları şiddətli şaxta və yağış tutdu. Əfşin də döyüşüb ətrafında olan Babək döyüşçülərinə qalib gəldi. Amma yağış onların işini çətinləşdirdiyindən aşağı düşdülər.

Buğa bələdçi götürüb, Əfşinə tərəf gedən dağ yolu ilə yuxarıya qalxdı. Lakin onları qar və duman tutduğundan öz yerlərinə döndülər. Babək Əfşini sıxışdırıb ordugahına çaxnaşma saldı. Buğanın adamları dağın üstündə gözləməkdən bezikib oranı tərk etdiər. Əfşinin başına nə gələcəyini bilmirdilər. Bəzz qalasına tərəf hərəkət edərək, Əfşinin işindən xəbər tutduqdan sonra başqa bir yol ilə geri qayıtdılar. Çünki o yol çox dərəli-təpəli idi. Həm də Babəkin ön dəstələri orada çox idi, lakin o dəstələr bunlara etina etmədilər. Dərələr irəlidə idi. Onlar gecəyə düşdülər. Mallarından, yüklərindən qorxuları var idi. Buğa dağdan enib onların köməyinə gəldi. Onlar çox əziyyət çəkdilər, azuqələrini itirdilər. Babək gecə vaxtı qəflətən hücum edərək, onları məğlub etdi. Silah və başqa şeylərini taladı. Onlar dağın ətəyində olan ilk xəndəklərinə pənah apardılar. Buğa orada qaldı. Babəkin sərkərdələrindən biri olan Tərhan qışı Marağa kəndlərinin birində keçirməyə ondan icazə aldı. Əfşin Marağada olan öz sərkərdələrindən birisinin yanina adam göndərdi. Onu tutub öldürdülər və başını göndərdilər.

222-ci (836-837) il gəlib çatdı. Mötəsim Cəfər Xəyyatı bir qədər qoşunla Əfşinin köməyinə göndərdi. İtaxa qoşun xərci üçün otuz min min dirhəm verib, yola saldı. O da (pulu) göndərib qayıtdı.

Əfşin yazın əvvəllərində qalxdı, qala və xəndəkdən çıxdı. (Bu zaman) xəbər çatdı ki, Babəkin sərkərdələrindən olan Azin adlı bir nəfər onun yaxınlığında qoşun toplamış, ailəsini isə dağdakı qalaların birinə göndərmişdir. Əfşin qoşun başçılarından birini onları tutmaq üçün göndərdi. Onlar dərələrdən keçib, sürətlə yol getdilər və o ailəyə çatıb, onları tutub qayıtdılar. Azin bu xəbəri eşitdi. Onları tutmaq üçün atına minib döyüşdü. Qadınların bir neçəsini geri aldı. Əfşin qabaqcadan qərarlaşdığı əlamətlər üzrə



vəziyyəti öyrəndi. Onların üstünə hücum etmək üçün ata mindi. Onlar bu işi duyub, dərədən çıxaraq özlərini xilas etdilər. Əfşin isə yavaş-yavaş irəliləyərək Bəzz qalasına çatdı. O, adamlarına tapşırmışdı ki, gecə basqınına məruz qalmamaq üçün gecələr atlarını minsinlər. Xalq bu əziyyətdən cana gəlmişdi. Oradakı dağların başında müəyyən yerlərdə piyada gözətçilər qoyulmuşdu. Onlar üç yerə çatdılar. Piyada nəfərləri yüklərilə oralarda yerləşərək, yolları daşla bağladılar və onları hər tərəfdən araya aldılar. Obaşdanın qaranlığında, səhər namazına yaxın «hazır ol» təbili çalındı. Vuruşma səsi dağları, çölləri bürüdü. Hər bir yeri tutduqda bir qədər əl saxlayırdılar. Fikirləri birinci ildə yetişdikləri dərəyə çatmaq idi. Bu dar dərə ələ keçməsin deyə, onun üstündə bir dəstə qoşun gözətçilik edirdi. Babək də ona çata bilməsin deyə, o təpənin aşağı tərəfində gözətçilər qoymuşdu. Əfşin pusquların yerini tapmağa çalışırdı, lakin tapa bilmirdi. Əfşin Əbu Səidə, Cəfər Xəyyata və Əhməd ibn-Xəlilə üç atlı dəstəsilə irəli gedərək, orada qalmağı və Babəkin qəsrini pusmağı əmr etdi.

Babək isə az bir qoşun əhli ilə öndə durmuşdu, qoşunun qalan hissəsi isə pusquda idi. Onlar şərab içir, zurna çalırdılar. Əfşin günorta namazını qıldıqdan sonra düşmənə daha yaxınlaşmaq məqsədilə döyüşə-döyüşə Rud-ər-ruddakı xəndəyinə qayıtdı, sonra başqa xəndəyə, oradan da daha başqa bir xəndəyə keçdi, Onun ardınca dərədə olan qoşun nəfərləri də gəlib çatdılar. Xürrəmilər müharibənin uzanmasından cana gəldilər. Bir neçə gün də keçdi. Cəfər əl saxladı. Sonra xürrəmilər Bəzzdən çıxaraq, onun adamlarına hücum etdilər. Çəfər onları öz təpələrinə çəkilməyə məcbur etdi. Səs qopdu, Əfşin geri qayıtdı. Vuruşma şiddətləndi. Cəfərin bir dəstə mücahid yoldaşı Əbudüləfin yanında idi. Onlar Babəkin adamlarını sıxışdıraraq, Bəzzi mühasirəyə almışdılar. Cəfər Əfşinin yanına adam göndərib, köməyinə beş yüz oxatan piyada göndərməsini xahiş etdi. Onlar yetişdikdə, Cəfər düşməni aldatmaq məqsədilə geri çəkilmələrinə əmr verdi. Mücahidlər də Bəzzi əhatə etdilər. Bu arada səs qalxdı. Pusquda olanlar təpənin altından dişarı çıxdılar. Əfşin onların gizləndikləri yeri öyrəndi, hiylələrini başa düşdü. Cəfər Əfşinin yanına

gəldi. Əfşin ona acıqlandı. O isə üzr istəyərək pusqu yerinə sığındığını söyləyib, pusqu yerini göstərdi. O da onun haqlı olduğunu düşünərək üzr istədi. Mücahidlər ərzağın çatışmamasından şikayət etdilər. O da döyüşdən əl çəkmələrinə icazə verdi, onların öz dili ilə könüllərini aldı.

Bu hadisədən sonra onlar müqavimət göstərmək üçün icazə istədilər, o da izn verdi və müəyyən günə qədər qərarlaşıb onlara azuqə, döyuş ləvazimatı göndərərək, bir gün əvvəl olduğu yerə qayıtdı. Döyüşçüləri adəti üzrə təpənin üstündə yerləşdirdi. Mücahidləri ön sırada, asan yollarla irəli aparmağı Cəfərə əmr etdi və ona istədiyi qədər oxatan və neftsəpən verdi. Cəfər bir gün əvvəlki mövqeyinə qayıtdı. Mücahidlər də onunla idilər. Onlar döyüşdülər. Bəzz qalasının divarlarına dırmaşdılar. Düşmən onlara hücum etdi. Bu arada kamançılar gəldilər. Onların su və azuqə işi çətinə düşdü. Xürrəmilər darvazadan gəlib mücahidlər olan yeri sökdülər, onları barılardan yerə yıxıb, başlarına daş yağdırdılar. Onların vəziyyəti çətinləşdi, daha döyüşə bilmədilər. Günün axırında müharibədən əl çəkdilər, Əfşin onlara qayıtmaq əmri verdi. Onları gələn il müvəffəq olacaqları vədilə ürəkləndirdi. Mücahidlərin çox hissəsi geri qayıtdı.

İki həftədən sonra Əfşin yenidən müharibəyə girişdi.Gecə yarısı min nəfər atıcını Bəzzin arxasındakı dağa göndərdi. Oradan Əfşini görürdülər. Onlar xürrəmiləri oxa tutdular. Əfşin başqa bir qoşun hissəsini Bəzzin arxasındakı dağda olan pusqu yerlərinə göndərdi. Özü isə bir gün sonra adəti üzrə durduğu yerdən atlandı. Cəfər Xəyyat və başqa qoşun başçıları irəli getdilər. Beləliklə, hamısı bu dağın ətrafına çatdılar, Babək isə köməyinə gəlmiş qoşunla dağın ətəyindən onlara qarşı hücuma keçdi. Səhərə qədər onların başını qatdı. Oxatanlar dağdan enib, bayraqları nizələrin ucuna taxdılar və hamılıqla ağaclı bir yerdə, Babək qoşununun sərkərdəsi Azinə hücum etdilər. O, çölə qaçdı. Sərkərdələrin bir dəstəsi özlərini yetirib, dağdan qaya daşlarını onların başına tökdülər. Onların işi çətinləşdi. Babək vəziyyəti belə gördükdə Əfşindən aman istəyib, ailəsini Bəzzdən köçürtməyə icazə verməsini xahiş etdi. Belə qərara gəldikləri bir zamanda qoşunun Bəzzə girməsi və bayraqların Babək qəsri üzərində qaldırılması xəbəri Əfşinə çatdı. Əfşin Babəkin qəsrlərini yandırdı, xürrəmilərin hamısını qırdı və onların var-yoxlarını, ailələrini ələ keçirdikdən sonra, gecə öz qərargahına qayıtdı. Lakin Babək qoyulan qərara əməl etmədi. Oradan bacardığı qədər mal, azuqə apardı. Əfşin gəlib qəsrləri söküb yandırdı və erməni əyanlara məktub yazıb, onları öz yanına çağırdı. Onlar da onun yanına gəldilər. Sonra Babək göllü, bataqlı bir çöldə bir bulaq başına çatdı. Öz adamlarını çağırtdırdı. Onlar isə bataqlığın, meşəliyin çoxluğundan ona çata bilmədilər. Bu arada Mötəsimin aman verməsi haqqında olan məktubu yetişdi, Əfşin onu Babəkin aman istəmiş adamlarına göndərdi, lakin onlar onu qəbul etmədilər. O da onların bəzisini öldürdü. Sonra (Babək) qardaşı Abdullah, Müaviyə və anası ilə oradan Ərməniyyəyə tərəf getdi. Əbu Səffahın başçılığı altında onu tutub gətirmək üçün gedən gözətçilər onu görüb, təqib etdilər və bir çayın kənarında ona çatdılar. Babək atına minib qaçdı. Əbu Səffah Müaviyəni və Babəkin anasını tutub Əfşinin yanına göndərdi. Babək isə gizlincə dağlara qaçıb getdi. Onu təqib edirdilər. Nəhayət, o ac qaldı, adamlarının birinə pul verərək, azuqə almağa göndərdi. Bu arada döyüşçülərdən biri ona rast gəldi və Səhl ibn-Sabatın yanına (adam) göndərdi. O, gəlib yolda, Babəkin gözətçilik etməkdə olan döyüşçülərinə çatdı. Onu Babəkin yanına apardılar. Onun yanına yetişdikdə hiylə etdi. Babək inanıb onun qalasına getdi. O isə Əfşinə xəbər göndərdi. Əfşin iki nəfər sərkərdə göndərib, ibn-Sabatın göstərişi üzrə iş görməyi onlara əmr etdi. Onlar qalanın yaxınlığında olan yerlərdə pusquda durdular. O, Babəki ova dəvət etdi. Babək onunla qaladan çıxdı. O iki sərkərdə pusqudan çıxıb onu tutdu və Əfşinin yanına apardı. Müaviyə ibn-Səhl ibn-Sabat da onlar ilə bir yerdə idi. Sonra onu zindana salıb üstünə gözətçi qoydurdu. Min dirhəm Müaviyəyə verdi. Min min dirhəm ilə cəvahirə tutulmuş bir belbağı da Səhl üçün göndərdi. Beyləqan padşahı İsa ibn-Yusif ibn-İstefanusun yanına adam göndərərək mühasirə zamanı onun qalasına pənah aparmış Babəkin qardaşı Abdullahı istədi. O da onu Əfşinin yanına gön-

dərdi. Əfşin onu qardaşı ilə birlikdə zindana saldı və bu barədə Mötəsimə yazdı. Onun əmri üzrə onları özü ilə aparmalı oldu. Bu hadisə 222-ci (836-837) ilin şəvval ayında olmuşdur. Əfşin onlarla Samirəyə getdi, hər mənzildə Mötəsimin göndərdiyi adamlar onu cürbəcür xələt və hədiyyələrlə qarşılayırdılar. Samirəyə çatdıqda Vasiq onun görüşünə gəlib, təbrik etdi. Əfşinlə Babəki Mətirədə öz yanında saxladı. Əfşinin başına tac qoydu, ona iki boyunbağı, iyirmi min min dirhəm pul bağışladı. On min min dirhəm də qoşunlarına payladı. Bu hadisə 223-cü (837-838) il səfər ayında oldu. Əhməd ibn-Əbu Davud tanınmaz bir halda Babəkin yanına gəldi və onunla danışdı. Sonra Mötəsim də tanınmaz gəlib onu gördü. O günün ertəsi hər yanı bəzədilər. Xalq iki sıraya düzüldü. Babəki filə mindirmb gətirdilər. Gəlib çatdıqda Mötəsim əmr etdi ki, onun əl-ayağını, sonra da başını kəssinlər. Babəkin başını Xorasana göndərdi, bədənini isə Samirədə dar ağacından asdırdı. Həmin işi qardaşı Abdullah haqqında da etmək üçün onu Bağdada, İshaq ibn-İbrahimin yanına göndərdi. O da bu işi gördü. Mötəsim bütün Babək mühasirəsi müddətində Əfşinə qoşun məxarici və azuqəsindən başqa, at minib müharibə etdiyi hər bir gününə on min, müharibə etmədiyi günlərinə isə beş min dirhəm vermişdi.

Babək iyirmi il davam edən qalibiyyəti dövründə yüz əlli beş min adam qırdı. Sərkərdələrdən: Yəhyə ibn-Məazı, İsa ibn-Məhəmməd ibn-Əbi Xalidi, Əhməd ibn-Cüneydi, Zəriq ibn-Sədəqəni, Məhəmməd ibn-Həmid Tusini və İbrahim ibn-Leysi məğlub etdi. Bu müddət ərzində Babək üç min üç yüz adamı qul etmişdi. Onun əlindən qurtarıb qaçan müsəlman arvad-uşaqlarının sayı isə yeddi min altı yüz nəfər idi. Bunlara dörd divar arasında yer verdilər. Ata-anaları gəlib, bunların içindən hərə öz adamını tanıyır və onu aparmağa icazə alırdı. Babəkin ailəsi və uşaqlarından Əfşinə əsir düşənlərin sayı on yeddi kişi və iyirmi üç nəfər qadın idi».

Əbu Fəllah Əbd-ül-Heyy ibn-İmad Hənbəli də «Şəzərat-əz-zəhəb fi əxbari min zəhəb» adlı əsərində Babək və xürrəmilər haqqında yazır:

«201-ci (816-817) ilin hadisələri haqqında» ...Bu ildə kafir



Babək xürrəminin üsyanı başlandı. O, baş qaldırıb, pis işlər gördü. Tənasüx (metempsixoz) nəzəriyyəsi tərəfdarı idi.

206-cı (821-822) il. Bu ildə Babək xürrəmi İsa ibn-Məhəmməd ibn-Əbi Xalidi məğlub etdi.

212-ci (827-828) il. Bu ildə Məmun Babək xürrəmi ilə müharibə etmək üçün Məhəmməd ibn-Həmid Tusinin sərkərdəliyi altında qoşun hazırladı.

214-cü (829-830) il. Bu ildə Məhəmməd ibn-Həmid Tusi Babək xürrəmi ilə qarşı-qarşıya gəldi, Babək onları məğlub edib, Tusinin öldürdü.

220-ci (835) il. Bu ildə Mötəsim 20 ildən bəri onun qoşunlarını məğlub edən və şəhərləri dağıdan Babək xürrəmi ilə müharibə etmək üçün Əfşinə bayraq verdi. Sonra Məmun Babək tərəfindən dağıdılmış qalaları bərpa etmək işini Məhəmməd ibn-Yusif-əl-Əminə tapşırdı. Əfşin Babəklə üz-üzə gəldi və onu məğlub etdi. Xürrəmilərdən min nəfərə yaxın adam qırdı. Babək Muğana qaçdı. Xülasə, onların arasında bir çox işlər baş verdi. Onların hamısını söyləsək, uzun çəkər.

222-ci (836-837) il. Bu ildə allahın lənətinə gəlmiş xürrəmilər Əfşin ilə qarşı-qarşıya gəlib məğlub oldular. Lakin Babək canını qurtardı. Əfşin onu ələ keçirməyə çalışırdı, Nəhayət, onu tutub əsir etdi.

Bu məlun itaətdən boyun qaçırırdı. O, xalqı qırdı və şəhərləri dağıtdı. Onun bu hərəkəti iyirmi ildən artıq davam etdi. O istəyirdi ki, Təbəristanda atəşpərəstliyi bərpa etsin. O, Azərbaycanı və bir para başqa yerləri ələ keçirdi. Onun zamanında atəşpərəstliyin müəssisi olan Mazyar Təbəristanda meydana çıxdı. Həmin ilin əvvəllərində Mötəsim Əfşinin vəziyyətini möhkəmlətmək məqsədilə ona otuz min min dirhəm pul və mal göndərdi. Babəkin şəhəri ağır mühasirədən sonra, ramazan ayında alındı. Babək isə bataqlıqda olan bir qalada gizləndi. Onun bütün yaxın adamları, uşaqları əsir düşdülər. Mötəsim onlara aman verməyə hazır olduğunu yazıb göndərdi. Lakin o, məktubu cırdi və nalayiq sözlər dedi. O, bacarıqlı, inadlı və amansız bir adam idi. O həmin bataqlıqdan çıxaraq, tanıdığı bir yolla dağa tərəf getdi.

Dağlara çatdıqda petrik Səhlin evinə düşdü. O isə onu tutub saxladı və Əfşinə xəbər göndərdi. Əfşinin adamları gəldilər. Səhl Babəki onlara təhvil verdi. Mötəsim qərar qoymuşdu ki, hər kəs onu diri tutub gətirərsə ona iki min dirhəm, başını kəsib gətirənə isə min min dirhəm verəcəkdir. Onun Bağdada gəldiyi gün məşhur bir gün idi.

223-cü (837-838) il. Bu ildə Babək xürrəmini Mötəsimin yanına apardılar. İbn-əl-Cövzi «Şüzur» əsərində yazır: «Məhəmməd ibn-Əbdül Baqi özü bizə dedi. Əli ibn-Möhsün atasından eşitmişdir ki, guya Babək xürrəminin qardaşı ona demişdir ki, Babək Mötəsimin yanına gəldikdə Mötəsim ona belə demişdir: Ey Babək, sən bir iş gördün ki, heç kəs onu görə bilməmişdir. İndi də elə dözməlisən ki, heç kimsənin əlindən gəlməmişdir. Dedi: Bu tezlikdə mənim dözümümü görərsən. Mötəsim əmr edib dedi: Bunun iki əlini mənim gözumün qabağında kəsin. Babəkin sağ əlini kəsməyə başladılar. Babək qanını üzünə sürtərək dedi: Mənim üzümdə xalq sarılıq görərsə, elə güman edər ki, mən ölümdən qorxuram. Sonra onun dörd əl-ayağını kəsib, boynunu vurdular və bədənini yandırdılar. Onun qardaşı ilə də belə rəftar etdilər, lakin onlar heç sızıldamadılar.

Mötəsim Əfşinə bir tac bağışladı və iyirmi min min dirhəm verdi ki, yarısını o özü üçün götürsün, digər yarısını isə qoşunlarına versin».

Qazi Əbu Əli Möhsin ibn-Məhəmməd ibn-Əbi-l-Fəhm Tənuxi «Nəşvar-ül-ümhəzərə və əxbar-ül-müzakirə» adı ilə məruf olan «Cami-ət-təvarix» kitabında yuxarıda gətirdiyimiz rəvayəti belə nəql edir:

«İnsanı heyran edən şəxsi iradə qüvvəsi haqqında olan dastanlardan biri də odur ki, Babək xürrəmi ilə qardaşı Mazyar barəsində nəql edirlər: Babək Mötəsimin hüzuruna yetişcək, Mötəsim ona dedi: Ey Babək, sən bir iş gördün ki, heç kəs görə bilməmişdir. İndi də o qədər dözməlisən ki, kimsə elə dözə bilməmişdir. Babək dedi: Tezliklə mənim dözümümü görərsən. Mötəsim onun əllərinin və ayaqlarının öz hüzurunda kəsilməsini əmr etdi. Əvvəlcə, Babəkin sağ əlini kəsməyə başladılar. Əlindən qan axmağa başladıqda onu bütün üz-gözünə yaxdı. Mötəsim dedi: Ondan soruşun görək o, nə üçün belə etdi. Babəkdən soruşduqda, dedi: Xəlifəyə deyin, sən mənim əl-ayağımın kəsilməsinə əmr verdin. Qəlbindən də məni öldürmək keçir. Şübhəsiz ki, bu fikrindən əl çəkməyib, mənim qanımı tökdürəcək və boynumu da vurduracaqsan. Qorxuram qanım axıb, üzüm sarala, camaat da elə təsəvvür edə ki, mənim üzümün sarılığı qanın axmasından deyil, qorxudandır. Üzümün sarılığını göstərməmək üçün onu qana boyadım. Mötəsim dedi: Onun gördüyü işlər bağışlanmalı olsaydı, elə bu üstünlüyünə görə yaşamağa layiq olardı. O, Babəkin işinin bitirilməsini əmr etdi. Sonra onun dörd əl-ayağını kəsib, boynunu vurdular və hamısını qarnına soxub, üstünə neft töküb yandırdılar, həmin işi Babəkin qardaşı haqqında da etdilər. Onlar heç zarıyıb sızıldamadılar».

Məlumdur ki, bu dastanın deyilişində Babək ilə uzaqdan-uzağa tanış olan Təbəristan padşahı Qarunun oğlu Mazyarı onun qardaşı ilə qarışdırmışlar.

## BABƏKİN ƏFŞİN İLƏ OLAN MÜHARİBƏLƏRİ

Babək ilə Əfşin arasında gedən müharibələr haqqında kitablarda başqa təfərrüata da rast gəlmək olur. O cümlədən Təbəri yazır: «Mötəsim Babəkin qabağında aciz qaldıqdan sonra bu iş Əfşinin öhdəsinə düşdü. O zaman Mehdi Mavəraünnəhrdən qoşun istəmişdi. Əfşin, qardaşı Fəzl ibn-Kavus, habelə birinin adı-Divdad, künyəsi isə Əbu Səyyah olan beş nəfər qohumu və dörd nəfər başqa adamla qoşuna qoşulub gəlmişdilər.

Mötəsim ona böyük sərkərdələrlə birlikdə çoxlu qoşun verdi. Ərməniyyə və Azərbaycanın hökmranlığını ona tapşırdı. Əfşinin istədiyi qədər qoşuna maaş, minik, döyüş vəsaiti təyin etdi. Əfşin 220-ci ildə Bağdaddan çıxıb müharibəyə yola düşdü. Bundan bir müddət əvvəl Mötəsim Babək tərəfindən dağıdılan şəhərləri, kəndləri və qalaları bərpa etmək üçün Əbu Səid Məhəmməd ibn-Yusifi oraya göndərmişdi, Mötəsim onu da Əfşinin ixtiyarına verdi, Məhəmməd ibn-Yusif Əfşindən qabaq Azərbaycana gedərək, orada abadanlıq işlərilə məşğul oldu.

Babək özünün baş sərkərdəsinin müavinini min nəfər qoşun böyüyü ilə Əbu Səidə gecə basqını etmək, onu öldürüb, var-yoxunu talayıb gətirmək üçün göndərmişdi.

Bu məqsədlə Müaviyə dağlardan, yallardan keçib iki yolun ayrıcında olan bir dərədə yerləşdi. Babək onun yanına casus göndərib Əbu Səidin gəlib filan yerdə olduğunu ona xəbər verdi. Müaviyə gecə ikən hərəkət edib, olduğu yerini dəyişdi. Əbu Səidin qərargahını bələdlədi və gün çıxanda geri qayıtdı. Əbu Səidə xəbər verdilər ki, dünən Müaviyə səni axtarmaq üçün filan kəndə gəlmişdi. Əbu Səid atına minib, Müaviyənin dalınca yola düşdü. Onu bir çöldə tapıb vuruşdu və qoşunundan üç yüz adam qırıb, beş yüz nəfərini əsir etdi. Lakin Müaviyə az bir qoşunla canını qurtararaq, özünü haman dərələrə yetirdi, Əbu Səid başları və əsirləri Mötəsimin yanına göndərdi. Mötəsimin əmri üzrə əsirlərin boynu vuruldu.

Bu hadisədən sonra Əfşin özü Azərbaycana gəldi. Məhəmməd ibn-Bəisin Şahi adlı bir qalası var idi. O, bu qalanı Vəcna ibn-Rəvvaddan almışdı. Qalanın eni iki ağac idi. Onun Təbrizdə bir qalası var idi, lakin Şahi qalası daha hündür idi. Məhəmməd ibn-Bəis Babək ilə dost olub, mehribanlıqla yaşayırdı. Torpağından keçən qoşunlarını qonaq edərdi. Babəkin döyüşçüləri ona alışmış və həmişə onun yanına gedib gələrdilər. Müaviyə məğlub edildikdən sonra Babək İsmət adlı bir sərkərdəsilə başqa bir qoşun dəstəsi göndərdi. O, üç min döyüşçü ilə gəlib Məhəmməd ibn-Bəisin qalasında düşdü. Məhəmməd ibn-Bəis Əfşinin və onun qoşunlarının gəlməsindən xəbəri var idi. İsmət qalaya çatar-çatmaz Məhəmməd ibn-Bəis onun qoşunu üçün azuqə göndərdi, hava qaranlıqlaşdıqda özü gəlib İsməti on nəfər yoldaşı ilə qonaq apardı. Onlar içib məst olandan sonra Məhəmməd, o on nəfəri öldürdü, İsmətin isə əl-ayağını bağlayıb dedi: Sən öz canını çox istəyirsən, ya yoldaşlarını? İsmət dedi: Öz canımı. (Məhəmməd dedi:) Elə isə öz qoşun sərkərdələrini bir-bir çağır gəlsin, əks təqdirdə sənin özünü öldürərəm.

İsmət başını qaladan dişarı çıxarıb öz sərkərdələrindən birini çağırıb dedi: Çıx yuxarı, gəl şərab içək. O sərkərdə tək-başına



gəldi. Məhəmməd isə pusquda durmuşdu, içəri girənləri bir-bir öldürürdü. Nəhayət, bu xəbər qalanın xaricində olan qoşuna çatdı. Onlar baş götürüb qaçdılar. Sonra Məhəmməd ibn-Bəis kəsdiyi başları və İsməti Mötəsimin yanına göndərdi. Haqqında danışdığımız bu Məhəmməd ibn-Bəis Rəvvadın oğlunun əlaltılarından idi. Mötəsim Babəkin vəziyyəti, olduğu yeri, yolları haqqında İsmətdən sorğu-sual etdi. O da Babəkin döyüş vəsaiti və onunla müharibə etmək üçün hansı yollardan istifadə etməyin lazım gəldiyi barədə ona məlumat verdi. (Bununla belə) İsmət Vasiq billah zamanına qədər zindanda qaldı.

Əfşin isə Azərbaycana çatdıqda Bərzənddə mənzil etdi və qoşununu da orada yerləşdirdi, Bərzənd ilə Ərdəbil arasında olan qalaları təmir etdirdi. Məhəmməd ibn-Yusifi isə Xoş deyilən yerə göndərdi. Orada xəndək qazdılar. Əfşin qoşun başçılarından cəzirəli Heysəm Qənəvini Ərşaq adlı bir kəndə göndərib oradakı qalanı da təmir etdirdi. Qalanın ətrafında xəndək qazdırdı. Sərhəngzadələrdən Ələviyyə Əvər adlı birini Ərdəbilin arxasında olan Hisn-ən-Nəhr deyilən bir qalaya göndərdi. Onun adamları Ərdəbildən gələn piyadaların, karvanların yolunu qoruyurdular. Onlar Hisn-ən-Nəhrə çatdıqda isə gözətcilik işini qalanın sahibi öz öhdəsinə aldı. Heysəm Qənəvinin yanına gəlib çatanlar Hisn-ən-Nəhr sahibinin yanına göndərilirdi. Hisn-ən-Nəhr yolun ortasında idi. O qalaya gəlib çatanları Heysəmin yanına, Heysəm də öz yanında olanları Hisn-ən-Nəhr hakiminin yanına aparırdı. Beləliklə, bu yolla gəlib gedənləri qoruyur və onları Ərdəbilə, oradan isə Əfşinin qərargahına çatdırırdılar. Heysəm Qənəvi də onun yanına gəlib çatanları qoruya-qoruya aparıb Əbu Səidə çatdırırdı. Əbu Səid də öz növbəsində onları Heysəmin yanına çatdırırdı. Heysəm də aparıb Əbu Səidə tapşırırdı. Əbu Səidin özü və adamları isə karvanı Xoşa göndərirdilər. Heysəm də onları Ərşəqə göndərirdi, oradan da Ələviyyə Əvərin yanına göndərirdilər ki, istədikləri yerə aparıb çatdırsın. Əbu Səidin yanına gəlib çatan şeylər Xoşa və oradan da Əfşinin qərargahına göndərilirdi. Əbu Səid, yanına gələn casusları və başqa adamları Əfşinin yanına göndərirdi. Lakin Əfşin casusları öldürmür və hətta

döymürdü. Əksinə, onlara bəxşiş verirdi. O, Babək sizə nə verirdi, deyə soruşar və onlara Babəkin verdiyindən iki qat artıq şey bağışlardı, beləliklə də onları özünə casus edərdi.

Belə bir zamanda Əfşin qoşunu ilə Ərdəbilə gəlmişdi. O, bir ay orada qaldı. Bütün yollar, keçidlər haqqında soruşub, casuslar göndərdi. Onlar geri qayıdaraq o ölkə haqqında məlumat verdilər. Sonra Ərdəbildən çıxıb, Babəkin vətəninə doğru hərəkət etdi. Aşırımlar arasında yerləşən bir dərə ağzında geniş bir yer görüb, qoşununu orada dayandırdı. Məhəmməd ibn-Bəisi yanına çağırtdırıb hörmət göstərdi və onunla məsləhətləşdi. Ona qədər Əfşin bələdçilərdən və ölkənin əhalisindən soruşmuş və onlardan belə cavab almışdı. Bu dərələrə girmək məsləhət deyildir. Dağların başına çıxmaq lazım gəlir, çünki buralarda qoşun üçün təhlükəli olan çoxlu pusqu yerləri vardır. Düşərgə etdiyin bu geniş yerdəcə dayanmalı və Babəkin müharibə üçün qoşun göndərməsini gözləməlisən. Gecə-gündüz ehtiyatlı olub, gecə basqınlarından qorunmalısan.

Əfşin dərənin başında dayandı. Qoşunun ətrafında xəndək saldırıb, gözlədi. Qoşun o xəndəkdə gecə hücumundan qorunurdu. Bəlkə də Babəkin belə bir fikri yox idi. Əfşin yeddi ay o düşərgədə qaldı, (bu müddət ərzində) Babək tərəfindən bir nəfər də olsun çölə çıxmır, eləcə də Əfşin ona sarı gedə bilmirdi. Qış gəlib çatdı. Əfşin və onun döyüşçüləri darıxmağa başladılar. Hətta qoşun əhli onu danlayıb deyirdi: Sən Babəkdən qorxursan, bəlkə onunla əlbir olmuşsan. Nə üçün bizi onun qalasına doğru aparmırsan ki, müharibə edək və çalışıb başımızın çarəsini tapaq, yoxsa biz bu yerdə bu şaxtaya neçə dözə bilərik? Döyüşçülər ağızlarına gələni deyib onu danlayırdılar. Hətta onların zor gələcəyi qorxusu belə görünməkdə idi. Lakin Əfşin hiylə qurub, Babəki nə yol ilə olursa-olsun qaladan dışarı çıxartmaq fikrində idi. O, Mötəsimə bir məktub yazdı. Mötəsim oradan Bağdada qədər olan yollarda çapar dəvələr saxlanılmasını əmr etdi. Oradan Bağdada qədər iki aylıq yol idi. Halbuki Əfşinin məktubunu o çapar dəvələr vasitəsilə on iki gündə Bağdada çatdırdılar. Əgər bir qədər də tələssəydilər, o iki aylıq yolu dörd günə gedə bilərdilər. Əfşin yeddi aydan sonra Mötəsimə məktub yazıb bildirdi ki, bu adamların (Babəkin) işinin sonu-bucağı görünmür. Qoşunum düşmənə əl tapa bilmir. Babəki hiylə ilə qaladan dişarı çıxartdırmaq fikrindəyəm. Xəlifə qoşun üçün pul, hədiyyə və məxaric göndərməli və pulu gətirən adama mənim əmrimə itaət etməsini tapşırmalıdır. Mötəsim böyük Buğa vasitəsilə yüz dəvə yükü dirhəm və üç yüz türk qulamını qulbaşılarla birlikdə onun yanına göndərdi.



Buğa pulları Ərdəbilə çatdırdıqda, onunla Əfşinin qoşunları arasında üç günlük yol qalmışdı. Əfşin Buğaya belə bir məktub yazdı: Bir ay orada qalıb xalq arasında açıqdan-açığa söylə ki, bu pulları filan gün Əfşinin yanına aparacağam. Qoy Babəkin casusları bu xəbəri ona çatdırsınlar. Onlar pulları nə vaxt aparacağını bilib, sənin üzərinə hücum edəcəklər. Lakin mənim məktubum sənə çatmayınca, oradan tərpənmə.

Sonra Əfşin qoşununu dərənin başından götürüb, Ərdəbil yolundan başqa bir tərəfə apardı. O, dərənin başını boşaldıb, qoşununu Bərzənd adlı böyük bir kənddə yerləşdirdi. O, döyüşçülərə burada pul verəcəyini vəd etmişdi. Çünki karvan, pulu Ərdəbildən Əfşinin əvvəlcə düşdüyü dərə başına gətirmək üçün Bərzənddən keçməli idi.

Babəkin casusları Ərdəbildəı gəlib xəbər verdilər ki, Böyük Buğa yüz xalvar dirhəm ilə Ərdəbilə çatıb və filan gün oradan keçəcəklər. Əfşinnn döyüşçüləri içərisiıdə olan casuslar isə məlumat verdilər ki, Əfşin qoşununu dərənin başından götürüb, Bərzəndə getmiş, orada qoşuna pul paylayacaq və o qalanı abadlaşdıracaqdır. Onlar pulu bu yoldan aparmalıdırlar.

Babək əlli min nəfərlik qoşunla qaladan çıxdı. O, dağları, kəndləri gəzir və pulların dərə başına gətirilməsini gözləyirdi. Əfşinin casusları Babək qoşununun dərə başından, özünün isə qaladan çıxması və pulları qarət etmək üçün karvanın yolunu gözləməsi xəbərini ona çatdırdılar.

Əfşin Babək üçün qurduğu hiylənin baş tutduğunu anladı, Buğaya belə bir məktub yazdı: O pulları filan gündə Ərdəbildən çıxart, ilk mənzilə çatdıqda, orada düş, gecə olanda isə pulları

yenidən şəhərə qaytar və möhkəm yerdə gizlət. Sonra boş dəvələri özünlə gətir, hər halda elə et ki, filan gün nahar çağı mənim ordugahım olan dərə başına çatmış olasan. Ola bilsin ki, sənin yolunu gözləyən Babək dərədən çıxıb səninlə vuruşsun. Bu zaman mən özümü yetirib, onu mühasirəyə alıb vuruşarıq. Onu tutub öldürə biləcəyimiz ümidindəyəm.

Buğa da Əfşinin göstərdiyi kimi hərəkət edərək, öz karvanı ilə Hisn-ən-Nəhrə çatdı. Babəkin casusları malın bayıra çıxarılmasını və onun Nəhrə gətirilməsini öz gözlərilə gördükərini ona xəbər verdilər. Bu arada Buğa malı Ərdəbilə qaytardı. Əfşin isə Buğa ilə qərarlaşdığı günün nahar çağında Bərzənddən çıxıb, gün batan zaman Xoşa çatdı və Əbu Səidin saldığı xəndəyin kənarında çadır qurdu. Səhər açıldıqda təbil çaldırmayıb, bayraq qaldırmadan gizlincə ata minib çapdı və yolda Nəhrdən Heysəm Qənəvinin nahiyəsinə gedən bir karvana rast gəldi. Əfşin də Xoşdan çıxıb, yolda ona çatmaq üçün Heysəmin nahiyəsinə getməkdə idi. Heysəmin bu əhvalatdan xəbəri yox idi. Karvanı ilə Nəhrə gedirdi. Bu arada Babək öz adamları ilə Nəhr yoluna yetişdi. O, burada pullara çatacağı ümidində idi. Bu arada Nəhrin gözətçisi Heysəmi qarşılamağa çıxmışdı. Babəkin adamları pulun burada olmadığını bilmədiklərindən ona hücum etdilər. Onların arasında vuruşma başlandı. Nəhrin gözətçisini və onunla birlikdə olan adamları öldürüb var-yoxlarını götürdülər, lakin pulları tapmadılar, onlar pulun burada olmadığını və onun əldən çıxdığını başa düşdülər. Heysəm Qənəvini və onun adamlarını aldadıb, onlara yol tapmaq məqsədilə Nəhr sahibinin adamlarının paltarını əyinlərinə geyib, yaraqlarını qurşandılar. Lakin onlar Nəhrin sahibinin yaşadığı yeri bilmədiklərindən başqa bir yerdə dayandılar. Heysəm oraya çatdıqda onları gördü, burada nə üçün dayandıqlarını soruşmaq üçük əmisi oğlunu onların yanına göndərdi. O gedib qayıtdı və bu adamları tanıya bilmədiyini söylədi. Heysəm o adamların orada nə iş gördüklərini öyrənmək üçün beş atlı göndərdi. Atlılar yaxınlaşdıqda xürrəmilərdən iki nəfər çıxıb onları öldürdü. Heysəm, Ələviyyənin adamlarının xürrəmilər tərəfindən öldürülüb, paltarlarını geydiklərini öyrəndikdən sonra



qayıdıb özü ilə gəlmiş karvana qovuşdu və onların qayıtmasına əmr verdi. O özü isə xürrəmilərin başını qatıb, karvanı onların hücumundan qorumaq üçün adamları ilə yavaş-yavaş geri çəkilirdi. Beləliklə, karvan Ərşəqdə Heysəmin düşərgəsi olan qalaya çatdı. Əbu Səidi və Əfşini bu əhvalatdan xəbərdar etmək üçün adamlarından birisini onların yanına göndərdi, özü isə qalaya girdi.

Babək qalaya yaxınlaşdı, qalanın qarşısında bir kürsü qoydurub üstündə oturdu. Heysəmin yanına adam göndərərək, qalanı təslim etməzsə, onu dağıdacağını xəbər verdi. Heysəm bu təklifi qəbul etmədi. Onların arasında vuruşma başlandı. Qalanın içərisində Heysəmin 600 piyada və 400 atlı qoşunu var idi. Qalanın xəndəyi də olduqca möhkəm idi. Babək müharibə gedən zaman oturub şərab içirdi. Bu arada Əfşinin iki nəfər atlısı uzaqdan göründü, onlar Ərşəqin bir aqaclığından bu yerlərə baxırmışlar. Babək Əfşinin qoşununun yaxınlaşmaqda olduğunu bildikdə öz qoşununu götürüb Muğana sarı hərəkət etdi. Əfşin isə onu təqib etməyə başladı. Bir gecə orada qaldıqdan sonra Bərzəndə, öz ordugahına qayıtdı. Babək də bir neçə gün Muğanda qalıb, Bəzz şəhərinə adam göndərərək, qoşununu öz yanına çağırdı. Qoşun isə gecə ikən gəlib çatdı. Babək həmin qoşunla birlikdə Muğandan hərəkət edərək Bəzzə gəldi. Əfşin əvvəlki kimi, Bərzənddə öz ordugahında idi. Bir neçə gün keçdikdən sonra Xoşdan bir karvan gəldi. O karvanda Əbu Səid tərəfindən göndərilmiş Saleh Abkeş adlı bir şəxs var idi. Babəkin baş sərkərdəsi onlara rast gəlib, karvana hücum etdi və bütün şeylərini talayıb adamlarını qırdı. Bu karvan Əfşinin qoşununa azuqə aparırdı. Beləliklə, Əfşinin qoşunu azuqə cəhətindən çətinliyə düşdü. Aclıq, çətinlik dözülməz dərəcəyə çatdıqda Əfşin Marağa hakiminə yazıb, ondan azuqə istədi. O da bir dəstə qoşunun nəzarəti altında çoxlu azuqə, min baş qaramal və başqa heyvanlardan bir karvan göndərdi. Yenə də Babək qoşunlarının bir dəstəsi Tərxan, ya Azin adlı bir nəfərin sərkərdəliyilə onlara hücum edərək bu azuqəni də taladılar. Əfşinin qoşunu son dərəcədə çətinliyə və aclığa düçar oldu. Əfşin Sirvan hakiminə yazıb azutə istədi. O da çoxlu ərzaq göndərdi. Bu arada bir dəstə adam Əfşinə pənah aparıb onun himayəsində qaldılar».

## 221-ci (835-836) İLİN MÜHARİBƏLƏRİ

221-ci ildə Həştadsər torpağında Babək ilə Böyük Buğa qoşunu arasında müharibə oldu. Babək Əfşin ilə də vuruşdu və onu məğlub etdi. Bunun təfsilatı isə belədir: bu ildə ikinci dəfə olaraq, Əfşinin qoşunu ilə Babək arasında vuruşma başlandı. Buğa və Əfşin iki tərəfdən ona hücum etdilər. Lakin Babək qaçıb aradan çıxdı və dağlara, dərələrə tərəf getdi. Onun adamlarından min nəfər həlak olmuşdu. Babək sağ qalmış döyüşçüləri ilə öz qalasına qaçdı. Həmin dərə başından Babəkin qalasına qədər üç günlük yol idi. Bu yollar dar dərələr, çıxılmaz dağlardan ibarət idi.

Babək öz qalasına çatıb arxayınlaşdı. Qoşunu yoxladı. Min nəfəri çatmırdı. Əfşin də əvvəlcə olduğu dərə başına qayıtdı. Qoşununu yerləşdirdi. Ərdəbildən pul gətirdilər. Onu qoşuna payladı. Əfşinin qoşunu on beş min nəfər idi. Onu on beş yerə böldü, beləliklə hər dəstədə min nəfər oldu. On dəstə öz yanında saxlayıb, beş dəstəsini, yəni beş min nəfəri isə Böyük Buğanın ixtiyarına verdi. Sonra bunları irəli sürüb dərəyə girdi.

O əmr verdi ki, hər dəstə ayrıca olaraq bir-birinin dalınca hərəkət etsin. Bunlar gedərkən dağların başından bir-birini görürdülər. Əfşin hər dəstəyə bir bələdçi vermişdi.

Buğa öz qoşunu ilə qabaqda gedirdi. Dağların başına yol tapmaq üçün Məhəmməd ibn-Bəis özü ilə çoxlu bələdçi götürüb, qoşunla birlikdə hərəkət edirdi. Bələdçilərin bir dəstəsi qoşunun qabağında gedirdi. Onlar pusquya rast gəldikləri halda qoşuna xəbər verməli idilər. Bu qərar üzrə qoşun yavaş-yavaş irəliləyirdi. Qoşun birinci namaza qədər yalnız iki ağac irəliləyə bilmişdi. Əfşin qoşunun dağların başında düşüb mənzil etmələrinə əmr verdi. Bu dağların başında hər dəstənin bircə çıxış yolu var idi. Bu yolu bərkitdilər. O günün sabahı da bu qərar ilə getdilər. Gecə yenə dağın başında mənzil etdilər. Üç gün bu qayda ilə yol getdilər. Dördüncü gecə bir dağın başına çatıb mənzil etdilər. Burada şiddətli şaxta var idi. Az qalmışdı ki, hamı soyuqdan qırılsın. Ertəsi gün Əfşin oradan getdi. O, Buğanın yanına adam göndərərək, ona gün çıxıb, havalar istiləşib, qarlar əriməyincə olduğu yerdən tərpənməməyi əmr etdi. Gün çıxandan sonra hava



daha da soyuqlaşdı. O günü də orada qaldılar. Əfşinin döyüşçüləri həyəcana gəlib dedilər: Bəlkə sən Babək ilə sözləşmisən ki, bizi bu dağlarda soyuqdan qırdırasan. Bizi dağdan aşağı apar. Bizə Babəklə döyüşüb ölmək bu dağın şaxtasında qırılmaqdan daha xoşdur. İş belə gedərsə, bir adamımız belə sağ qalmayacaqdır.

Əfşin onların dediklərini qəbul edib dedi: Bu dağların arası ilə aşağı düşək. Yolların darlığına baxmayaraq, ehtiyatla irəli gedək. O gecəni orada qaldılar. Gecənin yarısı Babək iki min nəfərlə onlara qəflətən hücum etdi. O, Buğa olan dağlara getmədi. Əfşin olan tərəfə hücum etdi. Onların arası yarım ağac idi. Onlar dağın başından bir-birinin əlamətini görurdülər. Babək özünü Əfşinin qoşununa vurdu. Onlar qaçmağa üz qoydular. Babəkin döyüşçüləri onları qılıncdan keçirməyə başladılar. Hər iki tərəfdən çox adam qırıldı. Buğa və onun qoşunu bu hadisədən xəbərsiz idilər. Dan yeri söküləndə Babək öz qoşununu dayandırıb dedi: Onların dalınca gediniz[1], çünki arxamızda onların qoşunu vardır. Babək qayıdıb Buğa olan dağlara çatanda artıq səhər açılmışdı.

Babək qoşunu iki hissəyə bölüb, onlardan bir hissəsini qaranlıq çökəndə Buğanın qoşununa basqın etmək üçün orada qoydu.

Gün çıxanda Buğa bu işdən xəbər tutdu. Qoçaq döyüşçülərindən birini başçı təyin edərək dağlardan enib, qoşunu gəldiyi yol ilə geriyə aparırdı. Buğa, Məhəmməd ibn-Bəis və Əfşinin qardaşı Fəzl ibn-Kavus ilə birlikdə qoşunun arxasında idilər. Beləliklə, onlar beş min nəfər döyüşçü ilə yavaş-yavaş yol gedirdilər. Babək Buğanın qayıtmasından xəbər tutdu. Onun qoşunu dağların üstündə dağınıq bir halda, onların ardınca gedirdi. Axşam namazının vaxtı çatdıqda Buğa onlara (qoşununa) dedi: Gecə yol getmək məsləhət deyil, yaxşısı budur ki, bircə yolu olan möhkəm bir dağ axtarıb tapaq və gecəni orada keçirək. Döyüşçülər dedilər: Doğru fikirdir. Lakin onlar çox olduqlarından bir dağda yerləşə bilmədilər. Üç dəstəyə bölünüb bir-birinin yaxınlığında olan dağlarda qaldılar. Gecəni səhərə qədər oyaq qalıb yatmadılar. Dan yeri ağaranda onları yuxu apardı.

[1] " Zənnimizcə «getməyiniz» olmalıdır— *Red.*

Babək üç min döyüşçü ilə basqın etdi. Hava hələ qaranlıq ikən onları qılıncdan keçirməyə başladı. Onlar kimisi atlı, kimisi piyada özlərini dağdan aşağı atıb, qaçmağa üz qoydular. Əfşinin qardaşı Fəzl ibn-Kavus yaralandı. Piyada qalmış Buğa özünü dağdan aşaqı atıb canını qurtardı. Dağın ətəyində sahibsiz bir ata rast gəldi, ona minib çapdı. Onlar bütün günü yol gedib, bir dərənin ağzında geniş bir yerə çatdılar. Buğa dərədən çıxan kimi Əfşini xəbər aldı. Dedilər: Əfşin dərədən çıxandan sonra atını sürüb birbaşa Ərdəbilə getdi. Buğa da Əfşinin ardınca Ərdəbilə getdi. Bütun qışı orada qaldılar. Sonra Əfşin qoşun başçılarına əmr etdi ki, Babək tərəfə yola duşüb, Bəzz qalasının darvazasında onu sıxışdırsınlar. Onlar Bəzzin altı milliyində dayandılar. Buğa irəli gedib Bəzz qalasını mühasirəyə aldı və Babəkin adamları ilə vuruşaraq, qoşunundan bir çox adam öldurdu. Sonra geri çəkilib Məhəmməd ibn-Səidin qazdırdığı xəndəyə qayıtdı. Əfşinin yanına alam göndərib, ondan kömək istədi. Əfşin öz qardaşı Fəzli, Əhməd ibn-Xəlil ibn-Hişamı və Şürtənin sahibi Əbu Xovs Həsən ibn-Səhli onun köməyinə göndərdi. Onlara müharibə əmri verib döyuş gününü təyin etdi Onlar da haman gündə Bəzz şəhərinə doğru hərəkət etdilər. Lakin onları şiddətli soyuq və bərk yağış tutdu, buna baxmayaraq, onlar yenə də müharibəni davam etdirirdilər. Yağış getdikcə şiddətlənirdi. Buğa bir nəfər bələdçi tutub, onun vasitəsilə Babəkin qərargahına baxan bir dağın üstünə çıxdı. Yağmur daha da şiddətləndiyi üçün Əfşinin qoşunu öz düşərgəsinə çəkildi. Babək hücum edərək onları məğlub etdi və dağdakı düşərgələrindən qovdu. Buğa da öz qoşunu ilə məğlub oldu. Əfşinin başına nələr gəldiyini bilməyən Buğa Bəzz qalasına tərəf hərəkət etdi.

Bu arada Əfşinin xəbəri ona çatdı. O, başqa yol ilə qayıtmağa məcbur oldu, çünki gəldiyi yolda çoxlu yallar, dərələr var idi. Babək qoşununun ön dəstələri onu təqib etməyə başladılar. Lakin Buğa onlara etina etmədi. Çünki havanın qaranlıqlaşmasına az qalmışdı. O, dar dərələrdən işıq ikən keçmək istəyirdi, həm də yanında olan sərvətin əlindən çıxmasından qorxurdu. Bütün bunlara baxmayaraq, qoşununu dağın başında yerləşdirməyə məcbur



oldu. Qoşunu yorğun, azuqələri isə yox idi. Babək gecə vaxtı qəflətən onların ustünə hücum edib, butun şeylərini qarət etdi və bir çoxunu öldürdü. Buğa isə bir çox zəhmətdən sonra özünü dağın ətəyində olan xəndəyə sala bildi.

Qış gəldiyinə görə Əfşin ilə Babəkin müharibəsi yenə dayandırıldı. Babəkin Tərxan adlı bir sərkərdəsi var idi. Bu adam o yerin əkinçilərindən idi. Qışda öz kəndində qalardı. Qış gəldikdə Babəkdən icazə alıb öz kəndinə getdi. Onun kəndi Marağanın Həştadsər nahiyəsində idi. Əfşinin bir türk qulamı var idi. Bu qulam İshaq ibn-İbrahim ibn-Müsəbin qullarından idi. O, Əfşinin əmri üzrə gedib Tərxana hücum etdi və başını kəsib gətirdi. Babək bu hadisədən kədərləndi, qəlbi sındı. Qış çıxdıqdan sonra Mötəsim yenə bir sərkərdəni on min nəfər qoşun və sürsatla Əfşinin yanına göndərli. Bu sərkərdənin adı Cəfər ibn-Dinar idi. Lakin Cəfər Xəyyat ləqəbi ilə məşhur olmuşdu. O, Məmun dövrünün böyük kargüzarlarından idi. Eyni zamanda Mötəsim öz qulamı və aşxanasının müdiri türk İtaxı otuz min dirhəm ilə yola saldı. Sonra Kufəyə, Qasım Əbəsinin adına məktub göndərib, ordusu ilə Əfşinin köməyinə getməsini əmr etdi. Mötəsim Əfşinə də belə bir məktub yazdı: «Müharibəni davam etdir. Elə güman etmə ki, mən və mənim qoşunlarım Babəkdən əl çəkmişik. Nə qədər ki, o sağdır ondan əl götürməyəcəyik. Sənin vəzifən yalnız bu olmalıdır. İtax vasitəsilə on xalvar dəmir tikan göndərdim. Qoşun bir yerə düşəndə gecə hücumundan arxayın olmaq üçün xəndək qazdırmaq əvəzinə bu tikanları düşərgənin ətrafına səpdir». Babək Cəfər Xəyyamın və aşxana müdiri İtaxın, habelə qoşun və pulun gəlməsi xəbərini eşitdikdə Mötəsimin halına acıyıb dedi: «Gör iş hara çatıb ki, Mötəsim öz dərzisini və aşpazını mənim meydanıma göndərmişdir, Görünür ki, daha başqa adamı qalmamışdır».

Babək Rum ölkəsinə qonşu olduğundan aralarında elçilər gedib gəlir və bir-birlərinə hədiyyələr göndərirdilər. Babək Rum imperatoru Teofili aldadaraq ona belə bir məktub göndərdi: «Əslində mən xristian oğluyam, gizlində xristian dinindəyəm. Tərəfdarlarımın hamısına xristian dinini qəbul etdirəcəyəm. Lakin bir-

dən-birə onlara, bu dini qəbul edin, demək olmaz. Bilirəm ki, onlar bunu qəbul etməzlər. Mənim indiki məzhəbim onların xoşuna gəlir və onları müsəlmançılıqdan uzaqlaşdırır. Mən onlara qalib gəldikdən sonra onlar və xəlifə, hamısı mənim məzhəbimi qəbul edəcək və mən istədiyim yol ilə gedəcəklər. O zaman onları xristian dininə dəvət edəcəyəm. Onlar da dönüb xristian olacaqlar».

Babəkin bu sözləri Rum padşahının xoşuna gəldi.

Mötəsim İtaxı və Cəfər Xəyyatı Əfşinin köməyinə göndərdikdə Babək də Rum imperatorunun yanına elçi göndərib belə dedi: «Ərəb padşahı bütün döyüşçülərini, hətta dərzisini və aşpazını da mənim meydanıma göndərmişdir, yanında kimsəsi qalmamışdır. Buraya gəlmək fikrin varsa, qoşun götürüb gəl. İndi məqsədinə çata bilərsən. Hücum etmək istəyirsənsə, indi et, çünki əgər sən indi onların ölkəsinə girsən, kimsə sənin qarşına çıxmayacaqdır».

Bu tədbirdən Babəkin məqsədi Rum imperatorunu ərəblərə qarşı təhrik etmək və Mötəsim qoşununu geri çağırmağa məcbur etmək idi. Rum imperatoru özü ilə yetmiş min nəfər götürüb Tərsusa tərəf yola düşdü. Tərsusun möhkəm qalası var idi. Oradan Zibətrəyə getdi və oranı çapıb taladı. Lakin Mötəsimin könüllü qoşun hissələrilə onun üzərinə hücum etmək istədiyini eşidib, öz ölkəsinə qayıtdı.

## 222-ci (836-837) İLİN MÜHARİBƏLƏRİ

222-ci ildə Mötəsim Əfşinə məktub göndərərək, Babək hərəkatının qabağını almasını ondan tələb etdi. Əfşin ordusunu Ərdəbildən çıxarıb, özünün qabaqkı ordugahına apardı. Babək öz sərkərdələrindən birini on min atlı ilə müharibə meydanına göndərdi. Olduqca mübariz bir şəxs olan bu sərkərdənin adı Azin idi. O, dağların arasından çıxaraq dərənin başında düşərgə saldı. Arvad-uşağı da onunla bir yerdə idilər, döyüşçülərinin bir çoxu da arvad-uşaqlarını özləri ilə aparmışdılar. Arvad-uşağın möhkəm bir qalaya göndərilməsini əvvəlcədən Babək ona tapşırmışdı, lakin o: - cuhudlardan qorxuram, - deyə cavab vermişdi.



Azin dərədən çıxmazdan əvvəl, möhkəm bir dağı ələ keçirib arvad-uşağı orada yerləşdirdi. Bu xəbər Əfşinə çatdıqda Zəfər ibn-Abdullah adlı bir sərkərdəni tək iki nəfər döyüşçü və bir neçə bələdçi ilə göndərərək, başqa bir yoldan dağların içinə girib, Azinin arvad-uşağını tutub gətirməsini ona əmr etdi. Zəfər o dağa çatıb döyüşdü və orada olan adamların bir çoxunu qırdıqdan sonra bütün arvad-uşağı diri tutub gətirdi. Bu xəbər Azinə çatdı. Bütün qoşunu dərənin başından qaytarıb, Zəfər ilə döyüşmək və arvad-uşaqları xilas etmək üçün dağlara tərəf getdi.

Əfşin bu işdən xəbər tutub, Əbül-Müzəffər ibn-Kəsir adlı başqa bir sərkərdəni beş min nəfərlə göndərdi ki, Azini tapıb onun başını qarışdırsın. Əbül-Müzəffər Azinin ardınca gedərək, dağların arasında olan bir dərədə ona çatıb vuruşdu.

(Qeyd etmək lazımdır ki), Azin Zəfər ilə vuruşarkən arvad-uşağın çoxusunu xilas etmişdi. Bu dəfə Əbül-Müzəffər Azinin başını qarışdırdı. Zəfər isə qalan arvad-uşağı aradan çıxarıb Əfşinin yanına gətirdi və onunla məsləhətləşərək, başqa bir qoşunla dərəyə doğru hərəkət etdi. Azin Əbül-Müzəffərin müharibəsində basılıb qaçdı. O, artıq məğlub bir halda Babəkin yanına qayıdırdı.

Əbül-Müzəffər isə qələbə və qənimətlə Əfşinin yanına getdi. Əfşin dağlara, Babəkin qalasına qədər getməyi lazım bildi.

Mötəsim Əfşinə məktub yazıb demişdi ki, dağların başına çıxmaqda səhv etmişsən, nə üçün geniş ərazini, çölü, yolları, düşmənə tapşırdın. Çöl yolu ilə nə qədər dar olsa da, qoşun çəkmək üçün dağlardan qat-qat asandır. Bundan belə dərə yolu ilə get, dağların başında casuslar, bələdçilər qoy ki, gələn olsa, sənə xəbər versinlər, ox atanları qoşunun ön sıralarında saxla; gecə hücumundan qorunmaq üçün düşərgə etdiyin yerin ətrafına dəmir tikan səp. Mötəsim ona min xalvar tikan göndərmişdi.

Əfşin ordunu dərəyə salıb, Mötəsim dediyi kimi yol gedirdi. O, bir il əvvəl Babəkin basqın etdiyi yerə gəlib çatdıqda dağların başında Babəkin çoxlu qoşununu gördü. Əfşin onlarla döyüşüb bir çoxunu qırdı, qalanı isə qaçıb Babəkin yanına getdi. Əfşin həmin qayda ilə gündə iki ağac yol gedirdi. Onuncu gün Babəkin qalasına yaxınlaşaraq onun bir ağaclığında dayandı. Babək öz

qalasından ona xalvarlarla qatıq, yağ, qaymaq, tərəvəz, quzu, xiyar və badımcan göndərib dedi: siz bizim qonağımızsınız, on gündür ki, bu çətin yolları keçib gəlmişsiniz. Bilirəm ki, yemək cəhətdən çətinlik çəkmişsiniz. Qalada bundan artıq heç bir şeyimiz olmadı. Əfşin o şeyləri qəbul etməyib, geri göndərdi və gülərək dedi: biz qonaqlığı qəbul etdik. Bu şeyləri nə məqsədlə göndərdiyini bilirəm. Bunları bizim qoşunumuzun sayını öyrənmək üçün göndərmişdir. Göndərilən elçiləri bütün qoşunun düşərgəsi ətrafında gəzdirməyi əmr etdi. Qoşunun çox hissəsi dərələrə endiyindən görünmürdü.

Elçiləri dolandırdıqdan sonra onları yanına çağırıb dedi: siz bu qoşunun sayını bilməyirsiniz, lakin mən bilirəm. Babəkə deyin, burada nökərlərdən və kiçiklərdən başqa otuz min döyüşçü var. Əmir əl-mömininin arxasında isə üç yüz min müsəlman durur. Onların biri qalıncaya qədər səndən əl çəkəsi deyildirlər. Öz məsləhətini başqalarından daha yaxşı bilərsən. Təslim olub pənah gətirmək istəsən, gələ bilərsən, yoxsa, oradaca qalmalısansa, qal. (Ancaq bil ki), bu il iş üstündə sənin və sənin adamlarının başı kəsilməyincə buradan qayıtdı yoxdur.

Elçilər Babəkin yanına qayıdıb, Əfşinin dediklərini ona çatdırdılar. Ertəsi gün Əfşin qoşunu o dar yollarla irəli ötürüb qalanın bir milliyində mənzil etdi. O, Məhəmməd ibn-Bəisə dedi: biz burada bir müddət qalmalıyıq, dağların üstünə çıxıb bizim üçün möhkəm bir yer seç ki, orada bir yerə yığılaq. Düşmən hücumundan arxayın olmaq üçün düşərgəmizin ətrafında xəndək qazmalıyıq, gündüzlər qalanın qapısında olmalı, gecələr isə düşərgəmizə qayıtmalıyıq.

Məhəmməd-ibn-Bəis dağların arasında möhkəm bir yer seçdi. O yerin ətrafında xəndək qazdırıb, divarlar yondurdu. Sonra qoşunu xəndəyin içində yerləşdirdi. Hər gün Babəkin qalasından ney, rübab, cənk səsi eşidilir, şərab içib rəqs və şadlıq etmələri görünürdü. Onlar bu hərəkətlə düşmən qoşunundan qorxmadıqlarını göstərmək istəyirdilər.

Hər gecə Babək basqın etmək üçün qoşun göndərirdi. Əfşinin qoşunu isə yatmayıb ayıq qalırdı. O divarlara heç bir şey edə



bilmirdilər. Əfşinin görkəmli bir sərkərdəsi var idi. Bu şəxs Mötəsimin sərkərdələrindən idi. Ondan qabaq da Məmunun sərkərdələrindən olub, Buxaranın əmiri idi. Onun adına Məhəmməd ibn-Xalid Buxaraxudat deyirdilər. Bir gecə o, Əfşinin əmri üzrə xəndək və divarlardan keçərək, yoldaşları ilə bir dağın başında gizləndi. Əfşin ona belə göstəriş verdi: Babəkin döyüşçüləri bu gecə xəndəyin kənarından qayıtdıqda onların üstünə hücum edin, biz isə arxalarından gələrək, onları mühasirəyə alıb qırarıq.

Elə də oldu. O gecə Babəkin dəstələri bayıra çıxdıqda onlar pusqudan bayıra sıçradılar və bu hiylə ilə onların çoxusunu öldürüb, gecə hücumundan canlarını qurtardılar.

Beləliklə, Əfşin hər gün səhərdən axşamadək qalanın qapısını kəsir, axşamlar isə xəndəyə qayıdırdı. Bir gün Babək, Əfşin bayıra çıxmazdan qabaq qoşununu qaladan çıxartdı. Casuslar gəlib Babəkin qoşun çıxartdığını və onu pusquda saxladığını Əfşinə xəbər verdilər. Əfşin işdən xəbərdar olduqda əmr verdi, qoşun gecə ikən qalanı almağa hazırlaşdı. Bu dəfə qalanın yaxınlığında, hər gün durduqları yerdən bir az uzaqda durdular. Eyni zamanda Babək qoşununun pusqu qurduğu yeri öyrənmək üçün hər tərəfə adam göndərdilər. O adamlar çox axtardılar, lakin bir şey tapmayıb, axşam çağı geri qayıtdılar. Sabahı gün yenə də gəlib uzaqdan göz gəzdirdilər, pusqu yerini bələdləmək üçün bir neçə adam göndərdilər.

Orada bir dağın başında bir dar keçid, onun yanında isə bir kənd var idi. Əfşin Buxaraxudata dedi: oradan bizə hücum edə bilməmələri üçün köməkçilərinlə yalın üstündə dayan. Beləliklə, yal başında kimsənin olmadığı və pusqu yerinin yal altında olması mənə aydın olacaqdır. Biz ötüb keçdikdən sonra onlar bizi izləyəcəklər.

Buxaraxudat oraya getdikdən sonra onların qurğuları pozuldu. Bundan sonra Əfşin hər gün belə edirdi. Səhər tezdən qoşunu ilə gələrək qaladan bir mil uzaqda, dağın üstündə durur, Buxaraxudat isə yalın başında dayanırdı. Əfşin, biz onların pusqu yerinin harada olduğunu bilmədikcə qalaya yaxınlaşmaq olmaz,- deyə təkid edirdi.

Lakin pusqu yerinin harada olduğunu tapa bilmədilər. Əfşin qaladan qayıdan kimi, onlar da pusqu yerindən qalaya gəlirdilər. Bir gün qayıtmaq vaxtı gəlib çatdıqda Əfşin qayıtdı. Hamıdan sonra Cəfər ibn-Dinarın qoşunu qayıdırdı. O gün Cəfər qayıdarkən yanında üç min nəfər var idi. Qoşunun bir hissəsi geridə qalmışdı. Bu zaman Babəkin qoşunu qaladan çıxdı. On min nəfər atlı Cəfərin qoşununa hücum etdi. Cəfərin döyüşçüləri qayıtdılar, vuruşma başlandı.

Cəfər səs eşidərək döndü. Əfşin irəli getmişdi. Cəfər qayıtdıqda onun qoşunu da qayıtdı. Babəkin adamlarının çoxu qaladan çıxıb Cəfərlə vuruşurdular. O biri namazın vaxtı gəlib çatdı. Bütün qoşunu ilə qayıdıb yenə əvvəlki yerində durdu, hər bir sərkərdə öz yerini təyin etdi. Cəfər Babəkin adamlarından bir çoxunu öldürdü, qalanını isə qalaya çəkilməyə məcbur etdi. Onlar qalaya girərək, darvazanı bağladılar. Cəfər hələ qayıtmadı. O, müharibəni davam etdirir və qalanın divarlarına hücum edirdi. Vuruşmanın səsi qalanın qapısı ağzında ucaldıqca pusquda olanlar özlərini keçidə tulladılar. Bu zaman Buxaraxudat hələ də orada idi. Onunla pusqudan çıxanlar arasında döyüş başlandı. Əfşin yenə ona beş min döyüşçü göndərdi, özü isə olduğu yerdə qaldı. O, Cəfərin yanına adam göndərib belə dedi: artıq hava qaranlıqlaşdı, müharibəni dayandırmaq lazımdır.

Cəfər qayıtdı. Əfşin də qoşunla öz ordugahına döndü. Üç gün orada qalıb bayıra çıxmadı. Babəkin qoşununda nə qədər adamın öldürüldüyünü bilmək və pusqu yerini öyrənmək üçün casuslar göndərdi. Qoşun əhli isə onun orada qalmasının səbəbini bilmirdi. Miniklərin yemi qurtarmaq üzrə idi. Günəmuzd qoşun nəfərləri Əfşinin yanına gedərək azuqə və yemin çətinliyindən ona şikayət etdilər. Əfşin onlara belə cavab verdi: Səbr edə bilməyənlər qayıda bilərlər. Onsuz da mənim qoşunum çoxdur və sizə ehtiyacım yoxdur. Qar düşənə qədər mən buradan getməyəcəyəm. Xəlifənin qoşunu mənimlə burada isti-soyuğa dözməlidir. Dözə bilməsələr, onlar da qayıda bilərlər.

Günəmuzd döyüşçülər Əfşinin yanından qayıdıb dedilər: Əfşin Babək ilə əlbir olubdur, müharibə etmək istəmir. Bu söz



Əfşinin qulağına çatdı. Ertəsi günü bütün qoşun hissələrini qaldırıb, döyüşə başladı. Özü isə həmin dağın başında, həmişəki yerində durdu. Pusqu yolunun qabağını kəsmək üçün Buxaraxudatı həmin dağın üstünə göndərdi. Sonra Cəfəri çağırıb dedi: bütün qoşun sənin ixtiyarındadır. Süvari, piyada və oxatanlardan nə qədər istəyirsənsə, götürüb müharibəyə get. Cəfər dedi: mənim lazımı qədər atlı, piyada qoşunum var, köməyə ehtiyacım olarsa, özüm istəyərəm.

Cəfər qoşunu ilə qalanın qapısına yaxılaşdı. Əfşin günəmuzd döyüşçüləri çağırıb dedi: qalanın hansı tərəfində döyüşmək istəyirsinizsə, oranı seçin. Əbudüləfi də onlara qoşdu. Beləliklə, onlar da başqa bir tərəfdən müharibəyə girişərək, qalanın divarlarına yaxınlaşdılar. Cəfər köməkçiləri ilə qala qapısına çatdı. Babəkin adamları isə qala qapısı divarları üstunə çıxdılar. Vuruşma başlandı. Hər tərəfdən ox atıb, daş yağdırmağa başladılar. Əfşin Cəfərə bir kisə qızıl göndərib dedi: adamlarından kim igidlik göstərsə, bu pulu ona ver. Bir kisə qızıl da Əbudüləfə göndərib, ona da eyni sözləri dedi. Şərabdarlarını qoşuna şərbət, şərab, şəkər paylamaq üçün döyüş meydanına göndərdi, Babəkin qoşunu qaladan çıxıb, müharibəni davam etdirdi. O biri namaza qədər müqavimət göstərdi.

Bu arada Əfşin qərargahına döndü, bir həftə döyüşə çıxmadı, çoxlu yemək gətirilməsinə əmr edib, müharibə üçün tədbir görürdü. Bu zaman xəbər gətirdilər ki, qala darvazasının üstündə bir dağ vardır, hər gün Babək öz sərkərdəsi Azini o dağın altında, dar keçidlərdə pusquya qoydurur. Azin qaladan çıxanda Babək qalada tək qalır. Əfşin bu xəbərin düz olmasını yoxlamaq üçün bir neçə casus göndərdi. Sonra qoşun əhlinin səhərə qədər hazırlaşmasını əmr edib, sabah döyüşə gedəcəklərini bildirdi. Gecə vaxtı sərrast ox atan iki min nəfəri yanına çağırdı, onlara qara bayraqlar verib dedi: hava qaranlıq ikən gedib, Azinin oturduğu pusqudan bir mil o tərəfə, dağlarin arasında pusquya girin. Səhər çağı təbil səsi eşitdikdə bayraqları qaldırıb o yerdən çıxın. Biz də bu tərəfdən gəlib Azini mühasirəyə alacağıq. Əfşin onlara bələdçilər qoşub, azuqə verdi. Onlar yola düşdülər. Gecə yarısı Əfşin fərqanəli bir sərkərdəyə min nəfər fərqanəli döyüş-

çü verib dedi: səhər mən gələnədək siz o pusqu olan yerin bir milliyində səssiz-səmiriz oturub gözləyin. Kimsə sizin izinizi belə görməməlidir. Onlar da yola düşüb getdilər.

Səhər açıldıqda Əfşin bütün qoşun hissələrilə yola düşüb, təbil çalınmamasını əmr etdi. Onlar Əfşinin hər dəfə getdiyi yerə qədər səssiz-səmirsiz getdilər.

Əfşin Cəfəri çağırıb dedi: fərqanəlilərlə türk Bəşirin olduqları yerə gedib qoşununla qıraqda durub gözlə. Fərqanəlilər gəzib pusqu yerini axtaracaq, pusquda adam olarsa, müharibə edəcəklər. O zaman siz onların köməyinə getməlisiniz. Əhməd ibn-Xəlili və başqa sərkərdələri bir-birinin ardınca göndərdi. Əfşin Bəşirin yanına adam göndərib dedi: sən fərqanəlilər və bələdçilərlə yola dağılıb dağların altında pusqu yerini axtar. Bəşir fərqanəlilərlə yola düşdü. Dağlarda hər yeri axtarmağa başladılar. Nəhayət, günorta vaxtı Azini tapdılar. O, dağların arasında yeddi min nəfərlik qoşunu ilə üç yerə bölünüb pusquda oturmuşdu. Bunlar Azinin yanında olan adamlara hücum edib döyüşdülər. Qalan iki dəstə də pusqudan çıxıb fərqanəlilərlə vuruşmağa başladı.

Əfşin bu xəbəri eşitcək, Cəfərin qoşunu ilə müharibəyə girişməsini əmr etdi. Onun dalınca da Buxaraxudatı və başqa bir sərkərdəni göndərdi. Beləliklə, o hamını Azinin müharibəsinə məşğul etdi. Özü isə yaxın adamları ilə bir yerdə idi.

Bütün qoşun hissələri Azin ilə müharibə etdikləri zaman hər yerdə təbillərin birdən-birə çalınması əmr edildi. Gecə göndərilən piyada dəstələri təbilin səsini eşitcək, Əfşinin gəldiyini bildilər. Hamı bayraq qaldıraraq müharibəyə getdi. Qalanın dalından təbil çalıb dağın başına çıxdılar, oradan dərəyə endilər. Hər yerdə təbil və bayraqlar görünürdü. Əfşin Cəfərə və onun adamlarına xəbər göndərib dedi: bu gələn qoşun dünən düşmənin arxasına keçmək üçün pusquya qoyduğum adamlarımızdır. Siz qorxmayın, onları aralığa alıb vuruşun. Allah sizə kömək olsun. Nəhayət, Əfşin özü də yaxınlaşıb, düşməni qılıncdan keçirməyə başladı.

Babək başa düşdü ki, artıq onun işi bitmişdir. Qalanın divarı üstünə çıxaraq dedi: Babək mənəm. Əfşinə deyin yaxına gəlsin. Onunla danışmaq istəyirəm.



Əfşin qalanın divarına yaxınlaşdı. Babək onu görcək dedi: Ey əmir! Aman günüdür. Səndən aman istəyirəm. Əfşin dedi: sən amandasan. Bu dediyin sözü bundan qabaq desəydin, daha yaxşı olardı. Bu gün deməyin sabah deyəcəyindən daha yaxşıdır. Babək dedi: xəlifədən aman istəyirəm.

Əfşin dedi: onun möhürü və imzası ilə sənə aman kağızı gətirərəm, lakin gözləyə bilməyim üçün mənə girov verməlisən. Çünki mən bu barədə xəlifəyə yazıb, ondan aman kağızı istəməliyəm.

Babək dedi: mənim verəcəyim girov böyük oğlumdur. O, Azin ilə birlikdə orada döyüşür. Onu sənə verərəm.

Əfşin qəbul etdi. Öz yerinə dönərək, Cəfərin yanına adam göndərib dedi: müharibəni dayandır.

Artıq Azin həlak olmuş, qoşun isə qaçıb dağılmışdı. Yerdə qalanlar da qılıncdan keçirilirdi.

Belə bir zamanda Əfşinin elçisi gəlib dedi: öldürməyin, ələ düşəni əsir edin. Babəkin iki oğlu buradadır, onları öldürməyin, əsir edin. Babək aman istəyir. Oğlunu öldürsəniz, peşiman olar.

Cəfər və bütün qoşun əhli qırğından əl götürdülər. Babəkin oğlunu və əsir etdikləri bir çox adamı götürüb, Əfşinin yanına gəldilər. Ondan Babək üçün aman istədilər. Babəkin məğlub olmuş qoşunu dağlara dağılıb hərə bir yana qaçdı. Onların heç biri qalaya qayıtmadı. Gecə vaxtı Babək ailəsi və yanında olan əlli nəfərlə birlikdə qalanın qapısını açıb dağların içinə girdi və oradan da çıxıb dağlara çəkildi.

## AZƏRBAYCANDA BABƏKİN SON GÜNLƏRİ

Şəmsəddin Əbu Abdullah Zəhəbi də «Düvəl-əl-islam» adlı kitabında Babəkin və xürrəmilərin Azərbaycandakı işləri haqqında bəzi işarələr etmişdir. O belə yazır:

192-ci (808-809) il**.** Bu ildə xürrəmilər Azərbaycan dağlarında meydana çıxmışlar. İbn-Xazim Xuzeymə onlarla müharibə etmişdir.

206-cı (821-822) il. Bu ildə Babək xürrəminin işi Azərbaycan dağlarında artdı. Çox adamı qarət edib öldürdü. O, yaramaz bir zəndiq idi. Qoşunları məğlub etdi, pis işlər gördü.

212-ci (827-828) il. Bu ildə qoşun dəstələri Məhəmməd ibn-Həmid Tusi ilə yola düşdülər.

214-cü (829-830) il. Bu ildə Tusi ilə Babək xürrəminin oğlu arasında müharibə oldu. Babək onları məğlub etdi və Tusini də öldürdü.

220-ci (835) il. Bu ildə 20 ildən bəri qoşunları məğlub edən və Azərbaycanı dağıdan Babək xürrəmi ilə müharibə etmək üçün Mötəsim, Əfşinin sərkərdəliyi altında bir qoşun hazırladı. Əfşin Babək ilə qarşı-qarşıya gəldi. Babək məğlub oldu. Min nəfərə yaxın döyüşçü qırıldı. O, Muğana qaçdı. Onların arasında yenə bir neçə dəfə müharibə olmuş, lakin onların izahı olduqca uzundur.

221-ci (835-836) il. Bu ildə şiddətli bir müharibə baş verdi. Babək xürrəmi Böyük Buğanı məğlub etdi. Sonra Buğa qüvvə toplayaraq, Babəkin üstünə qoşun çəkdi və onunla qarşı-qarşıya gəldi. Babək məğlub oldu.

222-ci (836-837) il. Əfşin ilə Babək üz-üzə gəldilər. Babək məğlub oldu. Çox keçmədi ki, Əfşin onu əsir tutdu. Babək cəsarətli, şücaətli, igid, inadlı, tələbkar və xəbis bir adam idi. O istəyirdi ki, atəşpərəstliyi bərpa etsin. O, bir para şəhərləri, kəndləri əlinə keçirdi. Mötəsim onunla müharibə etmək üçün beytülmallar (xəzinələr) sərf etdi. Bu ildə min min dinar pul xərclədi. Allahın köməyilə Babəkin şəhəri ağır mühasirədən sonra fəth edildi. Babək orada bir yalda gizləndi. Bütün ailəsi və yoldaşları əsir düşdülər. Mötəsim ona aman verib sənəd göndərdi. O isə sənədi cırıb nalayiq sözlər dedi. Sonra o, bir dağdan aşaraq başqa bir dağa getdi. Bir petrikin evinə düşdü. Petrik onu tutub, ardınca gələn adamlara təhvil verdi. Mötəsim onu diri tutub gətirənə yüz min dinar, başını kəsib gətirənə isə onun yarısı qədər pul verəcəyini vəd etmişdi. Babəkin dəvə üstündə Bağdada varid olduğu gün məşhur bir gün idi».

Mirxond Bəlxi «Rövzət-əs-səfa» əsərində Babək haqqında «Babəkin pis əməlləri müqabilində cəzasına çatması və başqa hekayələr» başlığı altında belə yazır: Mötəsim Mavəraünnəhr vilayəti zadəganlarından Əfşin adı ilə məşhur olan Xidr ibn-Kavusu tərbiyə edərək, ağır qoşunla Babək xürrəminin müharibəsinə göndərdi. Uzun zaman iki firqə arasında mübarizə getdi. Bu döyüşlərdə həddindən artıq camaat tələf oldu və nəhayət, «haqq qalib gələr və məğlub olmaz» sözünün hökmü ilə Əfşin qalib gəldi. Babəkin qalalarını fəth etdi. Adamları da onun yanında idilər. O zaman Babək tacirləri özünə şüar etmişdi. Babək, Səhl ibn-Sunbat adlı bir petrikin qalası ətrafına çatdıqda, bir çayın başında mənzil etdi, onlar burada bir qoyun sürüsu gördülər və sürünün çobanından bir qoyun satın aldılar.



Çoban dərhal Səhlin yanına gəlib dedi: Filan yerdə bir neçə nəfər mənzil etmişlər.

Səhl dedi: Yəqin ki, Babək və onun adamlarıdırlar. Sonra bir neçə nəfərlə ata minib oraya getdi. Səhlin gözü uzaqdan Babəkə sataşdıqda atdan düşdü və irəli gedərək dedi: «Ey hökmdar, əmin ol ki, öz evinə gəlmişsən. İndi xahişim budur ki, qalaya təşrif gətirəsən, səltənət qəsrində rahətlik edəsən». Babək də öz adamları ilə qalaya getdi. Səhl ona həddindən artıq hörmət etdi. Babəkin adamlarını münasib evlərdə yerləşdirdi, özünü isə taxta oturdaraq, qul kimi onun qabağında durdu. Yemək süfrəsi salındı. Səhl onunla yemək yeməyə başladı, Babək kobud və lovğa bir şəkildə Səhli danlayıb dedi: Səndə o qabiliyyət varmı ki, mənimlə yemək yeyirsən. Səhl süfrənin başından qalxaraq dedi: Ey hökmdar, səhv etdim, mənim məqamım hökmdarlarla bir yerdə oturub çörək yeməkdən çox-çox aşağıdır.

Babək yeyib doyduqdan sonra Səhl bir dəmirçi ilə gəlib dedi: Ey hökmdar, ayağını uzat, usta onu zəncirləsin. Dəmirçi onun ayaqlarını ağır zəncirlə buxovladı.

Babək Səhlə dedi: Deməli, məni aldatdın. Səhl onu söyərək dedi: Sən mal-qara otaran bir çoban idin. Çobana qoşun idarə etmək, ölkəni dolandırmaq yaraşmaz.

Sonra onun adamlarını da bağlatdırıb, Əfşinə xəbər göndərdi. Babək və Səhli onun yanına gətirmək üçün Əfşin bir nəfər sərkərdəni dörd min nəfərlə göndərdi. Əfşin Səhlə mehribanlıq etdi, başını qiymətli xələtlə ucaltdı, vergidən onu azad etdi. O, Mötəsimə məktub yazıb göyərçinin qanadına bağladı. Göyərçin Samirəyə çatdıqda Mötəsim, əmirlər və dövlət başçıları Babəkin tutulmasını bilib, son dərəcə sevindilər, allaha şükr etdilər.

Bir neçə gündən sonra Əfşin Babəki və onun adamlarını özü ilə götürüb, Samirəyə yola düşdü. Harun ibn-Mötəsim, xilafət mərkəzinin zadəganları onları qarşılamağa getdilər.

Əfşin Samirənin beş ağaclığında düşdü. Mötəsimin əmri üzrə hind padşahlarından birinin göndərdiyi boz fili al və göy qumaşlar və rəngbərəng ipək parçalarla bəzədilər. Habelə onun əmrinə görə bir dəvəni də o sayaq bəzəyib hazırladılar. Sonra göstəriş verdi ki, qaş-daşla bəzənmiş bir qələnsuh (şiş) papaq və iki dəst qiymətli paltar tiksinlər. Mötəsim bu şeyləri Əfşinə göndərib əmr etdi ki, Babəki filə, qardaşı Abdullahı dəvəyə mindirib, bu paltarı da onlara geyindirərək Samirəyə gətirsinlər.

Babək fili görcək çox təəccüblənib dedi: Bu iri heyvan nədir? Bu paltar hardandır?

Kimsə ona belə cavab verdi: Bunlar böyük hökmdar tərəfindən əzəmətini itirmiş əsir padşaha hədiyyədir. Ümid var ki, aqibətin xeyirli, uğurlu olsun.

Adı çəkilən şeylər Əfşinin ordugahına göndərildikdən sonra bütun qoşun əhli və başqa camaat Mötəsimin əmrinə görə bəzənərək ata mindi və Samirədən Əfşinin ordugahına qədər iki cərgəyə düzüldülər. Babəki filə, qardaşını isə dəvəyə mindirib o cərgələrin arasından keçirməyə başladılar. Babək belə bir izdihamı gördükdə təəssüflənib deyirdi: Heyf ki, bu qədər adamın qanı müftə mənim qılıncımdan qurtarıbdır.

Bir nəfərin rəvayətinə görə, guya Babəkin on nəfər cəlladı var imiş. O on nəfərin biri də o adam özü imiş. Ondan neçə min adam öldürmüşsən? - deyə soruşanda, öldürdüklərimin sayı iyirmi mindən artıq olar, - deyə cavab vermişdi.

Bəziləri də demişlər ki, guya istər müharibələrdə, istərsə başqa yerlərdə Babək tərəfindən öldürülənlərin sayı min min (bir milyon) nəfərə çatıb, babalı deyənlərin boynuna. Xülasə, Babəki Mötəsimin yanına gətirdikdə ondan soruşdu: Babək sənmisən? Babək dedi: Əmirin quluyam! Mötəsimin əmri üzrə onu soyundurdular, əllərini biləkdən, ayaqlarını isə topuğundan kəsdilər. Sonra yenə də Mötəsimin əmri üzrə cəlladlar onun iki aşağı qabırğalarının arasına bir qılınc soxdular, başını bədənindən ayırdılar, bədənini əl-ayağı ilə bir yerdə dar ağacından asdılar, başını isə qardaşı Abdullah ilə birlikdə Bağdada apardılar. Bağdad valisi İshaq ibn-İbrahim aldığı fərman üzrə Abdullahı da qardaşı Babək kimi öldürdü. Babəkin başını Bağdaddan İraqi-əcəmə aparıb, bütün kənd və qəsəbələrdə gəzdirdilər. Mötəsim, Əfşini şahlara layiq bir şəkildə təltif etdi. Əfşinə verilən hədiyyələr içində göy zümrüd və qırmızı qaşlarla bəzənmiş qızıl bir tac da var idi. Mütəxəssislər bu bahalı taca qiymət qoya bilmirdi. Əfşinin rütbəsi ucaldı. Onun dövləti və ölkəni idarə etmək ixtiyaratı bir dərəcəyə çatdı ki, bütün dövlət adamları ona həsəd aparmağa başladılar. Babək (hərəkatı) 223-cü (837-838) ildə darmadağın edildi.

Qiyas-əd-din ibn-Hümam-əd-din Herəvi Xondəmir «Xülasət-əl-əxbar fi bəyani əhval-il-əxyar» adlı əsərində bu xüsusda belə yazır: «219-cu (834) il ramazan ayının birində Mötəsim Bağdada gəlib, ölkə və dövləti müstəqil olaraq idarə etməyə başladı. Babək xürrəmdinə məhəbbət bəsləyən bəzi isfahanlıları və həmədanlıları cəzalandırmaq üçün İshaq ibn-İbrahim Müsəbi o yerlərə göndərdi. İshaq o tərəfə gedib altmış min adam öldürdü. 220-ci (835) ildə (Mötəsim) Mavəraünnəhrin böyük əsilzadələrindən olan Əbu İshaq Xidr ibn-Kavus adlı bir nəfərə çoxlu qoşun verərək onu Babəkin müharibəsinə təyin etdi. Onun ləqəbi Əfşin idi. Əfşin həmin ilin camadi-əl-axir ayının əvvəllərində Azərbaycana tərəf hərəkət etdi. O, bir neçə dəfə Babək ilə döyüşdü və nəhayət, onu qaçırdıb, adamlarının bir çoxunu qırdı...

222-ci ildə Babək xürrəmdin Əfşinin qılıncının gücü ilə büsbütün məğlub edildi. O, bir neçə nəfərlə dağlara qaçdı. O nahiyələrdə bir qala var vdi. Rum əhalisindən Səhl ibn-Sunbat adlı bir şəxs oranın hökumət işlərini idarə edirdi. Səhl Babəkin oraya gəldiyini eşitcək, bir dəstə nökərilə onun yanına gedərək dedi: «Ey hökmdar! Əmin ol ki, öz evinə gəlmişsən». Babək Səhlin bu sözlərindən qürrələnib qalanın içərisində mənzil etdi. Səhl onu əmirlik qəsrində taxta oturdub, qulluğunda durdu, lakin yemək hazır olduqda onunla süfrə başında oturub yemək yeməyə başladı. Babək son qürurunun[1] şiddətindən ona dedi: səndə nə

[1] Əslində ağlının çoxluğundan yazılmışdır.

qabiliyyət var ki, mənimlə yemək yeyirsən. Səhl dərhal yerindən sıçrayıb dedi: «Ey hökmdar! Xəta etdim, mənim nə haqqım var ki, hökmdarlarla bir süfrə başında oturub xörək yeyəm».

Sonra o bir dəmirçi gətirtdi və üzünü Babəkə tutaraq dedi: «Ey hökmdar! Ayağını uzat, bu usta səni ağır zəncirlə buxovlamağa gəlmişdir».

Dəmirçi Babəkin ayaqlarını buxovladı.

Səhl əhvalatı Əfşinə xəbər verdi. Əfşin Səhli və Babəki öz yanına gətirtmək üçün bir nəfər inandığı şəxsi dörd min nəfər atlı ilə ora göndərdi. Əfşin Səhlə qarşı çox hörmət göstərdi. Babəki adamları ilə birlikdə xilafətin paytaxtına apardı. Mötəsim böyükdən tutmuş kiçiyə qədər hamını onları qarşılamağa göndərdi. Onun əmri üzrə Babəki filə mindirib Samirəyə gətirdilər və həmin gün öldürdülər. Bu hadisə 223-cü (837-838) ildə baş verdi. Belə rəvayət edirlər ki, guya bir nəfər Babəkin cəlladlarının birindən soruşdu: «Sən neçə nəfərin boynunu vurmuşsan?» O dedi: «Babəkin on nəfər cəlladı var idi. Mənim qılıncımla ölənlərin sayı iyirmi minə çatar. Qalan doqquz cəlladın nə qədər baş kəsdiyini deyə bilmərəm».

Xondəmir «Həbib-əs-siyər fi əxbari əfrad-əl-bəşər» adlı başqa bir əsərində «Mötəsim dövründə baş verən bəzi hadisələr və Babəkin allahın qəzəbinə yetməsi» hissəsində yazır: «Mötəsim 218-ci (833) il ramazanın birində Bağdada gələrək dövlət və ölkə işlərini tam bir istiqlaliyyətlə idarə etməyə başladı. İshaq ibn-İbrahim ibn-Müsəbi Babək xürrəmdinə qarşı məhəbbət bəsləyən bəzi isfahanlı və həmədanlılara qulaqburması vermək üçün oraya göndərdi. İshaq o tərəflərə gedib altmış minə qədər adam qırdı. Yenə həmin ildə Mötəsim Babək hərəkatını aradan qaldırmaq üçün Mavəraünnəhr zadəganlarından Əfşin ləqəbini daşıyan Xıdr Mavəraünnəhr ibn-Kavusu çoxlu qoşunla göndərdi. Əfşin cəmadi-əl-axir ayının əvvəllərində Azərbaycana tərəf yola düşdü. İki il ərzində onunla Babək arasında neçə dəfə vuruşma oldu. Hər iki tərəfdən çoxlu adam qırıldı. Nəhayət, 222-ci (836-837) ildə Babək tamamilə məğlub olub bir neçə nəfərlə dağlara qaçdı. O nahiyələrdə bir qala var idi. Oranın hökümət işlərini Səhl ibn-



Sunbat adlı bir nəfər erməni aparırdı, Səhl Babəkin o yerlərə gəlib çıxdığını eşitcək, bir neçə nəfər nökər ilə onun yanına gedib dedi: «Ey hökmdar! Əmin ol, öz evinə təşrif gətirmisən». Babək Səhlin bu sözlərindən qürrələnib qalaya girdi. Səhl onu əmirlik qəsrində taxta oturdub, qulluğunda durdu. Lakin yemək hazır olduqda süfrə başında oturub onunla xörək yeməyə başladı. Babək üzünü ona tutaraq tam bir təkəbbürlə dedi: «Ey Səhl! Səndə o qabiliyyət varmı ki, mənimlə bir süfrədə oturub xörək yeyirsən?».

Səhl dərhal yerindən qalxıb dedi: «Ey hökmdar! Xəta etdim, mənim nə haqqım var ki, hökmdarlarla bir süfrədə oturub yemək yeyəm». Sonra o, bir dəmirçi çağırtdırıb Babəkə dedi: «Ey hökmdar! Ayağını uzat, bu usta ayaqlarını ağır zəncirlə buxovlamağa gəlmişdir». Dəmirçi Babəkin ayaqlarını buxovladı. Əfşin əhvalatdan xəbər tutdu. Səhli ( Babəki) öz yanına gətirtmək üçün bir nəfər inandığı şəxsi dörd min nəfər atlı ilə ora göndərdi. Səhl ibn-Sunbata hörmət edib bəxşişlər verdi, Babəki isə qardaşı və bir neçə yaxın adamı ilə xilafətin paytaxtına apardı. Mötəsim hamını, böyükdən tutmuş kiçiyə qədər onları qarşılamağa göndərdi. Onun əmri üzrə Babəki filə, qardaşını isə dəvəyə mindirib Samirəyə gətirdilər.

Babək xilafət qəsrinə çatdıqda, onun qanından keçsinlər deyə, Mötəsimə çoxlu pul, dövlət təklif etdi, lakin onun bu təklifi rədd olundu. Onun əl-ayağının kəsilməsi və başının bədənindən ayrılması haqqında fərman verildi.

Belə rəvayət edirlər ki, guya onun bir əli kəsildikdə o biri əlilə bir qədər qan götürüb öz üzünə sürtdü. Orada olanlardan bəziləri: Nə üçün belə etdin,-deyə soruşdular. Dedi: «Qorxdum, qanım axıb rəngim saralsın, camaat da bunu görüb elə güman etsin ki, mən qorxuram».

Babəkin işi bitirildikdən sonra onun bədənini asdılar, başını isə qardaşı Abdullah ilə birlikdə Bağdada apardılar. Bağdad hakimi İshaq ibn-İbrahim Abdullahı da Babək kimi öldürdü. Babəklə qardaşı 223-cü (837-838) ildə öldürüldülər.

Mötəsim bu gözəl xidmətə qarşı Əfşinə həddindən artıq bəxşiş verib onu mükafatlandırdı...».

## BABƏKİN TUTULMASI VƏ ÖLDÜRÜLMƏSİNİN SƏBƏBİ

Mötəsimin qoşunları Əfşinin sərkərdəliyi altında Babək xürrəmdini Bəzz şəhərində məğlub edib, iki oğlunu ailəsilə birlikdə əsir tutduqdan sonra, Babək çıxış yolunun hər tərəfdən üzünə bağlandığını görüb, qaçmaqdan başqa bir çarə tapa bilmədi.

Nizam-əl-Mülk «Siyasətnamə» əsərində Əfşinin Babəkə üstün gəlməsinin səbəbini belə izah edir: «Bundan sonra (yəni xürrəmilərin 218-ci (833) il üsyanından sonra) Mötəsim, altı il xürrəmilərin məsələsilə məşğul oldu. O, Babəkə qarşı müharibə aparmaq işini Əfşinə tapşırdı. Əfşin qoşunu götürüb müharibəyə getdi. Bu zaman bütün xürrəmilər və batinilər Babəkin köməyinə gəldilər. İki il müharibə etdilər. Bu iki il müddətində Əfşin ilə Babək arasında dəfələrlə şiddətli vuruşmalar oldu. Hər iki tərəfdən çoxlu adam qırıldı. Nəhayət, Əfşin onu öldürmək işində özünü aciz görüb hiyləyə əl atdı. Qoşuna əmr etdi, gecə ikən çadırları yığıb dağıldılar. Qoşun hissələri bir-birindən aralanıb on ağac geri çəkildilər. Əfşin Babəkə adam göndərib belə dedi: «Yanıma ağıllı bir adam göndər, sözlərimi ona deyim. Hər ikimizin məsləhəti bundadır». Babək də onun yanına bir nəfər nümayəndə göndərdi.

Əfşin ona dedi: «Babəkə de ki, hər başlanğıcın bir sonu vardır. Soğan kökü deyil ki, daima bitsin. Mənim adamlarımın çoxu qırılmış, hətta ondan biri belə qalmamışdır. Söz yox ki, sənin də vəziyyətin belədir. Gəl barışaq, hazırda əlində olan vilayətə qane olub dinc otur. Mən isə qayıdıb əmir-əl-mömininindən sənin üçün hakimlik fərmanı alıb göndərərəm. Mənim bu məsləhətimi qəbul edəcək olmasan, onda gəl birdəfəlik vuruşaq, görək kimin baxtı gətirəcək».

Elçi onun yanından qayıtdı. Əfşin iki min atlı və beş min piyadanı dağlarda, mağaralarda gizlədib pusquya qoydu.

Elçi Babəkin yanına gedib Əfşindən eşitdiyini söylədi və qoşunun az olduğunu xəbər verdi. Casuslar da eyni xəbəri gətirdilər. Üç gündən sonra kəskin müharibə etmək qərarına gəldilər. Əfşin haman qoşuna belə göstəriş verdi: «Vuruşma gecəsi gəlib bir ağac yarımlıqda olan dağlarda, dərələrdə, sağda, solda gizlənin. Mən qaçıb ordugahdan gedərəm. Bu vaxt onların bəzisi məni təqib edəcək, bəziləri isə qarətlə məşğul olacaqlar. Bu zaman siz dərələrdən çıxaraq onların yolunu elə kəsin ki, bir daha dərəyə qayıda bilməsinlər. Bu zaman mən özümü yetirib nə lazımsa edərəm».



Döyuş günü Babək dərədən yüz mindən artıq atlı və piyada qoşun çıxartdı. Əfşinin qoşunu əvvəllərdə gördüklərinə nisbətən gözlərinə çox az göründü. Ondan başqa qoşun görmədilər. Vuruşma başlandı. Hər iki tərəf inadla vuruşurdu. Çox adam qırıldı. Günorta üstü Əfşin qaçmağa başladı. Ordugahından bir ağac uzağa çəkilib getdi. Sonra atın cilovunu çəkib bayraqdara bayrağı qaldırmaq əmrini verdi. Ardınca gələn qoşunun hamısı dayanıb durdu. Babək qoşununa: «Birdəfəlik Əfşin və onun qoşunundan canımızı qurtarmaq üçün inadla döyüşün, qarələ məşğul olmayın», - deyə əmr vermişdi. Buna görə bütün atlılar Babəklə birlikdə Əfşini təqib etməyə başladılar. Piyadalar isə qarətlə məşğul oldular. Bu zaman iyirmi min atlı dərələrdən, dağlardan çıxıb çölü başdan-başa xürrəmilərin piyada döyüşçüləri ilə dolu gördülər. Dərənin yolunu kəsib qılıncılarını çəkdilər. Əfşin də öz qoşunu ilə qayıtdı. Babəki mühasirəyə aldılar. Babək nə qədər çalışdısa mühasirədən çıxa bilmədi. Əfşin özünü yetirib onu tutdu. Hava qaranlıqlaşanadək çapıb qırdılar. Orada səksən mindən artıq adam qırıldı. Sonra Əfşin bir qulamı iki min atlı və piyada ilə orada qoydu. Özü isə Babəki və əsirləri Bağdada apardı. Babəki qul edib Bağdada apardılar».

Babəkin tutulmasını bu cür izah edən «Siyasətiamə» müəllifinin əksinə olaraq, bütün tarixçilər belə qeyd edirlər ki, Babəkin baş sərkərdəsi Azinin vəziyyəti çətinləşib, qoşunun çox hissəsi Əfşindən aman istədikdən sonra o, Azinin ordusu içində olan iki oğlunu ona (Əfşinə) girov verdi və bu bəhanə ilə də Əfşini aldadıb gecə ikən bir neçə nəfər yaxın adamı ilə öz qalasından çıxıb qaçdı.

Təbəri bu xüsusda belə deyir: «Oradan (qaladan) çıxıb dağlara getdi. Dağlarda sıx-sıx, bir-birinin yanında boy atmış ağaclar atlının oradan keçməsinə imkan vermirdi. Babək, yanında olan

beş nəfərlə oraya getdi. Onların üçü kişi, ikisi qadın idi. Onlardan biri-Babəkin qardaşı Abdullah, ikincisi-baş sərkərdəsi Müaviyə və üçüncüsü isə Babəkin qulamı idi. Qadınlardan biri-anası, ikincisi isə arvadı idi ki, ona Doxtəri-Kəldaniyə deyərdilər.

Ertəsi gün Babəkin qaçıb getdiyi xəbəri Əfşinə çatdı. O bütün atlı qoşunla qalaya girib kimsəni tapmadı. Onun əmri üzrə qalanı dağıdıb yer ilə yeksan etdilər. Əfşin qoşununu orada yerləşdirib, Babəki axtarmağa başladı. Nəhayət, izini həmin meşədə tapdı. O, Əbudüləfə bir dəstə qoşunla onun dalınca getməsini əmr etdi. Əbudüləf o günü axşamadək və bütün gecəni gəzib axtardı və geriyə qayıdaraq meşəyə girmək mümkün olmadığını söylədi. Əfşin o meşəyə də qoşun göndərdi. Orada dağlarda yaşayan bəzi torpaq sahiblərinə ayrı-ayrı məktub yazdı. Məktubda deyilirdi: «Babək oradan (qaladan) qaçmışdır. Yolu sizə tərəfdir. Hər kəs onu tutsa və ya başını mənə gətirsə, əmir-əl-möminin verəcəyi mükafatdan başqa, ona yüz min dirhəm pul və xələt verəcəyəm». Mülkədarlardan biri Əfşinə məktub yazaraq, ona meşədə atla gedilə biləcək bir yol göstərdi.

Əfşin bir nəfər sərkərdə göndərdi. Sərkərdə gedib qoşunu meşənin ətrafında dayandırdı. Babəki meşədə mühasirə etdi. Yollara iki yüz, beş yüz nəfərlik gözətçi dəstələri təyin etdi. Beləliklə də yolları möhkəm bağladı. Adam göndərib qoşun üçün azuqə və ot gətirdi. Babəkin azuqə və yem ehtiyatı çox idi. Buna görə orada qalıb gözləyirdi.

İki gündən sonra Mötəsim tərəfindən göndərilən aman kağızını gətirdilər. Qayda belə idi ki, aman sənədi əmir-əl-mömininin öz möhürü və imzası ilə olmalı idi. Onun möhürü qızıldan idi. Gətirilən bu aman kağızı da əmirin öz möhürü və imzası ilə idi.

Əfşin buna sevindi. Əsir aldığı Babəkin oğlunu yanına çağırıb dedi: «Mən əmir-əl-mömininindən bunu gözləmirdim, indi bunu al və mənim adamımla atanın yanına get».

Babəkin oğlu dedi: «Mən atamın yanına gedə bilmərəm, o məni harada görsə öldürər, çünki özümü sizə əsir etmişəm, halbuki o mənə, əsir duşəcəyin yerdə özünü öldür,-demişdi».



İş belə olduqda Əfşin başqa əsirləri çağırıb dedi: «Mənim və əmir-əl-mömininin bu məktubunu Babəkə kim çatdıra bilər? Hamısı bir səslə dedi: «Biz apara bilmərik».

Əfşin soruşdu: «Nə üçün apara bilməzsiniz, o ki bunu alcaq sevinəcəkdir».

Onlar dedilər: «Ey əmir! Siz onu tanımayırsınız, biz yaxşı tanıyırıq».

Əfşin dedi: «Başqa çarə yoxdur, aparmaq lazımdır». O, iki nəfər adam göndərdi. Onların biri əsirlərdən, digəri isə öz adamı idi. O eyni zamanda Babəkin oğluna dedi: «Sən də öz dilindən məktub yaz». Oğlu məktub yazdı.

Əfşin öz məktubunda belə yazmışdı: «Sənə göndərilən bu məktub əmir-əl-mömininindəndir. Üzə çıxmağın həm sənin, həm də bizim xeyrimizədir».

O iki nəfər meşəyə girib Babəkin yanına yetişdilər. Əsir kişi Babəkin oğlunun məktubunu ona təqdim etdi. Babək məktubu oxuyub atdı və dedi: O mənim oğlum deyildir, mənim oğlum olsaydı, əsir düşməzdi. Sonra üzünu məktub gətirən şəxsə tutub dedi:

- Ey it! Sən kimsən ki, o itin məktubunu mənə gətirmişsən! O, yerindən qalxıb o adamı öz əli ilə öldürdü.

İkinci adam əmir-əl-mömininin məktubunu ona təqdim etdi. O, məktubu alıb açdı və oxuduqdan sonra dedi: «Bunu Əfşinə aparıb deyərsən: belə şeylər sənə lazım olar, mənə yox».

O adam Əfşinin yanına qayıtdı və aman kağızını da özu ilə qaytarıb gətirdi. Babək orada bir müddət qaldı. Qoşunun tutduğu yolların birində əsla su yox idi. Buna görə də qoşun dəstəsi orada qala bilməyib, yolun ağzında bir neçə nəfər bələdçi qoyaraq bir qədər uzaqda olan başqa bir yerə köçüb getmişdi.

Beləliklə, on gün keçdi. Babək daim bələdçiləri güdürdü. Bir gün günorta zamanı bələdçiləri yuxu apardı. Babək onların yuxuladığını görüb həmin beş nəfərlə meşədən çıxdı. Bələdçilər Babəkin getdiyini görcək, qoşuna xəbər verib dedilər: Buradan beş nəfər atlı çıxıb getdi. Üç nəfəri kişi, iki nəfəri isə qadın idi. Ancaq kim olduqlarını tanımadıq. O yolla təyin olunan butun qoşun əhli durub atlarını mindilər. Onların başçısı Əfşinin yaxın

qohumu Divdad Əbu Sac idi. Onlar beş nəfər atlının ardınca getdilər. Babək isə oradan bir ağac uzaqlaşdıqdan sonra bir bulaq başına çatıb, xörək yemək üçün atdan düşdü. Bu arada qoşun gəlib çatdı. Babək qoşunu görcək, atına minib çapdı. Qardaşı ilə qulamı da onunla idilər.

Baş sərkərdə bir az gec atlandı. Onu o iki qadınla tutub Əfşinin yanına göndərdilər. Özləri isə Babəkin dalınca gedib, dağların arasında, atlı və qoşun keçə bilməyən bir yerə çatdılar. Qoşun geri qayıtdı. Babək isə o dağların arasında qaldı. O gün onun yeməyə bir şeyi yox idi. Yerli mülkədarlar onun bir yerdən çıxacağı umidi ilə yollara gözətçi qoymuşdular.

Ertəsi gün Babək acdığından bir dağın üstünə çıxaraq, dar dərələrin xaricində bir kənd gördü. O kəndin sahibi Səhl ibn-Sunbat adlı bir mülkədar idi. Səhl Babəkin köməkçilərindən olub, onun məsləkini qəbul etmişdi. Əfşin ona məktub yazıb Babəki tutmağı ondan tələb etmişdi. Babək o kəndi nəzərdən keçirdikdə gördü ki, bir nəfər tarlada öküzü qabağına qatıb aparmaqdadır.

Babək qulama dedi: «Al bu pulu, o adamın yanına get, çörəyi olarsa, istədiyi qədər pul verib çörək al gətir».

Qulam o adamın yanına gedib çörək istədi. O isə, çörəyim yoxdur-dedi. Qulam kəndə girib, əhalidən satın çörək istədi. Bir nəfər ona çörək satdı. Qulam oradaca oturub çörək yeməyə başladı. Çörəyin bir qədərini özü yeyib, qalanını isə Babəkə aparmaq fikrindəydi.

O adamın bir dağarcığı var idi, ona yumurta doldurardı, yaraqlı, qılınclı qulamın dağarcığı üstündə oturub çörək yediyini gördükdə qorxusundan ona yanaşmadı, qaçıb mülkədar Səhlə xəbər verdi. Səhl dərhal ata minib gəldi. Qulamı görüb, Babəkin adamlarından olduğunu bildi. Qulam da onu tanıdı.

Səhl ondan soruşdu: Babək haradadır? Dedi:-Odur, dağların arasındadır. Soruşdu:-Yanında kim var? Dedi:-Qardaşı. Dedi: - Tez ol, məni onun yanına apar.

Qulam Səhli Babəkin yanına apardı. Səhl Babəki görcək, atdan düşdü, onun əl-ayaqını öpüb dedi: -Tək başına haraya gedirsən. Dedi:-Rum ölkəsinə, Rum hökmdarının yanına gedirəm.



Onunla əhdi-peymanım var, yanına getsəm, qəbul edib kömək verər. Səhl dedi:-O səninlə əhdi-peyman bağlayanda sən hökmdar idin. Səni bu gün bu halda görərsə, əhdinə vəfa edərmi? Babək dedi:-Ola bilsin ki, sən doğru deyirsən. Lakin çarəmiz nədir. Dedi:-Mən əminəm ki, nəsihətimdən, məsləhətlərimdən zərər görməyəcəksən. Özün bilirsən ki, mənim qalam kimi möhkəm qala yoxdur. Sultanın da mənimlə işi olmaz. O məni heç tanımayır. Gəl gedək mənim qalama, bu qışı orada qal, görək sonra nə tədbir edərik. Mən canımı, malımı sənə qurban edərəm. Sənin itaətində olan bütün bu mülkədarlardan kömək istərəm. Biz sənin üçün Rum qoşunundan daha əlverişli olarıq.

Babək: - doğru deyirsən,- dedi. Qardaşı və qulamı ilə ata minərək, dağlardan enib Səhlin qalasına gəldi. Səhl isə dərhal Əfşinin yanına adam göndərib, Babəki öz qalasına gətirdiyini və adam göndərərsə, onu təslim edəcəyini xəbər verdi.

Əfşin sevindi, yanına bir nəfər Babəki tanıyan adam çağırdı, Babək isə onu görməmişdi. Əfşin o adama dedi: - Get gör, o Babəkdirmi?

O adam Əfşinin məktubunu gətirib Səhlə verdi. Səhl dedi:- O, yad adam görsə, buradan çıxıb gedər, daha mən onu geri qaytara bilmərəm, hətta özünü öldürə bilər. Yaxşısı budur ki, o, evdə oturduğu zaman sən aşpaz paltarı geyib bir qab xörək gətirəsən və beləliklə də onu görəsən. O sənin kim olduğunu soruşduqda, mənim aşpazımdır,-deyərəm. Sən də elə deyərsən.

O adam Səhlin dediyi kimi etdi. Bu adam Xorasanın İsrövşənə şəhərindən idi.

Babək onu görcək soruşdu: -Bu kimdir? Səhl dedi:-Bu xorasanlıdır, özü də çoxdan bəri bizdə aşpazdır. Babək:-Neçə ildir buradadır?-deyə soruşdu.

Dedi: Çoxdandır, burada evlənmiş, özünə ev-eşik düzəltmişdir. Demək olar ki, elə buralıdır. Babək dedi:-Doğru deyirsən. İnsan harada evlənərsə, oralı olar.

Xörək yeyildikdən sonra o adam Əfşinin yanına gəlib dedi:- özüdur ki, var, Babəkdir.

Bu söhbətdən sonra Babək Səhlə dedi: mənim qardaşım

Abdullahı burada saxla, əgər bilsələr, ikimizi də tutmasınlar, heç olmazsa, birimiz sağ qalaq.

Səhl Abdullahı ibn İstefanus adlı başqa bir mülkədarın yanına göndərdi.

Əfşin iki sərhəng ilə iki min döyüşçü göndərdi. Onların biri Əbu Səid ibn-Məhəmməd ibn-Yusif, digəri isə Buzbarə idi. Əfşin onlara dedi: - Gediniz, Səhlin sizə buyuracağını yerinə yetiriniz. Ancaq elə edin ki, Babəki diri tutub mənim yanıma gətirəsiniz.

Onlar gəlib Səhlin qalasının bir ağaclığında düşərək, Səhlə xəbər göndərdilər.

Səhl dedi: - onu evimdə sizə təslim etmək istəmirəm. Çünki Əfşin onu öldürə bilməzsə, onda o bizim başımıza bəla açar, məndən acığını çıxar. Yaxşısı budur ki, mən onu şikara çıxarmaq bəhanəsilə filan dağın arasına aparım və sizə xəbər göndərim. Bir sərkərdə öz qoşunu ilə bir tərəfdən, digəri isə o biri tərəfdən gələr. O zaman mən deyərəm ki, Əfşinin bu qoşunu haradansa xəbər tutub bizə hücum edir. Beləliklə, o sizi mən gətirdiyimi bilməyəcək.

Onlar razı oldular. Ertəsi gün səhər çağı Səhl Babəkə dedi:- Gözümə yorğun və kədərli görünürsən, bu yaxınlıqda ovlaq vardır. Mənim parsım,[1] qızıl quşum var, arzu edirsənsə, bir qədər seyrə çıxaq, ürəyin açılsın.

Bu söhbətdən sonra Babək atını mindi. Səhl onu vədələşdiyi yerə gətirdi. Onlar ov etməyə başladılar. Bu zaman o, sərkərdələrin yanına adam göndərdi. Onlar hərəsi bir tərəfdən dağın üstünə çıxdılar. Babəkin əlində qızıl quş var idi. Onları görcək, qoşunun gəldiyini anladı. Qızıl quşu əlindən buraxdı, atdan duşüb yerə oturdu. Hər iki sərkərdə gəlib onu tutdu.

Babək Səhli söyərək dedi:-Məni bu yəhudilərə ucuz satdın. Sonra onu Əfşinin yanına gətirdilər. Əfşinin əmri üzrə onun əl-qolunu bağlayıb müvəkkillərə tapşırdılar. O gün 222-ci (836-837) il şəvval ayının 17-si idi. Sonra adam göndərib Babəkin qardaşını gətirdi. O, İsa ibn-Yusif ibn-İstefanus adlı bir mülkədarın yanında idi...».

---

[1] *Pars, bars*—ov üçün bəslənmiş pişik cinsli heyvandır



Əbu Hənifə Dinəvəri «Əxbar-ət-tival» adlı əsərində Əfşinin müharibəyə başlaması və Babəkin həmin müharibədən qaçıb Mötəsim qoşununun əlinə (222-ci (836-837) il şaban ayının 27-də, çərşənbə axşamı) keçdiyini qeyd edərək yazır: «Ramazanın birində Bəzz qalasını mancanaq ilə mühasirə etdilər. Cümə axşamı ramazanın 23-də Əfşin Babəkin yanına adam göndərərək sülh təklif etdi. Babək Musa-əl-Əqtə adlı bir nəfəri onun yanına göndərdi. Babəkin bu elçisi Əfşin ilə Babəkin bilavasitə danışıq aparmalarını təklif etdi. Əfşin bunu qəbul etdi. Onlar çöldə bir-birilə görüşdülər. Axırda Bəzz şəhərini işğal edən zaman şəhərin məhəllə və küçələrində Babəkin qardaşı Abdullahın qoşunu ilə vuruşdular. O gün hava son dərəcə isti idi. Küçə vuruşmalarından sonra Babək məğlub oldu. O zaman Araz çayı nahiyəsinin sahibi Səhl ibn-Sunbat idi. Babəki tutmaq haqqında Əfşin erməni mülkədarlarına, pəhləvanlarına və petriklərinə yazmışdı. Səhl Babəkin yanına gələndə o, paltarını dəyişmişdi. Buna baxmayaraq, Səhl onu tanıdı».

Həmdullah Mustovfi «Tarixi-qozidə» adlı əsərində yazır: «Mötəsim qabaqca İshaq ibn-İbrahim ibn-Müsəbi Babəkin müharibəsinə göndərdi. O, bu işin öhdəsindən gələ bilmədiyi üçün kömək istədi. Mötəsim Əfşini İshaqın köməyinə göndərdi». (Müəllif) Həmədanda öldürülən xürrəmilərin sayını qırx min göstərmişdir.

Yuxarıda qeyd olunduğu kimi, «Rövzət-əs-səfa» əsərinin müəllifi bu müharibədə qırılanların miqdarını altmış min yazmış və sonra Babəkin məğlubiyyətinin səbəbini belə izah etmişdir: Babək ilə yoldaşları petrik Səhl ibn-Sunbatın qalasına çatdıqda bir suyun kənarında oturdular. Onlar bir sürü görüb çobanından bir qoyun satın aldılar. Çoban dərhal Səhlin yanına gedib ona xəbər verdi ki, bir dəstə adam filan yerdə oturmuşdur. Səhl dedi:- Şübhəsiz, onlar Babəkin adamlarıdır. O, atına minib bir neçə nəfərlə o tərəfə yola düşdü. Səhl uzaqdan Babəki görcək atdan düşdü və ona yaxınlaşıb dedi: «Əmin ol ki, öz evinə gəlmişsən, xahiş edirəm qalaya gəlib, şahlıq sarayında hökmranlıq edəsən...». Babək yoldaşları ilə o qalaya getdi. Səhl ona olduqca hörmət

etdi. Babəkin yoldaşlarına da münasib bir ev verdi. Babəki taxta oturdub, özü onun qulluğunda durdu. Yemək hazır olduqda onunla süfrə başında oturdu. Babək özünə məxsus qürur və təkəbbürlə ona acıqlanıb dedi:-Sən nəçisən ki, mənimlə bir süfrə başında oturubsan. Səhl süfrənin başından durub, üzr istədi. Babək xörəyi yeyib qurtardıqdan sonra, Səhl bir nəfər dəmirçi çağırtdırdı və onun ayaqlarına buxov vurdurdu. Babək özündən çıxdı. Səhl onu söydü. Sonra yoldaşlarının da əl-ayağını bağlatdırıb, Əfşinə xəbər göndərdi. Babəklə Səhli onun yanına gətirdilər. Əfşin Səhlə yaxşılıqlar edib ona xələt verdi və onun torpaqlarını vergidən azad etdi. Göyərçinin qanadına bir məktub bağlayıb Mötəsimə müjdə göndərdi.

Mirxond «Xülasət-əl-əxbar» və «Həbib-əs-siyər» adlı əsərlərində Əfşinin Azərbaycana gəlməsini yuxarıda dediyimiz kimi, 220-ci (835) il cəmadi-əl-axir ayının əvvəllərində olduğunu qeyd edir. O, Səhl ibn-Sunbatı və ya Sunbadı rumlu hesab edərək, «Rövzət-əs-səfa»nın dediklərini təkrar etmiş və mətləbin axırına Babəkin öldürülməsi hadisəsini artırmışdır.

Məsudi, yuxarıda qeyd edildiyi kimi, «Müruc-əz-zəhəb» adlı əsərində deyir: «Babək qardaşı, oğulları, ailəsi və yaxın adamları ilə birlikdə, tanınmaz bir şəkildə, sövdəgər və müsafir paltarında Bəzz şəhərindən çıxıb qaçdı. O, bir suyun kənarına çatıb, bir çobandan bir qoyun satın aldı. Babək qoyunun dəyərindən artıq verdiyi üçün çoban Səhlin yanına gedərək dedi: Qoyun satdığım adam Babəkdir».

Sonra yenə o yazır: «Əfşin qalalarda, kəndlərdə, Azərbaycan, İran və Beyləqan şəhərlərində yaşayan petriklərə məktub yazıb, Babəki tutmağı tapşırıb, onlara mükafat verəcəyini vəd etmişdi». Sonra Səhlin Babək ilə bir süfrə başında xörək yeməsi, onun ayağının buxovlanması əhvalatını da qeyd edərək yazır: «Əfşin Buzbarəni dörd min nəfər zirehli atlı ilə Babəki tutmağa göndərdi. Onu Səhl ibn-Sunbat ilə birlikdə Əfşinin yanına apardılar».

İbn-əl-Əbəri yazır: «Səhl ibn-Sunbat Babək haqqında məlumat aldıqdan sonra onu əsir etdi. Babək canını qurtarmaq üçün ona çoxlu mal-dövlət təklif etdi, lakin o qəbul etmədi.



Qazı Əhməd Qəffari «Nigaristan» adlı əsərində Babəkin 222-ci (836-837) il şəvval ayının 17-də tutulduğunu qeyd edir.

Məhəmməd Üvfi «Cəvami-əl-hekayət və ləvami-ər-rəvayət» adlı əsərində yazır: «Mötəsimin Babək fəsadını ortadan qaldırmaqdan başqa bir fikri yox idi. O, Babəklə müharibə etməyi Əfşin ibn-Kavusa tapşırdı. Azərbaycan və Cibal ölkələrini büsbütün ona verdi, ona həddindən artıq hörmət edib başqa şahlara nisbətən onu üstün tutdu, döyüşə çıxan gün üçün on min dirhəm, vuruşmayan günləri üçün isə beş min dirhəm verəcəyini vəd etdi. Bundan başqa Babəkin müharibəsinə gedən gün ona min min dirhəm bəxşiş verdi. Əfşin bir il ərzində neçə dəfə Babəklə vuruşdu və onu məğlub etdi. Babək olduqca möhkəm olan bir qalaya pənah apardı. Əcəli yetən zaman o qaladan qaçıb, arvad-uşağı ilə birlikdə tacir paltarında dağlara getdi. Səhl ibn-Sunbat adlı bir xristian onu görüb tanıdı. Xristian olmağına baxmayaraq, vaxtilə Babəkə əsir düşmüş və çoxlu pul verdikdən sonra özünü onun əlindən qurtarmışdı.

Mötəsim onu diri tutub gətirənə on min dirhəm, başını kəsib gətirənə isə min dirhəm verəcəyini vəd etmişdi. Səhl Babəki diri tutub Əfşinin yanına göndərdikdən sonra xristian olduğuna görə ona iki min dirhəm göndərdi...».

Mötəsimin qoşunlarına qarşı Babəkin apardığı müharibələr, yuxarılarda şərh etdiyim kimi, 220-ci (835) ildən 222-ci (836-837) ilə qədər davam etmişdir. 220-ci ildə Məhəmməd ibn-Yusif Ərdəbil ilə Zəncan arasında Babək tərəfindən viran edilmiş şəhərləri bərpa etmək üçün Azərbaycana göndərildi. Onunla Babək arasında üç dəfə müharibə oldu. O, bir neçə dəfə Babəklə üz-üzə gələrək vuruşduqdan sonra Mötəsimdən kömək istədi, Mötəsim Böyük Buğanı çoxlu mal və pul ilə onun köməyinə göndərdi. Həmin ildə də Həştadsər nahiyəsində Babəkin döyüşçülərilə Buğa arasında müharibə oldu. Buğa məğlub olub, bütün var-yoxu qarət edildi. Sonra Babək, Əfşin tərəfindən məğlub edilərək Muğana qaçdı. 221-ci (835-836) ildə Babək Buğa ilə vuruşub məğlub oldu. O, Bərzənddə Əfşinlə müharibə etdiyi zamanda da məğlub olub qaçdı. 222-ci (836-837) ildə Cəfər

Xəyyat böyük tədarük və qoşunla Əfşinin köməyinə getdi. Yenidən Babəkin qoşunu ilə Buğa arasında vuruşma başladı. Sonra türk İtax otuz min dirhəmlə qoşunun azuqə işinə təyin edilib, ikinci dəfə Bağdada qayıtdı.

Uzun-uzadı və ağır vuruşmalardan sonra Əfşin, nəhayət, Babəkin, zənnimizcə, Muğan ölkəsində, Arazın o tayında olan paytaxtı Bəzz şəhərini aldı. Babək qaçdı və Ərməniyyədə tutuldu.

**SƏHL SUMBAT OĞLU**

Babək xürrəmdinin o illərdə hökmranlıq etdiyi ölkə qərb tərəfdən Ərməniyyə ilə qonşu idi. Burada əvvəlki kimi ərəblər hökmranlıq edirdilər. Babək bir neçə dəfə ora hücum etmiş və buna görə də onun erməni əyanları ilə əlaqəsi var idi. Babək burada ərəb canişinlərinin üzərinə dəfələrlə hücum etmişdi, feodalların bir hissəsi xürrəmilərin üsyanına qoşulmuşdu. Buna görə də heç təəccüblü deyildir ki, erməni tarixçiləri onun haqqında bir para məlumatlar vermişlər. Miladi 1271, hicri 680-ci ildə vəfat etmiş keşiş Vardapet Vardan yaxud Vartan özündən əvvəlki alban məxəzlərindən istifadə edərək, yazdığı «Ümumi tarix» kitabında Babək haqqında bəzi məlumatlar vermişdir.

Onlar «Babəkin adını bəzən «Bab, ya Baban», bəzən də «Babək» şəklində yazmışlar. O, miladi 826, hicri 211-ci ildə baş vermiş hadisələr haqqında belə yazır:

«Bu günlərdə Bağtat (Bağdad)dan çıxmış Bab adlı bir nəfər iranlı ismail irqinə (ermənilər o zaman ərəblərə ismaili və ya ismail irqli deyirdilər) mənsub olanların bir çoxunu qılıncdan keçirib, bir parasını da əsir tutub apardı. O özünü Cavidan (ölməz) hesab edirdi. İsmaililərlə etdiyi müharibələrin birində 30 min adam qırdı. O xeyli irəliləyib, böyükdən-kiçiyə qədər hamını qılıncdan keçirdi.

Məmun öldü. Qardaşı Əbusahak (Əbu İshaq Mötəsim) onun yerində oturdu. O, Əfşini bütün qüvvələri ilə birlikdə Babəkin davasına göndərdi. Əfşin İranın qərb rayonlarına qoşun yeridib, Babək qoşununu darmadağın etdi. Sunbatın oğlu Səhl, Babəki tutub, Əfşindən min-min çəki gümüş bəxşiş aldı. Bundan əlavə, ona yüz min başqa bir hədiyyə də verdi. Babəkin əl-ayağını kəsdikdən sonra dara çəkdilər».

Geğarkuni erməni dilində Sünik, Avropa istilahında Siyuni deyilən ölkədə bir nahiyənin adıdır. İranlılar ona Sisəkan və ya Sisan deyirdilər. Sünikin şimalında və şərqində Aran nahiyəsi var idi ki, Gəncə onun böyük şəhərlərindən biri hesab olunurdu. Sonra Bərdə şəhəri gəlir. Onun cənubunda Bazarçayın Araz çayına qovuşduğu yerdən Araz çayı axırdı. Qərb tərəfdən indiki Naxçıvan nahiyəsi yerləşmişdi. Şimaldan sərhədi Göyçə idi. Babək bu nahiyəni çalıb-çapdı və yerli əyanlardan birinin qızını aldı. Bizim dövrümüzə çatan məlumatlarda tarixçilər miladi 821-ci, hicri 206-cı ildə baş vermiş hadisələr sırasında qeyd etmişlər ki, Babəkin hökmranlıq dövrü də həmin bu ildə başlanmışdır.

Ərəblərin Lölöə adlandırdıqları həmin Lulva şəhəri 217-ci ildə, Məmun dövründə fəth olunmuşdur,

Miladi 1301, hicri 704-cü ildə vəfat etmiş Stefanis Orbelyan adlı başqa bir erməni tarixçisi miladi 827, hicri 212-ci ilin hadisələrini qeyd edərkən, xəlifə qoşunlarının hücumuna qarşı müqavimət göstərən Sünik əyanı haqqında belə yazır: «Sünik əyanı çoxlu qoşunla gedib Babəki Azərbaycandan çıxartmaq istədi, lakin özü elə həmin il öldü. Onu qızını alan Babək həmin ildə oranı fəth etdi. Əhali Babəkə tabe olmaq istəmədikdə Babək ağvalı Aplasadın köməy ilə oranı amansızcasına çalıb-çapdı, günahsız uşaqları və qadınları belə öldürdü. Onlar belə bir amansız qırğının müqabililində Məsihin əlindən tac almağa layiqdirlər. Bir il sonra Babək Geğarkuniyə gedərək orada on beş mini qılıncdan keçirtdi. Makenik din xadimlərinin əmlakını qarət edərək, imarətlərinə od vurub yandırdı. Lakin təhlükənin yaxınlaşdığından vaxtında xəbər tutmuş din xadimləri iki dəstəyə bölünərək qaçdılar» .

Ərməniyyədə baş verən hadisələr içərisində Babəkin adı da çəkilir. Sənədlərdən belə məlum olur ki, ərəblər Ərməniyyəni fəth etdikdən sonra ermənilər çox məşəqqət və əziyyət çəkdiklərinə görə Babəkin baş qaldırmasını özləri üçün bir növ qurtuluş yolu hesab etmişlər. Babək onların ümumi düşmənləri ilə

vuruşduğu üçün əvvəllər ona kömək edirdilər. Belə ki, 204-206-cı (819/20-821/22), 209-cu (824-825) illərdə xəlifələrin qoşlunlarına qarşı apardığı müharibədə ona dayaq olub kömək etmişlər. Onun xəlifə qoşunları ilə apardığı müharibələr Sünik yaxud Sisakan və Manaskertin müqəddəratında böyük təsir buraxmışdır. Birinci dəfə 206-cı (821-822) ildə Manaskert hakimi xəlifəyə qarşı üsyan edərək Ərməniyyəni başdan-başa, xüsusilə Sisakanı dağıdıb qana boyadı. Bu zaman onun qərargahı Şağat qalasında yerləşirdi. Sisakan hakimi Sevadə tərəfindən məğlub edildi. O, Babəkdən kömək istədi və onunla birləşib qızını ona verdi. Bu hadisədən bir qədər sonra o öldü. Babək Sisakana yiyələndi.

Babəkin bu nahiyəni ələ keçirməsi Ərməniyyəni heç də sevindirmədi. Əksinə, onların inciməsinə səbəb oldu. Onlar Babəkə qarşı üsyan etdikdə o, on beş min nəfəri qırdı, məşhur Makenutis və ya Makenik monastırını taladı. O, zamandan etibarən ermənilər Babəkdən üz çevirərək, Bağdad xəlifəsinin qoşunları ilə əlbir oldular. Babək məcbur olaraq Sisakanı tərk etdi. Babəkin istilasından qabaq bu vilayətin əmirləri arasında bir sıra toqquşmalar olmuş və ölkənin keçmiş əmirlərindən bəzisi Baqrat xanədanının rəqibi idilər. Lakin bu rəqiblər baş verən o vuruşmalarda məhv olub getmişdilər. Buna görə də Babək Sisakandan çəkilib getdikdən sonra, canlarını götürüb qaçmış Baqrat xanədanı üzvləri meydanı boş görüb, bu ölkəyə əl tapdılar və get-gedə bütün o yerlərə yiyələndilər. 210-cu (825-826) ildə Sisakanın qərbində hökmranlıq edən Sahak ata-baba yolu ilə gedərək, Sevadə Qeysi ilə birləşdi və xəlifələrə qarşı onunla əlbir oldu. Lakin çox keçmədi ki, onunla Sevadə arasında toqquşma başladı və bu müharibədə o, Zəngi çayının kənarında öldürüldü. Oğlu onun yerini tutdu. O, atasının yerində hökmranlıq etmişdir.

Erməni tarixçilərinin dediyinə görə, Babəkə hücum edərkən Məmun onun müharibəsinə yüz min döyüşçü göndərdi. Lakin Məmunun qoşunu məğlub olub otuz min nəfəri qırıldı.

Bu zaman Sunbat ərəblərlə birləşərək onlara kömək etməyə başladı. Yenidən Ağrı dağının yaxınlığında müharibə oldu. Bir çox vuruşmalardan və çoxlu tələfat verdikdən sonra Babək



qaçdı. Səhl ibn-Sunbat onu əsir edərək Əfşinin yanına apardı.

Həmin Səhl ibn-Sunbatı bu hadisədən qabaq tutub Bağdada girov aparmışdılar. Xuzeymə ibn-Xazim-ət-Təmimi ikinci dəfə hakim təyin edildikdən sonra 192-ci ildə işdən götürüldü. Havul xəlifə tərəfindən təyin olundu. Qoşunun sərkərdəliyi Bağdad dərbari tərəfindən Sunbata tapşırıldı. Ona istədiyi yerə getməyə icazə verildi.

Baxmayaraq ki, Sunbat Babəki tutub Əfşinə təhvil vermişdi, Əfşin Sunbatdan bərk incimişdi. O da bundan ibarət idi ki, Sunbat onun hərəm ağasını müxtəlif hədiyyələrlə aldadaraq öz tərəfinə çəkmiş və o da Əfşinin ixtiyarında olan bütün əsir qadınları qaçırdaraq Sunbata çatdırmışdı. Buna görə də Əfşin bəzi ermənilərin xahişi ilə onu öldürmək istəyirdi, lakin arzusuna çata bilməyib öldü.

## BABƏKİN SON GÜNLƏRİ

Yuxarıda bəzi məxəzlərdən gətirdiyim məlumatlardan göründüyü kimi, Əfşin Babəki tutub əsir etdikdən sonra onu özü ilə Samirəyə Mötəsimin yanına apardı və Babəki o şəhərdə öldürdülər.

Təbəri bu hadisədən bəhs edərkən yazır: «Əfşin onu (Babəkin qardaşı Abdullahı) tutmaq barədə Mötəsimə məktub yazdı. Mötəsim isə hər ikisini (Babəki və qardaşını) gətirmək haqqında əmr verdi. Əfşin qayıtdı və 222-ci (837-838) ildə cümə axşamı səfər ayının 3-də onları Samirəyə gətirdi. Əfşin, Babəki həbsə aldı. Samirəyə qayıtdığı zaman ona hər gün hər mənzildə əmir-əl-mömінindən xələt gətirirdilər, Samirəyə çatdıqda Əfşin Babəki öz evinə apardı. Bazar ertəsi günü Mötəsim qonaqlıq verdi, bütün qoşunu çağırıb məclis bəzədi. Onun əmri üzrə Babəki filin üstündə oturdub, Əfşinin sarayından Mötəsimin sarayına gətirdilər. Beləliklə də hamı onu gördü. Babəki fildən endirib Mötəsimin hüzuruna gətirdilər. Sonra cəlladı çağırdılar. Cəllad onun əl-ayağını kəsdi. Sonra başını kəsib qarnını yardı. Bədənini Samirədə dardan asdılar. Başını bütün islam şəhərlərində gəzdirdikdən sonra Nişabura Abdullah Tahirə göndərdilər. O da onu dardan asdı. Qardaşını Bağdad əmiri İshaqın yanına

göndərdilər. Mötəsim Babəki necə öldürmüşdüsə onu da orada eləcə öldürdülər və Bağdad körpüsü üstündə dara çəkdilər.

Babəkin Nudnud adlı bir cəlladı var idi. Əfşin onu da başqaları ilə birlikdə əsir etmişdi. Mötəsimin əmrinə görə, həmin cəllad Babəki öldürdü. Sonra onu Babəkin qardaşını öldürmək üçün Bağdada göndərdilər. Sonra Mötəsim ondan soruşdu: Babək bu iyirmi ilin ərzində sənin əlinlə neçə nəfər öldürmüşdür. Dedi: Mənim əlim ilə qırılanların sayı iki yüz əlli beş min beş yüz nəfərdir.

Mötəsim əmr etdi, onu da öldürdülər.

Əfşin üç min üç yüz doqquz nəfər əsir gətirmişdi. Mötəsimin əmri üzrə islam dinini təbul etməyi onlara təklif etdilər.

Qəbul edib Babəkin məsləkindən əl çəkənləri azad edir, qəbul etməyənləri isə öldürürdülər.

Əfşin Babəkin qalasına girdiyi gün orada Babək tərəfindən əsir edilmiş min üç yüz nəfər müsəlmana rast gəldi. Əfşin onların hamısına xərclik verib öz yerlərinə göndərdi. Samirəyə gətirilmiş əsirlərin içərisində yeddi kiçik yaşlı oğlan və üç qız uşağı var idi. Bunlar əsir gətirilmiş qadınların (Babəkdən olan) uşaqları idi. Onları Mötəsimin hüzuruna gətirdilər. Mötəsim o qadınlardan evlərinin harada olduğunu soruşdu. Onlar öz yerlərinin adını dedilər. Mötəsim onları öz evlərinə göndərdi, Babəkin uşaqlarını isə öldürmək istədi. Əhməd ibn-Əbi Davud qazi orada idi. O dedi:-Onlara ölüm düşməz.

Mötəsim uşaqları analarına qaytardı. Sonra Mötəsim orada onların çiyninə öz paltarlarından xələt saldı. Yeddi baş yəhərlənmiş at gətirtdirib hər atın iki qabaq əllərinə cəvahirə tutulmuş qolbağılar taxdırdı. Birinin üstünə cəvahirə tutulmuş bir tac qoydu ki, onun qiymətini ancaq allah bilər. Bundan əlavə, atlara iyirmi min dirhəm yükləyib Əfşinin evinə göndərdi.

Əfşin dedi: Mən Babəki tutan mülkədar Səhlə yüz min dirhəm vəd vermişəm. Mötəsim dedi:-Onu mən özüm göndərərəm. Bundan sonra Mötəsim Səhl üçün min dinar, yüz min dirhəm və yaxşı xələt göndərdi. Babəkin qardaşını tutan İsaya da bir qədər dinar, dirhəm göndərdi. Eyni zamanda o nahiyələrdə yaşayan



mülkədarlara xələt bağışlayıb nəvaziş etdi və bir çox vədlər verdi.

Əfşin Babəkin özü və qardaşı ilə birlikdə Bərzənddən çıxıb Mötəsimin yanına Samirəyə gələn günə qədər xəlifə ona hər gün at və xələt göndərirdi. Mötəsim Babək məsələsilə o dərəcədə maraqlanırdı ki, yolları qorumaq, qar və şaxtanın ziyanını ortadan qaldırmaq üçün yollara Samirədən tutmuş Hulzan yalına qədər atlı və piyada hissələri təyin etdi. Hər bir ağacda yəhərli bir at saxlanırdı. Onlar xəbərləri bir-birinə çatdırır, sonra Mötəsimə yetirirdilər. Hulzanla Azərbaycan arasında olan mənzillərin hər bir aqaclığında minik və yük heyvanları saxlayırdılar. Hər gün, ya iki gündən bir bu heyvanları dəyişdirirdilər. Hər bir ağaclıqda bir qulluqçu durur və onların gəlməsi xəbərini eşitcək səslə digər qulluqçuya çatdırırdı. Beləliklə, hər ağacdan gecə-gündüz arası kəsilmədən Mötəsimə məlumat verilirdi.

Əfşin həziqə körpülərinə çatdıqda Mötəsimin oğlu Harun və xanədanının üzvləri onu qarşılamağa getdilər. Əfşin Samirəyə çatdıqda Babəki Mətirədə öz qəsrində düşürdü. Gecə Əhməd ibn-Əbi Davudun yanına getdi və tanışlıq vermədən onunla söhbət edərək Mötəsimin yanına qayıtdı və Babəkin xüsusiyyətləri haqqında ona məlumat verdi. Mötəsim dözə bilmədi, atına minib yad bir adam kimi oraya gedərək, Babəki gördu. Ertəsi gün bazar ertəsi, ya cümə axşamı idi. Şəhər əhalisi Bab-əl-ammədən tutmuş Mətirəyədək toplandı. Mötəsim istəyirdi ki, hamı onu görsün. Bu barədə yaxın adamları ilə məsləhətləşdi. Həzzam dedi: Fil ilə gətirsək, yaxşı olar. Bir fil hazırladılar. Babəkə qumaş paltar geydirib filə mindirdilər. Məhəmməd ibn-Əbd-ül-Məlik əl-Ziyat aşağıdakı iki beyti qoşdu:

Filin əl-ayağı, adəti üzrə, boyandı,
O Xorasan şeytanını apardı.
Fil heç vaxt öz bədənini bəzəməz.
O, yalnız üstünə başqalarından daha şövkətli
bir adam minəndə bəzənər.

Bu şeiri camaata öyrətmişdilər. Camaat filin dalınca gedərək bu şeiri oxuyur, əl çalır və oynayırdı.

Babəki Bab-əl-amməyə Mötəsimin hüzuruna apardıqda o, əmr verdi ki, Babəkin cəlladını çağırsınlar. Xəlifənin qapıçısı Bab-ül-ammədən çıxaraq «Nudnud» deyə səslədi. Bu, Babəkin cəlladının adı idi. Hər tərəfdən «Nudnud» səsi ucaldı. Nudnudu Bab-əl-amməyə gətirdilər.

Mötəsim ona əmr etdi ki, Babəkin əlləri və ayaqlarını kəs-sin. O, ayaq üstündə dura bilməyib yıxıldı. Sonra əmr verdi ki, başını kəsib qarnını yırtsın. Bundan sonra Mötəsim onun başını Xorasana göndərdi. Bədənini isə Samirədə şəhər yoxuşluğunun yaxınlığında dara çəkdilər. Bu yer Samirədə məruf idi. Onun qardaşı Abdullahı da ibn-Şərvin Təbəri vasitəsilə Bağdada, İshaq ibn-İbrahimə göndərərək, göstəriş verdi ki, onun boynunu vurdursun. Babəkin başına gətiriləni onun haqqında da etsin.

İbn-Şərvin Təbəri «Bərdana» yetişib Abdullahı Bərdan qəsrinə apardı. Abdullah İbn-Şərvindən soruşdu:-Sən haralısan? Dedi: Təbəristandanam. Abdullah dedi:-Tanrıya şükürlər olsun ki, məni öldürməyə dehqanlardan[1] birini təyin etmişdir.

İbn-Şərvin Babəki öldürən Nudnudu ona göstərərək dedi:-Səni öldürməyi bu kişiyə tapşırmışlar.

Sonra o, Abdullahdan soruşdu:-Bir şey yeyəcəksənmi?

Dedi:-Mənə sucuq gətirin. Gecə yarısı ona sucuq gətirdilər.

O doyunca yedikdən sonra şərab istədi. Dörd rətl[2] şərab gətirdilər. O, səhərə qədər oturub şərab içdi. Səhər yola düşərək Bağdada çatdılar. Onu Rəs-əl-Cisrə[3] apardılar. İshaq ibn-İbrahim onun ayağının kəsilməsini əmr etdi. Abdullah heç səsini də çıxartmadı. Sonra İshaq ibn-İbrahimin əmri üzrə onu Bağdadın şərq hissəsində iki körpü arasında dardan asdılar».

Tovq ibn-Əhmədin dilindən belə nəql edirdilər: Babək qaçıb Səhl ibn-Sunbatın yanına getdikdən sonra Əfşin Əbu Səid və Buzbarəni onu tutmaq üçün göndərdi. Səhl onu öz oğlu Müaviyə ilə Əfşinin yanına göndərdi. Əfşin də Müaviyəyə yüz min

[1] *Dehqan*—VIII əsrdən başlayaraq XII əsrin axırlarına qədər İranda, Orta Asiyada, Azərbaycanda yaşayan kiçik muxtar mülkədar və yer sahiblərinə deyirdilər.
[2] *Rətl*—təqribən 500 qramdır.—*Red.*
[3] *Rəs-əl-Cisr*—Bağdad şəhərinin ən böyük körpüsü—*Red,*



dirhəm, Səhlə isə min dirhəm verdi və onun üçün Mötəsimdən cəvahirə tutulmuş bir boyunbağı və petriklik tacı aldı. Səhl bu səbəbə görə petrik oldu. Babəkin qardaşı Abdullahı öz evində qonaq saxlayan adam Beyləqan padşahının bacısı oğlu İsa ibn-Yusif idi.

Məhəmməd ibn-İmran Katib Əli ibn-Mərrin dilindən nəql edirlər ki, Əbülhəsən Əli ibn-Murr ilə Mətər adlı bir dilənçi arasında belə bir söhbət olmuşdur: Mətər:-Ey Əbülhəsən, allaha and olsun, Babək mənim oğlumdur. Əbülhəsən:-Necə? Mətər:-İbn-Rəvvad ilə bir yerdə idik. Onun anası Bərumid tayköz bir qadın idi. O, İbn-Rəvvada qulluq edər, mənə də baxardı, mənim paltarlarımı yuyardı. Bir gün ona gözüm düşdü. Müsafir və qərib bir adam olduğumdan onunla yaxınlıq etdim. Sonra mən bir müddət ondan uzaqlaşdım... Bir gün yanıma gələrək dedi:- Sən mənimlə yaxınlıq etdikdən sonra bu oğlan oldu. Babək mənim oğlumdur.

Xəlifə Əfşini Babəkə qarşı müharibə etməyə göndərəndə ona azuqə və donluqdan başqa, hər bir müharibə etdiyi gün üçün on min, döyüşmədiyi gün üçün isə beş min dirhəm verəcəyini vəd etmişdi. Babəkin iyirmi il müddətində öldürdüyü adamların sayı iki yüz əlli beş min nəfər idi. Babək Yəhyə ibn-Məazı, İsa ibn-Məhəmməd ibn-Əbi Xəlidi, Zəriq ibn-Sədəqəni, Məhəmməd ibn-Həmid Tusini və İbrahim ibn-Leysi məğlub etdi. Əhməd ibn-Cüneydi əsir tutdu. Sonra Babək üç min üç yüz doqquz nəfərlə bir yerdə əsir edildi. Onlardan başqa, yeddi min altı yüz nəfər müsəlman qadını və uşaq Babəkə əsir düşmüşdülər. Babəkin ailəsindən Əfşinin əlinə düşənlərin sayı on yeddi kişi və iyirmi üç qadın və qız tayfası idi. Mötəsim Əfşinin başına tac qoydu, ona cəvahirə tutulmuş iki boyunbağı və iyirmi min min dirhəm bağışladı. Bundan əlavə on min min dirhəm onun döyüşçülərinə payladı. Şairlər Əfşinin yanına gedərək onu mədh edib şeirlər yazırdılar. O da şairlərə mükafat verirdi. Onlardan biri Əbu Təmmam Tai idi ki, öz qəsidəsində Əfşini mədh etmişdi. Bu hadisə cümə axşamı günü, rəbi-əl-axir ayının qurtarmasına on üç gün qalmış üz verdi.

Məhəmməd Üvfi «Cəvami-əl-hekayət və ləvami ər-rəvayət» adlı əsərində Babəkin öldürülməsi haqqında belə yazır: «Əfşin

Babəki Mötəsimin yanına göndərdi. Mötəsim əmr verdi, onun hər iki əl-ayağını kəsdilər və başını 226-cı ildə (?) Bağdada aparıb, körpü üstündə asdılar. Bəziləri belə rəvayət edirdilər ki, guya, onun əlini kəsdikdən sonra o, üzünü qanı ilə boyadı və «Asanya» (asandır) deyib güldü. O, camaata göstərmək istəyirdi ki, bu yara ona heç bir əsər etməmiş və ruhu belə inciməmişdir. Bu böyük bir qələbə idi. Onun tutulduğu gün, yəni 123-cü (740-741) il ramazan ayının 14-ü, cümə günü müsəlmanlar üçün böyük bir bayram idi.

Mötəsim Əfşini irəli çəkdi, rütbəsini göylərə qaldırdı, ona cəvahirə tutulmuş tac və don, yəhəri cəvahirlə bəzənmiş iki at və iyirmi min min dirhəm pul bağışladı. Lakin o, bu qədər mərhəmət və kəramətin müqabilində öz nacinsliyini biruzə verdi. Ərəblərdə məsəldir, deyirlər: «İnsan özünü zəngin gördükdə qudurar».

Əfşin Mötəsimə qarşı üsyan qaldırmaq və İran şahlarının hakimiyyətini bərpa etmək istəyirdi. Onu tutub asdılar. O, sünnət olunmamışdı, evindən bütlər tapıldı».

Aydındır ki, Məhəmməd Üvfinin burada göstərdiyi hər iki tarix, yəni Babəkin 226-cı ildə öldürülməsi, 123-cü (740-741) ildə Bağdada gətirilməsi yanlışdır. Bizcə, 223-cü (837-838) il olmalıdır.

Bu hadisəni «Cəvami-əl-hekayət» əsərində olduğu kimi nəql edən «Zinət-əl-məcalis» əsərinin müəllifi Babək özünü qana boyayan vaxt dediyi sözü «zəhi asani» (nə qədər asandır) şəklində yazmışdır.

Yenə də Məhəmməd Üvfi «Cəvami-əl-hekayət» əsərinin başqa bir yerində bu barədə belə yazır: «İbn Səyyah deyir ki, Babək xürrəmi tutulan zaman mən bir neçə başqa adamla onu ötürməyə təyin olunmuşdum. Yolda ona dedik ki, səni xəlifənin yanına apardıqda o səndən:-Babək sənsənmi?-deyə soruşsa, cavabında belə de:-Bəli, ey əmir-əl-möminin! Sənin qulunam, günahkaram və ümid edirəm ki, əmir-əl-möminin məni əvf edib, təqsirimdən keçəcəkdir.

Digər tərəfdən Mötəsimə demişdilər ki, Əfşin Babəkin bağışlanmasını səndən xahiş edəcəkdir. Mötəsim Əfşini sınamaq məqsədilə ondan soruşdu:-Babək haqqında fikrin nədir? Məncə



onu sağ buraxmaq məsləhətdir: Çünki o zirək, möhkəm iradəli və müharibə işlərində misilsiz bir şəxsdir, ola bilsin ki, onun xidmətindən xeyir görə bilərik. Əfşin isə cavabında belə dedi:- Ey əmir-əl-möminin, minlərcə müsəlmanın qanını tökən bir kafiri diri qoymaq olarmı?

Mötəsim bu sözləri eşitdikdə Əfşin haqqında ona deyilən sözlərin doğru olmadığına artıq şübhəsi qalmadı.

Mötəsim Babəki öz yanına tələb etdi. Babəki əli-qolu bağlı onun hüzuruna gətirdikdə soruşdu:-Babək sənmisən? Babək yalnız: -Bəli, -deyib susdu.

Öyrətdiyimiz sözləri söyləsin deyə, ona qaş-gözlə, əlimizlə nə qədər işarət etdiksə, o, əlbəttə, heç bir söz demədi, qaş-qabağını saldı, hətta üzünün rəngi belə qaçmadı. Başı kəsildikdən sonra Mötəsim pərdənin qaldırılmasına əmr verdi. Camaat onu görcək, təkbir[1] deyərək içəri girdi və onun qanını üzlərinə sürtdülər».

Ravi deyir: «Onun qardaşını Bağdada aparıb Bağdad körpüsü üstündə cəza vermək mənə əmr olundu. Yola düşərkən soruşdum: Ey əmir-əl-möminin, İbrahim İshaq mənə bir şey verərsə, qəbul edimmi? Dedi:-Qəbul et! Onun göstərişi üzrə mənə əlli min dirhəm xərclik verdilər. Onu Bağdada aparıb əl-ayağını kəsdim. O, belə bir vəziyyətdə mənə dedi: «Filan dehqana məndən salam aparıb söylə ki, bu ağır dəqiqələrimizdə belə sizi unutmadıq». Ona nə qədər əzab verib incitdimsə də rəngi zərrə qədər dəyişmədi. Hətta belə bir halda danışıb gülürdü. Mən qayıtdıqdan sonra əhvalatı Mötəsimə nəql etdim. Onu öldürdüyünə peşiman olub dedi:-Siyasət üzündən qüdrətli bir şəxsi öldürdüm. Padşahlıqla mərhəmət və qohumluq tutmaz».

Yenə də Məhəmməd Üvfi həmin kitabın başqa bir yerində bizə deyir: «Nəql edirlər ki, Mötəsimin dövründə Babək xürrəmdinin pozğunçuluğu son dərəcəyə çatdıqda Mötəsim Əfşini irəli çəkərək, Babəki məhv etmək işini ona tapşırdı. Əfşin müntəzəm güclü qoşunla o tərəfə hərəkət etdi. Babək xürrəmdin yaşadığı yerdən çıxıb bir dağa sığındı. Əfşin onu ələ keçirmək üçün tədbirlər gördü, ona məktub yazıb könlünü almaq istədi, onu xəlifə-

[1] *Təkbir*—allah əkbər, uludur allah

nin qulluğuna dəvət etdi. Babək də cavab yazıb etdiyi səhvlər üçün üzr istədi.

Əfşin məktubdakı sözlərin zahirinə aldanıb işin aqibətindən xəbəri yox idi. O, Babəkin məktubunu Mötəsimə göndərib, işinin təsəvvür etdiyi kimi həll olunacağı ümidində idi. Mötəsim, əksinə, ondan inciyib belə əmr verdi: artıq qələmi yerə qoyub qılıncı siyirmək lazımdır. Bu məsələni qələm gücü ilə yox, bayraq gücü ilə həll etmək olar. Bu iş qələm gücünə düzəlsəydi, oraya bir neçə istedadlı, hünərli katib göndərərdim. Məsələnin həlli qılınca bağlı olduğundan yazışmadan əl çəkməlisən».

Lakin Nizam-əl-Mülk Babəkin öldürülməsi haqqında «Siyasətnamə» əsərində belə deyir: «Mötəsimin gözü Babəkə sataşdıqda dedi:-Ey it! Nə üçün dünyada bu qədər fitnə törətdin? O heç cavab vermədi. Mötəsim onun dörd əl-ayağının kəsilməsini əmr etdi. Onun bir əlini kəsdikdə o biri əlini qana batırıb üzünə sürtdü və üz-gözünü qanla qızartdı.

Mötəsim dedi:-Ey it! Bu nə işdir? Dedi:-Bunun ayrı mənası var. Siz mənim hər iki əl-ayağımı kəsəcəksiniz. İnsanların yanağı bədənlərindəki qana görə qırmızı olur. Qan bədəndən axıb getsə, üz saralar. Mən üzümü ona görə qana boyadım ki, bədənimdən qan axıb gedən zaman camaat deməsin, üzünün rəngi qorxudan qaçıbdır.

Mötəsim əmr etdi, buynuzları üstündə olan təzəcə kəsilmiş bir öküz dərisi gətirdilər. Məlun Babəki dərinin içərisinə elə saldılar ki, öküzün buynuzları Babəkin qulaqlarının dibində qaldı. Bu zaman dərini tikdilər. Dəri qurudu. Sonra onu diri-diri dara çəkdilər.

Babək ilk üsyanından tutulan günə qədər çox işlər görmüş, yazılarsa, bir cild kitab olar. Onun cəlladlarından biri tutulmuşdur.[1] Ondan soruşdular: - Sən neçə nəfər öldürmüşsən! Dedi:-Onun çox cəlladı var idi, lakin təkcə mən otuz altı min nəfər müsəlman öldürmüşəm. Başqa cəlladların öldürdükləri, habelə müharibədə ölənlərin sayı mənə məlum deyildir.

---

[1] Yuxarıda qeyd olunduğu kimi, bu cəlladın adını bəziləri «Nudnud», bəziləri isə «Nüzər» yazmışlar. Çox ehtimal var ki, «Nudnud» həmin «nüzər» sözünün təhrif olunmuş şəklidir.



Mötəsim üç böyük qələbə əldə etmişdir ki, onların hər üçü də islama qüvvət vermişdir. Bunların birincisi Rum fəthi, ikincisi, Babəkin məğlub edilməsi, üçüncüsü, atəşpərəst Mazyarın Təbəristanda məğlub edilməsidir. Bu üç qələbədən biri baş tutmamış olsaydı, islam əldən gedərdi...».

«Nigaristan» əsərinin müəllifi Qazi Əhməd Qəffari «Tarixi Abbasiyyə» müəllifinin dediyinə əsasən Babəkin cümə günü ramazan ayının 14-də dara çəkildiyini qeyd edir.

Əb-ül-Qasim Kaşani «Zübdət-ət-təvarix» adlı əsərində yuxarıda qeyd edildiyi kimi, 223-cü (837-838) ildə baş verən hadisələr haqqında yazır: «Bu ildə Babəki müharibədə əsir tutub Mötəsimin yanına göndərdilər. Mötəsim onun əl-ayağını kəsdirib, dara çəkdirdi. Onu qardaşı və bir neçə yoldaşı ilə birlikdə yandırdılar».

Bundan qabaq qeyd etdiyim kimi, İbn-Xəldun Babəkin qardaşı Abdullahın tutulması barədə yazır:

«Əfşin Beyləqan padşahı İsa ibn-Yusif İstefanusa cəvahirə tutulmuş bir belbağı göndərərək, qalaların birinə pənah aparmış Babəkin qardaşı Abdullahı ondan tələb etdi. Babəki Samirəyə, Mötəsimin yanına apararkən yolun hər iki tərəfində qoşun hissələri sıraya düzülmüşdü».

Füzuni Astrabadi «Kitabi-Büheyrə» adlı əsərində deyir: «Babək əsir düşdükdən sonra Mötəsim onunla o dərəcədə maraqlanırdı ki, Samirədən Hulvan yalına qədər yol uzunu adamlar təyin etmişdi. Bunlar Əfşinin məktublarını dörd gecə-gündüzdə Azərbaycandan Samirəyə çatdırdılar».

Həmdullah Müstovfi «Tarixi-qozidə» adlı əsərində yazır: «Babəki 223-cü (837-838) il səfər ayının 3-də dara çəkdilər. Onun meyiti bir müddət dar ağacından asılı qaldı».

Bir az əvvəl qeyd etdik ki, «Rövzət-əs-səfa» əsərinin müəllifi Mirxond deyir: «Əfşin ilə Babək Samirənin beş ağaclığında düşdülər. Mötəsimin əmrinə görə, hind padşahlarından birinin göndərdiyi kül rəngli fili cürbəcür əlvan ipəklər, göy və qırmızı örtüklərlə bəzədilər. Sonra onun göstərişi üzrə bir dəvəni də bəzəyib, cəvahir əklilli böyük qələnsuh (şiş) papaq hazırladılar. İki dəst də qiymətli paltar bunlara əlavə etdilər. Mötəsim bütün bun-

ları Əfşinin ordugahına göndərərək əmr etdi ki, Babəki filə, qardaşı Abdullahı isə dəvəyə mindirib, tacları onların başına qoyub, paltarları əyinlərinə geydirərək Samirəyə gətirsinlər. Babək fili görcək, təəccüblə soruşdu: Bu iri cüssəli heyvan nədir? Bu paltarları kim göndərib? Orada olan bir nəfər belə cavab verdi: «Bu böyük bir hökmdardan əvvəllər əzəmətli, sonra isə zəlil olub əsir düşmüş bir padşaha hədiyyədir. Ümid var ki, aqibətin xeyr ola».

Mötəsim həmin şeyləri Əfşinin ordugahına göndərdikdən sonra bütün əhalinin istər hərbi, istərsə qeyri-hərbi, qəşəng paltar geyinərək ata minmələrini əmr etdi. Bunlar Samirədən Əfşinin ordugahına qədər iki cərgəyə düzüldülər. Babəki filə, qardaşını isə dəvəyə mindirərək, cərgələrin arası ilə keçirtdilər. Babək belə bir izdihamı görəndə təəssüflənərək öz-özunə deyirdi: Heyf olsun, gör nə qədər adam müftəcə canını mənim qılıncımdan qurtarmışdır». Habelə yazır: «Babəki Mötəsimin yanına gətirdikdə soruşdu:-Babək sənmisən? Dedi: bəli, əmirin quluyam. Qanımdan keçsinlər,-deyə o, çoxlu pul, dövlət təklif etdi, qəbul olunmadı.

Mötəsimin əmrinə görə, onu soyundurdular, əl-ayağını bədənindən kəsdilər. Sonra yenə onun hökmü üzrə cəllad qılıncı Babəkin iki alt qabırğası arasından qarnına soxdu, onun başını bədənindən ayırıb meyitini əl-ayaqsız ağacdan asdılar. Başını qardaşı ilə Bağdada apardılar. Bağdad valisi İshaq ibn-İbrahim aldığı hökmə əsasən Abdullahı da Babək kimi öldürdü. Babəkin başını Bağdaddan İraq-əcəmə apararaq, bütün şəhər və qəsəbələrdə dolandırdılar».

Yuxarıda qeyd edildiyi kimi, Məsudi «Müruc-əz-zəhəb» adlı kitabında yazır: «Əfşin öz ordusu və Babəklə birlikdə Samirəyə gəlib çatdı. Mötəsimin oğlu Harun, xəlifə xanədanı üzvləri ilə birlikdə Əfşini qarşılamağa çıxdı. Dövlət adamları da onun görüşünə çıxdılar. Əfşin Samirənin beş ağaclığında Qatul adlanan məşhur bir yerdə mənzil etdi. Oraya bir fil göndərdilər. Bu fili hind padşahlarından biri Məmuna hədiyyə göndərmişdi. Bu iri cüssəli bir fil idi. Onu rəngbərəng ipəklər, qırmızı və göy rəngli örtüklərlə bəzəmişdilər. Bu fil ilə bərabər, iri cüssəli bir cins dişi dəvə də var idi. Onu da fil kimi bəzəmişdilər. Əfşin üçün döşünə



cürbəcür daş-qaş vurulmuş zərbaf qırmızı qumaşdan bir geyim göndərilmişdi. İkinci geyimin qiyməti bir qədər ondan alçaq idi. Habelə incilərlə işlənmiş xüsusi iri bir papaq da göndərilmişdi. Əfşin ən yaxşı geyimi Babəkə, digərini isə onun qardaşına geyindirdi, papağı Babəkin başına qoydu. Babəki filə, qardaşını isə dəvəyə mindirdi. Babək fili görcək, təəccüblənib dedi:- Əcəb iri heyvandır. Geyimdən isə xoşu gəlib dedi:-Bu, böyük bir padşah tərəfindən izzətdən məhrum, zəlil, fələkin əlində oyuncaq olmuş, yurdunu itirərək bədbəxtliyə uğramış bir əsirə kəramətdir.

Əli bayraqlı, silahlı atlı və piyadalar Qatuldan Samirəyədək cərgəyə düzülmüşdülər. Babək filin üstündə, onun dalınca qardaşı dəvənin üstündə gedirdilər. Onlar cərgələrin arasından keçirdilər. Babək sağına, soluna baxıb xalqı gözdən keçirir və təəssüf edərək öz-özünə deyirdi:-əfsus ki, bu qədər adam canını qurtarıb, mənim əlimdə ölməyiblər. O, belə bir xalq izdihamını heç yerinə qoyurdu. Bu hadisə 223-cü (837-838) ildə, cümə axşamı, səfər ayının 2-də baş vermişdir. Əhali o vaxta qədər nə belə bir gün, nə də belə bir təntənə görmüşdü.

Əfşin Mötəsimin hüzuruna çatdıqda Mötəsim ona qarşı çox hörmət göstərdi. Babəki isə Mötəsimin başına dolandırdılar. Mötəsim soruşdu:-Babək sənmisən? O, cavab vermədiyi üçün Mötəsim sualını bir də təkrar etdi. Babək susurdu.

Əfşin ona baxıb dedi: - Vay sənin halına! Əmir-əl-möminin səndən söz soruşur, sən isə susursan. Babək dedi:-Bəli, Babək mənəm. Mötəsim səcdə edib onun ayaqlarının kəsilməsinə əmr verdi».

Məsudi deyir: «Mən «Əxbari-Bağdad» kitabında bu sözləri oxumuşam: Babək Mötəsimin qarşısında durduqda Mötəsim bir müddət onu danışdırmadı. Nəhayət, Babək sənmisən?-deyə soruşdu, Babək dedi: Bəli, sizin qulunuz və nökərinizəm. Babəkin adı Həsən, qardaşının adı isə Abdullah idi. Mötəsim dedi:- Onu soyundurun. Xadimlər onun bəzəyini əynindən çıxartdılar. Onun sağ əlini kəsdilər. Babək o biri əlilə üzünə vurdu. Onun sol əlini kəsdilər. Sonra ayaqlarını da kəsdilər. Babək öz qanı içində çabalayırdı. O, bir az əvvəl çox sözlər demişdi, lakin kimsə onun dediklərinə qulaq asmamışdı. O, kəsik biləklərini üzünə vurdu.

Ona əzab vermək məqsədilə, Mötəsim cəllada əmr etdi ki, qılıncı onun iki aşağı qabırğasının arasından ürəyinə soxsun. Bu işi etdikdən sonra Mötəsimin əmri üzrə onun dilini kəsdilər, bədənini dara çəkdilər. Başını Bağdada aparıb, körpü üstündə bir ağaca taxdılar. Sonra həmin başı Xorasanın butün şəhər və qəsəbələrində dolandırdılar. Səbəbi isə bu idi ki, o, xalqın ürəyində kök salmış, böyük bir nüfuza malik idi. Xilafəti devirib xalqı pərişan edərək inqilab törətməsinə bir şey qalmamışdı.

Qardaşı Abdullahı onun başı ilə birlikdə Bağdada göndərdilər. Samirədə Babəkin başına gətirdiklərini İshaq ibn-İbrahim Bağdadda onun da başına gətirdi. Babəkin meyitini Samirənin uzaq bir guşəsində, hündür ağacdan asdılar. Hazırda Samirə xarab olub camaatının dağıldığına və az bir kütlənin məskəni olduğuna baxmayaraq, o yer indi də durur və xalq arasında «Kəniseyi-Babək» adı ilə məşhurdur.

Babəki öldürdükdən sonra xətiblər Mötəsimin məclisində ayağa qalxıb nitqlər söylədilər: Şairlər şeir oxudular. Bu günun münasibəti ilə şeir deyən şairlərdən biri də İbrahim ibn-Mehdi idi. O, xütbə əvəzinə şeir oxudu... Əfşinin başına cəvahirlə bəzənmiş qızıl tac qoydular. Bu qızıl tac qırmızı yaqut və göy zümrüd daşları ilə işlənilmişdi. Onun boynuna iri boyunbağı saldılar. Mötəsim İşnasın qızı Ətərcəni Əfşinin oğlu Həsənə verdi. Toy elədilər. Oğlanın cəlal, dəbdəbəsi həddən aşmış, gəlinin gözəlliyi isə dillərə düşmüşdü. O gecə toy mərasimində, böyükdən tutmuş kiçiyə qədər hamı gülüb şadlıq edirdi, hətta Mötəsim özü gəlinin və bəyin gözəlliyi və kamalı haqqında şeirlər qoşdu.

Babəki filə mindirib, qiymətli paltarlar geydirib, dəbdəbə ilə Mötəsimin yanına aparmaq işi Bağdad xəlifələri arasında bir adət şəklini almışdı. Babək kimi böyük müqəssirləri və ümumən xəlifələrə qarşı düşmənçilik edən şəxsləri əsir tutduqdan sonra şəhərə gətirərdilər. Paytaxtda saxlanılan fili bəzəyərək əsiri ona mindirərdilər və alaqapıdan keçirib şəhərə gətirərdilər. Şəhərin avam camaatı və küçə uşaqlarına təsnif və mahnılara bənzər şeirlər öyrədərdilər. Onlar da əl çalıb rəqs edə-edə mahnılar oxuyar və əsirin dalınca qaçardılar.



Babəki bu şəkildə Samirəyə gətirdikləri kimi, iki il ondan sonra Təbəristan padşahı Qarunun oğlu Mazyarı da əsir edərək, eləcə Samirəyə apardılar.

Babəki Samirəyə gətirən gün, şair Məhəmməd ibn-Əbd-ül-Məlik Ziyatın bu münasibətlə oxuduğu haman iki beyti Mazyara uyğunluğu olsun deyə azacıq dəyişdirərək, uşaqlara və küçə adamlarına öyrətdilər.

225-ci (839-840) ildə Qarunun oğlu Mazyarın meyitini Samirə şəhərinin xaricində «Kəniseyi-Babək» adlı məşhur olan təpədə asdıqları zaman 223-cü (337-838) ildən bəri dar ağacından asılmış Babəkin sümükləri hələ də dururdu. Mazyarı onun yanında dara çəkdilər. Hələ 225-ci (829-840) ildə ölmüş Əmuriyyə petriki rumlu Yatisin meyitini də oradaca, Babəkin yanında asmışdılar. Onun da cəsədi eyni vəziyyətdə dururdu. Dünyanın əcayib işinə bax ki, bu üç dar ağacı əyilərək bir-birinə yaxınlaşmış, az qala baş-başa vermişdilər».

Əfşin Xidr ibn-Kavusa gəldikdə, qeyd etmək lazımdır ki, çox kitablarda onun adı yanlış olaraq «Heydər» (حيدر) yazılmışdır. İbn-Betriq isə onun adını «Kendəra» (كندرا) yazmışdır. Ola bilər ki, əslində Kendəra «Keydra» (كيدرا) imiş və ərəblər onu «Xeydr» (خيدر) şəklində işlətmiş, sonralar isə təhrif edərək «Heydər» (حيدر) yazmışlar. Babəkin tutulub öldürülməsi ona düşmədi. Bu məşum hadisənin təsiri axırda onu da yaxaladı. Babəkə qarşı tutduğu işlər onun öz başına gəldi. O, gizlində Babək ilə əlbir idi. Onun qardaşı Xaş, Mazyarın qardaşı Kuhyara göndərdiyi bir məktubda belə yazmışdı: «Bu «Ağdinə» («Ağköynəklilər» və «Mübəyyizələr») məndən, səndən və Babəkdən başqa kimsəyə kömək etməyirdi. Lakin Babək nadanlığı üzündən özünü ölümə verdi. Onu ölüm pəncəsindən xilas etmək üçün çox çalışdım, ancaq mümkün olmadı, nadanlıq onu uçuruma sürükləyib apardı».

Bunlara baxmayaraq, Əfşin öz fikirlərini həyata keçirmək üçün onu ölümə verdi, hiylə ilə qalib gəldi. Lakin çox keçmədi ki, Əfşin özü də 226-cı (840-841) ilin şəban ayında Mötəsimin zindanında acından öldü.

Əb-ül-fəzl Beyhəqi «Tarixi-Beyhəqi» adı ilə tanınmış

«Tarixi-Məsudi» əsərində Əfşin haqqında belə bir hekayə nəql edir: «Əxbari-rüəsadə» oxudum ki, Əfşin deyilən İşnas Babək xürrəmdin ilə müharibəni başa çatdırıb zəfərlə Bağdada gəldi. Əmir-əl-möminin Mötəsim-allah ondan razı olsun-bütün dövlət adamlarına əmr verdi ki, İşnas saraya gəldiyi zaman hamı atdan düşərək xəlifənin hüzuruna yetişənədək onun qabağında piyada getməlidir». Dövrünün ən görkəmli adamlarından olan Həsən Səhl və başqa dövlət başçıları İşnasın qabağında atdan düşdülər. Həsən Səhl yeriyəndə onun ayaqları əsərək bir-birinə dolaşırdı. Qapıçısı onu bu halda gördükdə ağladı. Həsən heç bir söz demədi. Evə çatdıqda ondan soruşdu:-Nə üçün ağlayırdın? Dedi:-Səni o halda gördüyüm üçün. Dedi:-Oğlum! Padşahlar bizi böyük ediblər, biz onları böyük etməmişik. Buna görə də nə qədər ki, onların yanındayıq, tabe olmaqdan başqa çarəmiz yoxdur.

Görünür ki, burada Əb-ül-fəzl Beyhəqi Əfşinlə Mötəsimin türk qulamı olan İşnası səhv salmış və hər ikisini eyni adam sanmışdır. Halbuki İşnas satınalma qul, Əfşin isə İsrövşənə şahzadəsi idi.

Əbu Məhəmməd Abdullah ibn-Əsəd Yafei də «Mirat-əl-cünan və ibrət-əl-yəqzan» adlı əsərində xürrəmilər haqqında bəzi məlumatlar verir. O yazır:

«**192-ci (807-808) ildə baş verən hadisələr**. Bu il xürrəmilərin fəaliyyətə başladığı ildir. Onlar Azərbaycan dağlarında üsyan qaldırdılar. Xazim ibn-Xəzimə onlarla vuruşaraq öldü, bədnam oldu».

«**201-ci (816-817) ildə baş verən hadisələr**. Bu il, yəni 201-ci il Babək xürrəminin ilk dəfə meydana çıxdığı ildir. O, batinilər firqəsinə mənsub bir zəndiq idi. Babək qıyam edib, pis-pis işlər gördü. O, ruhların tənasüxünə inanırdı».

«**214-cü (829-830) ildə baş verən hadisələr**. Bu ildə Məhəmməd ibn-Həmid Tusi ilə Babək xürrəmi üz-üzə gəldilər. Babək onu məğlub edib öldürdü».

«**218-ci (833) il hadisələri**. Bu ildə Həmədan əhalisinin bir çoxu xürrəmi dinini qəbul etdi. Onlar qoşun düzəldib üsyan qaldırdılar. Mötəsim Bağdad əmiri İshaq ibn-İbrahimi (müharibəyə) göndərdi. İshaqın qoşunu Həmədanda xürrəmilər ilə üz-üzə gəldi, Onlardan altmış min nəfər qırıldı, qalanı isə Rum ölkəsinə qaçdı ».



**220-ci (835) ilin hadisələri**. Bu ildə Mötəsim Əfşini 20 ildən bəri qoşunları qırıb şəhərləri viran qoyan Babək xürrəminin müharibəsinə göndərdi. Əfşin Babəklə qarşı-qarşıya gəldi, onu məğlub etdi, xürrəmilərdən min nəfərə yaxın adam qırdı; Babək isə qaçdı. Bundan sonra yenə də onların arasında bir sıra vuruşmalar oldu. Onları söyləsək, uzun çəkər.

**222-ci (836-837) ilin hadisələri**. Bu ildə Əfşin və xürrəmilər üz-üzə gəldilər. Xürrəmilər məğlub oldular. Babək isə canını qurtardı. Lakin Əfşin onu tutmaq üçün daima hiylələr qururdu, nəhayət, onu əsir etdi. Bu şeytan, baş qaldırıb şəhərləri, xalqı çapıb məhv etdi. Onun dövranı iyirmi neçə ildən çox çəkdi. O, atəşpərəstliyi yenidən bərpa etmək istəyirdi, bir çox şəhərləri fəth etmişdi. Onun dövründə Təbəristanda atəşpərəstliyi müdafiə edən Mazyar da baş qaldırdı. Mötəsim Əfşinə qüvvə toplamaq üçün otuz min min dirhəm pul göndərdi. Bəzz şəhəri ağır mühasirədən sonra ramazan ayında alındı. Babək isə qaçıb bir meşədə gizləndi. Onun uşaqları və yaxın adamları əsir düşdü. Mötəsim onun üçün aman kağızı göndərdi, Babək onu söydü və kağızı cırıb tulladı. O, qüdrətli, tələbkar, inadlı bir adam idi. Tapdığı bir yol ilə həmin meşədən çıxıb dağlara getdi. O, petrik Səhlin evinə düşdü. O isə Babəki həbs edərək, bu barədə Əfşinə xəbər göndərdi. Əfşin gəldi. Səhl onu Əfşinə təslim etdi. Mötəsim Babəki diri tutub gətirənə iki min min dirhəm, başını gətirənə isə min min dirhəm verəcəyini vəd etmişdi. Onun Bağdada daxil olduğu gün məşhur günlərdən idi».

**223-cü (837-838) ilin hadisələri**. Bu ildə Babəki Mötəsimin yanına apardılar. Mötəsim onun başını kəsib, dardan asılmasını əmr etdi».

### XÜRRƏMİLƏRİN SONU

Qabaqlarda da qeyd olunduğu kimi, Babək məğlub edilib öldürüldükdən sonra xürrəmilər səhnədən çəkilməmişlər. Məlum olduğu üzrə hələ ondan bir neçə əsr sonra belə onlar İranın müxtəlif nahiyələrində qalmışlar.

Əbu Əli Miskəveyh «Təcarib-əl-ümәm» adlı əsərində 321-ci (933) ilin hadisələrindən bəhs edərkən deyir: «Əli ibn-Buveyh, yəni məşhur ali-Buveyh padşahı İmad-əd-Devlə Əbu Həsən Əli ibn-Əbu Şüca Buveyh (320-338) = (932-949/950) xürrəmilərin əlində olan Kərəc şəhərinin ətrafındakı qalaları 321-ci (933) ildə fəth etdi. Beləliklə, xürrəmilər 321-ci ilədək, yəni Babək məğlub edildikdən doxsan doqquz il sonra belə, Kərəcdə olmuşlar.

Həmin kitabın başqa bir yerində 260-cı ildə baş verən hadisələr haqqında göstərilir ki, həmin sülalənin ən məşhur padşahlarından olan Əmir İzüd-əd-dövlə Əbu Şuca Fəna Xosrov (338-372) = (949/950-982/983) Abid ibn-Əlini xürrəmilər və çaşəkilərlə müharibə etməyə göndərdi. Onlar Süleyman ibn-Məhəmməd ibn-İlyas ilə əlbir olub, quldurluq edir və dənizdə fitnə qaldırırdılar. Abid ibn-Əli onların bir çoxunu qırdı və bir neçəsini əsir edib Şiraza göndərdi. Əbu Əli ibn-Kəlab adlı bir sərkərdəni isə tutub boynunu vurdurdu. Bu zaman İzüd-əd-dövlə fars körfəzi sahilləri və adalarında istilaçılıqla məşğul idi. Buradan aydın olur ki, xürrəmilər, Babək məğlub edildikdən 138 il sonra, yəni 360-cı (970-971) ilə qədər fars (vilayətinin) cənubunda və fars körfəzinin sahillərində olmuşlar. Süleyman ibn-Məhəmməd ibn-İlyas Kirmandakı Bəni İlyas sülaləsinin üçüncü padşahı idi. O, 358-ci (968-969) ildə qardaşı Əl-Yəsə bin Məhəmmədin yerinə keçib padşah oldu və ali-Buveyh şahları ilə etdiyi müharibədə öldürüldü.

Yuxarıda qeyd edildiyi kimi, Nizam-əl-Mülk «Siyasətnamə» kitabında yazır ki, xürrəmilər Abbasi xəlifələrindən Vasiq-billah (227-232) = (841/842-846/847) zamanında da İsfahan torpağında baş qaldırmış və onların fitnəsi otuz neçə il, yəni 300-cü (912-913) ilə qədər davam etmişdir. Deməк, xürrəmilər, Babək məğlub edildikdən 78 il sonra da İsfahanda olmuşlar.

Yenə yuxarıda qeyd edildiyi kimi, Məhəmməd Üvfinin «Cəvami-əl-hekayət və ləvami-əl-rəvayət» adlı əsərində deyilir ki, Müstərşid-billah zamanında (512-529) = (1118/1119-1134/1135) xürrəmilər yenə də Azərbycanda olmuş və orada üsyanlar etmişlər.

Beləliklə, aydın olur ki, Babəkin ölümündən 278 il sonra belə, xürrəmilər Azərbaycanda Bağdad xəlifələrinə qarşı üsyan



edirmişlər.

Habelə yuxarıda göstərdiyimiz kimi, Səmani «Kitab-əl-ənsab» əsərində yazır: «Hazırda babəklərin bir dəstəsi Bəzzeyn dağlarında yaşamaqdadır. Bunlar Azərbaycan əmirlərinin əlaltılarıdır. Bunlar həmin xürrəmilərdəndirlər».

Səmani 560-cı (1112-1113) ildən 562-ci (1166-1167) ilə qədər yaşamışdır. Demək, onun zamanında, 6-cı əsrin ortalarında, yəni Babək dövründən təqribən 328 il sonra da xürrəmilər həmin Bəzzeyn torpağında Ərdəbilin və Araz çayının şimalında, indiki Muğan çölündə yaşamışlar.

Məlum olduğu üzrə, xürrəmilərin və ya onlara yaxın təriqətin qalıqları bu son zamanlara qədər fars vilayətinin bəzi cənub nahiyələrində də varmış.

Bu nahiyələrin bilicilərindən eşitdiyimə görə, Laristanın qərbindəki Ərd ya Ərdbəxş adlı yaşayış məntəqəsiləLarın 72 kilometr qərbində olan Kükürd dağının cənub ətəkləri arasında, Balengistan dağının şimalındakı Fədağ kəndi yaxınlığında Ların və Xunc və ya Xənc kəndinin 108 kilometr qərbində, Kükürd dağının şimalında və Ların 90 kilometr şimal-qərbində Məz adlı bir kənd vardır. Bu kənd hazırda Dehistana baxır. Xənc və Lar qəzasının mərkəzi hesab olunur. Kükürd dağının ətəyində, Lənkə bəndərinin 90 kilometr qərbində yerləşmiş və 298 nəfər əhalisi vardır.

Rəvayətə görə bu kəndin əhalisi qədim zamanlarda məzdəki idi. Lari ləqəbi ilə məşhur olan Hacı Seyid Əbdülhüseyin Dizfuli bu əsrin əvvəllərində o nahiyələrə gedib Larda yaşamış və 30 il bundan əvvəl vəfat etmişdir. Bu şəxs Larda yaşadığı müddətdə qüvvə, mal-dövlət toplayaraq, onları qorxu, təzyiq və fitnəkarlıq yolu ilə öz dinlərindən əl çəkib, şiə təriqətini qəbul etməyə məcbur etmişdir. Onlar o zamandan öz dinlərindən köçmüşlər.

Haman bilicilər nəql edirlər ki, fars vilayətinin cənub nahiyələrində, fars körfəzinin sahillərindən tutmuş Kirmana qədər «Zar» adlanan bir xalq yaşayır. Bəziləri elə güman edirlər ki, «zar» sözü ərəbcə «Zaer» sözünün təhrif olunmuş şəklidir. Bu xalq müxtəlif rayonlarda dağınıq halda yaşayır.

Bunların bəzi adət və ənənələri kitablarda xürrəmilər haq-

qında yazılan adətlərin eynidir.

Babək və onun sərgüzəşti haqqında ərəb şairləri bir çox şeirlər, dastanlar yazmışlar. Bəziləri də bu şeirləri öz əsərlərinə salmışlar. Məsələn, Rağib İsfahani ləqəbilə məşhur olan Əbulqasim Hüseyn ibn-Məhəmməd Müfəzzəl «Mühazirat-əl-üdəba və mühavirat əş-şüəra və-l-buləğa»[1] adlı öz məşhur kitabında bir qadının Babəkin dardan asılmasını təsvir edən şeirindən üç beyt gətirmişdir:

«Mahmud əl-Vərrəqın kənizi bu macəranı təsvir və Babəki belə tərif etmişdir:

هلى مركب خشن ظهره    طويل الوقوف بطى المسير
تظل الذئاب و عرج الضباب    بعقوته حسد اللطيور
واسفله ماتم للسباع    و فروته عرس للنسور

Əbu İshaq Həsri Qeyruvani «Zəhr-əl-adab və səmər-əl-əlbab»[2] adlı əsərində dövrünün görkəmli musiqişünası və şairlərindən olan mosullu ibn-Nədim ləqəbilə tanınmış, 155-ci (771-772) ildə anadan olub, 235-ci (849 - 850) ildə vəfat etmiş Əbu Məhəmməd İshaq ibn-İbrahim ibn-Meymun Təmimi, xürrəmilər müharibəsindən sonra İshaq ibn-İbrahim Müsəbə ithaf etdiyi şeirini salmışdır:

تقت لبانات و جد رحيل    ولم يشف من اهل الصفاء غليل
و مدت اكف للوداع فصافحت    و فاضت عيون للفراق تسيل
ولا بدللالاف من فيض عبرة    اذاماخليل بان عنه خليل
فكم من دم قدطل يوم تحمدت    اوانس لايودى لهن قتيل
غداة جعلت الصبر شيئانسيته    و اعولت لواجدى على عويل
ولمانس منها نظرة هاج لى بها    هوى منه باد ظاهر و دخيل
كمانظرت حورافى ظل سدرة    دعاها الى ظل اكناس مقيل
فلا و صل الاان تلافاه اينق    عتاق نماها شذقم و جديل
اذاقلبت اجفانها بتنوفة    طوى البعد منها هزة و ذميل
تفرد اسحق بنصح اميره    فليس له عندالا نام عديل
يفرج عنه الشك صدق عزيمة    ولب به يعلو الرجال لصيل

[1] 1287-ci il. Qahirə çapı, II cild, səh; 115; 1326 cı il. Qahirə çapı, II cild; səh 86.
[2] Yeni Qahirə çapı, III cild, səh. 13—14.



أغر نجيب الوالدين كانه    جسام جلت عنه القيون صقيل
بنى مصعب لامجد فيكم اذابدت    و جوهكم للناظرين دليل
كرمتم فمافيكم جبان لدى وغى    ولامنكم عند العطاء بخيل
غلبتم على حسن الثناء فراقكم    ثناء بافواه الرجال جميل
أذا استكثر الاعداء ماقلت فيكم    فان الذى يستكثرون قليل

İşlərə əncam verildi. Getmək vaxtı çatdı.
Məgər dostlar ilə görüşdən doymaq olarmı
İllər vidalaşmaq üçün uzanıb bir-birini sıxır.
Qarşıdakı ayrılıq gözlərdən yaş axıdır.
Dostlar bir-birindən ayrılan zaman
Sel kimi göz yaşları onlar üçün məcburidir.
Qadınların axıtdıqları qanlı yaşlar,
Tökülən qanı heç bir şeylə əvəz etmək mümkün
olmadığı üçündür.
Ertəsi gün mən öz səbrimi bir şey kimi unutdum.
Mən ağladım. Kaş yanımda bir həmdərdim olaydı,
Mən onun həyatına gətirən baxışını yaddan çıxartmaram.
Onun baxışı məni fəlakətli sevdaya saldı.
O sidr ağacı altında duran nur kimi mənə baxdı.
Elə bil ki, onu kimsə ahu yatağına çıxarmışdı.
Əgər o nəzərini (otsuz, susuz) səhraya çevirsə,
Mən o səhranı ötüb keçərəm.
Əmirin yeganə nasihi -İshaqdır.
İnsanlar içində ona tay tapılmaz.
Onun həqiqət güdən mühakimələri şübhələri dağıdar.
Qəlbi, onu məşhur ərlərin başları üzərində yüksəldir.
O əsilzadədir, nəcib nəsildəndir.
O, cilalanmış qılınca bənzər.
Bəni Müsəb! Sizin şöhrətinizi təsdiq etmək üçün
Üzünüzü görmək kifayətdir.
Siz alicənabsınız, aranızda qorxaq yoxdur,
Sizin aranızda səxavət vaxtı xəsis tapılmaz.
Siz yüksək şöhrət qazandınız, sizin şücaətiniz,
Əgər sizin düşmənləriniz mənim sözlərimi mübaliğə
hesab etsələr,

Həqiqətdə onların bu mübaliğəli güman etdiyi sözlər
yenə də azdır.
Nəcib adamların dillərinin əzbəridir.

Bundan başqa, Babək və Əfşin ilə bir əsrdə yaşamış iki böyük ərəb şairi də öz əsərlərində bu hadisələrdən dəfələrlə bəhs etmişlər. Bunlardan birincisi şair Əbu Təmmam Həbib ibn-Ovs Taidir. Mötəbər mənbələrin dediyinə görə, bu şair 190-cı (805-806) ildə anadan olub, 231-ci (845-846) ildə vəfat etmişdir. O, Əbu Səid Məhəmməd ibn-Yusif Səğərinin tərifində, yazdığı iki qəsidədə, habelə İshaq ibn-İbrahim Müsəbin haqqında qoşduğu başqa bir qəsidədə də onların Babək və xürrəmilərlə apardıqları müharibələrə işarə etmişdir. Bu şairin Əfşin Samirəyə çatan gün onun tərifinə yazdıqı bir məşhur qəsidəsi də vardır. Təbəri öz «Tarix» kitabında bu qəsidədən bir neçə beyti misal gətirmişdir. Əfşin Mötəsimin gözündən düşüb tutulduqdan sonra Əbu Təmmam onun haqqında da iki qəsidə demiş və bu qəsidələrdə Əfşini pisləyərək, onun yandırılmasından bəhs etmişdir: (Bax: Əbu Təmmam Tainin divanı, Beyrut çapı, səh. 68, 71, 151, 321, 325, 247 və Əbubəkr Məhəmməd ibn Yəhya Əl Sulinin «Əxbari-əbu Təmmam» adlı kitabına, Qahirə çapı, 1353- 1937-ci il, səh. 94, 163).

Ondan sonra məşhur şairlərdən 206-cı (821-822) ildə anadan olmuş və 284-cü (397) ildə vəfat etmiş Əbu Əbbada Əbülhəsən Vəlid ibn-Übeyd Tai Böhtərini göstərmək olar. Bu şair Babəklə bir çox müharibələr etmiş Əbu Nəhşəl Məhəmməd ibn-Həmid ibn-Əbdul Həmid Tusinin haqqında bir çox qəsidələr yazmış və bu şeirlərdə Babəkin dövründə baş verən hadisələrə və onun müharibələrinə işarə etmişdir.

(B a x: «Divani-əl-Böhtəri», Qüstəntəniyyə çapı, 1300-cü il, II cild, səh. 17-29, 114. Yenə «Divan-əl-Böhtəri». Beyrut çapı, 1911-ci il, səh. 424-444, 569, 570, 650, 755).

### BABƏKİN XANƏDANI

Anlaşıldığına görə, Babəkin haqqında məlumat toplayan ilk şəxs Vaqid ibn-Ömər Təmimi olmuşdur. Vaqid ibn-Ömərin topladığı bu məlumatı, təqribən 385-ci (995) ildə vəfat etmiş



İshaq ibn-Əbi Yəqub İbn-əl-Nədim Bağdadi 377-ci (987-988) ildə tərtib etdiyi yuxarıda adı çəkilən məşhur «Kitab-əl-Fehrist» əsərinə köçürmüşdür. Yuxarıda adları çəkilən IV əsr tarixçilərinin çoxu həmin məxəzdən istifadə etmişdir.

Vaqid ibn-Ömər Təmiminin dediyinə görə, Babək Nəbt (ya Səvad nəbtiləri) nəslindən mədainli Abdullah adlı yağsatan bir adamın oğludur. Onun anası isə Azərbaycanda Mimədin Bilalabad (ya Kəlanrud) kəndində yaşayan tayköz bir qadın idi. Babək atası öləndən sonra dünyaya gəlmişdir. Bir yerdə Babəkin adını «Həsən» yazmışlar. Mətər adlı bir dilənçi iddia edirmiş ki, guya, Babək onun oğludur, anasının adı isə Brumid, yaxud Brumənd imiş. Başqa bir rəvayətə görə, onun atasının adı Mərdəs idi. Digər bir rəvayətə görə, Mütəhhərin oğlanlarından idi. Mütəhhərə ibn-Fatimə deyirdilər. Fatimə isə İranın məşhur pəhləvanı xorasanlı Əbu Müslüm Əbdürrəhman ibn-Müslümün qızı idi. Mütəhhər 100-cü (718-719) ildə anadan olmuş və 157-ci ildə vəfat etmişdir. Deyirlər ki, ərəblər Bəzz şəhərini aldıqdan sonra Babəkin anası onunla qaçmış və onunla da birlikdə əsir düşmüş və onu da bir əsir kimi xəlifənin sarayına aparmışlar. Babəkin özünə gəldikdə o, 201-ci (816-817) ildən 223-cü (837-838) ilə qədər xəlifənin qoşunları ilə vuruşmuşdur. Babəkin 20 yaşında fəaliyyətə başlamış olduğunu fərz etsək, o halda demək olar ki, o, 42 il yaşamış və tutularaq edam olunan zaman anası hələ sağ ola bilərmiş. Bu hesabla o zaman Babəkin anasının 60 yaşı olmalı idi.

Babəkin arvadı, yaxud arvadları haqqında yazırlar ki, guya o rəhbəri Cavidan ibn-Şəhrək ya Səhrəx, yaxud Səhl öləndən sonra onun arvadını almışdır. Digər tərəfdən erməni tarixcilərinin dediyinə görə, o, Sisəkan valisi erməni Vasakın qızına evləimişdir. Başqa bir rəvayətə görə isə onun arvadının adı Doxtəri-Kəldaniyə (Xaldey qızı) imiş. Görünür ki, onun bir neçə arvadı var imiş. Yazıldığına görə, Samirəyə aparılan əsirlər içərisində bir neçə qadın varmış ki, Babəkin arvadları hesab olunurdular. Babəkin bir neçə uşağı da var imiş. Onun böyük oğlu müharibədə əsir düşmüşdür. Habelə qeyd edirlər ki, əsirlərin içərisində onun yeddi oğlu və üç qızı var idi. Başqa bir yerdə isə deyilir ki, əsirlərin

içərisində onun on yeddi oğlu və iyirmi üç qızı və qadını var idi. Ola bilər ki, bu 17 və 23 rəqəmləri həmin 7 və 2 rəqəmlərinin təhrifi olsun. Babəkin iki qardaşının adını çəkmişlər. Bunlardan birinin adı onun özü ilə bir yerdə tutularaq öldürülmüş Abdullah, digəri isə Müaviyə imiş. Bir yerdə də deyilir ki, onun qardaşının adı İshaq ibn-İbrahim imiş. Lakin bizcə, bu, doğru deyildir.

Bəzi kitablarda Babəkin ölümündən sonra onun ailəsinin keçirdiyi son günlər və Mötəsimin onlara qarşı etdiyi zülm və cinayətlər haqqında yanıqlı, ürəkyaxıcı hekayələr yazılmışdır.

## BABƏK XÜRRƏMDİN HAQQINDA ŞƏRQŞÜNASLARIN FİKİRLƏRİ

Şərqşünaslar müxtəlif əsərlərində Babək xürrəmdin haqqında ara-sıra, qırıq-qırıq məlumatlar dərc etmişlər. Onların istifadə etdiyi mənbələr də bu kitabın tərtibində istifadə etdiyimiz mənbələr olduğuna görə, burada dediklərimizə bir şey artıra bilməyib, bu xüsusda ətraflı mülahizələr də irəli sürməmişlər. Bu şərqşünasların içərisində məşhur alman şərqşünası Flugelin *(F1uge1) Zeitshcett Der Deutzschen morgen-1andischen Geellschaft* «Alman şərqşünaslıq cəmiyyəti» məcmuəsinin 23-cü nömrəsində (səh. 511) dərc etdirdiyi bir məqalə diqqətəşəyandır. O cümlədən məşhur Fransa şərqşünası *C1ement Huart* «İslam ensiklopediyası» *(Encyc1opedie de* L` *İslam*)-nın I cildinin 557-558-ci səhifələrində bu barədə belə yazır: «Deyirlər ki, xürrəmilər təriqətinin rəhbəri Babək («Babək» sözü farsca «Papək» sözünün ərəbləşmiş şəklidir) küçələri dolaşan yağsatan bir kişinin oğlu idi. Xürrəmilərin rəhbəri Cavidan ibn-Səhq onun fərasətli bir cavan olduqunu başa düşənə qədər işi olduqca pis idi. Cavidan öləndən sonra Babək onun ruhu mənim bədənimə köçmüşdür deyə, iddia etdi və xalqı (201-816/817) Arranın Bəzz şəhərində toplamağa başladı. 204-cü (819-820) ildə Yəhya ibn-Məaz onun üstünə qoşun çəkdisə də, bir iş görə bilmədi. Xəlifə Mötəsimin zamanında, Böyük Buğanın başçıları altında olan qoşun hissələri Marağanın ətrafında, Həştadsərdə məğlub edildikdən sonra Əfşin, bu üsyançı ilə müharibə etməyi öz öhdəsinə (221=836)



götürdü. Əfşin onun sərkərdələrindən biri olan Tərxana qəflətən hücum edib onu əsir tutdu. Pul və başqa vəsait aldıqdan sonra Əfşin, Azin adlı başqa bir sərkərdənin üstünə hücum etdi. O, ehtiyatla iş görürdü. Hündür yerlərə dağ gözətçiləri təyin etmişdi. Bu tədbirlərlə o öz döyüşçülərini təhlükədən qurtara bildi. Bu sərkərdə yavaş-yavaş irəliləyirdi. O öz qoşun düşərgəsini tikanlı




məftillər vasitəsilə qoruyurdu. Beləliklə, Bəsrə könüllü dəstələrinin faydasız hücumu və Fərğanə qoşunlarının yürüşündən sonra (222-ci il, cümə günü, ramazan ayında-18-26 aprel 837-ci il) Əl-Bəzzi alıb taladılar. Əfşin mühəndis (Kəlğariyə) döyüşçülərinin vasitəsilə şəhəri dağıtdıqdan sonra Babək qaçdı və erməni Səhl ibn-Sunbatın əlinə düşdü. Sunbat onu ova aparıb tutdurdu. Onu Əfşinə təslim etdikdən sonra, Samirəyə göndərdilər (223-cü il, çümə axşamı, səfər ayının ikinci günü-838-ci il, 3 yanvar). Mötəsim onun təhlükəsizliyi haqqında verdiyi zəmanətə əməl etməyib, onu fil üstündə gəzdirdikdən sonra amansız bir xoş səliqəliklə öldürtdü. Onun meyiti bir müddət ağacdan asılı qaldı. Onun adını məhəllələrin birinə qoydular. Onun hökmranlığı iyirmi il sürdü.

Onun dastanından bir qismi «Fehrist»də (səh. 343-344) ve-

rilmişdir. Burada onun Əl-Bəzzdə taxta çıxması mərasimindən, təzəcə kəsilmiş bir öküz dərisinin yerə sərilməsi, çörəyi şəraba batırmaq, toyda reyhan dəstəsi bağışlamaq və s. bəhs olunur. Mənbələr: Təbəri *(de Goeje* çapı), III cild, səh. 1015 və 1187; Məsudi. «Mürucəz-zəhəb», VII cild, səh. 62; İbn-əl-Əsir (Turenberk çapı) VI cild, səh. 315, 326, 337; İbn-Xəldun: III cild, səh. 258-262; İbn-əl-Nədim. «Fehrist», səh. 343-344; Flukel, «Alman şərqşünaslıq cəmiyyəti» məcmuəsi, № 23, səh. 511 və *C. Huart.*

Məşhur şərqşünas Vladimir Minorski Şərq və Afrika tədqiqat institutu məcmuəsinin *(Bulletin fhe shool* of *oriental and Afrikan Studies)* 15-ci nömrəsində (1953-cü il, səh. 504-529) «*Cafcassica* IV» başlığı altında Səhl ibn-Sunbat və Babək dövründə baş verən hadisələr haqqında bir məqalə çap etdirmişdir.

Bu məqalənin sərlövhəsini «Qafqazşünaslıq IV» deyə tərcümə etmək lazım gəlir.

## ƏLAVƏ

Bu kitabın çapı başa çatdırılan bir zamanda Təbriz universitetinin professoru, görkəmli alim, cənab Məhəmməd Cavad Məşkur 429-cu ildə vəfat etmiş Əbu Mənsur Əbdul-Qahir ibn-Tahir Bağdadinin «Əl-fərq beyn-əl-firəq» adlı əsərinin tərcüməsini «Tarix-e mə-zahebe-e İslam ya Əl-fərq beyn-əl-firəq kitabının tərcüməsi» adı ilə 1333-cü ildə Təbrizdə nəşr etdi. Bu tərcümənin 270-276 və 296-cı səhifələrində istər mətndə, istərsə qeydlərdə Babək və xürrəmilər haqqında bir sıra məlumat verilir. Mətndə olan bu məlumat bizim kitaba da salınmışdır.

Kitabın ərəbcə mətni ilk dəfə Qahirədə Məhəmməd Bədrin köməyilə, olduqca yanlış və səhv bir şəkildə, ikinci çapı isə yenə də Qahirədə Məhəmməd Zahid ibn-əl-Həsən Kovsərinin rəhbərliyi altında nisbətən az səhvlə (1367= 1948-ci ildə) nəşr edilmişdir. Əbd-ur-Rəzzaq ibn-Rezqullah ibn-Əbi Bəkr ibn-Xələf Rəsəni bu kitabı ixtisar edib «Müxtəsərün kitab-əl-fərq beyn-əl-firəq» adı altında Filip Həttanın köməyilə 1924-cü ildə Qahirədə nəşr etmişdi.



Birinci çapda (səh. 25) «Babək hərəkatının sonu» hissəsində belə deyilir:

«اخذ بابک واخوه اسحق بن ابراهيم»

(Babək və onun qardaşı İshaq ibn-İbrahim tutuldular). İkinci çapında (səh. 161) eyni sözlər yazılmışdır. Onun qısa şəkildə çap olunmuş nüsxəsində də (səh. 173) həmin sözləri oxuyuruq:

Buradan aydın olur ki, bu səhv naşirlərin deyil, kitabın müəllifi tərəfindən buraxılmışdır. Əbu Mənsur Bağdadi Babək haqqında olan bu məsələni müəyyən bir mənbədən götürdükdə cümləni:

«اخذ اسحق بن ابراهيم بابک واخوه»

yəni «İshaq ibn-İbrahim Babək və qardaşını tutdu» şəklində yazmaq əvəzinə, səhlənkarlıq edib cümləni belə bir süst şəkildə:

«اخذ بابک واخوه اسحق بن ابر اهيم»

(Babək və qardaşı İshaq ibn-İbrahim tutuldular) qurmuşdur.

Halbuki bütün başqa mənbələrdə Babəkin tutulan qardaşının adını Abdullah yazmışlar. Bundan başqa, qəti surətdə demək olar ki, Babəkin atasının adı İbrahim deyildi. «İshaq ibn-İbrahim» isə burada həmin Müsəbi ya tahirilər xanədanından olan məşhur şəxsdir ki, Bağdad qaravulunun rəisi və Mötəsimin sarayında çalışan ən görkəmli şəxslərdən idi. Mötəsim onu Babəkin müharibəsinə göndərmişdi. Lakin Babəklə qardaşını o yox, Əfşin əsir etmişdi. Biz bu xüsusda kitabın qabaqkı səhifələrində mötəbər mənbələr əsasında müfəssəl surətdə bəhs etmişik.

Beləliklə, Babəkin qardaşının adını «İshaq ibn-İbrahim» göstərmək büsbütün səhvdir.

Əbu Mənsur Bağdadi başqa bir yerdə (birinci çapın 168-ci, ikinci çapın 171 -ci səhifəsində) həmin səhvi təkrar edir və Babəkin tutulub dara çəkildiyini göstərdikdən sonra yazır:

«ثم اخذ اخوه اسحق و صلب ببغداد»

Kitabın qısaldılmış çapında da belədir. Filip Hətta o kitaba verdiyi qeyddə (səh. 173) aşağıdakı sözləri artırmışdır:

«اسحق بن ابراهيم اخو بابک و سمی اتناعه اسصاقيه»

Cənab Məşkur da buna inanıb, etdiyi tərcüməsinin qeyd hissəsində belə yazmışdır. Babəkin qardaşı İshaq ibn-İbrahimə və onun tərəfdarlarına «İshaqiyə» deyirlər (Hətta). Halbuki başqa məxəzlərin heç bir yerində Babəkin qardaşının «İshaqiyə» adlı xüsusi bir firqəsi olması göstərilmir. Filip Həttanın bu xüsusda artırdığı sözlər uydurmadır. Bu fikir bütün başqa mənbələrə tam mənasilə ziddir. Qeyd edilməsi lazım gələn ikinci bir məsələ belədir: Əbu Abbas Əhməd ibn-Yəhya ibn-Cabir Bəlazuri «Fütuh-əl-Büldan» adlı məşhur əsərində (Leyden çapı, səh 329-330) Bərzənd haqqında yazır: «Bərzənd bir kənd idi. Əmir əl-Mömінin Mötəsimin amili (işçisi) Əfşinin Heydər (?) ibn-Kavus Azərbaycanda və Ermənistanda və Cibalda kafir Babək xürrəmi ilə müharibə edərkən oranı özü üçün ordugah edərək qalaya çevirdi». Başqa bir yerdə (səh. 340) Mazyardan bəhs edərkən onun sonu haqqında belə deyir: «Babək xürrəmi Samirədə Məclisi-şürtə qabağındakı bir təpənin üstündə dara çəkilmişdir».

Babək haqqında rus dilində də Tomara adlı bir müəllif ayrıca bir kitab yazmışdır. Həmin kitab 1936-cı ildə Moskvada çap olunmuşdur.

Eşitdiyimə görə, cənab Əbulqasim Pərtov Əzəm də Babək haqqında bir pyes yazıb çap etdirmişdir.

*Tehran, 22 Mordad 1333-cü il.*



**Səid Nəfisi**

# BABƏK

**Fars dilindən tərcümə edəni**
Ə. Azəri

**Tərcümənin redaktorları**
*F. Babayev,*
*R.Əliyev*

Format 60x84/16. Həcmi 9 ç.v. Tiraj 500.
Kitab "Xatun Plyus" nəşriyyatının
mətbəəsində çap olunmuşdur.
Tel:(012) 498 56 38